***Bu kitabı Qarabağ savaşında müqəddəs Vətən torpağı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsinə ithaf edirəm.***

**Camal Zeynaloğlu**

# SNAYPER QIZ

**“UniPrint-S” nəşriyyatı**
**Bakı – 2017**

**Az2**
**--------**
**2017**

**Redaktoru: Xeyrulla Balaxanlı**

**Camal Zeynaloğlu: "Snayper qız"**
**Bakı, "UniPrint - S" nəşriyyatı - 2017, - 256 səh.**

***Bu kitab Qarabağ savaşında vətəni, torpağı, dövləti uğrunda döyüşən Azərbaycanın cəsur, mərd, qəhrəman oğullarına həsr edilmiş povest, hekayə və esselərdən ibarətdir. İnanırıq ki, kitabın gənc nəsldə vətənpərvərlik hissinin aşılanmasında böyük xidməti olacaq.***

**264700009**
**Z---------- qrifli nəşr**
**00-2017**

***İSBN: 978 - 99 - 52 - 440 - 02- 2***

**© C.Zeynaloğlu – 2017**

# VƏTƏN SEVDALI YAZIÇI

Camal, Anadolu türkləri demiş, adam kibi adamdır. Normal insan kimi hissi, duyğusu, emosiyası ilə... O hər şeyin mötədilliyini - orta həddini, yəni əndazəyə pərçimlənmişini sevir. Fəqət Vətən, millət, dövlətçili-yimiz... Onu demə. Onlara olan vurğunluq Camalda adi kəslərdən bir az çoxdur. Bəlkə bir az daha çoxdur. O, millət sevdalısıdır. Bu ad səslənəndə onun vücudu titrəyir. Ürəyi riqqətə gəlir. Elə bil onu məngənə ağzına salıb suyunu gözündən çıxarırlar…

Aprel döyüşünü Camal çoxdan gözləyirdi. Bu döyüş içindən sınmış millət üçün elə lazım idiki! Elə lazım idiki!..

Cəmi iki-üç günə millətin içində mürgüləmiş özünəinam hissi, “biz də qəhrəman millətlər sırasındayıq” duyğusu kəllə-çarxa vurdu. Cəbhədən gələn şad xəbərlər toplumda İsrafil Əleyhissəlamın sur düdüyü effektini yaratdı. Bir-iki gündə əsgərimizə - Ordumuza sevgi zirvəyə qalxdı. Bu ik-üç gün yox, iki-üç ay davam etsəydi...

Həmin günlər Camal qabağına kim keçirdi qucaqlayıb öpürdü. Yumruqlarını sıxıb: indi görüm, bu vartazarlar əsgərimizin gücünə necə duruş gətirəcək!?

Xocalı soyqırımı ilindən uzaqlaşdıqca Camalın içini qəribə, qorxu-qarışıq, təşviş dolu bir hiss bürüyür. Ona elə gəlir ki, soyqırıma qoyulan abidə, hər ilin fevralında onun kütləvi ziyarəti bəs eləmir. Ta o vaxta qədər ki, millətimizə bu soyqırımı yaşadanlar layiqli cəzalarını almayıb. Camal deyir ki, dədəmin qatilini Allah xatir bağışlayaram. Amma millətimə qəsd edənləri, əsla! Camal pəhləvan cüssəli olmayan ziyalı bir Tanrı bəndəsidir. Onun gücü diyircəkli qələminə çatır...

O bu mövzuda yazdığı esselərində, hekayə və povestlərində içinin dərdini püskürür. “Apokalipsis yaxud Qiyamətin premyerası”, “Aqil yanğısı”, “O gecə ölüm mələyi enmişdi yerə” və b. əsərlərində Xocalı soyqırımının gerçək detallarla, faktlarla elə verib ki, elə bil sənədli bir filmə baxırsan. Ürəyin gizildəyir, xocalılarla birgə budanırsan, gözlərin burqaçla çıxardılır, oda atılırsan. Gözünün qabağında ana-bacın, qızın murdarlanır. Diksinirsən. Üşənirsən. Gücsüzlüyünü, bir şeylər edə bilmədiyinin faciəsini yaşayırsan. İstər-istəməz belə qənaətə gəlirsən ki, haylar dünyanın bütün pislilk-lərini, barbarlığını, yam-yamlığını özündə cəmləşdirən vampirləridir. Günahsız qocaları, qadınları, məsum körpələri acımasız qətlə yetirməyin, hələ günəşi, ayı görməmiş, sərçələrin civiltisini, arıların vızıltısını, çayların şırıltısını eşitməmiş, ana bətnində kəndisini güvənlikdə hiss edən Tanrı varlığının süngüyə keçirilməsinə özgə nə ad vermək olar ki?!

Haylar fürsət yoxsullarıdır. Azlıqda qalanda ayaqqabı yalamağa, dümbül təmizləməyə, əhli-əyallarını sənin

döşəyinə yıxıb baş tutmağa qədər alçalır. Elə ki, çoxluqda qalırlar... Onlar yaşadıqları regionlarda baş verən ictimai-siyasi kataklizmlərdən insanlığa, kişiliyə yaraşmayan şəkildə xeyirləri üçün yararlanmağı "bacarırlar". Bir növ, çaqqalın funksiyasını yerinə yetirirlər.

Camal əmindir ki, dünyada Hay kimi bir millət yaratdığına görə Böyük Yaradan peşmandır. Çünki, onlara sığınacaq, duz-çörək, isti bir yuva verənləri həmişə arxadan xəncərləmişdirlər...

Cini-şeytanı cürdəkdən buraxmışıq, indi də altını çəkmək məcburiyyətindəyik. Haylarla qonşu olmaq bizim üçün Tanrının ən böyük cəzasıdır. Çox təəssüf ki, bunu bilə-bilə, qana-qana, öz sayıqlığımızı itirmişik. Yaddaşımızı paslandırmışıq. Adekvat hərəkət etməmişik. Elə bilmişik ki, mərhəmət göstərməklə donuzu darıdan çıxardacayıq. Haylar bizim aşırı tolerantlığımızdan həmişə sui-istifadə etmişlər.

Ölkəmizdə haylardan əvvəl min illərdir yəhidilər və digər xalqlar da yaşayır. Onlar heç vaxt xalqımızın bu qiymətli dəyərlərindən - tolerantlığımızdan, qonaqsevənliyimizdən, ürəyiyumşaqlığımızdan sui-istifadə etməmişlər. Əksinə, istedadları, əməksevərlikləri, dürüstlükləri, canları ilə Vətənimizin bütövlüyünə, iqtisadiyyatına, elm və mədəniyyətinə böyük töhfələr vermişlər.

Xalqımız haylarla zorən girdiyi müharibələrdə, çatışmalarda humanistliyini, son tikəsini bölüşdürən kinsiz-küdurətsiz olduğunu göstərdi. Biz heç vaxt körpüləri yandırmırıq. Su içdiyimiz quyuya hay kimi

tüpürmür, xörək yediyimiz qabı murdarlamırıq. “Elə dalaş ki, barışmağa yer qalsın” misalı Tanrının bu millətə verdiyi təfəkküründən yaranıb. Kim nə deyir desin, xalqımız belə bəşəri xasiyyətləri ilə böyükdür. Qəlbi genişdir. Mərhəməti hüdudsuzdur. Özünü sivil dünyanın bir parçası hesab edir. Haylar kimi xristian-müsəlman amilindən süni, ucuz şou düzəltmir. Ölsə də özünü kişi kimi aparır. Hay kimi haray-həşir qoparmır.

Camal Zeynaloğlu bütün yaradıclığında haqsız duruma düşməyimizi, arxalı çaqqalın – Hayın gödənimizi necə parçalamasını beynəlxalq aləmin bildiyi faktlarla, yalnız faktlarla, əşyayi-dəlillərlə, sənədlərlə, Tanrı lütfü ilə salamat qalanların göz-qulaq yaddaşlarıyla vermişdir.

Camal müəllim maddiyyat adamı deyil, ruh adamıdır, mənəviyyat insanıdır. Ona görə də qəhrəmanları özünə oxşayır. O, başqları kimi evinə-yuvasına, ailə-uşağının yanına əlində ağır bazarlıqla, cibləri dolu para ilə dönmür. Dönə bilmir. Çiyinlərinə Xocalı soyqırımını, ürəyinə içi-başı boş, əxlaqı kəm, rüşvətxor məmurların xalqımızın mənəviyyatını, minillər boyu qazandığı dəyərlərini bilərəkdən məhv etməsinin faciəsini yükləyib dönür...

Camal Zeynaloğlunun bu kitabında cəmləşdirdiyi əsərlər bu yükdən doğduğu üçün həyatidir, maraqlıdır. Gözəl, təmiz, canlı, aydın bir dillə danışır Camalın əsərləri sənnən. Kifayətdir ki, qabağına bir fincan pürrəngi çay qoyub oxumağa - Camalla ünsiyyətə başlayasan. Vaxtın necə tez gəlib keçdiyinin fərqində olmayacaqsan. O çaydan və Camalın qəhrəmanları ilə baş-başa qalmaqdan, söhbətdən doymayacaqsan.

Camal müharibə mövzusundakı əsərlərində ustadır. Onun bu kitabda toplanmış “Snayper qız”, “Qanlı məktub”, “Ölüm düşərgəsindən qaçış”, “Mətanət”, “Mühasirə”, “Qaniçənlər”, “O gecə ölüm mələyi enmişdi yerə”, “Zəfər dolu dörd gün”, “Nərəy dərəsində qanlı döyüş”, “Aqil yanğısı” və b. povest, hekayə və esseləri yığcam, lakonik şəkildə yazılmış, sanki bu keşməkeşli həyatımızda bir parça çörək dalınca qaçan oxucunun vaxtını və səbrini nəzərə almışdır. Uzunçuluq yoxdur. Konkretdir. Buna görə də o bu əsərlərə vətəndaş mövqeyi və milli qeyrətlə, ürək ağrısı ilə qəlbini qoymuş, portretini yaratdığı qəhrəmanların psixologiyasını, düşüncəsini özünəməxsus xırdalıqlarla, sözün rəngarəng boyaları ilə verə bilmişdir.

Camal Zeynaloğlu Vətənini, xalqını bütün varlığı ilə sevən bir vətəndaşdır. Oxucu onun əsərlərində günümüzün dərd-sərinə çevrilmiş problemləri öz məsələsinə, kəndisinin iç işinə çevirir. Buna görə də ən azından papağını dizinə qoyub düşünmək məcburiyyə-tində qalırsan. Orada - Camalın əsərlərində hər kəs özünün iyrənc portretini görüb utanır. Camalın əsərlərindəki dünya malına gözucu belə baxmayanlar, mənəviyyat atının belində özünü kişi kimi aparanlar üçünsə, sevinmək var. Utanmaq yoxdur.

Fikrim bu kitabda toplanmış əsərlərin elmi-nəzəri tənqidini, təhlilini vermək deyildir. Sadəcə oxucunu kitabın aurasına hazırlamaq, onun qanını hərəkətə gətirməkdir. Hə, bir də yadımdan çıxmamış onu demək istəyirəm ki, Camal müəllim müharibə mövzusunda daha

sanballı, orijinal əsərlər yarada bilər. Çünki onun yetərincə, bəs qədər istedadı və təcrübəsi vardır.

**Xeyrulla Balaxanlı**

# Qaniçənlər

(Sənədli povest)

Rayonumuzun ermənilər tərəfindən işğal edilməsi xəbərini Bakıda olarkən eşitdim. Həmin gün dərhal Cəbrayıla yola düşdüm. Rayona çatmamış yolda kəndçilərimizlə rastlaşdım. Onlar dedilər ki, ermənilər artıq rayonu tutublar. Mən onların dediklərinə inanmadım. Ailəmizdən dəqiq məlumat verən olmadığına görə kəndimizə çöl yolla – üzüm bağlarının arası ilə getməyi qərara aldım.

Axşam düşürdü, deyəsən, hara getdiyimi indi anlamağa başlayırdım. Nədənsə, birdən-birə bədənimə üşütmə gəldi, bir anlığa ayaq saxlamalı oldum. Bir az nəfəsimi dərdikdən sonra yoluma davam etdim. Bütün gecəni dayanmadan yol getdim. Səhərə yaxın kəndimizin fermasına çatdım. Hər yer sakitlikdi. Fermada bircə baş da olsa, mal-heyvan qalmamışdı.

Bir azdan kənd yolunda bir «Niva» maşını göründü. Əvvəlcə elə düşündüm ki, bizimkilərdi. Maşın yaxınlaşanda gördüm ki, hərbçilərdi. Onlara tərəf getdim. Maşın gəlib düz yanımda dayandı. «Niva»dan düşən əsgər tez avtomat silahını mənə tuşladı. Onlar mənə əllərimi yuxarı qaldırmağı əmr etdilər. İndi anladım ki, bunlar erməni yaraqlılarıdır. Əlində avtomat tutan

erməni dığası mənə yaxınlaşıb ciblərimi yoxlamağa başladı. O, heç nə tapmayıb maşına oturmağı əmr etdi. Maşına minmək üçün bircə addım atmışdım ki, arxadan başıma vurulan güclü zərbədən huşumu itirdim.

Maşında özümə gələndə gördüm ki, əllərim, ayaqlarım məftillə möhkəm bağlanıb. Ermənilər məni Hadruta gətirdilər. Orada iki kəndçimizi də gördüm. Bizi bir tövləyə salıb, qapısını da bağladılar. Tövlədə bizdən başqa daha on nəfər də əsir vardı. Bir az keçmişdi ki, qapı açıldı. İçəri hündürboylu, dolubədənli iki erməni saqqallısı girdi. Onlar əllərindəki «dubinka»nı oynada-oynada, gülərək: «İndi sizə yaxşıca nahar yeməyi verəcəyik,» - deyə hamımıza ayağa qalxmağı əmr etdilər. Və bizi huşumuzu itirənə kimi döydülər.

Özümə gələndə yoldaşlarımın hərəsinin bir küncdə zarıdığını eşitdim. Üzüqoyulu yıxılıb qalmışdım. Ayağa qalxmaq istədim, bacarmadım. Əllərimi yerə dayayıb birtəhər oturmağa çalışdım, yenə də bacarmadım. Necə olur – olsun arxası üstə uzan-malıydım. Namaz əhli olduğum üçün üzüqoylu uzanmağı biədəblik bilirdim. Bütün bədənimə elə bil ki, tikan sancılmışdı. Vücudum sızım-sızım sızlayırdı. Ağrılara dözə bilməyib ikinci dəfə huşumu itirdim. Amma şükür ki, üzüm Allahıma doğru çevrilə bilmişdim.

Yenidən özümə gələndə artıq səhər açılmışdı. Bizi tövlədən çıxarıb həyətdə sıraya düzdülər. Ayaq üstə zorla dayanırdıq. Aclıqdan taqətimiz çəkilmişdi. Erməni

dığaları bizdən heç nə soruşmadan yenə də döyməyə başladılar. Yoldaşlarımızdan biri dözməyərək qışqırdı:

-- Əclaflar, alçaqlar, bu qədər də qəddarlıq olar?! Sizin bu hərəkətləriniz heç bir insani qanunlara sığışmır. Çox da öyünməyin, tezliklə bu torpaqda it kimi gəbərəcəksiniz. Sizin bu sevinciniz çox da uzun sürməyəcək. Türk oğulları yenidən öz gücünü sizlərə göstərəcək. Buna əmin ola bilərsiniz!

-- Ara, bir bunun dılına bax, ha. İndi sanin bu uzun dılını dıbından qopardaram,- deyə erməni qaniçənləri bizi bir anlığa unudaraq, oğlanı dərhal qol-qıç edib qabağa çıxardılar.

-- İndı sana gostararıx, - deyə erməni zabiti (zabit demək heç bunlara yaraşmır) oğlana yaxınlaşdı və var gücü ilə onun çənəsindən bir yumruq zərbəsi vurdu. Oğlan top kimi qalxıb yerə yıxıldı. Sonra iki saqqallı oğlanı qaldırıb dizi üstə oturtdular. Erməni zabiti maşından kəlbətin gətirməyi əmr etdi. O, kəlbətini sol əlinə alıb, sağ əli ilə cibindən bıçaq çıxartdı. Daha sonra zabit oturmaq üçün özünə bir kətil gətirtdi. O, kətil üstündə oturaraq oğlanı onun qarşısına gətirtdi. Sol əlindəki kəlbətini yerə qoydu və oğlanın hər iki çənəsini möhkəmcə sıxdı. Oğlanın ağzı özündən asılı olmayaraq açıldı, zabit tez sağ əlindəki bıçağı yerə qoyub, kəlbətini götürdü. O, kəlbətini oğlanın ağzına salıb onun dilini bayıra çıxardı.

-- Ara, deyirəm axı, sanın dılın çox uzunmuş. Onu bir az qısaltmaq lazımdır, turk kuçuyu, - Zabit kəlbətin tutan əlini dəyişdi. O, oğlanın dili arasında qalan kəlbətin

tutmuş sağ əlini sol əli ilə əvəz etdi və sağ əli ilə yerdəki bıçağı götürüb oğlanın dilini yarıdan kəsdi. Öğlan özündən getdi. Sonra zabit ayağa qalxıb tapançasını qoburundan çıxardı.

-- İndi gorarık, bu torpaxda it kimi kim gabaracak, - deyə o huşunu itirmiş oğlanın başına iki güllə vurdu. – Biza dil uzadanların aqibatı bundan da pis olacax, - dedi.

Bizi yenidən tövləyə saldılar. Axşama kimi nə bir qurtum su, nə də yeməyə bir tikə çörək verdilər. Gözlərim qaranlıq çalır, başım fırlanırdı.

Allah-təala hərəni bir cür yaradıb. Hamının fiziki nöqsanları var. Mən uşaqlıqdan aclığa dözümsüzəm. Məktəbdən evə qayıdanda həyətimizdən tüstü çıxdığını görəndə sevinirdim ki, yemək bişirirlər. Lakin gəlib görəndə ki, ana-bacılarım paltar yuyurlar, onda qanım qaralırdı, hirsimi su qazanını təpikləməklə soyudurdum. Anam maşanı götürüb məni qovlayırdı, çatanda yambızımın vay halına, çatmayanda elə selbə atırdı ki, düz kürəyimə dəyirdi.

-- Səni görüm, qara vurğun vursun, get yükün altından yeməyini götür, zəhərlən. Axır yeyişin olsun. Gündə əlli dəfə truska-mayka dəyişirsən, yumayaq?! Çirkə-pasa bataq?!.. - Bu, hamının “Sədəf xala” deyə çağırdığı anamın əzbərlədiyi, hər gün işlətdiyi sözlər idi...

İndi anam məni bu vəziyyətdə görsəydi, o dəqiqə ürəyi partlayasıydı.

Hava qaralırdı. Bu zaman qapı açıldı, dünən bizə «nahar yeməyi» verən həmin iki erməni banditi içəri girdi.

-- İndi isə siza «şam yemağı» veracağık, - deyə bu dəfə onlar bizi yumruqla, təpiklə döyməyə başladılar...

Səhərisi gün özümüzə gələndə gördük ki, yaşca hamımızdan böyük olan Nizam kişi gecəykən keçinib. Səhər açılanda bizə bir çala qazdırıb Nizam kişini oraya tullatdırdılar. Biz hər dəqiqə ölümümüzü gözləyirdik. Gətirilən əsirlərin sayı isə günü-gündən artırdı. Sonradan məlum oldu ki, ermənilərə çoxlu işçi qüvvəsi lazımdır.

Susuzluqdan dodaqlarım qurumuşdu. Dözə bilmə-yib qapıda dayanan erməni əsgərindən su istədim. Bilirdim ki, bunun cavabında boynumun arxasına avtomat qundağı dəyəcək. Hər şeyə razı idim, təki içməyə bir qurtum su verəydilər.

Döyülməkdən qarnımın içini ağrılar bıçaq kimi doğrayırdı.

-- Su?! Ha, yaxşı, sana bu dakiqa lap «Padamlı» gətirərəm. Çox keçmədi ki, o, doğrudan da, əlində «Badamlı» şüşəsi ilə geri qayıtdı. Su dolu butulka şüşəsini mənə uzadaraq bərkdən güldü:

-- Al, iç, turk kuçuyu! – dedi.

Mən butulkanı alıb, nəfəs almadan başıma çəkdim. Ürəyim bulandı, öyümək məni tutdu və içdiyim suyu geri qaytardım. Demə, erməni dığası qabların yuyulduğu sudan doldurub gətirib.

-- Ha, necadır? Xoşuna gəlmədi «Padamlı»nız? Gorursanmı, sizinkilar saxtakarlıq edirlər, asl «Padamlı» avazına, putulkalara nasa başqa şeylar dolduruplar, -

deyə o, avtomatın qundağı ilə başıma bir zərbə endirdi. Başım partladı, üz-gözümü qan bürüdü.

-- Hamınızı bax, bu cür gabardacayık, it uşaqları. O, kefini də pozmadan, fit çala-çala özüyçün var-gəl etməyə başladı.

Yoldaşlarımdan kimsə əl dəsmalını çıxarıb yaranın üstünə basdı. Gözlərimə qaranlıq çökdü, düşündüm ki, daha ölürəm. Beləcə özümdən getmişəm.

İlahi, insanın canı necə də möhkəm olarmış. O əzablara, işgəncələrə, aclığa, susuzluğa dözməkmi olardı?! Demək, Tanrının nəzəri üstümdəymiş.

Gecə yarısı bir az özümə gəldim. Qaranlıqda uşaqları bir-bir tərpədib qulaqlarına pıçıldadım ki, gəlin ürəyimizdə bugünkü namazımızı qılağın. Mən qabaqda dayanacağam. Qalxa bilməyənlər oturulu, otura bilməyənlər isə elə uzanılı qılsınlar. Gündüz qaniçən erməni yaraqlıları məni döyəndə tövləyə görə qiblənin yerini müəyyənləşdirmişdim.

-- Məgər Allah ermənilərin bu vəhşiliyini görmür?! Bəs niyə onlara cəza vermir?!.. – uşaqlardan biri zarıya-zarıya, “mən daha namaz qılmıram”, deyə əlavə etdi.

-- Tövbə et, qardaş! Allah bizi imtahana çəkir. Gec-tez bunlar öz qanlarında boğulacaqlar, İnşallah! - mən pıçıltı ilə dilləndim.

Tövlənin divarları torpaq idi. Təyəmmüm edib kim necə bacarırdısa eləcə namaz qıldıq. Tanrıya ürəyimizdə dualar etdik. Yalvardıq ki, bu murdar məxluqlar tezliklə rədd olub getsinlər. Torpaqlarımız onların ayaqları altında bir daha murdarlanmasın.

Ertəsi gün hər dəfə bizi döyən həmin iki saqqallı gəlib məni qollarımdan tutub sürüyə-sürüyə bayıra çıxardılar. Fikirləşdim ki, daha mənimki bura qədərmiş. Demək, məni güllələməyə aparırlar. Elə yoldaşlarım da bu cür düşünmüşdülər.

Onlar məni sürüyə-sürüyə ağacların arasına, kimsəsiz bir yerə gətirdilər. Daha məndə öləcəyimə şübhə yeri qalmadı. Son dəfə doğmalarımı - atamı, anamı, bacılarımı və kiçik qardaşımı xatırladım.

Əsgərlər mənə ağzımı açmağı əmr etdilər. Əvvəlcə elə bildim ki, dilimi kəsəcəklər. Ona görə də dişlərimi bir-birinə möhkəm sıxdım. Onlardan biri öz xoşumla ağzımı açmadığıma hirslənərək, çənəmə güclü bir yumruq ilişdirdi. O biri erməni isə cəld sinəmə çökdü. Hər ikisi köməkləşib zorla ağzımı açdılar.

-- Artur, törd danadır...

Bundan sonra anladım ki, söhbət mənim qızıl dişlərimdən gedir. Onlar kəlbətinlə qızıl dişlərimin dördünü də dartıb çıxardılar. Əldə etdikləri qəniməti aralarında bölüşdürdükdən sonra, məni yenə də sürüyə-sürüyə gətirib tövləyə atdılar. Ağrıdan ağzımı açа bilmirdim. Bir az keçdikdən sonra əngim şişməyə başladı.

Həmin axşam ermənilər rəhmə gəlib hər birimizə bir tikə quru çörək verdilər. Ağzımı zorla aralayıb loxmanı oraya dürtdüm. Bir saatdan artıq ağzımda o üzə-bu üzə fırlatdıqdan sonra loxmanı bir təhər uddum.

Ertəsi gün bizi UAZ maşınının qabağına qatıb meşədə işləməyə apardılar. Hər tərəfdən bizi əli

avtomatlı erməni banditləri əhatə etdiklərindən, buradan qaçmaq çox müşkül işiydi. Meşədə səhərdən



axşamadək ac-susuz işləyirdik. Axşam düşəndə onlar bizi yenə də maşının qabağına qatıb qaldığımız heyvan tövləsinə gətirirdilər. Gücümüz tükəndiyindən, taqətimiz olmadığından ayaqlarımızı güclə sürüyürdük. Yerə yıxılmaqdan qorxurduq, çünki kim yerə yıxılır-dısa, maşınla onun üstündən keçib gedirdilər. Altı yoldaşımızı da elə bu yolla öldürdülər...

Axşam düşərgəyə qayıdandan sonra bizi yenidən cərgəyə düzüb, möhkəmcə döyürdülər.

Bir axşam yoldaşlarımdan biri dözə bilməyib; «bu zülm yerdə qalmaz», - onlar eşitməsin deyə dodaqaltı mızıldandı. Ancaq bizi döyən erməni nədənsə bunu eşitdt və cəld oğlanın yaxasından yapışıb cərgədən çıxardı.

-- İt kuçuyu, buna bir bax! Bizdan hala bir narazılıq da edir. İndi sana elə dərs verarıx ki, omurboyu bizlari unutmayasan. - Dığa ucadan bağırdı.

Onlar dəmir xaçı odda qızardıb oğlanın həm sinəsinə, həm də kürəyinə basdılar. İşgəncə mərasimi başa çatdıqdan sonra onlardan biri dişlərini ağar-daraq, “Ara, bu hala harasıdı e...” - dedi.

Ermənilər bu cür nümayişkaranə işgəncələr verməklə bizlərdə qorxu yaratmaq istəyirdilər.

Səhərisi bizi səhər tezdən yenə sıraya düzdülər. Hər gün bizi döyən erməni qarşımızda dayanaraq ucadan dedi:

-- Bu gundan siza «sahar va axşam idmanı»nı oz “zemlyak”ınız keçacax. Onsuz da siz bir-birinizin qanimisiniz.

Həmyerlimiz İlham Qurbanov başımıza elə bir oyun açdı ki, ermənilərin atasına rəhmət oxuduq. O nəinki bizi döyür, işgəncə verir, əxlaqsızlıq edir, ondan betəri yeddi arxa-dönənimizi, ana-bacılarımızı ən iyrənc sözlərlə söyürdü.

Əvvəlcə, elə başa düşdük ki, İlham bütün bünları ermənilərin etibarını qazanmaqdan ötrü edir. Sonra bizlərə köməyi dəyəcək. Ancaq sonradan gördük ki, bu satqın qəddarlıqda heç də ermənilərdən geri qalan deyil.

Meşədə işləyərkən, qaçmağı planlaşdıran bir neçə həmyerlimizi şəxsən İlham özü güllələtdirdi. Ermənilər bu satqını üstümüzdə nəzarətçi qoymuşdular. O, azca da olsa, istirahət etməyə, dincimizi almağa belə imkan vermirdi.

Bir axşam İlhama dedim:

-- İlham, bizə bu qədər zülm etmək yaxşı deyil. Bilmək olmaz, bəlkə bu cəhənnəmdən qurtulduq. Ondan sonra üzümüzə necə baxacaqsan? Satqınların aqibəti necə olur, onu yaxşı bilirsən.

O isə gülərək dedi:

-- Onsuz da buradan heç biriniz sağ çıxmayacaq, hamınızı öldürəcəklər. Yaxşısı budur ki, dilini dinc saxla, yoxsa səni də gəbərdərəm. Sənə nə əmr etsələr, ona da əməl etməlisən. Bunlar sizin

üzərinizdə hələ çoxlu təcrübələr aparacaqlar. Sağ qalanlar olarsa, onlar da ömürlük şikəst olacaqlar.

Ertəsi gün bizi maşınlara mindirib harasa aparırdılar. Yolboyu öz-özümə çox götür-qoy edirdim: «Bunlar bizi haraya aparır? Əgər yenə də işləməyə aparırlarsa, bəs nə üçün maşınla? Bəlkə, hamımızı güllələməyə aparırlar? Onsuz da onlar üçün artıq yararsız adamlara çevrilmşik. Kinolarda görmüşdüm ki, yararsız adamları faşistlər güllələyirlər.»

Bir saata yaxın yol getdikdən sonra bir kəndə gəlib çatdıq. Düzü, kəndin adını bilmədim. Onlar bizi maşından düşürüb, göstəriş verdilər:

- Arə, indi yurd-yuvanızı oz əllarınızla xarabalığa çeviracaxsınız!

Həmin gün ermənilər bizi axşama kimi evlərdəki əşyaları – mebelləri, yorğan-döşəkləri, bir sözlə, bütün yaşayış şeylərini boş «KAMAZ» maşınlarına yükləmə-yə məcbur etdilər. Düzü, bu, bizim hamımızın heysiy-yətinə toxundu, amma kimsə cürət edib bir söz demədi.

Bir neçə gündən sonra bizi yenə də həmin kəndə gətirdilər. Evlər tamamilə talan edilmişdi. Bu dəfə ermənilər bizə boşaldılmış evləri sökməyə məcbur etdilər. Bu, mənə olduqca ağır gəldi: «Öldür-sələr də, əlimi vurmayacağam», - deyə yerimdən tərpənmədim.

-- Nə dayanmısan, arə, şon dğa? Tarpan, gorax! – deyə boynumun arxasından avtomatın qundağı ilə vuran erməni dığası üstümə qışqırdı.

Birdən-birə özümdə cəsarət tapıb nifrət dolu gözlərimi ona zillədim.

-- Mən əlimi bu gün heç nəyə vurmayacağam!- deyə əsəbimdən əllərim əsdi, titrəmə tutdu. Bundan sonra başıma gətiriləcək müsibəti yaxşı anlayırdım.

-- Ara, neca?! Əlini vurmayacaqsan?! İndi sana göstararıx, - deyə bunu eşidən digər erməni saqqallıları məni dövrəyə aldılar.

Onlar məni futbol topu kimi vurub bir-birnə verirdilər. Nə qədər döyüldüyümdən xəbərim olmayıb.

Huşumu itirəndən sonra əsgərlərdən birisi avtomatını ayağa çəkib, məni vurmaq istəyib. Bunu görən yerlim, İlqar özünü üstümə atıb məni öldürməməyi xahiş edib. Ermənilərə deyib ki, özünə gələndən sonra özləri məni işləməyə məcbur edəcəklər. Bundan sonra onlar məni öldürmək fikrindən daşınıblar.

Mən özümə gələndə gördüm ki, tamamilə suyun içindəyəm. Bütün bədənim keyləşmişdi. İlqar öldüyümü zənn edərək, qucağına götürüb bir evin həyətinə gətirib. Əlimi əlinə alıb nəbzimi yoxlayanda görüb ki, ürəyim hələ döyünür. Cəld haradansa bir vedrə su taparaq üstümə töküb.

Gözlərimi açanda İlqarın başımın üstündə dayandığını gördüm. O, bulud kimi dolmuşdu. İlqar özümə gəldiyimi görəndə azca qımışdı, sonra aşağı əyilib qulağıma pıçıldadı:

-- Çalış ki, özündə qüvvə tapıb ayağa qalxasan, yoxsa, bu əclaflar...

-- Çox sağ ol, İlqar. Səni başa düşdüm, - deyə İlqarın köməkliyi ilə ayağa qalxdım. Sol qolumda bərk ağrı hiss etdim. Məlum oldu ki, ermənilər həmin qolumu dirsəkdən aşağı sındırıblar. Üz-gözüm qan içindəydi. İçimdə kəskin ağrılar vardı. Sanki üzərimdə «narkoz-suz» cərrahiyyə əməliyyatı aparmışdılar.

-- Na oldu? Sizin nazınızla çox oynayacağık?! Axşama kimi ıkınız bu evi söküb qurtarmalısınız. Əgər bunu edə bilmasanız, özünüzü ölmüş bilin, - deyə erməni əsgəri İlqarın üstünə qışqırdı.

-- Başqa əlacımız yoxdur. Hələlik bu əclafların çaldığı hava ilə oynamağa məcburuq. Əlimə azca fürsət düşən kimi, kimliyimizi bunlara göstərəcəyəm. Həmin anı səbirsizliklə gözləyirəm. Daha bundan artıq zülm olmaz ki, bunlar bizə verirlər. Xanimanlarımızı əllərimizlə xarabalığa çevirməklə bu alçaqlar sinəmizə çalın-çarpaz dağ çəkirlər, - deyə İlqar dərindən köks ötürdü.

-- Arə, siz orada çox çaranlayacaxsınız? Tez olun, başlayın gorax, kopak uşaxları! – saqqallı erməni yenidən üstümüzə qışqırdı, - yoxsa, gəlib hər ikinizi dalik-deşik edacağam.

Biz könülsüz halda işə girişdik. İsti-isti ağrı o qədər də hiss olunmurdu. Elə ki, bir az vaxt keçdi, qolumun sınığı soyudu, ağrıdan adımı belə unutmağa başladım. Ilqar pıçıltı ilə yalvardı ki, dişimi dişimə sıxıb dillənməyim. Qoy bu anaları mələmişlər görsün ki, türkü öldürmək olar, onu ağlatmaq, əymək olmaz. Onun bu nəsihəti bizə ədəbiyyatdan dərs deyən Şükür müəllimin pafoslu

nəsihətini xatırlatdı. Ağrının şiddətindən ilk dəfə nəsihətdən iyrəndim.

İlqar mənə yüngül şeyləri götürüb maşına apar-mağı məsləhət gördü. İşin ağır hissəsini isə öz boynuna götürdü.

Artıq mənim kiçik bir şeyi də yerdən qaldırmağa taqətim belə qalmamışdı. Bədənimin ağrıları şiddət-lənir, get-gedə gözlərimə qaranlıq çökürdü. Hiss edirdim ki, artıq ölürəm. Zorla İlqara yaxınlaşdım:

-- Daha bacarmıram, İlqar. Ölürəm! – yavaşca İlqarın qulağına pıçıldadım.

-- Ölmək hələ tezdir, Azər! Biz ölümün özünü qorxutmalıyıq, düşmənimizi heyrətə salmalıyıq, - deyə İlqar mənə ürək-dirək verdi.

Axşam bizi düşərgəyə gətirəndə artıq özümdə deyildim. Havanın həddindən artıq isti və bürkülü olmasına baxmayaraq, mən üşüyürdüm. İlqar halımın dəyişdiyini görüb, köhnə paltarlardan üstümə tökdü. Bir azdan məni titrətmə tutdu. Dişlərim bir-birinə dəyirdi. «Deyəsən, bu dəfə ölümün pəncəsindən qurtara bilməyəcəyəm», - deyə düşündüm. Bir tərəfdən də sındırılmış qolumun ağrısından dayana bilmirdim.

İlqar hardansa, yenə də bir paltar gətirib üstümə örtdü.

O, iki taxta tapıb gətirdi. Qolumu ağır-ağır qaldırıb onun üstünə qoydu və maykası ilə sarıdı.

-- Azər, indi bir azdan qızışacaqsan. Çalış ki, birtəhər yuxuya gedəsən, - deyə İlqar əlini başıma çəkdi...

... Bir də gördüm ki, kimsə məni səsləyir. İlqar idi.

-- Azər, vaxtdır, qalx ayağa! Bu gecə qaçıb, bu ölüm düşərgəsindən xilas olmalıyıq, - deyə İlqar məni tələsdirdi.

-- Axı, necə? – təəccüblə soruşdum.

-- Asta danış! O mənim işimdir, - deyə İlqar onun arxasınca gəlməyi bildirdi.

Mən sakitcə İlqarın arxasınca getdim. İlqar künc-dəki küləş topasını qucaqlayıb kənara qoydu. Gördüm ki, küləş topasının altından bayıra çıxmaq üçün çox da böyük olmayan lağım atılıb.

-- İlqar, sən bunu necə?...

-- Sus! Sonra deyərəm. İndisə, keç görək, - deyə o, əvvəlcə məni qabağa buraxdı.

Biz «barak»ın arxa tərəfindən çıxmışdıq. İlqar əli ilə yaxınlıqdakı ağaca tərəf sürünməyi işarə etdi. Nədənsə, heç kəs gözə dəymirdi. Deyəsən, gözətçilər də haradasa yatmışdılar. Sübh çağına az qalırdı. Yay yuxusunun ən şirin vaxtıydı. Elə buna görə də, ermənilərdən heç birisi gözə dəymirdi. İndi başa düşdüm ki, İlqar qaçış üçün ən münasib vaxt seçib.

Bir ağaca çatıb dayandıq. Ətrafa nəzər saldıq. Hələ ki, sakitlik idi. Bu zaman bir nəfərin də bizə tərəf süründüyünü gördük.

-- Deyəsən, bizim lağımdan qaçdığımızı yoldaşlarımızdan görən olub, - deyə İlqar mənə baxdı. --Nə deyirsən, Azər, işləri korlamaz ki?

--Məncə, korlamaz. Əksinə, bəlkə də, bizə köməyi dəyər. Bir də mənə qalsa, istərdim ki, bu cəhənnəmdən bütün yoldaşlarımız xilas olsun.

Bu vaxt bizə tərəf sürünən yoldaşımız da gəlib çatdı.

-- Mən də sizinlə getmək istəyirəm. İlqarın qaçış planından xəbərim vardı. Hər gecə hamı yatandan sonra, divarın dibini bıçaqla necə qazıdığını görürdüm, - deyə Rövşən təngnəfəs halda İlqara baxıb gülümsədi.

-- Yaxşı, Rövşən, bu işdə hər ikiniz ancaq mənim dediyimlə hərəkət edəcəksiniz, - deyə İlqar ciddi görkəm aldı.

-- Aydındır, yoldaş komandir! Əmrinizə hazırıq! – Rövşən də əmrə müntəzir əsgər tək İlqarın garşısında farağat dayandı.

Rövşən canlara dəyən oğlan idi. Pəhləvan cüssəli bu oğlan heç zarafatından qalmazdı. Rövşən İlqara dedi ki, əgər o, icazə versə, bizi ermənilərin ağıllarına gəlməyən yerdən apara bilər.

İlqar isə:

-- Mənim buradan elə-belə, sakitcə çıxıb getmək fikrim yoxdur. O, satqını nəyin bahasına olursa-olsun öldürəcəyəm. Bundan sonra ermənilərə burada bir cəhənnəm yaradacağam. Bu intiqam qiyamətə qalmamalıdır! Səhərin açılmasına az qalır. İndi hərəkət etmək vaxtıdır, gecikmək olmaz, - deyə onun arxasınca gəlməyimizi əmr etdi.

Biz gizlənə-gizlənə yaxınlıqdakı ağaclığa gəlib çatdıq. İlqar dedi:

-- O gördüyünüz binanın zirzəmisi sursat anbarıdır. Onların ən müasir gizli silahları həmin anbarda saxlanılır. Onun arxasındakı uzun mal fermasına oxşar binada isə top mərmiləri var. Ondan bir az aralıdakı bina isə kazarmadır. Fikrim belədir: Sursat anbarını, kazarmanı, mərmi saxlanılan yeri partlatmaq, sonra isə bir UAZ ələ keçirib aradan çıxmaq. Bütün bunlardan öncə, mən o, satqınla da haqq-hesab çəkməliyəm.

-- İlqar, bəlkə... – o, sözümü tamamlamağa imkan vermədi.

-- Bəlkəsiz! Mən sözümü dedim. Dediklərimi etməyincə, buradan gedən deyiləm. Öləsi də olsam, onlardan intiqam almalıyam, - deyə İlqar qəti fikrini bildirdi.

Hər ikimiz İlqarın planı ilə razılaşmalı olduq. Əlbəttə, bu bizdən böyük risk tələb edirdi.

Sursat anbarının qarşısında iki PDM və bir UAZ maşını dayanmışdı.

-- İlqar, icazə ver, mən bir arxa tərəfə də nəzər salım, tezcə qayıdıram, - Rövşən İlqardan icazə istədi.

-- Yaxşı, amma cəld ol! – İlqar Rövşəni tələsdirdi.

İlqarla Rövşən ermənicə yaxşı bilirdilər. Bir az keçmişdi ki, Rövşən sevincək halda geri qayıtdı:

-- İlqar, bizdən təxminən 60-70 metr aralıda, ağacların arxasında bir UAZ maşını, yanında da iki erməni axşamdan sərxoş olub yatıblar, - Rövşən tələsik bildirdi.

-- Haradan bildin ki, onlar sərxoşdurlar? – İlqar soruşdu.

-- Yeməklərin yarısı elə qabaqlarındaca qalıb, yanlarında da iki-üç boş araq şüşələri var, - deyə Rövşən izahat verdi.

-- Əgər sən dediyin düzdürsə, onda bu fürsəti əldən vermək olmaz. Getdik! – İlqar göstəriş verdi.

Biz Rövşənin dediyi yerə gəldik. Doğrudan da, maşının yanında iki erməni yatmışdı, avtomat silahları da yanlarında düşüb qalmışdı.

-- Demək belə, biz səssizcə onları aradan götürüb, paltarlarını geyməliyik. Azər, bu işi mən Rövşənlə yerinə yetirəcəyəm. Sənsə burada dayanıb bizə və ətrafa nəzarət edərsən. Gələn olsa, yavaşcadan quş səsi çıxararsan.

Mən İlqarın dediyi kimi ağacların arxasında gizlənib ətrafı müşahidə etməyə başladım.

İlqarla Rövşən ermənilərin elə yatdıqları yerdə işlərini bitirdilər. Onlar silahları çiyinlərinə keçirib meyitləri sürüyə-sürüyə mənim yanıma gətirdilər. İlqar dedi:

-- İndi növbəti planım o satqını aradan götürməkdir. Harada yatdığını da yaxşı bilirəm. Rövşən, mən İlhamı cəhənnəmə göndərən vaxt, sən də sursat anbarının keşikçisini aradan götürməlisən. Azər isə burada qalıb maşına nəzarət etməlidir, çünki işlərimizi görüb qurtarandan sonra, bu maşınla aradan çıxacağıq.

İlqar danışa–danışa meyitləri soyundurub, Rövşənlə onların paltarlarını geyindilər. İndi onları tanımaq olmurdu.

-- Rövşən, biz mexanizmlə işləyən partladıcılar əldə etməliyik. Mən onların yerini bilirəm. Azər, sən buradan heç yerə tərpənmirsən, - deyə İlqar sonuncu göstərişlərini verdi.

-- İlqar, sən əsl kəşfiyyatçısanmış, - Rövşən zarafatla bildirdi.

--Özündən muğayat ol, amandı! – deyə kövrəldim. Hər ikisini qucaqlayıb öpdüm.

--Yaxşı, biz getdik! – İlqar Rövşənə tərəf döndü.

--Allah amanında!

Mən onları bir saata yaxın gözləməli oldum. Artıq hava işıqlaşırdı. Sübh namazının vaxtı idi. Bir istədim ki, azan çəkəm. Sonra əməliyyatı korlayacağımdan ehtiyat edib ürəyimdə “Allahu Əkbər…” deyib azan oxudum.

Sübh namazının niyyətini edib onu imitasiya etdim. Allahımı sübh çağının hikmətinə and verdim ki, bizi bu bəladan qurtarsın. Duanı bitirəndən sonra narahat olmağa başladım.

Bir az keçmişdi ki, gördüm gizləndiyim ağaclığa tərəf bir UAZ maşını gəlir. Düşündüm ki, indi onlar gəlib buradakı maşının sürücüsünü görməyəndə şübhələnəcəklər, dərhal da səs-küy qopacaq. UAZ gəlib düz gizləndiyim yerdə dayandı.

-- Azər, tez ol, gəl! – İlqarın səsi eşidildi.

Mən cəld yüyürüb maşına mindim.

-- Nə oldu? – soruşdum

-- Hər şey öz qaydasındadır. Bir azdan özün görəcəksən. O satqını da göndərdim cəhənnəmə, - deyə İlqar dərindən rahatca köks ötürdü.

Maşın yerindən sürət götürəndə dönüb arxaya nəzər saldım. Rövşən arxada oturmuşdu. Onun qucağında bir neçə avtomat silah, ayağının altında böyük bir yeşik, küncdə isə bir qumbaraatan da vardı.

-- Deyəsən, xeyli qənimət də götürmüsünüz, - deyə İlqara göz vurdum.

-- Bəs necə? Atalar deyib ki, silah igidin yaraşığıdır. Qarşıda bizi nələr gözlədiyini bilirsən. O zaman bunlar bizə lazım olacaq. İlqar, Azərin də silahını ver özünə. Azər, bir az bundan əvvəl əsir idin, indi isə döyüşçüsən, - İlqar göz vurdu.

Rövşən avtomat silahlardan birini mənə verdi.

-- Bacararsanmı?

-- Əlbəttə ki, - deyə cavab verdim.

İlqar maşını çox sürətlə sürürdü. Çünki bacardıqca düşməndən tez uzaqlaşmalıydıq. Birdən, elə bil ki, yer-göy titrədi. Mən cəld dönüb geriyə baxdım. Düşərgə od–alov içində yanırdı. Partlayışların isə ardı-arası kəsil-mirdi.

-- Azər, gördünmü? Mən sənə demişdim ki, qaniçənlər üçün burada cəhənnəmin bir "filialını" açacağam. Mən sözümün ağasıyam. İndi ordakı ermənilər yaxşıca dərs alacaqlar, - deyə İlqar özündən razı halda dilləndi.

-- İlqar, bundan sonra bizimkiləri güllələyəcəklər, - deyə narahatlığımı bildirdim.

-- Əgər orada bir nəfər hay dığası qalsa, sən deyəndir. Əksinə, biz əsirlərə qaçmaq üçün gözəl bir şans yaratdıq.

-- İlqar, deyəsən arxamızca «qonaqlarımız» gəlir, - Rövşən xəbərdarlıq etdi. – Nə olar, qoy gəlsinlər. Bizim də borcumuz «qonaqları» layiqincə qarşılamaqdır, - deyə İlqar bu dəfə ciddi görkəm aldı. – Rövşən, onları lap yaxına burax. Mən deyəndə, atarsan. Bacararsanmı?

-- Bəs necə! Sən bu barədə heç narahat olma. Onları necə laımdırsa, eləcə də qarşılarıq, - deyə Rövşən əlindəki avtomat silahları yanına qoyub, maşının küncündən qumbaraatan silahı götürüb, onu hazır vəziyyətə gətirdi.

İlqar qəsdən maşının sürətini azaltdı. Arxadan gələn UAZ bizə daha da yaxınlaşdı. İlqar tez-tez güzgüyə baxırdı.

-- İndi söz sənindir, Rövşən. Göstər hünərini görək! – İlqar gülərək Rövşənə göz vurdu. Rövşən bunu

gözləyirmiş kimi cəld maşının arxa şüşəsini sındırdı və arxadan gələn maşını nişan aldı. Bu zaman bir topa alov göyə qalxdı.

-- Əhsən sənə, Rövşən! Getdik! – İlqar ucadan qışqıraraq sürəti yenidən artırdı.

-- Azər, indi sən Rövşənlə yerini dəyiş. Qabaqda dığaların postu var. Çox güman ki, arxadakılar bizim barəmizdə qabaq posta xəbər veriblər.

Mən Rövşənlə yerimi dəyişdim. Artıq səhər açılırdı. Biz azdan qarşıda erməni postu göründü. Hər üçümüz silahları hazır vəziyyətə gətirdik. Posta yaxınlaşdıqca istər-istəməz həyəcanlanırdım. Ermənilər maşını görən kimi qabağa çıxdılar. Üç nəfər idilər. İlqar maşının sürətini azaltdı.

-- Rövşən, onlara əlli metr qalmış avtomatı işə salarsan. Azər, bu, sənə də aiddir. Məncə, onlardan vaqonun içində də olmalıdır, - deyə İlqar bu dəfə mənə də komandir kimi tapşırıq verdi.

Ermənilər gözlənilməz atəşdən özlərini itirdilər. Rövşənin sərrast atəşindən iki erməni saqqallısı yerə sərildi, üçüncüsü isə qıçını çəkə-çəkə özünü yolun kənarındakı xəndəyə atdı. Bu zaman vaqondan daha iki erməni əsgəri çıxaraq, bizi atəşə tutdu. İlqar əl qumbarasını onlara tərəf atdı. Mən də avtomatın darağını axıra kimi boşaltdım. Ermənilərin qışqırtısı güclü partlayış səsində eşidilməz oldu. İlqar maşının sürətini artırdı. Postdan 100 metr aralanmışdıq ki, arxadan bizə yenidən atəş açıldı. Bu zaman Rövşənin başı yana əyildi.

-- Sür! Saxlama, İlqar, - Rövşən güclə eşidiləcək səslə dedi.

-- Sənə nə oldu, Rövşən? – qışqıraraq arxadan onu qucaqladım.

İlqar maşını saxlayanda gördük ki, Rövşən artıq keçinib. İlqar da sağ qolundan yaralanmışdı.

-- Heyif səndən, Rövşən! – İlqar içindən hönkürüb maşını yenidən işə saldı. Mənsə Rövşəni bərk–bərk qucaqlayıb ağlayırdım...

Təhlükə sovuşandan sonra Arazımızın sahilinə çatdıq. Arazı görəndə elə bil mənə güc-qüvvət gəldi. Sanki köməyimizə böyük bir qoşun gəlmişdi. İlqara dedim ki, gəlin sağ-salamat qurtardığımıza görə Böyük Yaradana təşəkkür etmək üçün iki rükətli namaz qılağın. Dəstəmaz aldım. Elə bil ki heç qolum sınmamışdı. Hər ikisini dirsəkdən aşağı yudum. Qabaqda dayanıb əzan çəkmək üçün Təkbir dedim. Nə qədər elədim qolum qalxmadı. Az qalırdı nəfəsim kəsilsin. Allahdan əllərimin yuxarı qalxmasını diləyirdim. Sidq ürəkdən, özü də bərkdən “Allahu Əkbər” qışqırmaq istəyirdim. Təkbir əvəzinə sinəmdən xışıltı gəldi. Bərk qorxdum...

... Birdən böyrümə dəyən təpik zərbəsindən oyandım. İlham başımın üstündə durub acı-acı hırıldayırdı. İndi başa düşdüm ki, gördüklərim yuxuymuş.

-- Nə sayıqlayırsan, küçük? – deyə o, ikinci təpiyi sınmış qoluma vurdu. Ağrıdan huşumu itirdim. Yenidən özümə gələndə İlhamın bu dəfə üzümə, başıma sillə, yumruqla vurduğunu gördüm. Gözümü açdığımı görən kimi o, daha da coşdu:

-- Ə, küçük, özünü tülkülüyə niyə qoyursan? Belə eləyirsən ki, bəlkə sənə yazıqları gəldi? Yox, sənin bu nömrələrin keçməyəcək, - İlham qəzəblə yaxamdan tutub özünə tərəf çəkdi.

--İlham, insafın olsun! Azərin vəziyyəti həqiqətən də ağırdır. Bayaqdan bəri o, qızdırmadan sayıqlayırdı. Sol qolunu da sındırıblar, - deyə İlqar məni müdafiə etməyə çalışdı.

-- Sən burnunu hər yerə soxma! Nə vaxt sənə söz versələr, onda danışarsan. Bir də, hamınızı xəbərdar etmişəm, deyilənləri icra etməyənləri ağır işgəncələr gözləyir. Hələ bu nədir ki? Bu gününüzə də şükür edəcəksiniz, - deyə İlham bərkdən güldü.

Mənim danışmağa taqətim qalmamışdı.

-- Daha bundan artıq da zülm olarmı?! – İlqar əsəbi halda dilləndi,- sən bizə ermənilərdən də betər zülm edirsən. Adamda heç olmasa qeyrət olar.

-- Ə, sənə demədimmi, kəs səsini! - İlham cəld dönərək, İlqarın sifətinə bir yumruq vurdu, - nə qeyrət-dən danışırsan? Özünü belə qeyrətli sanırsan?

İlqar üzünü tutub yerə oturdu. İlham isə yaşca xeyli kiçik olan bir oğlan uşağının qolundan tutub:

-- Ermənilər səni istəyirlər, - deyə özüylə apardı.

-- Əclaf, bu qisası səndə qoymayacağam, - deyə İlqar İlhamın arxasınca hədələdi.

Ertəsi gün yuxudan oyananda gördüm ki, nədənsə heç kimin səsi gəlmir, hamı başını aşağı dikib, ayaq üstə dayanıb. Əvvəlcə, heç nə başa düşmədim. İlqar ayıldığımı görüb yanıma gəldi. O, əli ilə mənə barakın

qapısına tərəf baxmağı işarə etdi. İstər-istəməz həmin səmtə baxanda, ağrılı bədənimdən dəhşətli bir gizilti keçdi. Axşam İlhamın apardığı oğlan özünü asmışdı. İlqar əyilib qulağıma pıçıltı ilə dedi ki, ermənilər oğlanın başına pis iş gətirdikləri üçün gecəykən özünü asıb.

-- Bütün bunlar o, alçağın, şərəfsizin işidir, Azər, - deyə İlqar özünü saxlaya bilməyib ucadan dilləndi.

Bir az keçmişdi ki, bayırdan qadın, uşaq qışqırtısı eşidildi. Bu zaman qapı açıldı və İlham gülə-gülə üzünü bizə tərəf tutaraq:

-- Ay qeyrətdən danışan oğlan, indi gəl, göstər qeyrətini! - dedi.

Hamı susaraq, başını aşağı dikmişdi. Bu cür sakitliyi görən İlham bu dəfə şübhəli nəzərlə yenidən İlqara baxdı.

- Sənin qeyrətin məlum oldu, İlham. Bu da onun acı nəticəsi,- deyə İlqar dözə bilməyib hələ də asılı vəziyyətdə qalan cavan oğlanı göstərdi.

İlham dönüb asılmış oğlana ötəri baxdı və heç nə olmamış kimi əlavə etdi:

-- Bu, canını yaxşı qurtardı, bundan sonra növbə sizindir. Hamınız bayıra çıxın! İndi görəcəkləriniz bunun yanında toya getməlidir, - deyə İlham dişlərini ağartdı.

İlham özü tez bayıra çıxdı. Bir az keçmişdi ki, erməni əsgərləri içəri doluşdular və bizi zorla bayıra çıxardılar. Düşərgənin həyətində dəhşətli mənzərənin şahidi olduq.

Ermənilər əsir götürdükləri bir maşın qadın–uşaq, qız–gəlin gətirmişdilər. Əsirlər maşından düşən kimi

erməni quldurları, ac qurd sürüyə girmiş tək hərəsi bir qadını, qızı qamarlayıb, elə gözlərimiz önündəcə...

Qadınların qışqırtısı ərşə dirənmişdi. Həmin anı heç cür unuda bilmirəm....

Həmin gün, xüsusilə, iki hadisə beynimdən heç cür silinmir. Ermənilər qadınları zorladıqları zaman əsirlər-dən kimsə dözə bilməyib:

-- Gülgəz!!! – deyə qışqırdı.

-- Rəhim! - deyə qadın onun qolundan tutub zorla aparan erməni əsgərinin əlini dişləyərək, ərinə tərəf qaçmağa başladı.

Rəhim də yanında dayanan silahlı ermənini kənara itələyib arvadının qabağına qaçdı. Ancaq onların əlləri bir-birinə çatmamış, Rəhim arxadan dəyən avtomat silahın qundağının zərbəsindən yerə yıxıldı. Gülgəzi isə iki erməni yenidən qamarlayıb apardı. Huşunu itirmiş Rəhim hələ də yerdə uzanıb qalmışdı. Mən dönüb İlqara baxdım. Onun rəngi qaçmışdı, dişlərini möhkəmcə sıxaraq özünü güclə saxlayırdı. Az sonra, bir erməni əsgəri əlində su ilə dolu vedrəni gətirib bayaqdan bəri yerdə hərəkətsiz uzanıb qalmış Rəhimin üstünə tökdü. Bundan sonra Rəhim özünə gəldi. Bu vaxt İlham qolundan tutub zorla gətirdiyi bir qızla ağacların arasından çıxdı. Qızın paltarları cırıq-cırıq olmuşdu. İlham nəşəli halda gülərək, qızı başqa bir erməni saqqallısına təhvil verdi.

-- Əclaf, binamus! Allah sənin cəzanı gec-tez verəcək! Sənin də anan-bacın bu günə qalacaq, - deyə qız qışqıraraq İlhamın üzünə tüpürdü.

Ermənilər Gülgəzlə Rəhimin ər-arvad olduğunu bildikdən sonra bizə göz dağı çəkmək üçün Rəhimi ağaca bağladılar. Bu anda İlham gülə-gülə gəlib İlqarla mənim qarşımda dayandı:

-- Hə, necədir, ay qeyrətli oğullar? Tamaşa xoşunuza gəlirmi?- deyə İlham istehza ilə bizdən soruşdu.

-- Ilham, nə vaxtsa, bunlara görə cavab verəcəksən. İndi dövran sənindir, ancaq sabah...

İlqar nədənsə sözünü tamamlaya bilmədi.

-- Görürəm ki, siz hələ də ümidlə yaşayırsınız, - deyə İlham yenidən güldü. - Mən yenə deyirəm, siz burdan onsuz da sağ çıxmayacaqsınız. Əgər yaşamaq istəyirsinizsə, onun bircə yolu var.

-- O, hansı yoldur, elə? – İlqar eyhamla soruşdu.

-- Əgər siz də mənim kimi hərəkət etsəniz, onda ermənilər sizə toxunmayacaq. Əksinə, istədiyiniz kimi yeyib-içəcəksiniz. Kef də ki, öz yerində. İşləməkdən də azad olacaqsınız. Daha bundan artıq nə lazımdır? Nə qədər gec deyil, bu barədə fikirləşin.

-- Ilham, yer üzündə sənin kimi iyrənc, rəzil, alçaq bir adama rast gəlməmişdim. Sən gör, bir nə qədər biqeyrətsən ki, öz bacının namusuna toxunmaqdan belə çəkinmədin. Bu torpağın üstündə necə gəzirsən, onu mən heç cür anlaya bilmirəm. İlham, onu da bil ki, cəsədini torpaq da qəbul etməyəcək. Sənin kimi biqeyrətcəsinə yaşamaqdansa, şərəfli ölüm daha üstündür, - deyə İlqar İlhamın üzünə tüpürdü. İlham bundan qəzəblənərək, İlqarı yumruqla vurmaq istədi. Ancaq İlqar zərbədən yayınaraq, sərbəst vəziyyətdə

dayanmış İlhamın çənəsindən bir cavab zərbəsi ilişdirdi. Gözlənilməz zərbədən İlham murdar bir cəmdək kimi şappıltı ilə yerə sərildi. Ermənilər bunu görcək, özlərini yetirib İlqarı tutdular, onu huşunu itirib yerə yıxılana kimi döydülər.

-- Ara, bunun başından bir tük askık olsa, ozunuzdan küsün ha... – deyə erməni dığaları barmaqlarını silkələyib bizə xəbərdarlıq etdilər.

Ermənilər İlhama kömək edib yerdən qaldırdılar. O, ayağa duran kimi gözü ilə İlqarı axtardı. Yaxında olduğumdan o məni döyməyə başladı. Bununla ürəyi soyumayan İlham yerdə hərəkətsiz uzanmış İlqara yaxınlaşıb ona bir neçə təpik zərbəsi vurdu.

Uşaqlar irəli yeriyib İlqarı yerdən qaldırmaq istədilər, amma ermənilər buna icazə vermədilər:

-- Yerinızdan tarpansanız, gabaracaksınız! Sızın ananızı... - deyə saqqallı erməni qışqıraraq avtomatı onlara tərəf tuşladı.

Qorxudan heç kəs yerindən tərpənmədi. «Tamaşa» isə davam edirdi.

Ermənilər Rəhimi ağaca bağladıqdan sonra arvadını da gətirib üzbəüz olan ağaca bağladılar. Gülgəz taqətsiz halda dayanıb, utandığından başını aşağı dikmişdi. Bu vaxt İlham Gülgəzə yaxınlaşaraq əl atıb onun üst paltarını cırdı.

-- Satqın! Əclaf! Biqeyrət! – deyə Gülgəz ucadan qışqıraraq İlhamın üzünə tüpürdü.

Əvvəlcə İlham, sonra da ermənilər Rəhimin gözləri önündəcə arvadını zorladılar...

Bu dəhşətli mənzərəni çənəmə dəsmal bağlanana qədər unutmayacağam...

Ertəsi gün hamımızı məyus edən daha bir kədərli xəbər eşitdik. Ermənilər bir qadının on üç yaşlı qızını zorladıqları üçün həmin gecə ana öz əllərivlə günahsız övladını boğub öldürmüşdü. Ermənilər bu hadisəni görəndən sonra qadınları yenidən maşına mindirib Xankəndinə apardılar. Bizi isə yenidən meşəyə ağac qırmağa aparmaq istədilər. Ancaq heç kəs getmək istəmirdi. Çünki hamımız gördüklərimiz mənzərədən şoka düşmüşdük. Sanki beynimiz donmuşdu. Ermənilər hamımızı güllələyəcəkləriylə qorxutdular. Can şirin şeydir. Əsirlər əlacsız qalıb piyada meşəyə yola düşdülər. Mən isə getmədim. Nə qədər döydülərsə, yerdə uzanıb tərpənmədim.

Həmin gün İlqar da düşərgədə qaldı, çünki çox döyüldüyündən ayağa qalxa bilmirdi. O, elə «barak»-daca uzanıb ağrıdan zarıyırdı. Mənim qəsdən işləməkdən boyun qaçırdığımı bilən ermənilər mənə daha dözülməz işgəncələr verməyə başladılar. Onlar şişi odda qızardıb çənəmə basdılar. Həmin andaca huşumu itirdim. Ayılanda gördüm ki, məni itlə baş-başa bağlayıblar. Qorxumdan tərpənmirdim. Beləcə, ac-susuz axşama kimi bir-birimizə sakit nəzərlərlə baxdıq. Erməni dığaları isə çörək yeyə-yeyə mənə baxıb gülürdülər. Onların fikri iti ac saxlamaq, bunun müqabilində də məni itə yedizdirmək idi.

Onlar yedikləri çörəkdən itə vermədiklərindən, it qəzəblənib hürməyə başladı. Ancaq nədənsə, tezcə də

sakitləşdi. O, yanımda uzanaraq, başını qabaq əllərinin üstünə qoyub yazıq-yazıq yemək yeyən ermənilərə baxırdı.

Artıq hava qaralmışdı. İt ac olduğundan yenidən hürməyə başladı. Mən də acmışdım. Mənə görə itə də cəza verirdilər. Halbuki, onlar itin yeməyini hər gün bircə dəqiqə də olsa, gecikdirmirdilər. İtin hürdüyünü eşidən bir erməni (o, mətbəxdə işləyirdi) əlində bir qab yemək artığını gətirib onun qabağına qoydu, mənə isə gözünün ucuyla da baxmadı. Dözə bilməyib yavaş-yavaş əlimi qaba tərəf uzatmaq istədim. İt bunu görən kimi mırıldamağa başladı. Tez əlimi geri çəkdim. Ürəyimdə iti qınadım: “ Ay insafsız, heç olmasa, sənin mənə yazığın gəlsin. Axı, biz sənlə “yoldaş”ıq. Mən elə bilirdim ki, təkcə ikiayaqlı məxluqlar bir-birinə badalaq gəlir, bir-birini aldadır, bir-birinə paxıllıq edirlər. İndi gördüm ki, bir “yoldaş” kimi sən də məni aldatmaq istəyirsən. Axı, mən də yemək istəyirəm”.

İkinci dəfə əlimi qaba uzatmağa məcbur oldum. Bu dəfə it bərk qəzəblənib üstümə atıldı. O, əllərimi, sifətimi cırıq-cırıq etdi. Üz-gözüm qana bulaşdı. Boynumdakı xaltanı o qədər möhkəm bağlamışdılar ki, hərəkət edəndə az qala nəfəsim kəsilirdi. Çənəmə basılmış damğanın yeri elə ağrıyırdı ki, elə bil beynimə şiş soxurdular. Birdən-birə qət etdim ki, bütün bu əzablara, təhqirlərə dözməkdənsə, özümü elə buradaca boğub öldürüm. İndi buna imkan da vardı. Yavaş-yavaş geri süründüm, boynumdakı zəncir tarım çəkildi. Zəncir tarım çəkildikdə nəfəs borum get-gedə daralırdı, güclə

nəfəs alırdım. Hiss etdim ki, gözlərimə qaranlıq çökür. Bu anda gördüyüm yuxu yadıma düşdü. Deyirlər ki, yuxuların bəziləri çin olur. Ona görə də, özümü öldürmək fikirindən daşındım. Bilirdim ki, Tanrı özünü öldürəni sevməz. Bir də ki, həmin anda ölmək mənə çox çətin gəldi.

Beləcə, iki gün itlə baş-başa «mənalı ömür yolu» keçirdim...

Bir həftədən sonra bizi bu cəhənnəm düşərgə-sindən Şuşa həbsxanasına apardılar. Sən demə, daha əzablı günlərimiz hələ qabaqdaymış. Onlar bizi ayrı-ayrı kameralara yerləşdirdilər.

Acından başım hərlənirdi. Kamera yoldaşımı tanımadım. İlqarı başqa kameraya salmışdılar. Məhbəs yoldaşımdan: “Burda sizə yemək verirlərmi?” – deyə soruşdum. O, gülərək başını buladı:

-- Qardaş, burda yemək əvəzinə başqa şey verirlər. Həmin “yemək”dən adam daha tez doyur.

Mən kamera yoldaşımı dərhal anladım. Bu vaxt qapı açıldı. Hündürboylu, enlikürəkli iki nəfər saqqallı içəri girdi.

-- Ha, taza qonax hankınızdır? - soruşdular.

-- Mənəm! - tez dilləndim.

Elə bunu demişdim ki, onlar üstümə yeridilər. O ki var, məni əzişdirdilər. Taqətsiz halda yerdə sərili qalmışdım. Ağrıdan içim sanki od tutub yanırdı.

-- Qardaş, indi gördünmü onların verdikləri yeməyi? - deyə kamera yoldaşım məni sürüyə-sürüyə yanına çəkdi.

-- Bu “yemək”lərdən çox görmüşəm, - deyə dilimi güclə sürüdüm...

Ertəsi gün səhər də bizə yeməyə heç nə vermədilər. Əksinə, ermənilər paltarlarımızı soyundurub bizi çılpaq vəziyyətdə həbsxananın həyətinə çıxardılar. Axşamdan bəri yağan qar, hələ dayanmamışdı. Soyuqdan hamımız titrəyir, dişlərimiz bir-birinə dəyirdi. Onlar bizim hər birimizə bel verib qarı təmizləməyi əmr etdilər. Bizim yoldaşlardan biri - deyəsən, o, Sumqayıtdan idi – qarı təmizləməkdən imtina etdi. O dedi:

- Nə olsun ki, biz əsirik. Ac-susuz, çılpaq vəziyyətdə, bu cür havada işləmək heç bir insani qanunlara sığmır. Siz bizimlə vəhşi kimi rəftar edirsiniz. Dünyanın heç yerində əsirlərlə bu cür rəftar etmirlər. Heç “nemes”lər də

belə olmayıb. Axı, Ermənistan da Beynəlxalq İnsan Haqları Konvensiyasına imza atıb.

Bu sözləri axıradək dinləyən erməni zabiti oğlana yaxınlaşıb əlini tapançasının qoburuna apardı:

-- Deyasan, yaşamaxdan bezimisan, ara. Na olar, sani daha rahat yera gondararıx, - tapançanı oğlanın gicgahına söykədi və həmin anda da tətiyi çəkdi...- İndi ket, o dunyada insan hakkını mudafıa et.

Biz ac-susuz, çılpaq halda həbsxananın həyətindəki qarı təmizləməyə məcbur olduq. Çünki əks təqdirdə bizləri də o oğlanın aqibəti gözləyirdi.

Həmin axşam bizə suyun içərisində nəsə verdilər. Kamera yoldaşım dedi ki, (o mənə adını deməsinə baxmayaraq, indi onun adını heç cür xatırlaya bilmirəm, çünki ermənilər bizim damarlarımıza şprislə hansısa dərmanı vururdular ki, orada gördüklərimizi tamam unudaq. Açığını deyim ki, mən özüm də indi çox şeyləri xatırlaya bilmirəm) bu heyvanlara verilən "jmıx" horrasıdır. Biz də həmin horranı acgözlüklə içdik. Ancaq iki gün çörək, su görməyən qarında onun nə durumu olacaqdı ki?! Həmin gecə öskürəkdən səhərə kimi yata bilmədim. Soyuq öz işini görmüşdü. Əsirlərin çoxu soyuqdəymədən sətəlcəm olmuşdular. Elə bu xəstəlikdən 40 nəfərə yaxın yoldaşımız dünyasını dəyişdi.

Ertəsi gün bizi yenə də ayaqyalın qalanın həyətində cərgəyə düzdülər. Şaxta adamı qılınc kimi kəsirdi. Tez-tez ayaqlarımızı növbə ilə qaldırıb yerə qoyurduq.

«Bütün bu zülmlərə dözməkdənsə, birdəfəlik ölüb, canını qurtarmaq daha yaxşıdır,» – deyə beynimdə Hadrutda keçirdiyim fikir yenidən canlandı. Bu vaxt iki erməni yaraqlısı əllərindəki dubinkanı oynada-oynada gəlib erməni zabitinin qabağında dayandı. Zabit heç nə demədən başını bircə dəfə aşağı-yuxarı tərpətdi. Bu işarədən sonra dubinkalı əsgərlər bizi döyməyə başladılar. Bağırtı, qışqırtı ərşə dirəndi...

«Tənbeh əməliyyatı» qurtardıqdan sonra, bizə yenə həyətin qarını təmizləmək əmri verdilər. Uşaqlardan iki nəfəri ayaq üstə dayana bilməyib yerə yıxıldı. Biz onlara kömək edib ayağa qaldırmaq istədik, ancaq ermənilər qoymadılar. Saat yarıma kimi qalanın həyətində işlədik. Bu müddət ərzində yerdə hərəkətsiz halda, uzanıqlı qalmış həmin iki yoldaşımız artıq donmuşdu.

Bir azdan dörd erməni yaraqlısı gəlib onları sürüyə-sürüyə harasa apardılar. Qarı təmizlədikdən sonra bizi yenidən cərgəyə düzdülər. Hamını öskürək tutmuşdu. Ermənilər əvvəlcə elə bildilər ki, biz qəsdən öskürürük. Ona görə də: «Kasın sasınızı!» – erməni zabiti üstümüzə qışqırdı.

Mən elə öskürürdüm ki, az qalırdı ki, ödüm ağzımdan gəlsin.

-- Basdir, qaqqıldaşdınız, kasin sasinizi! – deyə erməni zabiti yenidən qışqırdı.

O, əllərini arxada daraqlayıb amiranə görkəm alaraq, gülümsəyib dedi:

-- İndi man sızı toyuq kimi danlamaya macbur edacayam. Siz qalanın hayatındaki siqaret kotuklarını, kıbrıt çoplarını ağzınızla bir-bir goturmalısınız, yani toyuq kimi danlamalısınız. Bundan sonra siza yemax, içmax veracayıx. Yoxsa, part, part... edacağam, - işarə barmağını tətiyə basırmış kimi açıb-yumdu.

Bəli, biz o şaxtalı gündə toyuq kimi dənləməyə məcbur olduq... Həmin günlər ölüm bizim üçün artıq adiləşmişdi.

Bir səhər bizi yenə də qalanın həyətinə çıxardılar. Ancaq həmin gün az döydülər. Sonra erməni zabiti gəlib hamıya bir vərəq kağızda yazılmış mətni oxudu:

-- Sabah Qırmızı Xaç Komitəsinin nümayəndələri bura gələcəklər. Sizinlə sorğu-sual aparacaqlar. «Sizinlə burda necə rəftar edirlər?» sualına hamınız müsbət cavab verməlisiniz. Əgər sizlərdən kimsə onlara artıq-əskik söz deyərsə, onda həmin adamla biz ayrıca haqq-hesab çəkəcəyik! Eşitdinizmi?!

Heç kəs dinib-danışmadı. Həmin axşam ilk dəfə olaraq bizə adam yeməyi verdilər.

Ertəsi gün həqiqətən də Qırmızı Xaç Komitəsinin nümayəndələri gəldilər. Onlar bizi öz siyahılarına qeyd etdilər. Vəziyyəti ağır olanların təcili xəstəxanaya götürülməsini ermənilərə tapşırdılar. Biz deməsək də, onlar hər şeyi çox yaxşı görürdülər. Ermənilər iyrənc əməllərini nə qədər ört-basdır etməyə çalışırdılarsa, bir şey çıxmırdı. Yoxlama və sorğu-sual zamanı ermənilərin bizə qarşı etdikləri amansız rəftarın QXK – nın nümayəndələri özləri bir daha şahid oldular. Onlar özləri

ilə gətirdikləri paltarları əsirlərə payladılar. QXK – nın nümayəndələri gedərkən bildirdilər ki, onlar bir həftədən sonra yenə gəlib bizə baş çəkəcəklər.

Qonaqlar gedən kimi ermənilər bizə verilən paltarları əlimizdən aldılar. Bu gəlişdən sonra onlar bizimlə daha amansız rəftar etməyə başladılar. Belə ki, bizi gündə bir dəfə döyürdülərsə, qonaqlar gəlib-gedəndən sonra gündə üç dəfə döyməyə başladılar.

Nümayəndələr gedəndən sonra iki gün bizi ac-susuz saxladılar. İki gündən sonra bizi yenidən qalanın həyətinə çıxardılar. Bizə cərgə ilə düzülməyi əmr etdilər. Həyətin ortasında iki bayraq – biri bizim milli bayrağımız, digəri isə ermənilərin bayrağı sancılmışdı.

Bayraqların yanında da böyük bir yemək qazanı qoyulmuşdu. İki gün ac qalmış adamın burnuna ləzzətli yemək iyi dəyəndə insan bihuş olmaq dərəcəsinə gəlirdi. Amma nədənsə, bu oyundan gözümüz heç su içmirdi. Bilirdik ki, ermənilər bizim üçün yenədə növbəti «tamaşa» hazırlayıblar. Çünki onlardan yaxşı heç nə gözləmirdik.

Bir azdan erməni zabiti yenə də əllərini arxada tutmuş halda gəlib bayraqların yanında dayandı. Sonra başı ilə əsgərlərinə işarə etdi.

Biz əvvəlkitək başa düşdük ki, indi bizi döyməyə başlayacaqlar. Ancaq deyəsən, bu dəfə səhv etmişdik. Əsgərlər hər birimizə gətirib əzilmiş bir aliminum qab verdilər. Sonra erməni zabiti dedi:

-- Biliram ki, siza iki gündür yemax vermirlar. Man bu gün hamınızı dadlı şorpaya qonax edacağam. Ancaq bir

şartla. Hankınız ki, bizim bayrağı öpdü, Azərbaycan bayrağına tupuracax, elə hamin adama bu yemax-içmaxdan veracağam. Ha... indi buyurun baxax.

Bir müddət heç kim yerindən tərpənmədi. Bütün əsirlər məyus halda dayanıb şorba dolu qazana baxırdılar. Biz çıxılmaz vəziyyətdə qalmışdıq. Bir tərəfdən acından ölmək təhlükəsi dayanmışdı, o biri tərəfdə isə bağışlanılmaz təhqir...

Bu vaxt İlqar cərgədən çıxıb qürurla bayraqlara tərəf addımladı. (**Mehdiyev İlqar Ərşad oğlu Cəbrayıl rayon İcra Hakimiyyətinin Cəbrayıl şəhəri üzrə icra nümayəndəsi vəzifəsində işləyirdi.**) Əlbəttə, inanırdım ki, o, yenə də nəsə qeyri-adi bir hərəkət edəcək. Fikrimdə yanılmamışdım. İlqar əvvəlcə, bayrağımızın önündə dayandı, dönüb bizə baxdı. Sonra o, bayrağımızın önündə aşağı əyilərək, onu öpüb gözlərinə çəkdi. İlqar yenidən ayağa qalxdı, erməni bayrağına yaxınlaşaraq, ona tüpürdü və tez bayrağı ayaqları altında tapdalamağa başladı. Bunu görən ermənilər quduz itə döndülər. Onlar cəld İlqarın üstünə düşdülər, o ki var, döyməyə başladılar. İlqar taqətsiz halda yerə yıxıldı. Ermənilər onun harası gəldi təpikləyirdilər. Biz düşündük ki, ermənilər daha bu dəfə İlqarı öldürəcəklər. Döyməkdən yorulan erməni dığaları bir anlığa əl saxladılar. Bu vaxt hələ də hirsi soyumayan bir erməni avtomat silahını ayağa çəkdi və yerdə hərəkətsiz uzanmış İlqarın gicgahına dirədi. Bunu görən erməni zabiti əsgərin üstünə qışqırdı:

-- Dayan gorax, ara. Gülla heyıpdi bu turk itina. Onu aparın. Şon dğa!.

Başa düşdüm ki, İlqarı güllələsələr yaxşı olardı. Allah bilir, ona necə işgəncələr verəcəklər.

İki erməni əsgəri hərəsi İlqarın bir qolundan yapışıb sürüyə-sürüyə harasa apardılar.

Biz hamımız insanıq. Həmin gün əsirlərin çoxu acından ölməmək üçün ermənilərin dediklərini etdi. Etiraf edim ki, mən də erməni bayrağını öpməyə məcbur oldum və and içirəm ki, dodaqlarım uzun müddət sızıldadı. O gündən sonra İlqarı bir daha görmədim. Bəzilərinin dediyinə görə, ermənilər İlqarı güllələyiblər, başqaları isə deyirdilər ki, İlqarı hardasa gizli bir yerdə saxlayırlar. Orada ona insan ağlına gəlməyən, heç faşistin də düşünüb tapa bilmədiyi işgəncələr vermişdilər. Vəzifəli şəxs olduğuna görə, ermənilər onu güllələmək fikrindən daşınmışdılar. Onlar İlqardan istifadə etməyə çalışsalar da, nəticədə bir şey alınmayıb.

Ertəsi gün Qırmızı Xaçın köməyi ilə məni bir nəfər yoldaşımla Xankəndindəki uşaq bağçasına gətirdilər. Orada bizim paltarlarımızı dəyişdirib təzəsini verdilər. Sonra bizi xəstəxanaya gətirdilər. Xəstəxanada müalicə olunmaqla yanaşı, Qırmızı Xaçın nəzarəti altında bizə gündə üç-dörd dəfə yemək verirdilər. Qırmızı Xaç Xankəndindən gedən kimi ermənilər bizi xəstəxanadan çıxarıb, onların verdikləri paltarları da əlimzdən aldılar. Sonra bizi oradan ayaqyalın Şuşa meşəsinə, ağac qırmağa apardılar.

Gündüzlər işlədikdən sonra axşamlar bizi ac-susuz donuz fermasına salırdılar. Biz acından ölməmək üçün ağaclardakı qurumuş meyvələrlə və bəzi yeməli bitkilərlə qidalanırdıq. Ermənilərin imkanı olsaydı, onu da bizim əlimizdən alardılar.

Bir həftədən sonra bizi yenidən Şuşa həbsxanasına gətirdilər. Hər birimizi ayrı-ayrı kameralarda yerləşdirdilər. İki gün yeməyə bizə heç nə vermədilər. Axşamtərəfi bizi həbsxananın həyətinə çıxardılar və dubinka ilə möhkəmcə əzişdirdilər. Əsirlərin bəziləri ac olduğundan ayaq üstə dayana bilməyib yerə yıxıldılar. Onları sürüyə-sürüyə aparıb yenidən kameralara atdılar. Mən imkan tapıb İlqarı soruşdum. Dedilər ki, İlqarı güllələməyiblər, onu QXK–nin nümayəndələrindən haradasa, ayrıca bir yerdə gizlədirlər. Mikayıl dedi ki, İlqara dəhşətli işgəncələr verirlər. Hətta, ermənilər onun bədəninə şprislə kerosin yeridiblər. Biz nə qədər cəhd etsək də, İlqarın harada saxlandığını öyrənə bilmədik.

Bir gün növbəti «döyülmə əməliyyatından»dan sonra Mikayıl mənə dedi ki, əgər bir də onları Şuşa meşəsinə ağac qırmağa aparsalar, nəyin bahasına olursa-olsun, oradan qaçacaq. Bu, onun qəti fikri idi.

İki gündən sonra bizi yenidən Şuşa meşəsinə apardılar. Mikayıl «qaçış» planını yoldaşlarına da təklif etmişdi. On nəfər qaçmağa razılıq vermişdilər. Ancaq son anda onlardan yalnız dördü razı olmuşdu. Vəziyyəti belə görən Mikayıl:

-- Elə isə biz qaçacağıq. Siz çalışın ki, ermənilər qaçmağımızdan tez xəbər tutmasınlar. Bizə azca vaxt

lazımdır ki, özümüzü bir yerə çatdıraq. Ondan sonra ermənilərin əcdadları da xortlasa, bizi tuta bilməyəcəklər, - deyə uşaqlarla vidalaşdılar. Mikayılgilin qaçışından ermənilər çox gec xəbər tutdular. Bizi cərgəyə düzüb o ki var, döydülər. Bu hadisədən sonra onlar bir də bizi meşəyə, ağac qırmağa aparmadılar. Buna görə, bizi üç gün yenə ac-susuz kameradan bayıra çıxart-madılar. Həmin üç gündə 7 yoldaşımız acından və soyuqdan elə kameradaca dünyasını dəyişdi.

Səhərisi, ermənilər bizi maşına mindirib bir erməni qəbiristanlığına gətirdilər. Ermənilər dedilər ki, bu gün onların bayramıdır. Ona görə də, burada bir Azərbaycan əsgərini qurban kəsəcəklər. Onun ətindən isə biz, hamımız qurban əti kimi dadmalıyıq. Əclaflar dedikləri kimi də etdilər. Erməni faşistləri cavan, cüssəli bir azərbaycanlı əsgərini erməni qəbirlərinin birinin üstündə kəsdilər. Sonra erməni dığaları od qalayıb oğlanın ətindən şişlərə keçirib kabab çəkdilər. Bu vəhşiliyə artıq dözmək olmurdu. Hər birimiz bu anda Allahdan özümüzə ölüm arzulayırdıq.

Ermənilər oğlanın ətindən zorla ağzımızı açıb yedirmək istəyirdilər. Bəziləri buna etiraz edəndə, onlar həmin adamları yerindəcə güllələdilər...

Beyləqan rayonunun Dünyamalılar kəndindən olan, əsir düşmüş Əli adlı idmançı oğlan donuzlara baxırdı. Onlar ailəliklə toya gedərkən əsir düşmüşdülər.

Bir axşam Əli kameranın qabağından keçərkən pıçıltı ilə dedim ki, mənə bir az donuzların yeməyindən gətirsin, yoxsa acından öləcəyəm.

Ertəsi gün Əli kameraya çörək ötürərkən, ermənilər bunu gördülər. Yazıq Əlini ölüncəyə qədər döydülər. Sonra onun ayağını yerə mıxladılar. Yaxşı ki, bir gündən sonra Qırmızı Xaçın nümayəndələri yenidən Şuşa həbsxanasına gəldilər. Biz Əlinin başına gələn işgəncəni onlara xəbər verdik. Ermənilər isə bizim verdiyimiz məlumatları hər vasitə ilə inkar etməyə çalışırdılar. Ancaq QXK-nin təkidi ilə Əlini axtarıb tapdılar. Qaniçənlər onu yaralı halda su ilə dolu zirzəmidə saxlayırmışlar. Əlini təcili olaraq Xankəndinə - xəstəxanaya apardılar.

Ertəsi gün 15 əsiri, mən də daxil olmaqla bərabər kameralardan çıxarıb bir sahəyə gətirdilər. Hər tərəf düzənlik idi. Biz fikirləşdik ki, bura bizi güllələməyə gətiriblər. Çünki Mikayılın qaçışı uğurlu olmuşdu. O hətta, postda dayanmış ermənilərin də işini bitirərək, bu cəhənnəmdən birdəfəlik xilas ola bilmişdi.

Onların bizi buraya nə məqsədlə gətirdiklərini hələ də anlaya bilmirdik. Deyəsən, onların bizi öldürmək fikirləri yox idi. Dığalardan biri ucadan bildirdi ki, gördüyümüz bu sahəni axşama kimi şumlamalıyıq. Bir azdan bir yük maşını yanımızda dayandı. Ermənilərdən biri əmr etdi ki, dörd nəfərimiz maşına çıxıb, ordakı kotanı yerə düşürək. Öküzə qoşulan dədə-baba kotanını görəndə, hər şey bizə aydın oldu. On dörd nəfərimizi kəndirlə bir-birimizə bağladılar. Bəli, bizi heyvan əvəzi kotana qoşdular və axşama kimi ac-susuz yer şumlatdırdılar...

Erməni dığaları iki gün bizə eyni zülmü verdilər. Üçüncü gün ermənilər bizi Ağdam yaxınlığındakı Qarağacı qəbiristanlığına gətirdilər. Onlar bizə qəbirləri, xüsusən də mərmərdən olan başdaşlarını məcburi sökdürüb, maşınlara yığdırdılar...

Yaxşı ki, üç gündən sonra Qırmızı Xaçın nümayəndələri yenidən Şuşaya gəldilər. Həmin günün axşamı bizi Xankəndinə, uşaq bağçasına, oradan da xəstəxanaya apardılar.

Bir müddət Qırmızı Xaçın nəzarəti altında orada müalicə olunduq. İlk dəfə bizə dedilər ki, bu yaxınlarda əsirlikdən azad olacağıq. Düzü, bu sözlərə əvvəlcə inanmağımız gəlmədi. Yəni bu cəhənnəm əzabından qurtula biləcəyikmi?! Yaxınlarımızı, qohum-əqrəbalarımızı görmək bizə qismət olacaqmı?!!

1995 - ci il mayın 8 - də Qırmızı Xaç Komitəsinin köməyi ilə 2 il 9 aydan sonra o, cəhənnəm əzabindan azad olundum...

Ermənilər əsirlikdən gələn bütün soydaşlarımızı yarımcan eləmişdilər. Mənim özümün də ciyərlərim vərəm idi, böyrəklərimdə çürümə gedirdi. Əsirlikdə olduğum vaxtlarda ermənilər mənim də damarıma müxtəlif iynələr vururdular. İynədən sonra huşumu itirirdim, bir-iki gün beynim keyləşirdi, baş verən hadisələrdən yaddaşımda çox cüzi hissəsi qalırdı. Bəzən hansı rayondan olduğumu belə unudurdum. İynələrin təsirindən ermənilərin bizim əsirlərin başlarına gətirdikləri müsibətlərin çox hissəsini indi xatırlaya bilmirəm.

Həkimlər deyirlər ki, erməni doktorları bizim əsirlər üzərində müxtəlif cür təcrübələr aparırdılar. Ona görə də, azad olunan əsirlərimiz 3-4 aydan artıq yaşamırdılar...

***

Bir ay sonra Qırmızı Xaçın köməyi ilə daha 67 əsirimiz azad olundu. Bunların arasında İlqar da var idi. İlqarın sağ qalmasını və vandalların əsirliyindən qurtarmasını mən özüm üçün doğum günü elan etdim. O günü məni anlaşılmaz hisslər bürümüşdü. Allahıma min dəfə şükür etdim ki, nə yaxşı ki, o, salamatdır. Yaşayır. Vətən deyilən bu yurdumuzun İlqar kimi oğullarına görə, həmin gün on rükət namaz qıldım. Allaha yalvardım ki, Pərvərdigara mənim bundan sonrakı həyatımı İlqara ver. Amma murdar, iyrənc, faşist erməni-daşnakının bayrağını öpdüyüm üçün dodaqlarımı çürüt, aclıqdan qorxduğum üçün doldurduğum mədəmi cəhənnəm odunda əbədi yandır...

... Heç bilmirəm ki, İlqarın azadlıqda cəmi bir neçə həftə yaşadığını necə yazım?! Başın sağ olsun Vətən! Başın sağ olsun İlqarın ata-anası! Allaha inandığım kimi inanıram ki, azərbaycanlı anaları hər gün neçə-neçə İlqarlar doğacaq...

# Ölüm düşərgəsindən qaçış

(hekayə)

Mikayıl əslən Kəlbəcərli idi. Ancaq Bərdədə ailə həyatı qurduğundan rayonun Qaradəmirçi kəndində traktorçu işləyirdi. Kəlbəcərin "qara xəbər"ini eşidəndə, qohum-əqrəbasından xəbər tutmaq üçün oraya getməyi qərara aldı. Amma o, Kəlbəcərə çatmamış, yarıyolda ermənilər tərəfindən girov götürüldü.

Ermənilər Mikayılı digər əsirlərlə birlikdə Şuşa həbsxa-nasına gətirdilər. Onun həyatının ən dəhşətli, amansız və işgəncə dolu günləri buradan başladı...

Hər kamerada 15-20 əsir vardı. Adamların sıxlığından nəfəs almaq olmurdu. Darısqallıqdan, nəmişlikdən, havasızlıqdan fiziki cəhətdən zəif olanlar səhərə yaşamaq ümidini itirmək məcburiyyətində qalırdılar. Mikayıl isə fiziki cəhətdən çox mökəm idi, 106 kiloqram çəkisi vardı. Bu çəki ona əzab və işgəncələrə dözmək üçün hələlik bəs edərdi. O, çalışırdı ki, ümidsizliyə qapılmasın. Nə vaxtsa, bu cəhənnəm əzabından qurtulacağı barədə düşünürdü. Amma erməni vəhşilərinin onların başına gətirdikləri müsibətləri gördükcə, içindəki ümid qığılcımları günü-gündən sönməyə başlayırdı. Bir də çalışırdı ki, o, içindəki qorxu hissini çıxarıb atsın. Mikayıl qorxmurdu. Erməni dığaları ona digərləri tək işgəncə verərkən dirənirdi, o, əsir

yoldaşları tək susub dayanmırdı. Dikbaşlığına görə, ermənilər ona daha çox əzab verirdilər. Onlar əsirləri işgəncələrin müxtəlif iyrənc üsullarından istifadə etməklə, sındırmağa, şərəf və qürurlarını alçatmağa çalışırdılar. Ermənilər hər gün döyüb, işlətdikləri, ağır işgəncələrə məruz qoyduqları əsirlərə gün ərzində iki dilim qara çörək və iki "kruşka" su verirdilər.

Bir gün hərbi əsirlərdən biri bu işgəncələrə dözə bilməyib ermənilərə etirazını bildirdi:

- Sizin heç Allahdan qorxunuz yoxdur bəyəm?! İnsana da bu qədər zülm edərlər? Nə olsun ki, biz əsirik. Müharibənin də öz qanunları var. Əsirlərlə bu qədər qəddarcasına rəftar etmək heç bir müharibə qanununa sığmır. Əgər Qırmızı Xaç Komitəsinin nümayəndələri buraya gələrsə, sizin bizə qarşı necə rəftar etdiyiniz barədə onlara şikayət edəcəyəm.
- Buna bir bax! Nə uzun dilin var sənin. Uzun dilini kəsərik, bir daha danışa bilməzsən. Sən bizim əsirimizsən. Sənlə istədiyimiz kimi rəftar edə bilərik. Bəs əlinə silah götürüb bizə qarşı vuruşa bilirdin? - deyə erməni zabiti sağ əlindəki dubinkanı sol əlinin içinə vura-vura gənc oğlana yaxınlaşdı.
- Biz torpaqlarımızı sizin kimi xain və şərəfsizlərdən qorumaq üçün əlimizə silah götürmüşük, - deyə hərbi əsir yenə də dilini dinc saxlamadı - Biz heç bir zaman başqasının torpağına göz dikməmişik. Amma siz əsrlər boyu başqalarının torpağını min bir hiylə ilə əldə etməyə çalışmısınız.

- Qarabağ bizim ata-babalarımızın torpağıdır. Bunu birdəfəlik bilməlisiniz! Siz türklərə bu torpaqlarda yer yoxdur. Vaxtilə sizinkilər babalarımızı soyqırımına məruz qoyaraq, bu torpaqları əllərindən alıblar. Bundan sonra biz Qarabağı bir də heç kəsə verməyəcəyik! Bunu da bilməlisiniz ki, arxamızda güclü dövlətlər dayanıb. Əgər axmaqlıq edib bizə qarşı yenidən hər hansı döyüşə başlasanız, onda qalan torpaqlarınız da əlinizdən gedəcək! - Erməni zabiti fəxrlə dilləndi.
- Bu qələbə müvəqqətidir. Biz yenə də torpaqlarımızı sizin kimi məkrli işğalçılardan azad edəcəyik! Türk heç zaman enilməyib və bundan sonra da enilməyəcək. Siz də bunu birdəfəlik qulaqlarınızda sırğa yerinə asın! Gec-tez bu torpaqlardan izinizi siləcəyik! - əsir əsgər başını dik qaldıraraq, nifrət dolu baxışlarla onun qarşısında dayanmış erməni zabitinin düz gözlərinin içinə baxdı.
- Deyəsən, dilin get-gedə uzanır. Əgər mən sənin bu uzun dilini kəsməsəm, elə hey çərənləyəcəksən. Mənə bir kəlbətin və bir iti bıçaq gətirin! Cəld olun! - Erməni zabiti dəlicəsinə bağırdı.

Erməni əsgəri zabitin dediklərin gətirib ona verdi. Zabit dəlicəsinə bağırdı:

- Bu küçüyün əllərini tutun!

İki erməni dığası cəld əsir əsgərin qollarını qavırıb, arxasında tutdular. Bu zaman zabit sağ əlindəki kəlbətini əsirin ağzına salıb, onun dilini tutaraq bayıra çıxardı. Sonra o, əl atıb bıçağı götürdü və: “İndi danış görüm, necə danışacaqsan!” - deyib əsirin dilini bir anda kəsib yerə atdı.

Oğlan bayılaraq yerə yıxıldı. Zabit əsgərlərin üstünə qışqırdı:

- Götürün, bunu atın kameraya!

Aralığa ölüm sükutu çökdü. Hamı yerdə uzanmış, dili kəsilmiş əsgərə baxırdı. Kimsənin səsi çıxmırdı. Mikayıl bu dəhşətə dözə bilməyib, irəli yeriyərək yerdə bayılmış əsgərə kömək etmək istədi. Amma yanındakı yoldaşı onun qolundan tutub saxladı. Erməni əsgərləri bayılmış əsiri qol-qıç edib apardılar...

Gündüzlər əsirləri meşəyə ağac qırmağa aparırdılar. Meşəyə qədər məsafə 3-4 kilometr olardı. Hər gün bu məsafəni ac qarına, piyada, qaça-qaça qət etmək insandan dözüm və möhkəm iradə tələb edirdi. Ermənilər əllərində avtomat silah UAZ maşınlarla onları arxadan təqib edirdilər. Onlar taqətdən düşmüş, yerə yıxılan əsirlərin üstündən maşınla keçib gedirdilər. Bu yolla on yeddi soydaşımız öldürüldü...

Mikayıl nəyin bahasına olursa-olsun qaçmağı planlaşdırmışdı. O, qaçış əməliyyatını ən yaxınlarına da söylədi, amma onlar buna razı olmadılar. Dedilər ki, buradan qaçmaq heç cür mümkün deyil. Amma Mikayılın qərarı qəti idi. Bu cəhənnəmdən qaçıb qurtulacağam!” deyə o, düşündü.

Bir gün Mikayılgili maşına yığıb bir erməni qəbiristanlığına gətirdilər. Ermənilər dedilər ki, bu gün onların bayramıdır. Ona görə də, burada bir Azərbaycan əsgərini qur-ban kəsəcəklər. Kəsilmiş qurbanlıq ətindən kabab çəkəcəklər və bütün əsirlərə yedirəcəklər. İnsanlıqdan uzaq olan qaniçənlər dedikləri kimi də etdilər. Cavan,

cüssəli bir Azərbaycan əsgərini qəbirlərin birinin yanına gətirdilər. Daşnak zabiti gəlib gənc əsirin qarşısında dayandı və qımışaraq soruşdu:

- Bilirsən ki, həyatının son dəqiqələrini yaşayırsan. Bəlkə, bizlərdən bir istəyin var?

Əlləri arxasında bağlanmış cavan oğlan başını qaldırıb əvvəlcə səmanın ənginliklərini, sonra da məsum baxışlarla əsir soydaşlarını bir-bir seyr etdi. Və birdən üzünü saqqallı zabitə tərəf çevirdi. Bu dəmdə onun gözlərində nifrət qığılcımları parladı:

- Bəli, var. Ancaq bir az mənə yaxın gəlin - dedi.

Zabit əsirə yaxınlaşdı. Əsir qəzəbli baxışlarla ucadan dedi:

- Mən indi bir şeyə çox təəssüf edirəm ki, sizin kimi qatil və şərəfsizlərdən daha çox öldürə bilmədim. Amma bunu bilməlisiniz ki, hamınız bu torpaqlarda it kimi gəbərəcəksiniz! Leşiniz qarğa-quzğunlara yem olacaq! Siz dünyanın ən alçaq, yaltaq, hiyləgər, qaniçən və rəzil millətisiniz! Hamınız cəhhənnəm atəşində yanacaqsınız! Bu etdiklərinizə görə Allah-təala sizi əsla əfv etməyəcək!

Cavan oğlan sözünü tamamlayan kimi, qəfildən erməni zabitinin əvvəlcə üzünə tüpürdü, sonra da başı ilə onun sifətinə güclü bir kəllə zərbəsi vurdu.

- Ay burnum! - deyə saqqalı daşnak əlləri ilə üzünü tutub yerə oturdu.

Bunu görən erməni dığaları cavan oğlanın üstünə düşdülər, onu təpiklə, avtomatın qundağı ilə o ki var döydülər. Sonra huşsuz halda yerə uzanmış əsiri sürüyə-sürüyə gətirib bir qəbirin üstündə “uf” belə demədən başını kəsdilər. Mikayıl bu mənzərəyə tab gətirməyib

yanında əlində avtomatlı dayanmış erməni dığasının sifətindən gözlənilmədən güclü bir yumruq zərbəsi ilişdirdi. Dığa zərbədən səntirləyib arxası üstə yerə yıxıldı. Bu dəfə də ermənilər Mikayılı bayılına qədər əzişdirdilər. Dığalardan biri avtomatını ayağa çəkib onu vurmaq istədi, amma yoldaşı onun qulağına nəsə dedi və o, fikrindən daşındı. Çünki ermənilər QXK-nin siyahısında olan əsirləri öldürməkdən çəkinirdilər.

Daha sonra qaniçənlər başı kəsilmiş cavan oğlanın ətini şişlərə taxıb, kabab bişirdilər və hər bir əsirə silah gücünə bu kababdan məcburən yedirtdilər. Sanki əsirlər bir anda özlərini Afrika cəngəlliklərində yaşayan adamyeyən tayfalar arasında olduqlarını hiss etdilər. Bu film deyildi, həyatın gerçək üzü idi! Bu erməni vəhşiliyinin, erməni faşizminin iç üzü idi!!!

Axşam əsirləri yenidən həbsxanaya gətirdilər. Onlar əsirləri sıraya düzdülər. Erməni zabiti əsirlərin qarşısında var-gəl edərək dedi:

- Bilirəm, bu gün qarnınız toxdur. Amma tox qarın başa bəladır. İndi əsgərlərim sizi axşam idmanı ilə məşğul edəcəklər.

Zabit kinayə ilə gülərək, saqqallılara tərəf döndü və onlara əvvəlki işlərilə məşğul olmağı əmr etdi. Onlar yenə də əsirləri dubinka ilə döyməyə başladılar...

Həmin axşam əsirlərdən bir neçəsi səhərə sağ çıxmadı. Erməni daşnaklarının ən çox xoşladıqları və həzz aldıqları “döyərək öldürmə əməliyyatı” idi. Onlar çəkic və ya odun parçası ilə azərbaycanlı əsirlərin başlarına vura-vura öldürməkdən xüsusi zövq alırdılar. İnsanın bu qədər işgəncələrə dözməsinə Mikayıl heyrət

edirdi. Gecələr dubinkanın dəydiyi yerlər, əzilmiş sümüklər sızım-sızım sızlayırdı. Taqəti tükənmiş bəzi əsirlər isə ağrıdan tez-tez bayılırdılar. Ermənilər hər axşam əsirlərə nəsə dərman verirdilər. Onlar həmin dərmanı qəbul edəndən sonra, başları keyləşir və gündüzlər onlara verilmiş işgəncələrin heç birisini xatırlamırdılar.

Bir gün QXK-nin nümayəndələri həbsxanaya gəldilər. Öncə isə ermənilər bütün əsirlərə tapşırmışdılar ki, onların rəftarından gələn nümayəndələrə şikayət etməsinlər. Amma sorğu-sual zamanı QXK-nin nümayəndələri hər şeyin şahidi oldular. Onlar əsirlər üçün pal-paltar gətirmişdilər. Gedərkən dedilər ki, bir həftədən sonra yenə gələcəklər.

Qonaqlar gedən kimi, saqqallılar əsirlərə verilmiş paltarları onların əllərindən aldılar və şikayət etdiklərinə görə əvvəlkindən fərqli olaraq onları gündə bir dəfə deyil, üç dəfə döyməyə başladılar. Nümayəndələr getdikdən sonra onlar əsirləri iki gün ac-susuz saxladılar...

...Düz on altı ay Mikayıl hər gün bu əzab və işgəncələrlə üzləşdi.

1994-cü il iyulun 14-də Mikayılı bir neçə əsirlə bərabər işləmək üçün Xocalıya gətirdilər. O, buradan hökmən qaçacağına qəti qərar verdi. Elə həmin günün axşamı daha dörd əsir yoldaşı ilə birlikdə ermənilərin xəbəri olmadan, ölüm düşərgəsindən qaçmağa müvəffəq oldu. Onlar gecələr yol gedib, gündüzlər gizlənməyi qərara almışdılar. Qarşıda minalanmış sahələr və bir neçə erməni postu vardı. Mikayıl yoldaşlarına dedi ki, əgər məni dinləsəniz, burdan sağ-sağlam xilas ola

bilərsiniz. Onlar bu gecə bacardıqca daha çox məsafə qət eləməlidilər. Çünki ermənilər onların qaçışından yalnız sabah xəbər tuta biləcəklər. Ona görə də, onlar sabaha kimi bir xeyli məsafə qət edib, buradan uzaqlaşmalıdılar. Mikayıl yoldaşlarına bildirdi ki, ən əsası qarşımıza çıxan ilk postu keçməkdir. Bunun üçün onlar daha diqqətli olmalıdılar. Novruz adlı əsir oğlan isə dedi ki, onlar posta tərəf deyil, postdan şərq istiqamətə, meşəyə tərəf hərəkət etməlidilər. Mikayıl buna qəti etiraz etdi:

- Novruz, açıq sahələr minalanıb. Sən bunları bildiyin halda, niyə həmin sahəyə tərəf gedirsən? Mən əminəm ki, post istiqaməti açıqdır, ermənilər oranı minalamayıblar. Qalan üç istiqamətin üçü də minalanıb.

- Mikayıl, bunu hardan bilirsən ki, mən dediyim yer minalanıb? Deyirsən ki, biz düz ermənilərin üstünə gedək? Onlar silahlı, biz isə əliyalın. Bu necə olacaq? Deməli, belə çıxır ki, biz göz-görəti ermənilərin qucağına, ölümə doğru gedək?! - deyə, Novruz Mikayılın fikrilə heç cür razılaşmaq istəmədi.

- Nəsə, təcili bir qərar verməliyik! - Aydın adlı əsir gözlərini postdan çəkmədən dilləndi.

Rahib isə əli ilə kiçik bir sahəni göstərib dedi:

- Bəlkə, bu sahəni keçib, meşəyə girək?

- Biz onsuz da meşəyə girəcəyik, ancaq postu keçəndən sonra. - Mikayıl fikrində israrlı idi.

- Axı, biz postu necə keçəcəyik, Mikayıl? - Novruz yenidən soruşdu.

- Biz pusquda dayanıb, ermənilərin yuxuya getməsini gözləməliyik. Sübh çağı onları hökmən ölüm yuxusu

yaxalayacaq. O zaman biz də onların işini bitirərik. - Mikayıl bildirdi.

- Nə danışdığını bilirsən heç?! - dedi. - Biz silahsız onlarla necə bacaracayıq? - Novruz təəccübünü gizlədə bilmədi.

- Bəs sən nə düşünmüşdün? Burdan elə belə, qorxaq erməni kimi qaçıb gedək? Bəs onların bizim başımıza açdıqları müsibətləri nə tez unutdun, Novruz?! Xeyr, erməni dığalarının mənə etdikləri işgəncələrin, eləcə də şəhid olmuş qardaşlarımızın intiqamını almadan qaçıb gedə bilmərəm. Bu fürsəti əsir düşdüyüm gündən gözləyirəm. Mən intiqamımı hökmən alacağam. Buradan elə belə qaçıb getmək kişilikdən deyil. Əgər siz istəyirsinizsə, dediyiniz istiqamətdə qaçıb aradan çıxa bilərsiniz, - deyə Mikayıl yoldaşlarına qəti fikrini bildirdi.

Bu yerdə fikirlər haçalandığından, yollar da ayrıldı. Üç yoldaş meşəyə girmək üçün açıq sahəyə, Mikayıl isə düşmən postuna üz tutdu. O, əvvəlcə iti addımlarla, sonra isə sürünə-sürünə posta yaxınlaşdı. Postda dörd nəfər idi; ikisi sığınacaqda oturub söhbət edir, ikisi isə bayırda gəzişirdi. O, posta bir az da yaxınlaşıb gözlədi. On-on beş dəqiqə keçdi. Bayırdakı ermənilərdən biri yoldaşına nəsə deyib aralandı və düz Mikayılın gizləndiyi tərəfə gəldi. Mikayıl dərhal başa düşdü ki, erməni təbii tələbatını ödəmək istəyir. Bu Mikayıl üçün göydəndüşmə fürsət oldu. Erməni avtomatını yerə qoyan kimi, Mikayıl pələng cəldliyi ilə gizləndiyi yerdən sıçrayıb ermənini qamarladı. Bunu elə bir anda etdi ki, erməni heç cınqırını belə çıxara bilmədi. O, bir göz qırpımında qavırıb dığanın boynunu sındırdı. “Bu, maşınla tapdaladığınız qardaşlarımın

intiqamı” - deyə astadan dilləndi. Sonra ermənin paltarını geyinib avtomat silahını götürdü, posta gəzişən ermənin yanına getdi. Pəzəvəng erməni yoldaşının gec gəldiyini görüb çağırdı:

- Akop!.. Akop!..

Akopdan səs çıxmadı. Gicgahından aldığı ölüm zərbəsindən daş kimi, o da yerə sərilib qaldı. Mikayıl onun döyüş bıçağını götürdü və bu an ermənilərin qəbir üstündə başını kəsdikləri cavan əsgəri xatırladı və bir andaca düşmənin başını bədənindən ayırdı. “Bu da qəbir üstündə başını kəsdiyiniz cavan əsgərimizin intiqamı!” - deyə gözlərində sanki qığılcım parladı.

İndi blindajdakı ermənilərin işini bitirmək onun üçün çətin deyildi. O, asta addımlarla sığınacağa tərəf getdi. Heç nədən xəbəri olmayan erməni dığaları şirin-şirin söhbət edirdilər. Mikayıl alıcı quş kimi qəfildən onların üstünə şığıdı. Onlar özlərini itirdilər və bir anda nə baş verdiyini anlaya bilmədilər. Mikayıl əlindəki bıçağı silahı götürmək istəyən ermənin boğazına çəkdi. O birisi yerindən qalxıb, silahı götürmək istədi. Amma Mikayıl ona da imkan verməyərək, bıçağı arxadan onun kürəyinə sapladı. “Bu da acından və soyuqdan ölmüş yoldaşlarımın intiqamı!” - deyə dərindən köks ötürdü. O, cəhənnəmlik olmuş erməni daşnaklarının ərzaqlarını götürüb meşəyə girdi. Artıq sübh çağı idi. Bu zaman güclü partlayış eşidildi. Mikayıl yoldaşlarının getdiyi istiqamətə baxdı. Onlar minaya düşmüşdülər. Bu partlayışın səsini ermənilərin digər postu hökmən eşitmişdi. Bacardıqca burdan uzaqlaşıb meşənin dərinliklərinə girmək lazım idi. “Ax, Novruz! Axı, sənə

dedim ki, oradan getmək qorxuludur. Dinləmədin məni!” - Mikayıl yoldaşları üçün çox heyfsiləndi, üzüldü və ayağı tutduqca qaçıb meşənin dərinliklərində görünməz oldu...

Minanın partlaması nəticəsində Rahib həlak olmuş, Aydın isə qılçasının birini itirmişdi. Novruz da qorxaraq daha irəli gedə bilməyərək, yerindəcə oturub qalmışdı. Tezliklə digər postdakı ermənilər partlayışın səsinə gələrək Novruzla Aydını yenidən tutub aparmışdılar. Adları Qırmızı Xaç Komitəsinin siyahısında olduğu üçün onları öldürə bilməyiblər. Çünki düşərgədən qaçan əsirlərin cəzası ölüm idi.

Mikayıl isə 14 gün gecələr yol gedib, gündüzlər meşənin dərinliyində gizlənirdi. Bu müddət ərzində Mikayıl meşədəki meyvələrdən yeyib dolanırdı. Bir axşam o, yuxuda gördü ki, evlərindədir. Həyətlərində yığıncaq var. Məlum oldu ki, oğlunun toyudur. Vağzalı çalınır, ancaq oğlu Tural mağara girmək istəmir. Əmiləri ona çox təkid edirlər ki, Tural mağara girsin. Amma Tural deyir:“Atam gəlməyincə, mən toy mağarına girməyəcəyəm!” Bu zaman Mikayıl yuxudan ayıldı və gülərək dedi: “Demək, mən bu ölüm düşərgəsindən xilas olacağam. Mənə bundan sonra daha ölüm yoxdur!”

On dörd gündən sonra Mikayıl Daşkəsən rayonuna gəlib çıxdı. Beləliklə, on altı ay cəhənnəm əzabı görən Mikayıl əsirlikdən xilas oldu. O, əsir düşərkən yüz altı kiloqram idi, indi isə çəkisi 64 kiloqramdı. O cür cüssəli, boylu-buxunlu bədəndən əsər-əlamət qalmamışdı. Amma Mikayılın on altı aylıq işgəncələrlə dolu əsirlik həyatını, çəkdiyi cəhənnəm əzabını onun ermənilərdən aldığı intiqam qismən də olsa unutdururdu...

# Mətanət

(hekayə)

Səfa dükandan bazarlıq edib evə qayıdanda, həyat yoldaşı Mətanət qabağına çıxıb dedi ki, qonaqlarımız var.

- Kimlərdir? - Səfa təəccüblə soruşdu.
- Həmişəki kimi, yenə də jurnalistlərdi. Sənnən yazmaq istəyirlər. - Mətanət gülümsədi.
- Onlara dəfələrlə demişəm ki, haqqımda yazılmasını xoşlamıram. Bunlar məndən niyə əl çəkmirlər.
- Necə yəni, qəhrəmanlardan yazmaq onların peşəsidir də. Öz işlərini görürlər. Səfa, qadan alım, bu dəfə onları "əliboş" qaytarma. Çünki bu jurnalistləri dostun Fərhad yönləndirib sənə tərəf. - Mətanət əlini ərinin çiyninə qoydu.
- Yaxşı, keçək evə, görək bu dəfə nədən yazmaq istəyirlər.

Çağrılmamış müsafirlərdən biri 24-25 yaşında yaraşıqlı xanım, o biri isə 27-28 yaşında qarayanız oğlandı. Onlar Səfanı görən kimi, ayağa qalxıb təbəssümlə salamlaşdılar.

- Xoş gəlmisiniz, - dedi Səfa. - Deyəsən, siz jurnalistlərdən heç cür yaxa qurtara bilməyəcəyəm.
- Biz istədiyimizi almayınca, kimsənin yaxasını asanlıqla buraxmırıq. Əvvəlcə tanış olaq. Mən Fidan, bu isə həmkarım Murad, - deyə ilk olaraq Fidan xanım dilləndi.

- Haqlısınız, Fidan xanım. Mən sizdən əvvəl də bizə təşrif buyurmuş jurnalistlərə dedim ki, haqqımda nəsə yazılmasını heç xoşlamıram və razı olmadım. Digər tərəfdən də, biz nə etmişik ki, bizdən yazmaq istəyirsiz. Haqqında yazılası o qədər igid, cəsur oğlanlarımız var ki. Mən sadəcə, başqaları kimi Vətən qarşısında olan vətəndaşlıq, övladlıq borcumu yerinə yetirmişəm. Onu da tam olaraq deyil. - Səfa yenə də təvazökarlıq göstərdi.

- Təvazökarlıq etməyin, Səfa bəy, biz sizin haqqınızda demək olar ki, lazımınca məlumat toplamışıq. Amma bunların nə dərəcədə doğru - dürüst olduğunu siz təsdiq etməlisiniz. Sizin barənizdə döyüşçü dostlarınızdan, yaxınlarınızdan yetərincə faktlar əldə etmişik. Onu da deyək ki, bizi yanınıza ən yaxın dostunuz Fərhad göndərib. O, dedi ki, əsl qəhrəman haqqında yazmaq istəyirsinizsə, Səfaya baş çəkin. Onu yola gətirə bilsəniz, əminəm ki, yazdığınız məqalə ictimaiyyət tərəfindən rəğbətlə qarşılanacaq. Bilirik ki, keçdiyiniz döyüş yollarından kimsəyə danışmağı sevmirsiniz. Ona görə də, sizi and veririk o iki gül balanızın canına, bizi burdan "əliboş" yola salmayın. - Fidan xanım yalvarış dolu nəzərlərlə Səfaya baxdı.

- Bu anddan keçə bilməyəcəyimi hardan öyrənmisiz? Siz bu andla məni sanki rinqdəki küncə sıxışdırdız,- deyə Səfa qaçacaq bir yeri qalmamış kimi dilləndi.

- Başqa çarəmiz olmadığına görə and içməyə məcbur olduq. Həm də ailənizi, övladlarınızı çox sevdiyinizi bilirik. Onlardan ötrü hər şeydən, hətta canınızdan belə keçməyə hazır olduğunuza da əminik. Axı, bunlar

gələcək nəsillər üçün yazılmalıdır. Qarabağ müharibəsi bizim ən yeni tariximizdir. - Fidan gülümsündü.

Bu arada Mətanət çayları da gətirdi. Ev sahibəsi zövqlə süfrə açmağı bacarırdı. Səfa həyat yoldaşından bu sarıdan çox razıydı.

- Səfa bəy, biz artıq yazacağımız məqalənin adını belə düşünmüşük: "İki cəbhənin qəhrəmanı" - Fidan xanım dedi.
- Çox pafoslu ad seçmisiniz. - Səfa gülərək bildirdi.- Hər şeydən öncə, onu qeyd edim ki, bu gün burada sizinlə söhbət etməyimin və həyatda qalmağımın əsas səbəbkarı olan həyat yoldaşım Mətanət xanıma borcluyam. Məni yenidən həyata o, qaytarıb.
- Bu barədə də məlumatımız var. İştirakçısı olduğunuz Əfqanıstan və Qarabağ döyüşlərində göstərdiyiniz şücaətlərdən Murad yazacaq. Mənsə sizin Mətanıt xanımla aranızda olan sədaqətli, fədakar, təmiz, saf, ülvi, vaz keçilməyən sevgi, məhəbbət barədə yazacağam. Çünki az-çox sizin dillər əzbəri olmuş əfsanəvi eşq macəranızdan xəbərdaram. Bu barədə dostunuz Fərhad mənə söyləyib. - Fidan dedi.
- Fərhad hər şeyi sizə söyləyibsə, daha mənə nə gərək vardı?! - Səfa güldü.
- Səfa bəy, siz Əfqanıstanın hansı əyalətlərində döyüşmüsünüz?-İlk olaraq Murad soruşdu.
- Demək, artıq suallar yağmağa başladı... Mən Əfqanıstanın müxtəlif əyalətlərində baş verən döyüşlərdə iştirak etmişəm. Qəndəharda, Heratda, Məzari-Şərifdə, Calalabadda, Xosda, Vazaxvada mücahidlərə qarşı ağır

döyüşlərdə dəfələrlə ölümün buz nəfəsiylə qarşılaşmışam. Amma Qarabağ müharibəsində anladım ki, mücahidlərə qarşı vuruşmaqda müsəlman olaraq səhv etmişəm. Mücahidlər öz torpaqları uğrunda vuruşurdular. Düz də edirdilər. Əfqanlar gəlib Qarabağda bizim tərəfimizdən vuruşanda, mən xəcalət çəkdim...

- Əfqanıstandakı döyüş anlarını necə xatırlayırsınız, Səfa bəy? - Murad ikinci sualını verdi.

Səfa bir xeyli fikrə getdi və Qəndəhar, Herat, Xos və Vazaxvadakı ağır döyüşlərdən söhbət açdı. Hiss olunurdu ki, həmin günlərə qayıtmaq Səfa üçün çox çətindi. Ətrafında partlayan mərmilərdən və uçuşan güllələrdən həlak olan döyüşçü dostlarını xatırlamaq ona olduqca ağırdı. Təyyarələrdən, top və tanklardan atılan bomba və mərmilərin səsi onun qulağında səsləndikcə sifətinin rəngi dəyişir, dodaqları titrəyir, gözləri qıyılır, əlləri əsir, əhvalı haldan-hala düşürdü. Səfanın o cəhənnəmdən sağ-salamat qurtulub evə qayıtması əsl möcüzəydi...

- Səfa bəy, bəs Qarabağın hansı bölgələrində döyüşmüsünüz? - Murad yenə soruşdu.

- Bütün bölgələrdə vuruşmuşam. Ağdərədə, Tərtərdə, Ağdamda, Goranboyda, Laçında, Qubadlıda, Zəngilan-da, Füzulidə, Əsgəranda, Xocavənddə döyüşmüşəm.

- Qarabağda məğlub olmağımızın səbəblərini söyləyə bilərsinizmi?

- Səbəblər çoxdur... İlk olaraq - xəyanət. Daha sonra nizami ordunun və vahid komandanlığın olmaması, özünümüdafiə batalyonları arasında fikir ayrılığı, kürsü davası, Azərbaycanda rus kəşfiyyatının maneəsiz və aktiv fəaliyyət göstərməsi. Buna bir balaca aydınlıq gətirmək istəyirəm. Bizim hazırladığımız döyüş planları rus kəşfiyyatı vasitəsilə dərhal ermənilərə ötürülürdü. Hər yerdə, hətta, Müdafiə Nazirliyinin Baş Qərargahında belə rus kəşfiyyatçıları işləyirdilər. Bunu o zaman çoxları

bilirdi. Gəlin, açıq danışaq. Biz ermənilərlə vuruşmuruq ki. Dünyada ən böyük gücə malik olan rus ordusuyla vuruşuruq. O zaman bizim silahımız yoxdu. Silahsız rus ordusuna qarşı necə döyüşə bilərdik?! Və Qarabağda tarix yenidən təkrarlandı. Rusiya Xocalı kimi digər torpaqlarımızı da əlimizdən alıb yenə də ermənilərə verdi. Bunu ona görə etdi ki, gələcəkdə sülh danışıqlarında işğal etdiyi Qarabağ ətrafı rayonları bizə qaytarmaq şərtiylə Azərbaycan onlara müəyyən güzəştə getsin. İndi isə müasir silahlarla təchiz edilmiş güclü ordumuz var. Amma beynəlxalq aləm, güc dövlətləri döyüşməyə icazə vermirlər. Bütün beynəlxalq təşkilatlar, Avropa dövlətləri Azərbaycana qarşı ikili standartlarla çıxış edir. Nə var, nə var - Türkiyə hər zaman Azərbaycanın yanında olduğunu bəyan edir. İstər Rusiya olsun, istərsə də Qərb dövlətləri Azərbaycanın Türkiyə ilə hərbi strateji müttəfiq olmasını hər vasitəylə əngəlləməyə çalışırlar. Çünki Avropa dövlətləri Türkiyənin Orta Şərqdə söz sahibi olmasını heç cür həzm edə bilmirlər. Son zamanlar isə Rusiya Türkiyəyə açıq-açığına düşmən siyasəti yeridir. Bu düşmənçilik siyasətinin kökləri ta qədim zamanlara uzanıb gedir. Hələ I Pyotr öz vəsiyyətində Türkiyəyə olan nifrətini açıq-açığına bəyan etmişdi. Vəsiyyətdə deyilir: *"...Rusiya yalnız o zaman dünyəvi dövlət adlana bilər ki, Asiya və Avropanın xəzinələrinin açarı olan İstambul onun paytaxtı olsun. Boş yerə vaxt itirmək olmaz. İstambulu ələ keçirmək lazımdır... İstanbula sahib olan çar, dünyaya da sahib olacaq...*

*... Bu məqsədə çatmaq üçün hər zaman Osmanlı imperiyası ilə İran arasında nifaq salmaq lazımdır. Bu işdə sünni və şiələr arasındakı mübahisə əla vasitə ola bilər. Türkiyə və İran arasındakı tarazlığı elə pozmaq lazımdır ki, onlar ortaq dil tapa bilməsinlər...*

*... Ermənilər və əgər varsa başqa xristianları Gilana və Mazandarana köçürmək, müsəlmanları isə onlar bilmədən tədricən azaltmaq lazımdır...*

*... Nə İrana, nə də Osmanlılara Avropa xalqları ilə əlaqəyə girməyə imkan verilməməlidir. Əgər bu ölkələrin müsəlmanları qayğıdan azad olub öz hüquqlarını bilsələr, bu bizim üçün böyük zərbə olacaq...*

*... Hər yolla çalışmaq lazımdır ki, İran pulsuz və ticarətiz qalsın. Ən əsası İranı süquta gətirmək, onu asılı vəziyyətdə saxlamaq lazımdır ki, Rusiya istənilən vaxt onu məhv edə bilsin. Lakin İranı Osmanlı dövləti məhv edilməmişdən öncə sıradan çıxarmaq olmaz. Osmanlı dövlətini süqut etdirdikdən sonra, İranı da əziyyətsiz məhv etmək, "onun başını kəsmək" olar. Ona görə də vaxt itirmədən siz Qafqazı işğal edərək İranın daxili hakimlərini özünüzün itaətkar qulluqçularınıza çevir-məlisiniz..."*

Buradan aydın görünür ki, I Pyotr "gələcək nəsillərə vəsiyyət" yazarkən alicənablıq və ədalət prinsiplərinə qətiyyən əməl etməmişdir. Ona yalnız işğallar lazım idi...

Bildiyimiz kimi, bu ziddiyyət rus təyyarəsinin türklər tərəfindən vurulmasından sonra daha da qızışdı. Həmin təyyarə məsələsindən sonra Türkiyədə hər gün terror aktı törədilir, günahsız insanlar ölürlər.Terrora görə isə kimsə

Türkiyəni müdafiə etmək istəmir. Edirlərsə də, o da sözdədir. Türkiyə təklənib, təkbaşına həm terrora, həm də bütün güc dövlətlərinin təşkil etdikləri daxili təxribatlara qarşı mübarizə aparır. Buna görə də heç olmasa, Azərbaycan bütün anlarda qardaş Türkiyənin yanında olmalıdır. Necə ki, onlar hər zaman bizim yanımızdadır. Düşmənlər Türkiyəni dinc nəfəs almağa imkan vermirlər. Türkiyə həm də bütün dünyaya əsl demokratik dövlət necə olmalıdır mesajını verir və bu dövlətin daim məzlumların yanında olduğunu sübut edir. Görün bir, Suriyadan, eləcə də digər Orta Şərq ölkələrindən nə qədər qaçqın Türkiyəyə sığınıb. Bu qonaqpərvərliyi, bu ağırlığı heç bir ölkə qəbul edə bilməz. Necə ki, hər yerdə özlərini insan hüquqlarının qarantı hesab edən Avropa dövlətləri sərhədlərini qaçqınların üzünə qapadı.Bu dövlətlər ancaq söz pəhləvanlarıdır. O ki qaldı Rusiya ilə bizim münasibətimizə, bu, heç bir zaman arası düzəlməyən qəliz məsələdir. Zahiri cəhətdən Rusiya Azərbaycanı özünün strateji müttəfiqi adlandırsa da, bunlar yalnız sözdədir. Hamımıza bəllidir ki, ruslar hər zaman ermənilərin yanındadır və hər vasitəylə onları müdafiə edirlər. Əgər Rusiya ermənilərin üstündən əlini heç olmasa bir həftəliyinə çəkərsə, o zaman Azərbaycan ordusu Yerevanda olar. Milli Ordumuz nəyə qadir olduğunu düşmənə 2-5 aprel döyüşlərində sübut etdi. İndinin özündə də Qarabağda rus kəşfiyyatı dinc durmur. Onlar hər necə olursa-olsun Qarabağda vəziyyəti gərgin olaraq saxlamağa çalışırlar...

Daha sonra Murad Səfadan ən yadda qalan döyüş səhnələrindən danışmağı xahiş etdi. Səfa yarım saat da

Qarabağdakı ağır döyüşlərdən söhbət açdı... Stolun üstündəki külqabıda siqaret kötükləri qalaqlanmışdı...

- Son olaraq bir sual da vermək istəyirəm, Səfa bəy. Danışdığınız kimi, çox döyüşlərdə iştirak etmisiniz. Bu döyüşlərdə sizin xatirənizdə qalan ən yaxşı komandir kim olub?

- Ən yaxşı və cəsur komandirim Azərbaycanın Milli Qəhrəmanı rəhmətlik Riad Əhmədov olub. Onun haqqında eşitmiş olarsız. Mən onunla Goranboy, Füzuli, Əsgəran və Ağdamın müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak etmişəm. Rəhmətlik həm bacarıqlı komandir, həm də cəsur kəşfiyyatçı idi. Səhv etmirəm-sə, o, 1992-ci ilin yanvar ayında Müdafiə Nazirliyinin Kəşfiyyat İdarəsinin rəis müavini vəzifəsinə təyin edilmişdi. Riad 1992-ci il yanvarın 25-dən 26-na keçən gecə xəyanət nəticəsində uğursuzluqla başa çatan Daşaltı əməliyyatında qəhrəmancasına həlak oldu. İndi 203 saylı tam orta məktəb qəhrəman R.Əhmədovun adını daşıyır...

- İndi isə Mətanətlə necə ailə həyatı qurduğunuzdan, aranızdakı saf, sədaqətli eşqdən danışın. - deyə bu dəfə Fidan söhbətə müdaxilə etdi.

- Təəssüf ki, bu barədə mən sizə heç bir məlumat verə bilməyəcəyəm. Çünki sizin yazacağınız əsərin qəhrəmanı Mətanət xanımdır. Yaxşı olar ki, bu barədə onun özündən müsahibə götürəsiz. Ancaq mənim yanımda deyil, qonşu otaqda, ikilikdə söhbət edin. - Səfa göstəriş verdi.

- Yaxşı, biz Mətanət xanımla ayrıca otaqda söhbət edərik. - deyə Fidan diktafonunu da götürüb Mətanətlə birgə qonşu otağa keçdilər.
- Mətanət xanım, biz sizin əhdinizə, eşqinizə necə vəfalı və sədaqətli olduğunuz barədə bilirik. Amma bunu bir daha sizdən eşitmək istəyirik. Deyin görək, Səfa ilə ilk dəfə harada tanış olmusunuz? Yəni, sevgi dolu həyatınız barədə ətraflı danışın.

- Səfa məni rəfiqəmin toyunda görmüşdü. Sonra atası, anası bizə elçiliyə gəldilər. Razılıq oldu və mən Səfayla nişanlandım. Nişanlanandan bir ay sonra Səfa Qarabağa vuruşmağa getdi. Arada bir-iki günlüyə evə gəlirdi. Bir gün eşitdim ki, Səfa döyüşlərin birində ağır yaralanıb və Papanindəki hərbi hospitala gətiriblər. Məni onun yanına getməyimə icazə vermədilər. Həm də onun vəziyyəti barədə kimsə mənə bir söz demirdi. Çox tələşlanmışdım. Nə edəcəyimi bilmirdim. İçimdə ürəyimi sanki birisi sıxıb, sonra da buraxırdı. Dörd gündən sonra dedilər ki, Səfanı evlərinə gətiriblər. Evdəkilərin etirazına baxmayaraq, Səfanı görməyə getdim. Qarşılaşdığım mənzərə məni çox məyus və pərişan etdi. Səfanın üzündə həyat əlaməti görünmürdü. Sifətinin rəngi payız yarpağına bənzəyirdi. Danışmağa taqəti yoxdu. O, məni görcək ancaq gözləriylə “xoş gəldin” dedi. Həkimlər atasına və qardaşına deyiblər ki, evə aparın, bir-iki günlük ömrü qalıb. Qoy bu iki günü də evində, yaxınlarının yanında keçirsin. Səfanın bədənindəki güllə və qəlpələri çıxarmışdılar, ancaq ürək nahiyəsi yaxınlığında bir qəlpə qalmışdı. Həkimlər, “bu qəlpə

təhlükəlidir” deyə ona əl vurmamışdılar. O, Əfqanıstandakı döyüşlərdə də iki dəfə yaralanmışdı. Amma yaxşı müalicə olunmuşdu. Bu dəfə isə onun həyatı təhlükə qarşısındaydı. Həkimlər onu da deyiblər ki, Səfanın ayaqları da tutulub.Güllələr onun sinir damarlarını zədələdiyindən iflic olub.Nişanlım gözümün önündə ölümlə pəncələşirdi. Amma bütün bunlara rəğmən içimdə Səfaya qarşı bir ümid çırağı yanmaqdaydı. Daha kimsənin dediyinə qulaq asmaq belə istəmirdim. Bizi otaqda baş-başa buraxdılar. Mən əvvəlcə otağın ağır havasını dəyişmək üçün pəncərəni açdım. Sonra yavaş-yavaş Səfaya yaxınlaşdım. Əlini əllərimə aldım. Sonra əlini qaldırıb üzümə sürtdüm. Alnından və tük basmış yanağından öpdüm. Bu zaman onun gözlərindən yaş axaraq tüklü sifətində dayandı. Bu yaşıl otların üzərinə qonmuş şehə bənzədi. “Sən sağalacaqsan, ayağa qalxacaqsan, Səfa!” deyə nişanlımın qəlbində sönməkdə olan ümid işartılarını yenidən alovlandırmaq istədim. Amma o, bunu eşidəndən sonra başını yana çevirdi. “Sən yaşayacaqsan! Biz səninlə evlənəcəyik! Gözəl-göyçək uşaqlarımız olacaq” dedim. Hiss edirdim ki, Səfa dediklərimin heç birisinə inanmır, bütün bunların onunçün sadəcə, bir təsəlli olduğunu düşünürdü...

Həmin gün Səfanın yanında çox qalmadım. Evə gəldim. Vaxtilə qoca nənəmin, yəni anamın anasının ağır yaraların türkəçarə ilə necə tez bir zamanda sağalması barədə yazdığım dəftərçəni axtardım. Rəhmətlik nənəm o zaman deyirdi ki, bala, dediklərimi yaz saxla, vaxt olar

karına gələr. Hər cür xəstəliyin çarəsi vardı bu dəftərçədə. Amma buradakı şəfa bitkilərini tapmaq lazımdı. Dəftərçəni tapmaq üçün evi iki gün ələk-vələk elədim. Təzə binaya köçəndə, dəftər-kitablarım bir-birinə qarışmışdı. Mənim həm də iki illik tibb təhsilim vardı. Tibb texnikumunu bitirmişdim. Bu zaman evimizdə artıq söz-söhbət başlamışdı. Atam və anam nişanın qaytarılması barədə mənə eşitdirmişdilər. Mən isə hələlik susurdum. Bir gün anam yenə də mənə: "Qızım, bilirik ki, sənincün ağırdır. Amma nə etmək olar, bu taleyin işidir. Sənin həyatın qabaqdadır. Nişanın qaytarılmasına Səfanın valideynləri də heç bir söz deməz. Onlar da vəziyyəti görür və başa düşürlər." dedi.

Sanki bir anlığa övladla valideyn arasındakı həya pərdəsi aradan qalxdı və özümdən asılı olmayaraq ucadan qışqırdım: "Səfa ölməyəcək, ana, o, yaşayacaq! Bunu da birdəfəlik bilməlisiz ki, barmağıma taxılmış bu, üzüyü heç vaxt çıxarmayacağam!.."

Bundan sonra kimsəni dinləmək istəmədim. Mən dəftərçəmdəki şəfa bitkilərini toplamaq üçün Səfanın qardaşıyla əvvəlcə Naxçıvana, sonra İsmayıllı, Gədəbəy, Yardımlı, Lerik və Şamaxı rayonlarına getdim. Bitkiləri topladıqdan sonra ciddi-səylə Səfanın müalicəsinə başladım. Buna görə yaxınlarım məni qınayırdılar. Hətta, mənim dəli olduğumu belə dilə gətirməkdən çəkinmirdilər. Həkimlərin nişanlım haqqında dedikləri ölüm vaxtı artıq çoxdan ötüb keçmişdi. Hamı heyrət içindəydi. Səfa günü-gündən irəli gəlir, yaxşılaşırdı. Bizim evdə isə kimsə mənimlə kəlmə kəsmirdi...

Aylar keçdi... Səfanın yaraları tamam sağalmışdı. Nitq qabiliyyəti tam bərpa olmuşdu. İndi növbə ayaqların müalicəsindəydi. Altı aydan sonra onun ayaqlarında da hissetmə bərpa olundu. Səfanın sağalmasını hamı möcüzə adlandırırdı. Dostları Səfaya deyirdilər ki, səni Allahın köməyiylə Mətanətin sədaqətli, vəfalı sevdası sağaltdı. Bir sözlə, Allah-təala səni Mətanətə bağışladı...

Bu müddət ərzində valideynlərim məndən tamam üz döndərdilər. “Bizim sən adda qızımız yoxdur daha!” deyərək valideyn - övlad münasibətlərinə nöqtə qoydular...

Onu da deyim ki, Səfanın ağır günlərində döyüşçü dostları onu heç vaxt yalqız buraxmadılar. Bu cür dostluq və yoldaşlığı görəndə, mənə daha da güc, qüvvət gəlirdi. İnadkarlığım artırdı. Çünki özümdə bu sevdadan əsla vaz keçməyəcəyimə söz vermişdim. Bu sədaqətli eşq məni ən yaxınlarımdan - ata, anamdan belə üz döndərməyə məcbur etdi. Səfa sağalandan sonra biz evləndik. Amma valideynlərim toyumuzda iştirak etmədilər. Ancaq qəlbən inanıram ki, bu sevdada mənim heç bir qəbahətim, günahım yoxdur. Qəbahətim bir ondaydı ki, mən Səfanı çox sevirdim. O da məni. Gördüyünüz kimi, iki uşağımız da var. Xoşbəxt yaşayırıq. Allah hər bir gəncə bizim kimi ailə nəsib etsin. Amin!

- Amin! Mətanət xanım, deyin görək, valideynləriniz indi də sizinlə danışmır?

- Xeyr, xeyr... İndi danışırıq. Valideynlərimiz arasındakı soyuq münasibət ilk övladımız Mərdanın dünyaya gəlişiylə isindi. Onlar bu sevdada səhv etdiklərini etiraf

etdilər... Artıq indi onlar da digərləri kimi, eşqimizə, ailə münasibətlərimizə hörmətlə yanaşırlar, nəvələrini çox istəyirlər...

- Görünür, eşqiniz, sevdanız uğrunda adınız kimi mətanətlə mübarizə aparmısınız. Məncə, Səfa bəyin tam sağalmasına əsas səbəb də sizin saf, təmiz, ülvi məhəbbətiniz olub, - deyə Fidan xanım dərindən köks ötürdü.

- "Adınız kimi" dediniz, yadıma rəhmətlik əmim düşdü. Mətanət adını mənə əmim verib. Rəhmətlik mənə ad verərkən deyib: "Mən bu qızın adını Mətanət qoyuram. Qoy bu qız həyatda adına layiq böyüsün. Gələcək sevgisində səbrli, dəyanətli və mətanətli olsun. Sevgi, məhəbbət yollarındakı cəfakeşliyi və mübarizliyi başqalarına ibrət olsun. Allah-təala bu qızın gələcəyini xeyirli və xoşbəxt etsin!"

... Fidan xanım dərin fikrə getmişdi. Handan-hana özünə gəldi və gülərək dedi: "Bəli, təməli saf, sədaqət və qarşılıqlı inam üzərində qurulmuş ailə uzunömürlü olur. Eşq olsun, bu cür sədaqətli sevdaya və xoşbəxt ailəyə!.."

# APOKALİPSİS

# yaxud Qiyamətin premyerası

(hekayə)

Hər gün atılan güllə səslərinə şəhər əhalisi artıq alışmışdı. Quşbaşı qar yağan sərt qış gecəsi.O gecə yer üzündə görünməyən dəhşət yaşadı Xocalı şəhəri. Evlərə-eşiklərə od vuruldu, torpaq qana qərq edildi o müdhiş gecə. Xocalı şəhərinin üzərinə sanki ölüm pərdəsi çəkilmişdi. Evlərdə şirin yuxuya dalmış körpə uşaqlar top-tüfəng səsinə ayıldılar. Pəncərədən bayıra baxdılar, hər tərəf od tutub yanırdı. Şəhər dörd bir tərəfdən atəşə tutulurdu. Getdikcə yaralananların, ölənlərin sayı artırdı. Gecə təxminən 2 radələrində şəhər sakinləri müqavimət göstərməyin mənasız olduğunu görüb şəhəri tərk etməyə başladı. Onlar bir neçə dəstəylə şəhərdən çıxırdılar. Hər dəstədə təxminən 150-200 nəfərə yaxın adam vardı. Ermənilər isə şəhər əhalisinin çıxa biləcəyi bütün yollarda pusqular qurmuşdular. Tərkibində 150-yə qədər adam olan dəstə Kətik meşəsi yaxınlığında ermənilərin pusqusuna düşdülər. Qansız ermənilər silahsız, köməksiz insanları - körpə uşaqları, qadınları, qocaları atəşə tutaraq son nəfərə kimi hamısını amansızcasına qətlə yetirdilər.

Şəhərdə isə güllə, mərmi səsindən qulaq tutulurdu. İnsan qışqırtısı ərşə dirənmişdi. Sanki yerə ölüm mələyi enmişdi. Uşaqların, qadınların, qocaların vahiməli qışqırtıları odlu silahların və hərbi texnikanın səsinə qarışmışdı. Şəhər əhalisinə amansızcasına divan tutulurdu. Hara gəldi qaçdığını bilməyən adamlar güllələrə tuş gələrək yerə yıxılır, hələ ölmədiyini hiss edərək özündə güc toplayaraq bu dəhşət saçan yerdən uzaqlaşmağa çalışırdılar. Hamı çaşqın vəziyyətdəydi. “Ana! ... ana! ... ana!” deyən körpə uşaqların səsi, qocaların fəryadı, tank və BTR-lərin gurultusu bir-birinə qarışaraq tükürpədici bir xaos yaradırdı. Bir uşağını qucağında, digərini əlindən tutub güllələrdən qaçıb xilas olmağa çalışan analar, ayaqqabılarını belə ayaqlarına taxmağa vaxt tapmayan yaşlı insanlar, gözlərində nifrət qığılcımları parlayan gənclərin pərişan və məyus olduqları aydınca sezilirdi. Qəlblərində düşmənə hədsiz nifrət, Vətənə sonsuz sevgi, torpağa möhkəm bağlı olan bu gənclər nə edəcəklərini bilmirdilər. Yeganə çarə od tutub yanan şəhərdən tezliklə çıxmaqdı...

***

Bu, məkrli və hiyləgər düşmənin uzun zamandan bəri öz himayədarlarıyla həyata keçirməyə çalışdıqları Xocalıya qəfil hücum planıydı. Və ermənilər bu məkrli planı, bəşəri cinayəti, kütləvi qətliamı, soyqırımını rusların 366 - cı motoatıcı alayının köməyi ilə həyata keçirdilər. Çünki Xocalı şəhəri düşmən üçün göz dağıydı. Bir ilə

yaxındı ki, Xocalı şəhəri demək olar ki, blokada şəraitində yaşayırdı. Şəhərin digər rayonlarla avtomobil əlaqəsi tamam kəsilmiş və yeganə nəqliyyat vasitəsi hava məkanıyla - vertolyotla qalmışdı. Sonradan bu şəhərə vertolyotla da əlaqə kəsilmişdi. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulması və nəticədə 40 nəfərin həlakından sonra daha buraya vertolyot da uçmadı. Yanvarın 2-dən şəhərə elektrik verilmirdi. Şəhər ancaq əhalinin qəhrəmanlığı və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi əsasən atıcı silahlarla silahlanmış yerli özünümüdafiə dəstəsi, milis və Milli Ordunun azsaylı döyüşçülərindən təşkil olunmuşdu.

Ermənilərin Xocalı şəhərini hədəfə almaqda məqsədləri vardı. Bu bir tərəfdən Qarabağın dağlıq hissəsində azərbaycanlılardan ibarət olan strateji əhəmiyyətli maneəni aradan qaldırmaq, Xocalını yer üzündən birdəfəlik silməkdi. Çünki Xocalı elə bir yaşayış məskəniydi ki, o, Azərbaycan tarixinin qədim dövrlərindən müasir dövrə qədər tarix və mədəniyyət ənənələrini özündə əks etdirirdi. Bu xüsusi mədəniyyət tarixə Xocalı-Gədəbəy mədəniyyəti kimi düşmüşdür. Burada tarixi abidələr indiyə qədər qalmaqdadır. Erməni silahlı dəstələrinin Xocalıya hücümunu şəhərin həm də coğrafi mövqeyi şərtləndirirdi. Bu şəhər Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşdiyindən ermənilər üçün mühüm strateji əhəmiyyət kəsb edirdi. Bundan

savayı, Qarabağdakı yeganə hava limanı da Xocalıda yerləşirdi.

Son illərdə baş vermiş hadisələrlə əlaqədar olaraq Fərqanədən (Özbəkistan) qaçqın düşmüş 54 məhsəti-türkü ailəsi, həmçinin Qərbi Azərbaycandan və Xankəndindən qovulmuş azərbaycanlıların bəziləri bu şəhərdə məskunlaşmışdılar.

***

Polis işçisi Xəqani Səlimov anası, kiçik qardaşı və iki bacısıyla evdəydilər. Atışma başlayanda Xəqani düşündü ki, hər gün olduğu kimi bir az atıb dayanacaqlar. Təxminən səhər saat 3-4 radələrində atışma şiddətləndi. Xəqani tez küçəyə çıxdı. O, gördü ki, şəhərin yuxarı tərəfindəki fin evləri yanır. Atəş başlayanda Xəqani anasını, iki bacısını və kiçik qardaşı Xəzəri evin zirzəmisində gizlətdi. O tez avtomatını götürüb şəhərin mərkəzindəki mağazaya tərəf gəldi. Xəqani mağazaya çatanda, erməni dilində danışan adamlarla rastlaşdı. Onlar hamısı silahlı idilər. Onu görməsinlər deyə, tez yaxınlıqdakı dükanın arxasında gizləndi. “Demək, ermənilər şəhərə girib” deyə Xəqani düşündü. O gördü ki, silahlı ermənilər evlərə girir, oradakı ev əşyalarını götürüb çıxırlar. “Əclaflar camaatın mal-mülkünü dədələrinin malı kimi talan edirlər” deyə Xəqanini hirs bürüdü. O daha əsəblərini cilovlaya bilməyib dükanın arxasındakı Ramizin evindən çıxan 7-8 ermənini atəşə tutdu. Ermənilərdən bir neçəsi yerə sərildi və qalanlar atəş açılan tərəfə güllə

yağdırmağa başladılar. Xəqani cəld yerini dəyişərək, başqa həyətə keçdi və evə girmək istədi. Amma gördü ki, evdə iki silahlı erməni var. Onlar evi axtarırdılar. Cəsur polis tez evə girdi və sərrast atəşlə hər iki ermənini gəbərtdi. Sonra o, yenidən küçəyə çıxmaq istərkən 3 nəfər silahlı ermənin pilləkənlə eyvana çıxdığını gördü. Xəqani geri dönüb otağın birində gizləndi. Ermənilər başqa otağa girdilər. O, əlində hazır saxladığı avtomatla ermənilər olan otağa daxil olaraq ani atəşlə onları da cəhənnəmə vasil etdi. Polis evdən çıxıb həyətə düşdü. Bu zaman o, küçəylə qaçan bir qadını və onu arxasınca təqib edən iki silahlı erməni faşistini gördü. Qadın canını götürüb qaçırdı. Sonda silahlı ermənilər arxadan çatıb qadını tutdular və onu yerə yıxdılar. Dığalar əl atıb qadının qulağındakı sırğaları, boynundakı boyunbağını və əlindəki üzüyü zorla çıxardılar. Sonra da o biri erməni əl atıb qadının yaxalığını cırdı. Bu yerdə Xəqani dözə bilməyib alıcı quş kimi irəli şığıyaraq, əlində qadının zinət əşyalarını tutan erməni dığasının gicgahına avtomatın qundağıyla möhkəm bir zərbə vurdu və o dərhal yerə sərildi. Xəqani geri dönüb qadına təcavüz etmək istəyən ikinci ermənin sinəsindən təpiklə vurdu. Erməni dığası zərbəyə tab gətirə bilməyib arxası üstə yerə düşdü. Və bu zaman Xəqani onun ürəyindən atəş açdı. O, qadını yerdən qaldıraraq ermənin ondan aldığı qızıl əşyaları özünə qaytarıb soruşdu:

- Bacı, indi hansı istiqamətə gedəcəksən? Sizinkilər hardadır?

- Ermənilər ərimi, bir oğlumu güllələdilər, iki qızımı isə

əsir alıb apardılar. İndi hara gedəcəyimi bilmirəm, - deyib bayıldı.

Hər an qiymətliydi. Xəqani qadının üzünü sillələyib özünə gətirdi.

- Bacım, kimin yoldaşısız? Ərinizin adını desəz, tanıyaram.
- Ərim Nüsrət Əzizov könüllülər batalyonunda döyüşürdü. Bu alçaqlar faşistlərdən də betərdir. Gördükləri yerdə uşaq, böyük, qoca, qadın fərqinə varmadan hamısını güllələyir, ən ağır işgəncələr verərək qətlə yetirirlər. Allah bunların bəlasını versin! Bunlara insan deməyin özü böyük günahdır. Qonşumuz Hidayətin əl-qolunu bağlayıb tankın altına atdıqlarını gözlərimlə gördüm. Tank onun üstündən keçdi, - deyə qadını qəhər boğdu.
- Yaxşı tanıyıram Nüsrəti, cəsur döyüşçüydü, Allah rəhmət eləsin. Onunla bir gecə birlikdə növbədə də qalmışdıq. Nəsə, bacım, tələsmək lazımdır. Mən səni bizimkilərdən kimisə görsəm, ona təhvil verəcəyəm. İndi burda ermənilərin vəhşiliklərini müzakirə etməyin yeri deyil. Onların necə bir pislik və murdar millət olduğunu tarix artıq sübut edib. Mən də anamdan, qardaş və bacılarımdan xəbər tutmalıyam. Son dəfə atışma başlayanda onları evimizin zirzəmisində gizlətmişdim. İndi başlarına nə gəldiyindən xəbərim yoxdu, - deyə Xəqani Nüsrətin həyat yoldaşını da götürüb ehtiyatla o biri qonşunun həyətinə girdi.

Xəqani evi nəzarətdə saxladı. Orada erməni silahlıları ola bilərdi. Şəhərin arxa küçələrindən güllə səsləri,

adamların qışqırtısı, bağırtısı gəlirdi. Birdən lap yaxınlıqdakı küçədə BTR səsi eşidildi. O, qadını taxta hasarın arxasında gizlədib, özü isə aşağı əyilib hasarın dibiylə səs gələn küçəyə tərəf getdi və azacıq başını qaldırıb ətrafa baxdı. Ondan otuz-qırx metr aralıda iki erməni silahlısı qabaqlarında iki qadını, iki oğlan uşağı və bir qız uşağını harasa aparırdı. Xəqani ermənilərə görünməmək üçün hasarın arxa tərəfiylə onlara sarı irəlilədi. Sonra həmin iki erməni birdən dayandı, bir-biriylə aralarında nəsə danışdılar və əsir götürdükləri qadın və uşaqları yaxınlıqdakı evin həyətinə apardılar. “Deyəsən, əclaflar onları güllələyəcəklər!” deyə Xəqani düşündü. O, əl atıb avtomatın darağını çıxarıb yoxladı. Daraqda hələ patron vardı. Xəqani səssicə ermənilərin ardınca həyətə daxil oldu. O, fikrində yanılmamışdı, ermənilər doğrudan da onları güllələmək istəyirdi. Qaniçənlər əsirləri bir otağa yığdılar. Xəqani özünə münasib mövqe tutmağa çalışdı. Gecikmək olmazdı, onlar qadınlara və uşaqlara hər an atəş aça bilərdilər. O, içəri keçə bilməzdi. Ona görə də ermənilər pəncərədən vurmağı qərara aldı. Avtomatını “odinoçkaya” qoydu və pəncərədən baş nahiyəsi yaxşı görünən ermənini nişan aldı. Atəşin açılmasıyla erməni dığasının yerə dəyməsi bir oldu. O biri erməni çaşqın halda əsirlərin arxasında gizlənmək istərkən ikinci atəş açıldı. Xəqaninin sərrast atəşi ikinci ermənini də cəhənnəmə göndərdi. O, cəld otağa girdi, qadın və uşaqlar qorxularından bir-birlərinə sıxılmışdılar. “Qorx-mayın, sizi qurtarmağa gəlmişəm”, deyə onlara təskinlik verdi.

- Allah köməyin olsun, bala! Səni bizə Tanrı yetirdi. Yoxsa axırımız çatmışdı, - yaşlı qadın fağır-fağır Xəqaniyə baxdı.

- Siz hələlik burda qalın, indi mən sizə bir qadın da gətirəcəyəm, onu da sizin kimi erməni dığalarının əlindən qurtardım. - Xəqani bunu deyib Nüsrətin həyat yoldaşının dalısıyca getdi.

Az keçməmiş o, Kübra ilə birlikdə geri qayıtdı. Sonra o, ölmüş iki ermənin ayaqlarından tutaraq sürüyə-sürüyə gətirib həyətdəki kiçik damda gizlətdi. Xəqani ermənilərin avtomatının birinin darağını çıxarıb qoltuq cibinə qoydu, ikinci avtomatı əlinə götürüb qadınlara göstərib soruşdu:

- Silahdan istifadə etməyi kimsə bacarırmı? Çünki mən hələlik sizi burda təkbaşınıza qoyub ailəmin yanına getməliyəm. Onlardan xəbər tutmalıyam.

- Sən o silahı bəri ver, əlbəttə bacararıq. Ancaq sən bir az bizə bundan necə atəş açmağı öyrət, qalanıyla işin olmasın, - deyə Nübar bacı cavab verdi.

Xəqani Nübar bacıya silahla necə davranmalı barədə qısaca "təlim" keçdikdən sonra onları burada qoyub ailəsinin dalısıyca getdi. Gedərkən o, qadınlara tezliklə geri qayıdacağına və onları da birlikdə şəhərdən çıxaracağına söz verdi.

O, hasarların arxasıyla gizlənə-gizlənə evlərinə tərəf irəlilədi. Həm yaxın küçələrdən, həm də şəhərin dörd istiqamətindən atəş səsləri eşidilməkdə davam edirdi. Arada tank və toplardan atılan mərmi səsləri, iri çaplı

pulemyotların səsi gəlirdi, şəhərin girişindəki evlər od tutub yanırdı. Xəqani ikinci küçəyə yenicə keçmişdi ki, tank tırtıllarının səsini eşitdi. O, hasarın arxasında gizlənərək səs gələn tərəfi müşahidə etməyə başladı. Az vaxt keçmişdi ki, o qorxunc "dəmir heyvan" göründü. Arxasınca da 7-8 erməni silahlısı gəlirdi. Xəqani nəfəsini içinə çəkib bir müddət səssiz qaldı. O, ermənilərin ötüb keçdiyini yəqin etdikdən sonra evlərinə tərəf yolunu davam etdi. Evlərinə çatanda həyət darvazasının və evin qapılarının taybatay açıq olduğunu, ev əşyalarının ermənilər tərəfindən talan edildiyini gördü. Otaqların birindən tüstü çıxırdı. Xəqani tez özünü həmin otağa saldı. Ermənilər evi çapıb-taladıqdan sonra yandırmaq istəyib, amma nədənsə od alovlanmadan tez sönüb. O, ailəsini yoxlamaq üçün cəld zirzəmiyə endi. Orada kimsə yoxdu. Xəqani məyus və peşman halda yenidən qoyub gəldiyi qadın və uşaqların yanına qayıtdı. Amma o burada daha dəhşətli mənzərəylə qarşılaşdı. Evin həyətində iki erməni dığasının cəsədi vardı. Silah verdiyi qadın isə arxası üstə yerdə düşüb qalmış, bədəni güllələrdən dəlik-deşik edilmiş, gözləri də açıq qalmışdı. Qalanlarından isə xəbər yoxdu. O, gözləri dolmuş halda Nübara yaxınlaşdı, onun qarşısında aşağı əyilərək sağ əliylə onun açıq qalmış gözlərini qapadı və sonra həyəti tərk etdi.

Xəqani hasardan adlayıb qonşu həyətə girdi. Bu zaman evin içində iki erməni olduğunu gördü. Onlar evi axtarırdılar və istədiklərini əldə edə bilmədikləri üçün əsəbiləşərək avtomat silahlarıyla evin içində hər tərəfə

atəş açmağa başladılar. Xəqani fürsəti əldən verməyərək onların atəş səsinə avtomatını işə saldı. Və hər iki erməni dığası heyvan səsi çıxararaq yerə yıxıldı. Xəqani yaxınlaşıb onların da avtomatının patron daraqlarını götürdü, sonra başqa küçəyə keçdi. Polis işçisi əsl kinolarda olduğu kimi, təkbaşına şəhərdə düşmən əhatəsində "rembo"luq edirdi. Amma ailəsini tapa bilmədiyi üçün onun içində bir nigarançılıq, bir sıxıntı vardı. O, otaqdan çıxmaq istərkən qəflətən otağı böyük alov kürəsi bürüdü və güclü partlayış dalğası onu bir neçə metr kənara atdı. Onun əynindəki paltar od tutub yanırdı. Başındakı papaq da alışdı və o, tez əynindəki buşlatı, papağı çıxarıb kənara tulladı. Görünür, tank evi məhv etmək üçün nişan alıbmış. Xəqani əynindəki yanan paltarı çıxararkən əlləri və üzü yandı. Sonra o, huşunu itirib döşəməyə yıxıldı. Qısa bir müddət keçdikdən sonra o özünü ələ alıb həyətdə kimsəni görməyib evdən çıxdı və həyətdən tövləyə girdi. Tövlədə çox qalmaq təhlükəliydi. Çünki ermənilər hər an burunlarını ora soxa bilərdilər. Xəqani tövlədə təxminən on-on beş dəqiqə qaldıqdan sonra özünü toparlayıb yenidən evlərinə gəldi. Bu dəfə evləri od tutub yanırdı. O, qonşu evin ətrafında təxminən 30-35 erməni gördü. Ermənilər görən kimi, ailəsinin yoxluğu, Nübar bacının al-qan içində gördüyü bumbuz çöhrəsi yadına düşdü, ürəyi gizildədi və "Əclaflar, bu torpaqlar sizə qismət olmayacaq! Bu yerlər sizin məzarınız olcaq!" , deyə avtomat silahını ermənilərə tuşlayıb daraq boşalmayıncaya qədər əlini tətikdən çəkmədi. Bir neçə erməni dığası bağıraraq yerə yıxıldı.

Sonra o, qaçaraq həyətlərin hasarlarından bir-bir adlayıb əvvəlki tövləyə gəldi. O, qaçarkən küçədə iki PDM və bir ZTR gördü. Bu döyüş maşınlarının nömrəsi görünmürdü. Çünki hərbi texnikanın nömrə olan yerləri parçalarla örtülmüşdü. Bu vaxt şəhərin polis bölməsi tərəfdən atışma səsi gəlirdi. Hər tərəfdə erməni silahlıları və rus hərbi texnikası vardı. Xəqani belə bir vəziyyətdə təkbaşına müqavimət göstərməyin yersiz olduğunu düşünüb şəhəri tərk etməyi qərara aldı. O, Əsgəran rayonu istiqamətinə hərəkət etməyi planlaşdırmışdı. Tövlədən çıxdı və qonşu küçəyə çıxmaq istərkən dəhşətli bağırtılar eşitdi. Küçənin ortasında dörd mülki vətəndaşın cəsədi qalmışdı. Xəqani ehtiyatla irəliləyərək küçəni adladı və bağırtı, qışqırtı gələn səmtə nəzər saldı. O gördü ki, bir dəstə silahlı erməni uşaqlı-böyüklü olmaqla on beş-iyirmi nəfər şəhər sakinini bir yerə toplayaraq tonqalda yandırmaq istəyirlər. Bir erməni zabiti irəli yeriyib əlləri arxadan bağlanmış bir gənci digər iki silahlının köməkliyi ilə qol-qıç edib yanan tonqala atdılar. Gəncin bağırtısı ərşə dirəndi, Xəqani bu dəhşətli mənzərəni görməmək üçün gözlərini qapadı “Allahım, bu nə vəhşilikdir?! İnsan deyilən məxluq bu qədər də amansız, qəddar, imansız olarmı?!” deyə polis işçisi nifrət və qəzəbindən avtomatı hazır vəziyyətə gətirib tətiyi çəkmək istədi. Amma nə fikirləşdisə, bu dəfə atəş açmadı. O, səssizcə dayanıb bir az da gözlədi. Sonra ermənilər iki azərbaycanlı əsgəri zorla qabağa çıxardılar. Erməni zabiti əsgərlərə yaxınlaşdı və ucadan qışqırdı: “Baxın, son dəfə bu işıqlı dünyaya baxın! Sizin bizi nişan

alan o gözlərinizi çıxaracağam!” Və o, əlindəki vintaçanla əvvəlcə bir əsgərin hər iki gözünü, sonra da o biri əsgərin gözlərini çıxardı. Gözləri çıxarılmış əsgərlər ağrıdan bağıraraq bayıldılar. Sonra həmin əsgərləri diri-diri tonqala atdılar. Tonqaldan tükürpədici qışqırıq və kəskin iyli qara tüstü havaya qalxdı.

Xəqani bu dəhşətli mənzərəni seyr edə bilməyib qonşu küçəyə keçdi. Əliş müəllimin darvazasının ağzında iki uşaq, bir qadın cəsədi vardı. On iki yaşlı qızı böyründə, dörd yaşlı oğlu isə kürəyində qətlə yetirilmişdi. Həmin küçədə tank tırtıllarının səsi eşidildi. Gecikmək olmazdı, erməni faşistləri hər an onu yaxalaya bilərdi. Ona görə də Xəqani həyətdəki ağacların arasından o biri küçəyə nəzər saldı. O küçədə də səs-küy eşidilirdi. Xəqani ağacların arasından çıxıb qaçaraq küçəni keçmək istərkən, evlərdən əllərində qənimətlə çıxan iki erməni silahlısı onu gördü. Onların hər iki əli dolu olduğundan avtomat silahlarını çiyinlərindən asmışdılar və belə bir gözlənilməz vəziyyətlə qarşılaşacaqlarını heç düşünmə-mişdilər. Onlar azərbaycanlı polis işçisini görən kimi, əllərindəki şeyləri yerə ataraq dəlicəsinə bağırdılar. Amma Xəqaninin atdığı sərrast atəş bu vəhşi bağırtılara bir andaca son qoydu. O, burdan yüz metr aralanmışdı ki, qarşıda iki hərbi geyimli, furaşkasında tankçı nişanı olan iki rus zabiti gördü. Zabitlərdən biri mayor, o biri isə baş leytenantdı. Öz aralarında rusca danışırdılar. Onlar da Xəqanini gördülər, ancaq diqqət yetirmədilər. Yəqin onu da erməni silahlısı hesab etdilər. Zabitlər bir evə girdikdən sonra polis işçisi oradan uzaqlaşdı.

Səhər açılmaq üzrəydi. Artıq mülki ermənilər də Xocalı şəhərinə doluşmaqdaydılar. Onların məqsədi evləri talan etmək, qarajlarda qalmış maşınları ələ keçirməkdi. Xəqani Ağdamın Şelli kəndinə getməyi qərara aldı. Bunun üçün o, əvvəlcə ermənilərin yaşadığı Naxçıvanik kəndi istiqamətə hərəkət etməyi planlaşdırdı. O, çayı keçib meşə ilə Naxçıvanik yoluna tərəf getməyə başladı. Xəqani bir az getmişdi ki, qarşıda həmin istiqamətdə hərəkət edən təxminən 400-500 nəfər Xocalı sakinini gördü. O, arxadan dəstəni izləyirdi. Onlar Naxçıvanik yoluna çatanda, hər tərəfdən müxtəlif hərbi texnika və silahlardan atəşə məruz qaldılar. Ermənilər qabaqcadan xocalıların bu istiqamətdən gəlib keçdiklərini bildikləri üçün burada onlara pusqu qurmuşdular. Adamlar pərən-pərən düşdülər. Onların çoxusu həlak oldu, çox az qismi qaçıb yolu keçə bildi. Bir qismi isə meşəyə tərəf çəkildi. Xəqani də meşəyə girdi. Meşədə çoxlu meyit vardı. Onların hamısı işgəncəylə qətlə yetirildikləri aydınca görünürdü. Polis işçisi ölənlərin çoxusunu tanıyırdı: Allahyarov Etibar Baloğlan oğlu, Allahyarova Şəfiqə Zeynal qızı, Allahyarova Qəmzə Qaraş qızı, Nəbiyev Savalan Qaraş oğlu, Mürşüd Səməd oğlu, Eldarın 14-15 yaşında qızı, Şəfa kişi, Murad və Muradın 3 yaşlı uşağı, Şöhlət Həsənov... Meyitlərin sayı çoxdu. Xəqani tək hərəkət edirdi. O, meşəliyin qalın yerinə çatanda, Xocalıdan olan Tofiq Aslanovu, onun iki qızı və Əkbər Əliyevə rast gəldi. Xəqani onları da götürüb birlikdə Əsgəran-Naxçıvanik yoluna tərəf hərəkət etdi. Polis işçisi yol yoldaşlarının yeriməyə taqətləri

qalmadıqlarını görüb onları kolluqda gizlətdi, özü isə yoluna davam etdi. Xəqani uşaqların ona dikilmiş ümidsiz



baxışlarını gördükdə, bu baxışlara dözə bilməyib dedi:

- Mən sizi burada atıb getmirəm. Sizi burdan çıxarmaq üçün geri qayıdacağam, ya da arxanızca adam göndərəcəyəm. Amma bu kolluqdan heç yana getməyin. Tezliklə sizi burdan xilas edəcəyik.

Xəqani dayanmadan hərəkət edərək səhər saatlarında Ağdamın Əhmədalılar kəndinə çatdı. O, kolluqda qalan adamlar haqqında yerli camaata məlumat verdi. Onlar dərhal gedib kolluqda qalan dörd nəfəri də götürüb kəndə gətirdilər. Doqquz gündən sonra Xəqaninin ermənilər tərəfindən girov götürülmüş iki bacısı azad edildi. Amma qardaşı Xəzərlə anasını ermənilər buraxmadılar. Bacılarının dediyinə görə, onları Xankəndindəki uşaq bağçasında əsir saxlamışdılar. Bu günə qədər nə anasından, nə də qardaşından xəbər tuta bilməyən Xəqaninin gözləri hələ də yollardadır...

# Qanlı məktub

(hekayə)

Mənimlə görüşə gəlmiş xanım çantasından bir neçə məktub çıxarıb masanın üstünə qoydu.

- Cəmil müəllim, - dedi, - mən sizin sevgi və talelərlə bağlı iki kitabınızı oxumuşam. Açığını deyim, hətta göz yaşlarımı saxlaya bilmirdim. Elə bil ki, mənim həyatımı qələmə almısınız.

Ona minnətdarlığımı bildirib:

- Sağ olun, xanım. - dedim. - Müəllif üçün oxucusundan bu cür sözlər eşitmək çox xoşdur. Amma, bağışlayın çox yüksək qiymət verirsiniz. Mən sadəcə, sıradan bir yazaram.

- Bağışlayın, özümü təqdim etmədim. Adım Sənubərdir. Məni sizin yanınıza gəlməyə məcbur edən vəfasız bir eşq macərasıdır. Qardaşım Zaur Qarabağda şəhid olub, qırxı təzəcə çıxıb.

- Allah cəmi şəhidlərimizə rəhmət eləsin! - deyə xanımın dərdinə şərik oldum, əyləşməyə yer göstərdim.

O, yorğun, qayğılı baxışlarını üzümə dikib dedi:

- Məni Zaurun şəhid olması o qədər yandırmamışdı, nəinki onun vəfasız sevgilisi yandırdı.- Sənubər xanım bu sözləri deyərkən göz yaşlarına hakim ola bilmədi. Ona təskinlik verib:

- Qardaş itkisi çox ağırdır, - dedim. - Allah yenə səbr versin! Amma qardaşınıza Allah-Təala şərəfli ölüm

qismət eləyib. Zaur kimi qardaşınızla hər yerdə və hər zaman qürur duymalısınız. Siz də bilirsiniz ki, şəhidlərin yeri əbədi cənnətdir.

O, əlləri əsə-əsə çantasından daha bir məktub çıxarıb masamın üstünə qoydu. Dərdli adamlar kimi dərindən köks ötürüb:

- Cəmil müəllim, - dedi, - baxın, bu qanlı məktub Zaurun şəhid olduğu döyüşdən bir gün öncə, sevgilisinə yazdığı, ancaq ünvanına yetişmədiyi məktubudur. Şəhid olduqdan sonra cibindən çıxıb. Digər məktublar isə sevgilisi Aytənin qardaşıma yazdığı məktublardır. Mənə ən çox təsir edən Aytənin Zaurun ölümü ilə əlaqədar, heç olmazsa, telefon açıb mənə başsağlığı belə verməməsidi. O, ailəmizdə təkcə məni tanıyırdı. Qardaşım da onu sevdiyini evdə yalnız mənə söyləmişdi. Bu azmış kimi, Aytən Zaurun heç qırxı çıxmamış, yeni sevgilisi ilə bizə gələrək, qardaşımın ona yazdığı məktubları verdi və Zaurdakı məktublarını isə geri istədi. Mən bunu eşidəndə, sanki başımdan bir qazan qaynar su tökdün. Özümü saxlaya bilməyib, qızın üstünə qışqırdım:

- Səni dünyalar qədər sevən qardaşımın ölümünə acımadın, azca da olsa, heç üzülmədin. İndi hansı üzlə bura gəlmisən, ay həyasız! Məktublarını necə tələb edirsən? Sən bu məktublarda yazılanlara layiq birisi deyilsən, ay ləçər! Sənin sevgin də özün kimi saxta imiş. Bunu bil ki, sən heç bir zaman xoşbəxt ola bilməyəcəksən! Çünki səni təmiz və ülvi bir məhəbbətlə sevən bir eşqə xəyanət etdin. Xəyanəti isə heç kəs bağışlamır. Hətta, Allah da! Qardaşım sənə necə də

inanmışdı. Çox təəssüf! Sən eşqi, məhəbbəti əyləncə sandın. Yazıqlar olsun sənə!

Bundan sonra o, bir söz demədən "yeni sevgilisi"ylə çıxıb getdi...

Mən yenə ona təskinlik verib dedim:

- Narahat olmayın, Sənubər xanım. Şəhiddən yazmaq həm böyük savab, həm də şərəfli işdir. Mən Zaur haqqında hökmən yazacağam.

Mənim bu sözlərimdən sonra Sənubər xanım qayğılı, tutqun çöhrəsi canlandı, yorğun baxışlarında mübhəm bir ümid qığılcımları oynaşdı.

- Cəmil müəllim, - dedi. - əgər nə vaxtsa qardaşımın döyüş yolu barədə nəsə bir şey yazmaq istəsəniz, onun Elxan adında silahdaşı var, ondan məlumat ala bilərsiniz. Mən Elxanın ünvanını və telefonunu sizə verəcəyəm. Əgər istəsəniz, onunla əlaqə saxlaya bilərsiniz. Elxan bizi heç unutmur, tez-tez bizə baş çəkir. Allah ondan razı olsun! Biz də Zaurun ətrini ondan alırıq, - Sənubər xanım çantasından Elxanın telefon nömrəsini və ünvanını çıxarıb mənə verərkən gözləri yenidən doldu.

Mən Sənubər xanımı yola saldıqdan sonra, onun verdiyi məktubları bir-bir nəzərdən keçirdim.

Aytənin Zaura yazdığı məktublardan birinin məzmunu belə idi:*"Salam, əzizim! Bu məktubu gecəyarısı yazıram. Hamı yatıb, mən isə səni düşündüyümdən yata bilmədim. Səni nə qədər sevdiyimi düşünə bilməzsən, Zaur. İndi səninlə ilk görüşümüzdəki "Sənsiz" mahnısını dinləyirəm. O zaman sən dedin ki, qoy bu mahnı bizim eşqimizin əbədi simvolu olsun. Nə qədər çalışdımsa, yata bilmədim,*

*elə hey sən gəlib durdun gözlərimin önündə. Biz ayrılarkən mənə dediyin: "Aytən, bu sevgi əbədi sevgidir. Bunu bilməyin vacibdir. Mən vəfasız, etibarsız insanlara və sevgiyə nifrət edirəm." sözləri məni daim duyğulandırır. Çünki elə mən də eyni ilə sənin kimi düşünürəm, Zaur. Mən sənsiz yaşaya bilmərəm! İlk görüşümüzdəki sözlərin mənim həyata və insanlara baxışımı dəyişdi. İndi tamamilə fərqli düşünürəm. Sənin dediyin kimi, "sevən insan hisslərlə deyil, həmişə məntiqlə düşünməlidir." Bu, mənim sevgimin devizi olacaq həmişə. Sənincün çox darıxmışam. Sənin həsrətin içimi göynədir. Həsrətin bir bulud kimi məni qucaqlayıb. Sənsiz keçən hər gün, hər saat mənə illər kimi gəlir. Özümlə bacara bilmirəm. Bilmirəm, bu nə tələş, nə sıxıntıdır içimdə. Hərdən səni qəlbimdən qeyb olmuş kimi hiss edirəm. Qorxuram ki, birdən fələk bizi ayırar. Sonra üzümü Allaha tutub yalvarıram ki, sənsizliyi mənə qismət etməsin! Mənsizliyi də Tanrı sənə göstərməsin! Amin! Hər axşam sənin ağuşunda xumarlanıb yuxuya getmək istərəm...*

***Sənsiz yaşaya bilməyən Aytənin."***

Aytənin Zaura yazdığı bütün məktublarında onu dəlicəsinə sevdiyini açıqca etiraf edirdi...

Sonra mən Zaurun Aytənə yazdığı, ancaq sevgilisinə yetişmədiyi qanlı məktubu açıb oxuyuram:*"Salam, Bəbəyim! Burada hava çox soyuqdur. İndi dağın zirvəsindəyəm. Bu məktubu da sevgimiz kimi uca olan zirvədən yazıram. Əllərim donub, amma səni düşün-dükcə, bədənimə bir istilik gəlir. İsti nəfəsindən ötrü elə darıxmışam ki...*

*Gülüm, yəqin indi yatmısan. Amma mən söz verdiyim kimi səni, ailəmi, vətənimi qoruyuram. Sabahkı həlledici döyüşə hazırlaşırıq. Sabahkı döyüşdən çox şey aslıdır. Mən əminəm ki, keçən dəfə olduğu kimi, bu dəfə də ermənilərin ağız-burnunu ovuşduracağıq. Döyüş əzmimiz də yüksəkdir. Bu bizim üçün çox mühüm bir döyüş olacaq.*

*Soyuq olmasına baxmayaraq, hava ayazdır. Göylərə baxıb, ulduzlara bənzədiyini, kövrək üzünü, utancaq baxışlarını xatırlayıram. Son dəfə səndən ayrılanda, gözlərimin içinə baxmadan, başını əyərək, utanaraq sakitcə "səni sevirəm" dediyin anı, məqamı düşünürəm. Əlinin soyuqluğunu duyanda, isitdiyim o əllərdən ötrü elə darıxmışam ki...*

*Son dəfə ayrılanda gözlərindən yaş axdığını görmüşdüm. Niyə ağladın ki? Ağlama... Səbr elə... Tezliklə erməni dığalarını torpaqlarımızdan iti qovan kimi qovub, yenidən sənə qayıdacağam, əzizim! Geri qayıdıb mənim üçün axıtdığın o, göz yaşlarını kirpiklərimlə siləcəyəm. Sənsiz həyatım qarın altında qalmış boynu bükük bənövşə kimidir.*

*Bu ayrılıq keçicidir, sonunda biz yenə də bir yerdə olacayıq. Əgər birdən... birdən qayıtmasam, məzarımın üstündə ağlama! Məzarımı qucaqla, amma ağlama!!! Mənim üçün üzülmə. Sən məni görməsən də, mən səni həmişə görəcəyəm. Çünki şəhidlər ölməzdilər! Əgər mən ölərəmsə, qoy Vətənimin başı sağ olsun!!! Öpürəm, əzizim. Tezliklə Bakıda görüşənədək!*

***İmza: Sənin Zaurun. 14.12.1993."***

***

Ertəsi gün Elxan bəyə telefon açdım. Sənubər xanım onu məlumatlandırdığı üçün görüşməyimizə problem yaranmadı.

Səhərisi Elxanla redaksiyada görüşdük. O, Zaur haqqında elə həvəslə, elə şövqlə danışırdı ki, sanki kitabdan hekayə və ya povest oxuyurdu. Elxanın öz sevimli dostu və silahdaşı barədə söylədiyi şirin və ibrətamiz söhbətdən doymaq olmurdu.Məni ən çox maraqlandıran isə leytenant Əliyev Zaur Novruz oğlunun Martuni istiqamətində gedən son döyüş əməliyyatında göstərdiyi igidlikdi. Bu döyüş 15 dekabr 1993-cü ildə olmuşdu. Elxan bu barədə müfəssəl danışdı: “Döyüşdən bir gün əvvəl biz uşaqlarla bir yerə toplaşıb, Zauru evlərinə yola salmaq istəyirdik. Dekabrın 27-də bacısının toyu olacaqdı. Onlar ailədə iki bacı, bir qardaş idilər. Zaur evin kişisiydi. Ailənin ağırlığı onun çiynindəydi. Çünki atası bir il öncə avtomobil qəzasında həyatını itirmişdi. Bacısının toyunu da Zaur edəcəkdi. Nə qədər cəhd göstərsək də, onu evə göndərə bilmədik. Dedi ki, “siz burada vuruşacaqsınız, mənsə toyda yeyib-içib şənlənəcəyəm?! Bunu kişiliyimə sığışdıra bilmərəm. Getməyinə gedəcəyəm, ancaq qoyun, bu döyüşdə də dığaların ağız-burnunu bir yaxşıca ovuşduraq, sonrasına baxarıq. Sabahkı döyüşdə ermənilərə elə bir dərs vermək lazımdır ki, bizə qarşı bir də hücuma keçməyi ağıllarına belə gətirməsinlər...”

Dekabrın 15-də Martuni istiqamətində indiyə kimi görünməmiş döyüş oldu. Düzü, ermənilərin bu cür hücumunu gözləmirdik. Çünki onlar bu dəfə döyüş texnikaları ilə hücuma keçmişdilər. Biz isə avtomat, əl pulemyotu və qumbara-atanlarla silahlanmışdıq. Bizə köməyə döyüş texnikası gələcəyinə söz versələr də, gəlmədi. Düşmən sayca da bizdən çox idi. Qeyri bərabər döyüşdə uşaqlarımız əsl fədakarlıq, əsl qəhrəmanlıq göstərdilər. Həmin döyüşdə onların əksəriyyəti şəhid olsalar da, bircə addım da geri çəkilmədilər. Döyüş sursatımız get-gedə qurtarmaq üzrə idi. İtgilərimiz çox idi. Biz döyüş sursatı çatışmadığından həlak olmuş yoldaşlarımızın silahlarından istifadə etməli olurduq. Kömək üçün ratsiya ilə arxaya xəbər versək də, ancaq hələ də kömək gəlmirdi. Bunu görən Zaur daha itki verməmək üçün uşaqları toplayıb dedi ki, hamı geri çəkilsin. O, döyüş meydanında tək qalacaq və yoldaşları təhlükəsiz yerə çəkilənə qədər ermənilər ləngidəcək. Amma uşaqların heç birisi buna razı olmadı. Dedilər ki, ölsək də, bir yerdə öləcəyik, ancaq geri çəkilməyəcəyik! Bu sözdən sonra cəsur leytenant uşaqları bir-bir bağrına basıb dedi: “Elə isə, haydı igidlər! Vətən uğrunda, Torpaq uğrunda! Şəhid olmağa irəli! Qoy Vətənimiz sağ olsun!” Bundan sonra hamımıza elə bil ki, güc gəldi, içimizdəki qorxu deyilən hiss bir andaca qeyb oldu. Zaur çox sərrast atırdı, demək olar ki, gülləsi boşa çıxmırdı. Atdığı hər güllə ilə ermənilər cəhənnəmlik edirdi. Döyüşün şiddətli yerində sol cinahdan bizi mühasirəyə almaq üçün bir BMP göründü. Zaur dönüb qumbaraatan döyüşçü

yoldaşımıza baxdı. O, arxası üstə uzanmışdı, qumbaraatan isə sinəsinə düşmüşdü. Zaur cəld sürünərək ona yaxınlaşdı və əlini boynuna qoydu. Sonra mənə tərəf dönərək başını buladı. O, qumbaraatanı götürüb BMP-ni nişan aldı. BMP-dən qara tüstü çıxdı və hərəkət etməyib yerində qaldı. Bu zaman özümdən asılı olmayaraq, "Afərin, Zaur!" - deyə qışqırdım. Elə bu zaman onu çoxdan hədəfə almağa çalışan erməni snayperi alçaq və mənfur istəyinə çatdı. Düşmən snayperindən atılan güllə Zaurun sevgi, məhəbbət dolu qəlbini al-qana buladı. Həmin andaca Zaurun başı sinəsinə əyildi. Bunu görən kimi ona tərəf süründüm, gec idi. O, keçinmişdi. Həmişə yoldaşlarına: "Ölüm məndən qorxur, o mənə yaxın gələ bilməz!" deyən Zaur artıq əbədiyyətə qovuşmuşdu. Bu vaxt ikinci güllə atıldı. Sağ qolumda kəskin ağrı hiss etdim, sonra gözlərim qaraldı. Ondan sonra gözlərimi bir də əsir düşərgəsində açdım. Əgər adım Qırmızı Xaç Komitəsinin siyahısında olmasaydı, ermənilər məni güllələyəcəkdilər. Sonradan öyrəndim ki, həmin döyüşdə bütün silahdaşlarım şəhid olub."

Araya dərin bir sükut çökdü. Elxan dərindən köks ötürdü. Ona baxdım. Gözlərində yaş gilələri donub qalmışdı.

Həmin anda düşündüm ki, hələ də sona yetməyən Qarabağ savaşı gör bir nə qədər Zaur kimi igid və cəsur oğullarımızın təravətli gənclik çağlarına, həyatdan doymayan, ondan yetərincə kam almayan, neçə-neçə yerinə yetməyən arzulara, nakam sevgilərə, mənzil

başına çatmayan neçə-neçə yolçunun həyatına son qoyub...

Elxan döyüş dostunun ölümündən sonra cibindən çıxan qanlı məktuba tərəf əyilib muncuq kimi bir-birinin ardınca düzülmüş sətirlərə diqqət yetirdi. O uzaq və soyuq dekabr günlərindən bugünümüzə boylanan bu sətirlərdən şəhid Zaurun isti nəfəsini, ətrini duydu, sevən qəlbinin çırpıntılarını eşitdi. Sanki dünyalar qədər sevdiyi bir insanı bağrına basırmış kimi. Masanın üstündəki al qana bulaşmış bir parça kağızı - dostunun son yadigarı olan bu məktubu götürüb ürəyinin başına qoydu, sonra onu titrəyən dodaqlarına sürtdü, dolmuş qüssəli gözlərini dolandırıb mənə baxdı:

- Müəllim, bunu oxumusanmı? - dedi.
- Oxumuşam, Elxan qardaş. - dedim.

Onun qalın qaşları çatıldı, güllə çapıxlı üzünün mərdanə cizgiləri qabardı. Gözlərini balıq kimi çırpınan canlı sətirlərdən çəkmədən:

- Yooox, müəllim, - dedi. - Bu, adi məktub deyil. Bu, Vətən haqqında, saf sevgi haqqında, vəfa, sədaqət, insan münasibətləri haqqında bir himndir. Bu qalibiyyət nəğməsidir. Nə əcəb Sənubər xanım bu məktubu mənə göstərməyib?

O, bu sözləri deyib tez cibindən kağız-qələm çıxardı. Qanlı məktubun mətnini səliqə ilə dəftərçəsinə köçürtdü və mənimlə xudahafizləşib getdi.

***

... Günlər keçdi. Şəhid Zaur haqqında mətbuatda silsilə yazılarla çıxış etdim. Sənubər xanım redaksiyamıza gəlib qardaşı barədə yazılarıma görə səmimi minnətdarlığını bildirdi. Bu söz-söhbətdən bir neçə il sonra, qarlı bir qış axşamı mobil telefonuma zəng gəldi:

- Salam, Cəmil müəllim! Axşamınız xeyir olsun! - Bu, incə, məlahətli bir qadın səsiydi.

- Salam... Eşidirəm. xanım, - dedim.

- Tanımadınız?... Mən şəhid Zaurun bacısıyam, Sənubərəm. Siz...

- Aaaa... Sənubər xanım, xoş gördük. Necəsiniz?

- Sağ olun, yaxşıyam. Cəmil müəllim, sizdən bir şey soruşmaq istəyirəm. O zaman siz şəhid qardaşımın qanlı məktubunun üzünü köçürüb özünüzdə saxlamamışsınız ki?!

Mən yaddaşıma əl gəzdirib, xeyir dedim. Söylədim ki, şəhidin məktubları, o cümlədən qanlı məktub barədə yazılarımda söz açmışam. Lakin bütüövlükdə həmin qanlı məktubun üzünü köçürüb özümdə saxlamamışam.

Sənubər xanım:

- Axı, - dedi, - o məktubu sizdən başqa mən heç kimə verməmişəm...

Sənubər xanımın bu sözü məni xeyli düşündürdü. Açığı bir az da həyəcanlandım.

- Xanım, nəsə bir şey olub?!

- Sizə məlumat verərəm. - deyə o, telefonunu qapadı və məni intizar içində qoydu.

Bir neçə gündən sonra Sənubər xanım redaksiyamıza gəlib əhvalatı mənə danışdı. Onun şəhid qardaşının vaxtilə qulluq etdiyi hərbi hissəyə qonaq çağırıldığını dedi və xahiş etdi ki, mən də onunla gedim. Ertəsi gün biz həmin hərbi hissədə olarkən şəxsi heyət bizi səmimi qarşıladı. Sənubər xanım əsgərlər qarşısında çıxış edərək şəhid qardaşı haqqında xatirələrini söylədi. Biz hərbi hissənin qırmızı guşəsində olarkən nə görsək yaxşıdır?! İgid döyüşçü, şəhid Əliyev Zaur Novruz oğlunun həmin o, qanlı məktubun qızıl suyuna çəkilmiş mətni zər haşiyəli bir çərçivəyə salınaraq divardan asılmışdı. Hissədə təzə qulluq edən əsgərlər, elə gənc zabitlərin özləri də bu qanlı məktubun önündə ayaq saxlayıb onu oxuyur, mətni dəftərçələrinə köçürürdülər. Mənim heyrətləndiyimi görən hərbi hissənin komandiri dedi ki, bu məktub qalın-qalın romanlara bərabərdir, böyük tərbiyəvi əhəmiyyətə malikdir. Əsil məhəbbət haqqında yığcam bir dastandır. Bu məktub hissəmizdə neçə-neçə siyasi təbliğatçıların görə bilmədiyi bir işi görür. Şəhid qanına bulaşmış, rəngi solub saralmış bu məktub, inanın ki, böyük təsir gücünə malikdir. Hissəmizdən tərxis olunan əsgərlər evlərinə qayıdarkən bu məktubun mətnini bir ərməğan kimi özləriylə aparırlar. Lap elə bu yaxınlarda düşmən snayperinin gülləsinə tuş gələrək şəhid olan bir əsgərimizin cibindən bu zər haşiyəli ramkadakı qanlı məktubun mətni çıxmışdı...

Hərbi hissənin komandirinin bu sözlərindən təsirlənən Sənubər xanım ehmalca qolumdan yapışıb:

- Cəmil müəllim, - dedi, - Qurumalı işdir, bu məktub hərbi hissənin əlinə necə düşə bilər?! Bu möcüzədir...

Elə bu an şəhid Zaur Əliyevin dostu, silahdaşı Elxanın redaksiyamızda olarkən həmin məktubun üzünü necə bir tələşla köçürdüyü yadıma düşdü. Bunu Sənubər xanıma deyəndə o, dolmuş gözlərini sıxıb: “Artıq Elxan bu həyatda yoxdur, - dedi. - Bir ildir ki, o dünyasını dəyişib. Sinəsində gəzdirdiyi qəlpələr öz işini gördü...”

Bu ara komandir bizə yaxınlaşıb qanlı məktubun hərbi hissəyə necə çatdırılmağı tarixçəsindən danışdı. Dedi ki, ortaboy, qaraşin bir kişiydi. Üzündə güllə çapıxları vardı. Hiss olunurdu ki, köhnə cəbhəçidir. Özü də bizim hissənin veteranıdır. O, şəhid dostunun bu qanlı məktubunu verib dedi: “Bu məktub Azərbaycan xalqının milli sərvətidir. Belə bir sərvəti xalqdan gizlətmək olmaz. Qoy hərbi hissəyə gələn yeni-yeni nəsillər bu sərvətdən barınsınlar”.

Komandir əlavə edib dedi: - Məktubu verən o xəstəhal kişidən adını soruşanda dedi ki, şəhidin dostuyam, bəxtinə şəhidlik qismət olmayan bir ovuc torpağam, heç kiməm...

Mənim gözlərim doldu... “Afərin, Elxan, - dedim, - sən millət, xalq qarşısında öz borcunu yerinə yetirdin. Yəqin ki, rahat yatırsan... Sən lazım olan işi bizim hamımızdan yaxşı gördün...”

Biz komandirlə xudahafizləşəndə o, qeyri-adi sualla Sənubər xanıma müraciət etdi.

- Şəhid Zaur Əliyevin sevgilisi Aytən xanım necədir? Yəqin onunçün həyat ağır keçir, eləmi?!

Sənubər xanımla bir-birimizin üzünə baxıb qaldıq. Nə deyək, bu sualın cavabını necə izah edək?!

Sənubər xanım dolmuş gözlərini komandirdən yayındıraraq:

- Sağ olun, yaxşıdır, - dedi. - Sonra əlindəki qərənfil dəstəsini ehmalca qanlı məktubun önünə qoydu, bir xeyli qardaşının əlyazmasının qarşısında ayaq saxlayıb onun yazdığı sətirlərdə döyünən ürəyinə qulaq verdi... Və üzünü mənə tərəf tutub:

- Müəllim, gedək, - dedi.

# Snayper qız

(hekayə)

***Bu hekayəni Qarabağ savaşında ermənilərə qənim kəsilmiş, onların ölüm kabusuna çevrilmiş cəsur snayper Orucova Rəhilə Əli qızının əziz xatirəsinə ithaf edirəm.***

O qız çox qəribəydi. Batalyona gələndən bəri onun kiminləsə kəlmə kəsdiyini görən olmamışdı. O, xaraktercə ciddi, itibaxışlı, qəmgin, qısa saçlı, orta boylu, sarışın, qəhvəyi gözlü idi. Bu qızın qadına xas olmayan kobud əlləri vardı. Səhər erkəndən yuxudan qalxaraq, harasa gedir və bir də gecə yarısı keçəndən sonra kazarmaya qayıdırdı. Bəzən də günlərlə gözə dəymirdi.O, yalnız batalyon komandiri Şahin Bağırovla qısaca söhbət edirdi. Yəni, batalyona yenicə təşrif buyurmuş bu gənc xanım bütün döyüşçülər üçün hələlik müəmmalı və sirli şəxs olaraq qalırdı. Komandir tapşırmışdı ki, batalyonun bu bircə gülündən

hamı bacardıqca uzaq durmalı, kimsə onun xətrinə dəyəsi bir söz belə dilinə gətirməməlidir. Komandirin özü də bu qız haqqında o qədər məlumatlı deyildi. Şahin təkcə onun snayper olduğunu və tüfəngini kazarmada deyil, başqa bir yerdə gizlətdiyini bilirdi. Batalyon komandiri, hələlik, bu sirri uşaqlardan gizlədirdi. O, qız üçün kazarmada ayrıca otaq ayırmışdı. Batalyonun uşaqları qızın ancaq adını öyrənmişdilər, onu da komandir söyləmişdi onlara. Adı Rəhilə idi.

Bir gün ratsiyada batalyon komandirini bir erməni dığası təhqir etdi. Məlum oldu ki, bu erməni zabiti Samvel Qriqoryan adlı birisidir. Şahin komandir bundan bərk qəzəbləndi. Oda ratsiyayla dişinin dibindən çıxanı erməni dığasına dedi. Komandir onu yaxşı tanıyırdı. O, əclaf mülki soydaşlarımıza işgəncə verməkdən xüsusi həzz alan manyakın təki idi. Həmin axşam Rəhilə nədənsə kazarmaya gəlmədi. Uşaqlar ondan ötrü çox narahat oldular.

Ertəsi gün o, günortaya yaxın batalyona qayıtdı. Gözlərindən yuxu tökülürdü, görünür, bütün gecəni yatmamışdı. Rəhilə kimsəyə bir söz demədən, kazarmada onunçün ayrılmış otağa getdi. Bir azdan batalyon komandiri də gəldi. Uşaqlar Rəhilənin qayıtdığını ona söylədilər. Bu zaman ratsiyada işləyən Ələkbər dedi ki, “erməni komandiri Samvel Qriqoryan dünən axşam başından aldığı güllə yarası ilə öldürülüb.” Hamı təəccüb içində idi. Nazim adlı döyüşçü bu xəbəri eşidən kimi ucadan qışqırdı:

- Ax bu, Samveli vuranın əlinə qurban olum! Halal olsun ona!Bu erməni dığasının gəbərməsi çox yaxşı oldu. İndi ermənilər quduz iti dönəcəklər...
- Bu gündən etibarən ermənilər hələ çox zabitlərinin gəbərdiyinin şahidi olacaqlar! - deyə batalyon komandiri fəxrlə dilləndi.
- Komandir, bunun kimin işi olduğunu bilirsinizmi? - Nazim fərəh dolu xüsusi bir maraqla Şahindən soruşdu.
- Bilməsəm də, həmin adama halal olsun bu Vətənin çörəyi! Bu, bizim şəhidlərin intiqamı, ermənilərin isə böyük itkisidir. Uşaqlara deyin ki, çox diqqətli və ayıq-sayıq olsunlar. – Bu sözləri deyərkən komandirin çöhrəsində təbəssüm işartıları aydın sezilirdi.

İki gündən sonra batalyonun uşaqları ratsiyada daha bir erməni zabitinin və əsgərinin snayper atəşinə tuş gəldiyi xəbərini eşitdilər. Bu dığaları da Rəhilə gəbərtmişdi. Batalyon komandiri bunu hələlik kimsəyə bildirmək istəmirdi...

***

Rəhilə ilə Azad bir məhəllədə, bir həyətdə yaşayırdılar. Rəhilə konservatoriyada, Azad isə Neft Akademiyasında oxuyurdular. Onlar bir məhəllədə yaşasalar da, bir-birləriylə yaxından tanış deyildilər. Bir gün dayanacaqda instituta getmək üçün Azad avtobus gözləyirdi. Bu vaxt Rəhilə də əlində futliyarlı skripkayla gəlib ondan bir az aralı dayandı. Ətrafda adam çoxdu. Azad gözaltı Rəhiləyə baxırdı, qız isə bunu sezmirdi. Çünki o, başqa səmtə baxırdı. Bayaqdan dayanacaqda

üç cavan oğlan ağızlarına nə gəldi, gic-gic üyüdüb tökürdülər, ətrafdakılara baxıb şit-şit hırıldayırdılar. Sanki dayancaqda bunlardan başqa kimsə yoxuydu. Onlar Rəhilənin əlindəki skripkanı görüb onu narahat etməyə başladılar. Oğlanlar: "Görəsən, bu xanım Bethovendən, Şopendən çalmağı bacarır?.. Əgər bu ağırlıqda aləti özünə yük edibsə, deməli, yaxşı çalana bənzəyir..." deyərək Rəhiləyə söz atırdılar. Rəhilə oğlanları mədəni olmağa, əxlaqa dəvət etməyə çalışdı, ancaq oğlanlar get-gedə hədlərini aşırdı. Bu səhnəni seyr edən Azad oğlanların tərbiyəsizliyinə dözə bilməyərək, olaya müdaxilə etmək məcburiyyətində qaldı. O, oğlanlara yaxınlaşıb qızı rahat buraxmağı söylədi. Oğlanlardan bədəncə boylu-buxunlusu Azada baxıb rişxənd etdi: "Aha, prinsessanın xilaskarı peyda oldu. Bura bax, oğlan, sən bizim işimizə qarışa bilməzsən! Nə qədər qol-qabırğan sınmayıb, rədd ol burdan!"

Azad sakit bir tonda oğlana dedi:

- Əgər kiminsə qabırğasının sınmasını istəmirsinizsə, qızı rahat buraxın! Yoxsa...
- Yoxsa, nə edəcəksən, qoduq! - Yekəpər oğlan Azadı təhqir etdi.

"Qoduq" sözünü eşitcək, Azadın beynində sanki ildırım çaxdı. O, bu sözü həzm edə bilməyib sağ əli ilə ani idmançı çevikliyiylə yekəpər oğlanın çənəsindən gözlənilməz bir zərbə vurdu. Oğlan yerindən qopmuş ağac kimi səkiyə sərildi. Bunu görən o biri oğlan Azada hücum çəkərək, ona təpik atdı. Amma Azad onun zərbəsindən müdafiə olunmaq üçün sol əlini oğlanın

təpiyinin qarşısına verdi və sağ əliylə onun qarnına möhkəm bir yumruq vurdu. Bu oğlan da qarnını əllərilə qucaqlayıb yerə oturdu. Üçüncü oğlan isə yerdə ağrı-acıdan qıvrılan yoldaşlarını görüb özünü itirdi, nə edəcəyini bilmədi. O, istədi ki, Azada hücum etsin, amma tezcə də fikrindən vaz keçdi. Və zərbə almış yoldaşlarını ayağa qaldırmağa çalışdı. Bu zaman dayanacaqdakılar: "Əllərin var olsun! Bunlara bu da azdır. Bundan sonra bəlkə ağılları başlarına gəldi. Həyasızlığın dərəcəsinə bir baxın! Bu qədər adamlardan utanıb çəkinmədən ictimai yerdə tərbiyəsizlik edirlər. Belələriylə ancaq bu tonda danışmaq lazımdır!" deyə döyülmüş oğlanları yetərincə qınayıb məzəmmət etdilər. Oğlanlar ayağa qalxıb gedərkən Azada: "Yaxşı, bizinki sənlə qalsın sonraya. Sənlə hökmən görüşəcəyik!" deyə ona hədələyici mesaj verdilər.

- Yaxşı, yaxşı, di sürüşün burdan, - deyə Azad qalib adamlar tək gülümsəyib əlini yellədi.

Bu zaman avtobus gəldi, adamlar avtobusa doluşdular. Rəhilə sərnişinləri aralayaraq Azada yaxınlaşdı və utana-utana:

- Çox sağ olun, təşəkkür edirəm, - dedi. - O, əclafların dərsini yaxşı verdiniz. Yoxsa, əl çəkmək istəmirdilər.

- Təşəkkürə ehtiyac yoxdur, Rəhilə xanım. - Azad gözlərini qızın iri, ifadəli gözlərindən çəkmədən dilləndi.

- Siz mənim adımı haradan bilirsiniz? - Rəhilə təəccüblə Azada baxdı.

- Necə yəni, demək istəyirsiniz ki, məhəlləmizin adamlarını da tanımayaq? - Azad gülümsədi.

- Aaa... bağışlayın, tanımadım. Bəs adınız necə oldu?
- Adım Azaddır.
- Düzünü deyim ki, sizi bir neçə dəfə elə bu avtobusda görmüşdüm, amma bizim məhəllədə yaşadığınızı bilmirdim. Mən...
- Siz Konservatoriyada oxuyursunuz, - deyə Azad Rəhiləni cümləsini tamamlamağa imkan vermədi.
- Demək, sizin mənim haqqımda müəyyən məlumatınız var? Belədi də, oğlanlar həmişə qızlar haqqında altdan-altdan məlumat toplayırlar. - Rəhilə eyhamla söylədi. - Bəs siz harada oxuyursunuz?
- Təkcə oğlanlarmı?! Bəs qızlar?.. Mən də Neft Akademiyasında, axırıncı kursda oxuyuram. - Azad da söz altında qalmadı.
- Döyüşməyinizdən hiss olunur ki, idmanla məşğul olursunuz.
- Elədir, dərsdən sonra karate kurslarına gedirəm. Sadəcə, bu idman növünə özünümüdafiə üçün yazılmışam.
- Mən də çox istərdim idmanla məşğul olam, özü də atıcılıq üzrə. Hayıf ki... - Rəhilə təəssüflə çiyinlərini çəkdi.
- Bununçün sizə mane olan nədir? İndi maşallah, respublikamızda idmanın hər növü üzrə məşğələlər mövcuddur, istədiyiniz idman növüylə məşğul ola bilrəsiniz. - Azad Rəhiləyə məsləhət verdi.

Bundan sonra Azadla Rəhilənin görüşləri tez-tez olurdu. Rəhilə üçün Azad tamam fərqli bir oğlan idi. Azadın dünyagörüşü, hər hansı mövzu barəsində çətinlik çəkmədən uzun-uzadı mükalimə aparması, insan

psixologiyasını yaxşı bilməsi, insani münasibətlərin real təhlilini ortaya qoyması, fəlsəfi, sosioloji məlumatlara vaqifliyi, onun həyat hadisələri barədə geniş biliyə yiyələnməsindən, yüksək təfəkkürə malik erudisiyalı bir gənc olmasından xəbər verirdi. Rəhilə qəsdən hər dəfə ortaya bir mövzu atırdı. Azad da çətinlik çəkmədən həmin mövzu ətrafında saatlarla söhbət etməkdən yorulmurdu. Çünki o, gecə-gündüz mütaliə etməyi və oxuduqlarını da ən yaxınlarıyla paylaşmağı xoşlardı. Buna görə də, Rəhilə Azadla olanda qətiyyən darıxmırdı, əksinə onun söhbətlərindən həmişə zövq alır, məmnun qalırdı. Onların bu günə kimi bir-birlərinə "siz" deyə müraciətləri artıq "sən"lə əvəz olunmuşdu.

Azad Rəhilə ilə görüşə çıxanda heç vaxt sevgi, məhəbbət barədə danışmazdı. O, həmişə ciddi, elmi və həyatı mövzularda söhbət edirdi. Onu ən çox narahat edən Qarabağ dərdiydi, ölkəmizə qarşı aparılan ədalətsiz siyasi oyunlardı. Böyük dövlətlər bizim haqlı olduğumuzu bildikləri halda, kimsə torpaqlarımızın ermənilər tərəfindən işğal olunduğunu dilinə gətirmək istəmir, əksinə bizi bədnam qonşularımıza - ermənilərə qarşı haqsız davrandıqlarımızı bəyan etməyə cəhd göstərir-dilər. Yeni dünya düzəninə qarşı Azad həmişə barışmaz mövqedə dayanırdı. O, nə ATƏT-ə, nə BMT-yə, nə də Avropa Şurasına inanmırdı. Xüsusən də super güclərin müsəlman ölkələrinə qarşı apardıqları ədalətsiz siyasət-ləri, göz görə-görə müsəlmanların amansız qətliamlarına məruz qalmalarına seyrçi mövqe tutmaları, cinayətkarlar məlum olduğu halda, onlara qarşı heç bir təsirli tədbirlərin

görülməməsi Azadın heysiyyatına toxunurdu. Böyük dövlətlərin Qarabağ probleminə riyakarcasına yanaş-maları onu bir vətəndaş və müsəlman kimi çox narahat edirdi. Onun erməni dığalarını görməyə gözü yoxdu, açıq-açığına onlara hədsiz nifrət etdiyini söyləyirdi...

Bir gün yenə də dənizkənarı parkda olarkən Rəhilə bu dəfə Azadın indiyə qədər söhbət açmadığı "sevgi, məhəbbət" mövzusunu ortaya atdı. Qımışaraq üzünü Azada tutub dedi:

- Azad, məncə, həyatda əsl sevgi, məhəbbət yoxdu. "Leyli və Məcnun" da dahi sənətkarın "Platonik eşq" deyilən utopik sevgidən bəhrələnərək özünün yaratdığı xəyali bir eşq, sevgi, məhəbbət macərasından başqa bir şey deyil. Bəs sən bu barədə nə düşünürsən?

- Mənim fikrimcə, iki cür eşq var: xəyali eşq və real həyati sevgi. Xəyali eşqə həyatda nail olmaq çətindir. Bəli, buna sizin dediyiniz kimi, "Platonik eşq" də deyirlər. Amma real eşq, sevgi, məhəbbət həyatda gördüyün, duyduğun, onun varlığını bütün vücudunla hiss etdiyin andır. Bu eşq insanı ülviləşdirir, kamilləşdirir, daxili aləmini təmizləyir, insanda olan bütün gözəl xüsusiyyətləri üzə çıxarır, onu həm daxilən, həm də zahirən gözəlləşdirir. Çünki sevgi yaxınlıqdır, sevgi etibardır. Sevgi, insanın ən zəif nöqtəsi, amma ən güclü yeridir. Sevgi, səni sevirəm demədən sevməkdir. Sevgi, səbrdir. Sevgi, gecələri səhərədək gözləməkdir. Sevgi, qarşındakını hiss etmək və baxışlarından nə dediyini duymaqdır. Sevgi, xəyalların gerçəkliyə çevrilməsi və dərin düşüncələrə dalmaqdır. Ən əsası odur ki, sevgi,

ruhun gözəlliyidir. Sevgi, qaranlıqda yandırılan bir şam işığı kimidir. O, insanın daxili aləmini işıqlandırır. Sevgi insanın ümidi və inamıdır. Bir sözlə, insanı yaşadan sevgidir.

- Azad, sən bunları hardan öyrənmisən? - Rəhilə maraqla soruşdu.
- Həyatdan və oxuduğum kitablardan.
- Sağ ol, e-e-e səni. Sən eşq, sevgi kitabısan ki. Mənim də bundan heç xəbərim yoxdu. Amma nədənsə, sənin dediklərini indiyə kimi praktikada heç hiss etməmişəm. Düşünürdüm ki, sənin sevgi, məhəbbət barədə heç bir anlayışın yoxdu. Çünki bunları səndə sezmək qətiyyən mümkün deyil.
- Dedim axı, sevgi, səni sevirəm demədən sevməkdir. İnsan əsl sevgi hisslərini çox vaxt biruzə vermir. Məncə, sevgi dilə gətirilirsə, o zaman sevgi adiləşir, cılızlaşır, dəyərini itirir. Məsələn, Jorj Sand deyib ki, əgər kişi öz məhəbbəti barədə ağıllı danışa bilirsə, bu bir həqiqətdir ki, deməli o, ürəkdən vurulmamışdır. Bir də ki, məhəbbət hər şeydən əvvəl seçdiyin adam üçün, onun taleyi, gələcəyi üçün məsuliyyət daşımaq deməkdir. Mən nə vaxtsa, tanınmış Amerika yazıçısı Con Steynbekin oğluna yazdığı məktubunda oxuduğum bu sözləri yaxşı xatırlayıram. O, məktubun bir yerində yazır ki, qızlar hər zaman oğlanların hissindən xəbərdar olurlar, lakin onlar bu haqda həm də eşitməyi sevirlər.
- Belə de... Azad, bəs məhəbbət nədir? Məncə, eşqlə məhəbbət ayrı-ayrı şeylərdir. - Rəhilə Azadı “məhəbbət aləmi”nin dərinliklərinə çəkmək istədi.

- İnsan məhəbbəti, hər şeydən öncə, qəlbin və vücudun, ağlın və idealın, səadət və borcun birliyidir. O ki qaldı sevgiylə məhəbbət arasındakı fərqə, onu deyim ki, hər ikisinin əsasını romantik hisslər təşkil edir. Eşq xarici görünüşə vurğunluq olduğu üçün səthi bir hissdir. Bu gün birinə vurulursan, sabahısı gün bir başqası ortalığa çıxır və sənin xoşuna gəlir. Yəni, bunlar ötəri hisslərdir. Amma məhəbbət zaman keçdikcə artır. Əsl məhəbbət insandan səbr tələb edir. Məhəbbətdə ilk öncə yaxşı dost olursan. Sonra günlər, aylar ötdükcə anlayırsan ki, ondan daha çox xoşun gəlir və bundan sonra bir-birinə olan hisslərin möhkəmlənir. Əsl məhəbbət hər şeyə qatlaşmalı, hər çətinliyə dözməli, hisslərə qapılmamalı, yalnız idrakın gücünə inanmalı, məntiqi düşüncəyə əsaslanmalıdır. Əsl məhəbbət zamanın sınağından keçməlidir. Eşq qısa zamanda bitib tükənə bilir, məhəbbət isə zaman keçdikcə daha da möhkəmlənir və kamilləşir.
- Sevgi, eşq, məhəbbət haqqındakı geniş məlumata görə sənə təşəkkür edirəm. Amma sənə daha bir və sonuncu sual vermək istəyirəm. Səncə, bəs xoşbəxtlik nədir? Əgər ortalıqda əsil sevgi, məhəbbət varsa, deməli, insan özünü xoşbəxt sana bilər? - deyə Rəhilə gülərək sağ əlini Azadın çiyninə qoydu.
- Onu deyim ki, xoşbəxtlik mövzusu həm çox qəliz, həm də xeyli vaxt aparan məsələdir. İlk öncə onu deyim ki, xoşbəxtlik təkcə kimisə sevməkdə deyil. Xoşbəxtlik daha geniş anlayışdır. Məsələn, gerçəklikdə gördüyümüz, bəyəndiyimiz yaxşı, xeyirxah əməllər, hərəkətlər yüksək, nəcib niyyətlərin təcəssümüdür. Bu niyyətlərdə real olanla

ideal olan həmişə daxilən qarşılıqlı vəhdətdədir, bir-birini tamamlayır. Gerçəkliyin yaxşı cəhətləri - gözəlliyi, xeyirxahlığı, həqiqəti ülvi niyyət ümumiləşdirir. O, həyatın kamilləşməsinə xidmət edir. Ülvi niyyətlər həyatda gerçəkləşdikcə əxlaqi, estetik, sosial münasibətləri tənzimləyən normalara çevrilir. Təbiidir ki, insan həyatda xoşbəxt olmaq üçün həmişə mücadilə edir. Hamımız xoşbəxt olmaq arzusu ilə yaşayırıq. Amma əslində biz əsl xoşbəxtliyi çox vaxt dərk edə bilmirik. Bəzən xoşbəxt olduğumuz halda, yenə də xoşbəxtlik haqqında düşünürük. Necə ki, xoşbəxtlik bizi tərk etdikdə, özümüzü bəxbəxt hiss edirik. Xoşbəxtliyi duymaq, onun qədrini bilmək, onu qoruyub saxlamaq qədər zəruridir. Əslində, xoşbəxtlik - gözlə görünməyən, heç bir ölçüyə sığmayan, alınıb-satılmayan mənəvi hissdir. Bu hiss insanın içindən doğur, bunu xaricdən almaq, ya da əldə etmək mümkün deyil. Həyatda xoşbəxt olmaq istəyirsənsə, ilk növbədə özünü tamahsızlığa öyrətməlisən. Çünki tamahkar adamlar heç vaxt xoşbəxt ola bilməz. Yəni xoşbəxt olmaq istəyirsənsə, tamah dişini birdəfəlik çəkib atmalısan. Yunan filosofu Sokratın fikrincə, gərəkdir ki, tamah, ehtiras insan üzərində deyil, insan ağlı onların üzərində hökmran olsun.

Həyatda faydalı nəsə qazanmaq, müxtəlif yollarla nəyisə əldə etmək hələ xoşbəxtliyə qovuşmaq deyil. Faydalı olan zahiri nemətdir, xoşbəxtlik isə mahiyyətə malikdir. Mən də bu fikirlə razılaşıram, çünki maddi nemətlər insan xoşbəxtliyi üçün yalnız vasitə ola bilər. Vasitə olmaq hələ məqsəd demək deyil, məqsədə nail

olmaq isə son həddir. Xoşbəxtlik də insanın son mənəvi həddi, ali məqsədidir. O özü başlıca məqsəd olmaqla ən ali nemətdir. Eyni zamanda insan başqa insanlardan təcrid olunmuş halda xoşbəxt ola bilməz, səadəti dərk etməz. Xoşbəxtlik ictimai məna daşımalıdır. Xoşbəxtliyin mahiyyəti insanın insanlıq vəzifəsi ilə vəhdətdədir. Xoşbəxtlik bəxşiş deyil, fəaliyyətin, çalışmağın, səyin bəhrəsidir. Xoşbəxtlik mübarizə yolu ilə taleyin özünü ram etməkdir. Xoşbəxtlik verilmir, alınmır, ancaq qazanılır...

- Dərin fəlsəfi söhbətin üçün sənə dərin təşəkkürümü bildirirəm, Azad. Məni qiyabi də olsa, xoşbəxtlik haqqındakı nəzəriyyələrinlə xoşbəxtlik aləminə səyahətə çıxartdın və bunu yaxşı bacardın. Deməli, xoşbəxtliyi sənin fikrincə, kimsə kimsəyə vermir, onu həyatda əldə etmək üçün hökmən mücadilə etmək lazımdır.

- Elədir ki, var. Əlini əlinin üstünə qoyaraq oturub gözləməklə, xoşbəxtliyi əldə emək olmaz. Xoşbəxtlik, eyni zamanda, insanlarla, ətrafındakılarla qarşılıqlı sağlam və səmimi münasibətdə olmaq deməkdir. - Azad gülərək Rəhilənin əllərini əllərinə aldı. - Hə, yadıma düşdü, sən ötən dəfə mənə atıcılıq kursuna getmək istədiyini bildirmişdin. Mən o məsələni həll etmişəm. Yaxın bir tanışım var, birlikdə onun yanına gedərik. O sənə həm müxtəlif silahlardan necə istifadə etməyi, həm də hədəfə düzgün nişan alaraq sərrast vurmağın sirlərini öyrədəcək. Nə deyirsən? Atıcılığa nə vaxt başlamaq istəyirsən?

- Elə günü sabah başlamaq istəyirəm. Çox sağ ol, Azad.

Bütün görüşlərdə Azadın Rəhiləyə qarşı ciddiliyini qoruyub saxlaması qızın xoşuna gəlirdi. Onsuz da Rəhilənin dayaz düşüncəli, yerli-yersiz danışan, müxtəlif hərəkətləriylə qızları özünə cəlb etməyə səy göstərən, şit zarafatlar edən, əyləncəyə meylli, saxta gülüşləriylə özünü qızlara səmimi göstərmək istəyən oğlanlardan zəhləsi gedirdi. Amma Azad bu gənclərdən hər bir hərəkətiylə fərqlənirdi. O, qızlarla necə davranmağı, onlarla necə münasibət qurmağı başqa oğlanlara nisbətən daha yaxşı bilirdi. Rəhilə Azada elə isinişmişdi ki, bir gün onu görməyəndə darıxırdı, sanki o, indi Azadla nəfəs alırdı...

***

Batalyon komandiri erməni dığaların ratsiya əlaqəsindən məlumat əldə etdi ki, öldürülən Samvel Qriqoryanın yerinə, onun qardaşı Arsen Qriqoryan gəlib. Və ermənilər qarşısında söz verib ki, tezliklə qardaşını öldürən türkü tapacaq və ondan amansız qisas alacaq. Bundan sonra Şahin “Rəhiləni qorumaq lazımdır!” deyə düşündü. O, hələlik Rəhilənin kimliyini döyüşçülərə açıqlamaq istəmirdi. Çünki o, “insan çiy süd əmib” atalar məsəlini həmişə xatırlayırdı. Bir axşam batalyon komandiri Arsen Qriqoryanın hədələri barədə Rəhiləyə söylədi və onun bundan sonra daha sayıq olmasını tövsiyə etdi. Komandirin məsləhətinə rəğmən, o, “Arsen köpəyi də tezliklə qardaşının yanına göndərəcəyəm!- söylədi - Komandir, - dedi - məni kimsə durdura bilməz! Nə qədər sağam, bacardıqca Azadımın intiqamını daha

çox erməni dığası öldürməklə alacağam!" Bu sözləri deyərkən qəzəbdən Rəhilənin gözlərində sanki qığılcım saçdı. O, sevgilisi Azad barəsində Şahinə heç bir söz deməmişdi. Ona görə, komandir maraqla soruşdu:

- Rəhilə bacı, Azad kimdi?
- Azad nişanlımdı. - Rəhilənin çöhrəsinə qara bulud qondu.
- Nişanlınızın familiyası necəydi?
- Həsənov...
- Atasının da adı təsadüfən Rəhim deyildi ki?!
- Elədir. Mən bu batalyona Azadın intiqamını almaq üçün gəlmişəm. Çünki Azad da bu batalyonda, Tərtərdə vuruşub.- Rəhilə komandirin dediyini təsdiq etdi.
- Rəhilə bacı, bəs bütün bunları mənə əvvəlcədən niyə söyləmədiniz? Azad bizim ən istəkli qardaşımızdı. O, igid, cəsur, qorxubilməz bir döyüşçüydü. Allah ona rəhmət eləsin! Azadın ruhu həmişə bizimlədir. O, batalyonumuzun fəxri, şərəfiydi. Burada hamı Azadı çox sevirdi. O mənim sağ əlimdi. Azad təkcə döyüşçü deyildi, həm də gözəl təbliğatçıydı. Döyüşdən qabaq onun uşaqlar qarşısındakı ruhlandırıcı çıxışı döyüşün gedişinə böyük müsbət təsir edirdi. Ona dəfələrlə kazarmada qalmasını əmr etmişdim. Amma o, "mən uşaqlardan ayrı qala bilmərəm, qardaşlarım harda, mən də orda" deyə döyüşə hamıdan qabaq atılırdı. Azad həm də çox savadlı oğlandı. Uşaqlar onu "batalyonun alimi" deyə çağırırdılar. Gənc olmasına baxmayaraq, bizim "ağsaqqallar" ondan hər cür məsləhət alırdılar. O cür zəka sahibinin cəbhəyə gəlməsini mən heç istəməzdim. O, uşaqlara hər bir

mövzu barədə ətraflı məlumat verməyi, onları maraqlandıran həyati məsələlər haqqında söhbət aparmağı xoşlardı. Qısa zamanda uşaqlarımız ondan çox şey öyrənmişdi. Hayıf ki, erkən getdi. Azadın itkisi batalyonumuzun döyüşçülərinə çox təsir etmişdi. Hər halda məlumatınız olar, onu snayperlə vurdular. Amma biz də Azadın qanını yerdə qoymadıq. Onun ölmünün əvəzinə uşaqlar yeddi erməni dığası gəbərtdilər. Bacım, sizə komandir kimi deyil, bir qardaş kimi məsləhətim odur ki, bundan sonra çox ehtiyatlı olmalısınız, düşmənin nə qədər məkrli olduğunu özünüz məndən daha yaxşı bilirsiniz. Siz bizim üçün çox qiymətlisiniz, həm də Azadımızın yadigarısınız. Sizi göz bəbəyitək qorumaq hamımızın borcudur. Deyirəm, bəlkə "gecə ovu"na bir neçə günlük fasilə verəsiniz? - Şahin narahat baxışlarını Rəhilədən yayındırmağa çalışdı.

- Komandir, bilin ki, bundan sonrakı işim Arseni izləmək olacaq. Amma onun yerini bilmək üçün mənə dəqiq məlumat lazımdır. Bir də ki, o it oğlunun şəkli də lazımdır. Komandir, Azadla aramızdakı ilişgilər barədə uşaqlara hələlik heç nə deməyin. Zamanı gələndə özüm onlara hər şeyi söyləyəcəyəm.

- Bu barədə narahat olmayın, aramızdakı söhbətdən hələlik kimsə xəbər tutmayacaq. O ki qaldı Arsenin şəkli və yeri barədə, onu kəşfiyyatın uşaqlarından dəqiqləşdirib sizə söyləyəcəyəm, - deyə Şahin Rəhiləni arxayın etdi.

Rəhilə hər axşam "ova" çıxmamışdan qabaq kitelinin döş cibindən bir kağız çıxarıb oxuyur və yenidən qatlayıb

əvvəlki yerinə qoyurdu. O, hər dəfə bu kağızı oxuyarkən gözləri dolur, kövrəlir və duyğusal olurdu.

Bu axşam Rəhilə "ova" çıxmamışdı, o, komandirin ona gətirəcəyi məlumatı gözləyirdi. Rəhilə kazarmadakı ayrıca otağında, çarpayıda uzanıb yenə də dərin xəyallara dalmışdı. O, Azadın ilk dəfə onu atıcılıq məşğələsinə apardığı günü xatırlayırdı. Təlimatçı oğlan ona təlim qabağı bəzi məsləhətlər verdi. O, deyirdi ki, yaxşı atıcı olmaq üçün təkcə yaxşı texniki təchizata malik olmaq yetərli deyil. Mükəmməl atıcı - tüfəngin, lazımi vərdişlərin və ən əsası da həlledici anda silahı saxlayan əlin vəhdətdə olmasıdır. Digər tərəfdən də insan sabit psixoloji duruma yönəlməli, təşviş, vahimə hissindən özünü qorumalı, soyuqqanlı və təmkinli olmalıdır. Sərrast atıcılıqda çılğınlıq, tələskənlilik olmamalı, atəşə qarşı reaksiyası ölgün, süst və sərbəst olmalıdır. Gözlərin yumulması, silaha çiyinlə toxunma, tətiyin kəskin şəkildə çəkilməsi - insanın atəşə ən çox yayılmış reaksiyasıdır. Bu cür reaksiyanın səbəbi sadə psixologiyadır. Bu psixologiyaya əsasən atıcıya məlumdur ki, atəş anı partlama və silahın tərpənməsi ilə müşahidə olunur və beyin şüuraltı olaraq orqanizmi atəşə hazırlayır. Atəşə reaksiyası olmayan insanlara çox nadir hallarda təsadüf edilir. Yəni, hər bir insan atıcılığa getməzdən öncə, özünü psixoloji cəhətdən buna hazırlamalıdır. Ən əsası da özünü düşməndən gizlətmək üçün yaxşıca "komfilyaj"

olmalıdır. Bu keyfiyyətlərin hamısı Rəhilədə vardı. Bir dəfə düşmən əsgərləri onun bir metrliyindən keçib getdilər, ancaq onu hiss etmədilər. Çünki o, yaxşı "komfilyaj" olmuşdu.

Daha sonra Rəhilə Azadın cəbhəyə yola düşməsini xatırladı. Azad Akademiyanı fərqlənmə diplomuyla bitirdikdən sonra, işə düzəlmək əvəzinə, doğma torpağını erməni faşistlərindən qorumaq üçün könüllü cəbhəyə getməyi qərara almışdı. Onun bu qərarını evdə ata-anası müsbət qarşılamamışdılar. Azadın valideynləri onu qərarından döndərmək üçün nə qədər cəhd göstərsələr də, bu, mümkün olmamışdı. Savadlı, yaxşı mütəxəssis olduğu üçün özəl şirkətlərin biri Azadı yüksək maaşla işə götürməyi təklif etmişdi. Amma Azad bu təkliflə razılaşmamışdı. Atası Rəhim kişi gözünün ağı-qarası bircə oğlunu itirməkdən çox qorxurdu.

Bir gün o, Azadı yanına çağırıb son dəfə ona bildirmişdi:

- Oğul, bilirəm, Vətən sevgisi, torpaq itkisi hamımızı narahat etdiyi kimi, səni də üzür və daim düşündürür.

Torpaq hamımız üçün müqəddəsdir, onu qorumaq hamımızın borcudur. Gənclər qəhrəmanlıq göstərməyə meylli olurlar. Amma qəhrəmanlığı təkcə ön cəbhədə deyil, həm də arxa cəbhədə etməklə öz elminlə, zəkanla xalqına layiq dəyərli vətəndaş ola bilərsən, elmi-texniki sahədə böyük uğurlar qazana bilərsən. Yeni elmi kəşflərə, ideyalara, ixtiralara imza ata bilərsən. Bütün bunlar da qəhrəmanlıq sayılır, oğlum.

- Ata, xətrinə dəymək istəmirəm. Daxilində daim narahatçılıq hissi olan adam, sizin dediyiniz kimi, elmi yaradıcılıq, kəşflər, ideyalar, ixtiralar barəsində necə düşünə bilər? Doğma, ata-baba torpaqlarımız nə qədər ki, erməni dığaların işğalı altındadır, mən heç cür rahat ola bilmirəm. Bu mənim özümdən asılı deyil. Qəlbimdəki Qarabağ yarası müalicə olunmayınca, elm arxasınca getməyəcəyəm. Vətəni düşməndən qorumaq hər kəsin vətəndaşlıq borcudur, - deyə Azad fikrindən dönmə-yəcəyini söyləmişdi.

Azad cəbhəyə yola düşməzdən bir gün öncə, Rəhiləylə görüşüb qərarını ona da bildirmişdi. Rəhilə Azadın xarakterinə yaxından bələd olduğu üçün sevgilisinə bir söz deyə bilməmişdi. O, sadəcə, “Allah yolunu açıq etsin və səni qorusun!” deyə bildi. Bundan sonra Azad pencəyinin qoltuq cibindən bir məktub çıxarıb Rəhiləyə vermişdi və: “Bu məktubu mən cəbhəyə yola düşəndən sonra oxuyarsan və daim üstündə gəzdirərsən, - demişdi. - Və bunula da mənim həmişə sənin yanında olduğumu hiss edəcəksən”.

Bu zaman batalyon komandirinin səsi Rəhiləni xəyal və düşüncələrdən ayırdı:

- Rəhilə bacı, bu, sizin dediyiniz kimi, it oğlu Arsenin şəkli, bu da onun tez-tez UAZ markalı maşınla ötüb keçdiyi yer. Hə, onu da deyim ki, Rəhilə bacı, Arsen yaxınlıqdakı kəndə tez-tez gəlib gedir. Uşaqların dediyinə görə, həmin kənddə onun bir qadın tanışı var.
- Bu yaxşı oldu. Demək, Arseni "ov"lamaq o qədər də çətin olmayacaq, - deyə Rəhilə komandirdən həm Arsenin şəklini, həm də onun maşınla keçib getdiyi marşrutu göstərən kağızı aldı və onu diqqətlə nəzərdən keçirdi.

Rəhilə Arseni ovlamaq üçün özünə münasib vaxt və şərait seçməliydi. Komandir Rəhilənin yanından təzəcə ayrılmışdı ki, növbətçi döyüşçülərdən biri komandirə bildirdi ki, erməni snayperi uşaqlardan birini başından vurub. Döyüşçülər Fəridin meyitini gətirib bayrağın yanında yerə qoydular. Fəridin on doqquz yaşı vardı, BDU-nun ikinci kurs tələbəsiydi. Rəhilə də ömrünün ən gözəl çağında şəhidlik zirvəsinə yüksələn bu gənc oğlana baxmaq üçün döyüşçülərin toplaşdığı yerə getdi. O, yerdə uzanmış Fəridi gördükdə, içində sanki vulkan püskürdü və astadan "sənin də intiqamını alacağam, qardaşım!" dedi.

Rəhilə Fəridin ölmünü gördükdən sonra, Arsenin "ov"una elə bu gecə çıxmağı qərara aldı. O, bu barədə Şahin komandiri də xəbərdar etdi. Axşamtərəfi Rəhilə ona komandir tərəfindən verilmiş yeri yoxlamaq üçün kəşfiyyata getdi. O, Arsenin gəldiyi kəndin yaxınlığında

özünə münasib yer seçərək, yaxşıca “komfilyaj” oldu və gözləməyə başladı. Bir saat keçdi, ətrafda tam sakitlikdi. Rəhilə gözünü Arsenin gəlib keçdiyi yoldan çəkmirdi. Bu vaxt Azadla keçirdiyi günlər yenə də düşüncələrinə hakim kəsildi. O, hər dəfə sevgilisini xatırladıqca, düşmənə olan nifrəti daha da artırdı. Sonra o, kitelinin döş cibindəki Azadın ona yazdığı məktubu yenidən xatırladı və:“Xeyr, Azadım ölməyib, o, həmişə mənimlədir!” deyə bununla özünə təsəlli verdi.

Bu zaman yolda bir UAZ maşını göründü. Rəhilə snayperin gözlüyündən diqqətlə hədəfə baxdı. “Odur, əclaf Arsenin özüdür ki var!” deyə o, dərindən nəfəs alaraq, sonra da yenidən nəfəsini asta-asta bayıra buraxdı. İndi Arsen Qriqoryan tam onun hədəfindəydi. Rəhilə: “Alçaqlar, sizlər mənim sevgi dolu xoşbəxt gələcəyimi, həyatda ən çox sevdiyim adamı əlimdən aldınız. Mən də sizin həyatınızı cəhənnəmə döndərəcəyəm. Bundan sonra kabus olub daim sizləri təqib edəcəyəm. Mən sizin ölüm mələyiniz olacağam! Sizlərə bundan belə rahatlıq verməyəcəyəm! Hər birinizi tək-tək gəbərdəcəyəm. Azadımın ruhu rahat olmayınca, mən də sizlərə aman verməyəcəyəm! Sevgilimin və digər şəhidlərimizin qanını yerdə qoymayacağam!” deyə düşündü. Amma Rəhilə tətiyi çəkmədi, çünki əclafın qucağında 3-4 yaşlarında bir uşaq vardı. Rəhilə snayperin gözlüyündən uşağa baxdı. O, gülümsəyirdi, arada əllərini göyə qaldırıb Arsenin qucağında atılıb-düşürdü. Uşağın sevincini görən Rəhilənin qolları boşaldı və tətikdə olan barmağı istər-istəməz tətikdən çəkildi. Bu

zaman snayper qızın xəyalına Xocalı qətliamı gəldi. Orada qətlə yetirilən yüzlərlə məsum, günahsız körpə uşaqların əzab və işgəncə dolu, üzlərində qana bulaşmış soyuqdan donmuş göz yaşları gözləri önündə canlandı, ürəyini intiqam hissi bürüdü. Və yenidən barmağını tətiyə apardı. Amma bu dəfə gözlərindən axan yaş damcıları ona tətiyi çəkməyə imkan vermədi və ürəyindən keçirdi: "Biz ki ermənilər kimi uşaq qatili deyilik. Ataları qatil olsalar belə, biz onları heç vaxt uşaqlarının gözləri önündə öldürməmişik. Amma ermənilər Xocalıda uşaqları ata-analarının gözləri qarşısında, eləcə də ata-anaları uşaqlarının gözləri önündə qəddarcasına, xüsusi amansızlıqla qətlə yetirdilər. Hər bir müharibədə uşaqlar, qocalar, qadınlar toxunulmazdılar. Amma haylar üçün belə bir qanun yoxdu. Yaxşı, əclaf, indi get, o qucağındakı uşağa qurban ol! Sənlə hesabım qalsın sonraya!"

Amma Rəhilə gizləndiyi yeri tərk etmədi, "hər halda o, bu gün geri qayıdacaq" deyə düşündü. İki saatdan sonra Arsen doğrudan da, maşınla həmin yolla geri qayıtdı. Bu dəfə Rəhilə fürsəti əldən vermək istəmədi. Həm də Arsenin yanında daha "qoruyucu mələk" yoxdu. Snayper qız əvvəlcə nəfəsini dərindən içinə çəkdi, sonra astaca onu bayıra buraxdı. Snayperin gözlüyündən düşmənini axtardı. İndi o, tam hədəfdəydi. Rəhilə: " Al payını, alçaq, şərəfsiz!" deyə tətiyi çəkdi. Arsenin başı çiyninə əyildi. Sürücü dərhal maşını saxladı. "Bu da Fərid qardaşımın intiqamı!" deyə Rəhilə ikinci atəşlə sürücünü də gəbərtdi. Sonra o, sakitcə mövqeyini tərk etdi...

Ertəsi gün uşaqlar ratsiyadan erməni zabiti Arsen Qriqoryanın da öldürüldüyünü eşitdilər. Bu yerdə batalyon komandiri Şahin Bağırov bütün döyüşçülərin qarşısında Arsenin, Samvelin, eləcə də digər erməni dığalarının snayper Rəhilə bacı tərəfindən öldürüldüyünü onlara söylədi. Hamı heyrət və təəccüblə qıza baxırdı. Həyəcandan hamının nitqi tutulmuşdu, kimsə danışa bilmirdi. Ani sükutdan sonra uşaqlardan biri: “Sizə əvvəlcə ananızın südü, sonra da yediyiniz Vətən çörəyi halal olsun! - dedi. - Siz bu şücaətinizlə bizləri utandırdınız, bizə yaxşıca kişilik dərsi verdiniz. Atalar bunu çox düz deyib: “Aslanın erkəyi, dişisi olmaz”. Əllərin var olsun, bacım!” O, ucadan qışqırdı. “Tətik çəkən əllərinizə qurban olaq, ay bacı!”, “Halal olsun sənə!”, “Qəhrəman qızlarımıza eşq olsun!”, “Vətən sizin kimi övladlarıyla fəxr edir!”, “Allah səni qorusun, bacım!” deyə döyüşçülərdən sevinc dolu nidalar ucalırdı.

Həmin gündən etibarən Rəhilənin uşaqlar arasında hörməti birə min artdı. Bu istək onun təkcə qadın olmasından irəli gəlmirdi, bu qızın qorxmazlığı, kişiyana hərəkətləri, cəsurluğu uşaqları heyran qoymuşdu. Amma komandir Rəhilənin Azadın sevgilisi olduğunu döyüşçülərə hələlik söyləmədi.

İki gündən sonra batalyon Marquşevanı ermənilərdən geri aldı. Amma bir neçə saatdan sonra ermənilər güc toplayaraq yenidən hücuma keçdilər və qızğın döyüş başladı. Ermənilər sayca bizimkilərdən çoxdu, onlarda hələ üstəlik texnika da vardı. Rəhilə düşməni asanca məhv etmək üçün Poçt idarəsinin binasını seçmişdi. O,

binanın damında özünə yer edərək, yuxarıdan ermənilər bir-bir dənləyirdi. Batalyon komandiri iki erməni BMP-nin döyüşçülərə göz açmağa imkan vermədiyini görüb, daha çox itki verməmək üçün uşaqlara geri çəkilməyi əmr etdi. Döyüşçülər Poçtun binasından iki yüz metr aralanmışdılar ki, birdən Şahinin fikrinə Rəhilə gəldi. Qızın uşaqların geri çəkilməsindən xəbəri yoxdu. Ermənilər Rəhilənin yerini artıq müəyyən etmişdilər. Buna görə də onlar Poçt idarəsini mühasirəyə almağa başlamışdılar. Rəhilə bundan xəbərsizdi. Bir də gördü ki, arxadan ona atəş açırlar. O, indi başa düşdü ki, uşaqlar geri çəkilib, düşmən əhatəsində tək qalıb. O, snayperini götürüb cəld aşağı endi. Bu zaman Rəhilə iki erməni əsgərinin binanın arxasından gizlincə ona tərəf gəldiklərini gördü. O, snayperiylə pəncərədən onları nişan aldı və hər ikisini də cəhənnəmə vasil elədi. Rəhilə binadan çıxıb uşaqlara tərəf 50-60 metr qaçmışdı ki, arxadan onu vurdular. Snayper qız sağ əlini sol döşünün üstünə qoydu, yerə yıxılaraq gözlərini həyata əbədi yumdu. Batalyon komandiri bunu gördü. Ermənilərin sayı get-gedə çoxalırdı. Nəyin bahasına olursa-olsun Rəhilənin meyitini döyüş meydanından götürmək lazımdı. Ona görə də Şahin döyüşçülərə ucadan səsləndi:

- Uşaqlar, Rəhiləni vurdular! Onun meyitini düşmənə buraxmamalıyıq! Bu qız bizə Azadın yadigarıdır!”
- Hansı Azadın, komandir?- Uşaqlar bir ağızdan təəccüblə soruşdular.
- Azad Həsənovun, “alim” Azadın.

- Azad qardaşımızın əmanəti başımız üstündə. Komandir, bəs indiyə qədər bunu bizdən niyə gizli saxladınız?!

- Bu cür məsləhət bilinmişdi. Haydı, igidlərim, irəli! Rəhiləni götürməyincə, geri çəkildi yoxdu! - Şahin komandir əmr etdi.

Qızğın döyüş yenidən başladı. Ermənilər özlərinə yaxşı mövqe seçmişdilər, uşaqlara irəliləməyə imkan vermirdilər. Bu zaman uşaqlardan biri: “Uşaqlar, orda Azad qardaşımızın və eləcə də hamımızın namusu, qeyrəti, şərəfi yatır. Bacımızın meyitini bu murdar köpəklərin əlində qoymamlıyıq! Əgər Rəhiləni ordan götürməsək, bu, papaq bizə haram olsun!” deyərək başındakı əsgər papağını əlinə götürdü. Cəsur döyüşçülər sanki bu sözə bəndmiş kimi, “erməni faşistlərinə ölüm!” deyə düşmənin üstünə şığıdılar.

Rəhilənin meyitini döyüş meydanından götürmək üçün on şəhid verildi. Komandir qızın ciblərin yoxlayarkən ordan bir məktub çıxdı. O, əvvəlcə məktubu ürəyində, sonra da döyüşçülərə ucadan oxudu. Bu, Azadın cəbhəyə yola düşməzdən öncə Rəhiləyə verdiyi məktubdu. Məktubda yazılmışdı:

*"Əzizim, döyünən ürəyin olmaq və səni həmişə yanımda hiss edə bilmək üçün bu məktubu yazıram. İnsan qarşı-qarşıya olanda nədənsə ürəyindəkilərini sevdiyinə deməyə cürət eləmir. Mənim də Sənlə olduğum zamanlarda qəlbimdəkilərini dilimə gətirmək cəsarətim çatmırdı. Özün də görürdün ki, mən istənilən mövzuda sənlə söhbət edirdim, təkcə bizim hər ikimizə çox zəruri olan məsələdən başqa. Sənə qarşı olan hisslərimi biruzə vermək mənimçün çox çətindi. Bilirəm, sən də məndən nəsə gözləyirdin, ancaq bunun zamana ehtiyacı olduğunu düşünüb fikrindən vaz keçirdin. Bəzən qəlbində məni qınayırdın da. Düşünürdün ki, bu qədər cəsarətli adam mənim ehtiyacım olan sadə bir sözü nədən dilinə gətirə bilmir. Bəzən isə düşünürdün ki, bəlkə mənə qarşı bir şey hiss etmir. Onun bu qədər laqeyd olması nəyə gərəkdir? Axı sevgi özünün dediyi kimi cəsarət tələb edir. Bəs bu sahədə özü niyə bu qədər acizdir?! Amma bu məktubu sənə yazarkən sənlə keçirdiyim o xoş dəqiqəli anlar xəyalımda canlandı. İndi hara baxıramsa, sənin gülər gözlərin, xoş təbəssümün, əsrarəngiz baxışların bir daha gözlərim önündə canlanır. Bu məktubu qəlbimin səsiylə sənə yazıram. Sanki daxilimdə bir səs dedi ki, heç olmasa, səni daim intizar və*

*həsrətlə gözləyən qıza ümid və təsəlliverici bir şeylər yaz. Onun sənin sözlərinə çox ehtiyacı var. Və mən də sənə qarşı olan hisslərimi bu məktub vasitəsiylə bildirmək istədim. Yadındadırmı, biz sənlə dənizkənarı parkda gəzişərkən dedin ki, məncə indiki zamanda əsl məhəbbət, eşq yoxdur. Amma həmin vaxt mən sənə eşq, məhəbbət haqqında uzun-uzadı bir "leksiya" söylədim. Əzizim, onu bilməlisən ki, mən heç vaxt sənə qarşı laqeyd, biganə olmadım. Sadəcə, hisslərini cilovlamağı bacaran insanlardanam. İstərdim ki, bu məktubumu həmişə yanında gəzdirəsən və daim sənlə olduğumu hiss edəsən. Qoy bu məktub səni həmişə qada-bəlalardan qoruyan talismanın olsun. Həmişə sənlə olacağam. Mən burada, sənlə də qala bilərdim. Mənə özəl şirkətdən yaxşı iş də təklif etmişdilər. Amma qəlbimdəki Qarabağ dərdi, torpaq itkisi məni heç bir vaxt rahat buraxmırdı. Onu bilməlisən ki, səni sevdiyim qədər Vətənimi də sevirəm. Bu hər iki sevgi ülvi və müqəddəsdir. Mən bu sevgilərə qarşı laqeyd ola bilməzdim. Onu da bil ki, mən bu iki sevgi uğrunda canımı hər an fəda etməyə hazıram. Mən bu yolu tutmalıydım, başqa çarəm yoxdu. Çünki buna nə vicdanım, nə məsləkim, nə əqidəm, nə də şərəf və ləyaqətim yol verməzdi. Mənim Vətənimə olan sevgim, düşmənə olan nifrətim qədərdir. Həmişə düşünmüşəm ki, şərəfi və ləyaqətiylə ölən insanlar necə də xoşbəxtdilər. Əgər başıma bir şey gəlsə, heç vaxt kədərlənmə. Əksinə, mənimlə qürur duymalısan ki, Sənin belə bir sevgilin vardı. Təki Vətən sağ olsun!*

*İstər bu fani dünyada, istərsə də axirətdə Səni daim qəlbində yaşadacaq Azadın*!

***15.04.1992”***

Komandir məktubu oxuyandan sonra, üzünü döyüşçülərə tutub dedi: “Baxın, həyatda şərəflə yaşayıb, şərəflə ölmək buna deyərlər! “ Əsl cəsarət, igidlik eşqin üçün cəsur olmaqdır. Əsl saf, etibarlı və ülvi eşq, məhəbbət üçün ölümə belə getməyi bacarmaqdır. Bu iki gənc aşiq qorxub çəkinmədən öz sevgiləri - Vətən və insan sevgisi uğrunda ölümə getməyi özlərinə şərəf bildilər və sonda bunu bacardılar. Onlar şərəfli ölümləriylə insanların qəlbində olümsüzlük qazandılar. Eşq olsun bu cür saf, təmiz məhəbbətə! Bu eşq odunun bu dünyada ömrü çox az olsa da, axirətdə daha böyük şölə saçacaq. Və bu nakam eşq odunu erkən söndürən düşmənləri yandırıb yaxacaq! Azadla Rəhilə bu həyatda öz eşqləri, sevgiləri üçün başqalarına nümunə ola biləcək əsl qəhrəmanlıq təcəssümü oldular. Rəhilə bacımız həm sevgilisi Azadın, həm də digər şəhidlərimizin intiqamını qiyamətə qoymadı. Rahat yat, bacım. Biz səni, Azadı və bütün şəhidlərimizi daim qəlbimizdə yaşadacağıq! Bu Vətən sizin kimi qəhrəman övladlarıyla həmişə fəxr edəcək!..”

# Həyata dönüş

(hekayə)

Bir həftə olardı ki, onu palataya götürmüşdülər. Hospitala gətirilməsi isə on gün olardı. Vəziyyəti ağır olduğu üçün dörd gün reanimasiyada qalmışdı. Sağalmasına kimsənin ümidi yoxdu. Hətta, həkimlər də onun əməliyyatdan sağ çıxmasına əmin deyildilər. Çünki onun bədəni güllə və qəlpələrdən dəlik-deşik olduğuna görə "aşsüzən"i xatırladırdı. Həkimlər yaralının bədənindən 3 güllə, iki qəlpə çıxarmışdılar. Amma bu hələ hamısı deyildi. Bədənində, ürək nahiyəsinə yaxın yerdə daha bir güllə və baş nahiyəsində isə bir qəlpə qalmışdı. Həkimlər yaralının yaxınlarına demişdilər ki, bunları çıxarmaq çox təhlükəlidir. Həm də bu əməliyyatı daha sonralar – orqanizmin müqavimət imkanının müəyyən qədər artdığı bir vaxtda etmək mümkündür.Yəni xəstə özünü toparlamalıdır. Özü də bu əməliyyat Bakıda deyil, Türkiyədəki Gülhana Hərbi hospitalında edilməlidir.

Fəridin növbəti iynəsini vurmağa gələn tibb bacısı gülərək dedi:

- Qəhrəman, ziyarətçiniz var. Amma bu dəfəki ziyarətçi əvvəlkilərinə heç bənzəmir.
- Kimdir? - Fərid tələşla soruşdu.
- Düzü, bilmirəm. Yəni, onu burada heç görməmişəm. Gələndə, özünüz görəcəksiniz. İndisə, icazə verin,

iynənizi vurum, - deyə tibb bacısı şprisi və spirtli pambığı hazırladı.

Tibb bacısı iynəni vurmaq üçün Fərid üzü üstə çevrildi və sağ əliylə pejamasını azca aşağı çəkdi. Qız iynəni vurarkən həmişəki kimi, Fərid yenə də "uf!" dedi. Qız isə onun bu ufuldamasını görüb soruşdu:

- Qəribədir, bədəninizdən bu qədər güllələr, qəlpələr çıxarılıb, ancaq bircə dəfə də olsun belə onların ağrısından səsinizi çıxartmamısınız. Bəs nədən kiçicik bir iynədən bu qədər ufuldayıb, sızlayırsınız? Mən ki, iynə vurarkən sizi incitmirəm.

- Sevinc xanım, güllə, qəlpə və iynə ayrı-ayrı şeylərdir. Çünki döyüş meydanında insan güllənin ona nə vaxt dəyəcəyindən xəbərəsiz olur. Bu ani olur və sən həmin vaxt heç bir şey hiss etmirsən. Ağrılar sonradan başlayır. İynənin vurulması vaxtını və ağrısını gözləyirsən. Ona görə də özümdən asılı olmadan, instink olaraq ufuldamaq məcburiyyətində qalıram. – deyə Fərid tibb bacısına qısaca izahat verdi.

- Yaxşı, xanımı daha gözlətməyim, çıxıram. Bir şey lazım olsa, başının üstündəki düyməni basarsan, - deyə tibb bacısı palatanı tərk etdi.

***

Sevinc Fəriddən xoşlanırdı. Fəridin döyüşlərdə göstərdiyi qəhrəmanlıqlar, şücaətlər barədə dostları danışarkən eşitmişdi. Amma bu xoşlanmadan Fəridin xəbəri yoxdu...

Sevinc palatanı tərk etdikdən sonra Fəridi maraq hissi bürüdü. Onun gözləri ziyarətinə gələn xanımı görməyə tələsdi. Bu zaman qapı açıldı, əlində gül dəstəsi olan və çiyinlərinə ağ xalat atılmış bir xanım palataya daxil oldu. Fərid bu xanımı tanımadı.

- Salam, Fərid. Sənin döyüşdə ağır yaralandığını yuxumda gördüm. Durub rayondan birbaş Bakıya gəldim. Amma hansı xəstəxanada yatdığını məhəllənizdəki uşaqlardan öyrəndim. - Qız gülə-gülə Fəridin çarpayısına yaxınlaşdı.

Fərid isə bu qızı tanımaq üçün hələ də beynini qurcalayırdı, ancaq bir yerə vara bilmirdi. Qız, Fəridin ona diqqətlə baxdığını, lakin tanımadığını yəqin etdikdən sonra dedi:

- Necə, yəni məni tanımadınmı? Mənəm də, Sevil. İki il bundan öncə həyatımı xilas edən, yenidən dünyaya qaytaran və məni yuvarlanmaqda olduğum uçurumun kənarından qurtardığınız həmin Seviləm.

Fərid bu dəfə də bir şey anlamadı. Ola bilsin bunların hamısı “narkoz”un təsirindəndi. Sevil Fəridin onu, doğrudan da, tanımadığını görüb, əlavə məlumatlar verməli oldu. Belə ki, Sevil ona ilk tanışlıqlarını, yeri olmadığından, həmin o axşam onlarda gecələməsini, qəfil sancılamasını və həmin axşam onu xəstəxanaya aparmasını xatırlatdı. Bütün bunlardan sonra Fəridin beyninin üzərinə sərilmiş dumanlı pərdə sanki çəkilməyə və o, bu qızla yaşadığı on günlük macəralarla dolu anları yavaş-yavaş xatırlamağa başladı...

Məsələ beləydi: Bir gün Fərid məşqdən çıxıb evə gələrkən binanın qarşısında qardaşı Rüfəti bir qızla gördü. Ona bərk acığı tutdu. Onlar eyni binada, ancaq ayrı-ayrı girişlərdə yaşayırdılar. Rüfət evli idi, iki uşağı da vardı. Yaşca o, Fəriddən böyükdü. Rüfətin bu hərəkəti Fəridi bərk qəzəbləndirmişdi. Buna görə də elə qızın yanındaca ona irad tutaraq bildirdi: "Rüfət, bu sənə heç yaraşırmı?! Sən axı, evli adamsan. Sənubər rayondan gələndən sonra bundan xəbər tutsa, ona nə cavab verəcəksən? Ayıb deyilmi? Niyə nəslimizin adını batırırsan? Sənin bu hərəkətin hamımıza utanc gətirir. Qonşulardan, tanış-bilişdən heç utanmırsanmı? Hələ bibimi demirəm. O, sənin bu hərəkətindən xəbər tutsa, qiyamət qoparacaq."

Rüfət özündən kiçik qardaşına and-aman etdi ki, onun bu işdə heç bir qəbahəti yoxdur. Sadəcə olaraq, qıza kömək etmək istəyirdi. O, metrodan çıxıb evə gələrkən qızın özü onunla tanış olmaq istəmişdi. Qız Rüfətə rayondan gəldiyini və gecələməyə yerinin olmadığını bildirmişdi. O da xeyirxahlıq əlaməti olaraq, həm də uşaqların evdə olmamasından istifadə edərək gecələmək üçün onu evinə gətirmək istəmişdi. Bu işdə onun pis bir niyyətinin olmadığını qardaşına isbat etməyə çalışdı. Ancaq qardaşının iradından sonra Rüfət qızı binanın həyətində buraxaraq, pərt olmuş halda mənzilinə getmişdi. Sonra Fərid də qıza çəpəyi nəzərlərlə baxaraq yuxarı qalxmışdı. Amma on dəqiqədən sonra axşam çörəyi almaq üçün həyətə düşən Fərid qızın hələ də Rüfətgilin "bloku" ağzında dayandığını gördü. Bu dəfə

Fərid qıza yaxınlaşıb ondan niyə çıxıb getmədiyini soruşdu. Qız utana-utana dedi:

- Bir az bundan öncə tutulub qaldım. Nə deyəcəyimi bilmədim. Amma biləsən ki, qardaşınızı nahaq yerə danladınız. Onun heç bir günahı yoxdu. Mən özüm onunla tanış olmaq istədim. Rayondan gəlmişəm, Bakıda tanıdığım kimim-kimsəm yoxdu. Bu şəhərdə birinci dəfədir ki, oluram. Qardaşından bir gecəlik qalmaq üçün yer xahiş etdim. O da ailəsinin rayonda olmasını əsas gətirərək, bir günlük müsafir kimi onun evində qalmağıma razılıq verdi.

- Bəs tanımadığın şəhərə nə üçün gəlmisən? Tanımadığın bir oğlanla bir yerdə gecələməyini necə anlamaq olar? - Fərid şübhə dolu nəzərlərlə qıza baxdı.

- Bəzi problemlərim var, onunçün şəhərə gəldim. Amma gördüm ki, bu şəhər ona yad olan adamları heç də yaxşı qarşılamır. Hə, onu da deyim ki, adım Sevildir. - Qız məyus halda cavab verdi.

- Yaxşı, Sevil xanım, başqa gedəcək yeriniz doğrudan da yoxdursa, o zaman insanlıq xatirinə bir gecəlik qonağım olarsınız. Amma bir neçə dəqiqəliyə burada gözləyin, marketdən çörək alıb qayıdıram. - Fərid dedi. Sevil güldü. Fərid ondan niyə güldüyünü soruşdu:

- Bəs qardaşınız Rüfət mənim sizdə gecələdiyimi bilsə, o zaman siz ona nə cavab verəcəksiniz? Bu doğrudan da gülməli çıxmırmı? - Qız dedi.

- Orasına hələ baxarıq. - Fərid iti addımlarla marketə tələsdi...

Fəridgilin ailəsi doqquz nəfərdən ibarətdi. Onlar dörd qardaş, üç bacıydılar. Fəridin bacıları və iki qardaşı ailə qurmuş, Fərid və ondan kiçik qardaşı isə hələ subaydılar. İki qardaşı və bacıları kənddə, iki qardaş isə Bakıda yaşayırdı. Fəridin bibisi də şəhərdə, onlara yaxın binada olurdu. Xuraman tez-tez Fəridgilə baş çəkirdi. Atası Rəhim kişi Fəridin on yaşı olanda xəstəlikdən dünyasını dəyişmişdi. Kənddə Rəhim kişini hamı xeyirxah, başqalarına canıyanan, hamının hay-harayına yetişən, çətin durumda olanlara, çıxılmaz vəziyyətdə qalanlara həmişə kömək əlini uzadan bir insan kimi xatırlayır. Onun kənd camaatı arasında yaxşı xətir-hörməti vardı, böyükdən kiçiyə hamı ona rəğbət bəsləyir, onu saya salır, imanlı, əsl Allah adamı kimi tanıyırdı. Kənddə onun sözü hamı üçün keçərliydi.

Bir dəfə ot biçini zamanı dəryazçılardan Məcid adlı bir kişini ilan sancır. Təcili türkəçarə edirlərsə də, bir işə yaramır. Kişinin əhvalının pisləşdiyini görən Rəhim vaxt itirmədən yenicə biçilmiş otlardan arabaya döşəyərək, Məcidi götürüb atı rayon mərkəzinə doğru mahmızlayır. O zamanlar hələ kənddə kimsədə maşın yoxuydu. Kənd camaatı alış-veriş üçün rayona atla, eşşəklə, arabayla gedib gəlirdi. Kənddən rayon mərkəzinə olan məsfə on kilometrdi. Həmin vaxt Rəhim kişi Məcidi vaxtında həkimə çatdırmışdı. Bunu həkimin özü etiraf etmişdi. Və həkimlər vaxtında Məcidin həyatını qoruya bilmişdilər. Bu hadisəni kənddə hamı bilirdi. Deyirdilər ki, Rəhim kişi olmasaydı, Məcid indi yaşamazdı. Ondan sonra bir gün axşam süfrəsində Rəhim kişi övladlarına müraciətlə

demişdi: “Uşaqlarım, indi söyləyəcəklərim qoy məndən sizlərə bir ata nəsihəti olsun. Hər şeydən öncə, xalqınızı, millətinizi, Vətəninizi sevin, torpağınızı qoruyun! Həyatda ləyaqətlə və şərəflə yaşamağa çalışın. Həyatda yaşadığınız müddətdə xeyir işlər görün, adamların köməyinə yetişin, çarəsizlərin əlindən tutun. Çünki xeyir iş tutmaq insanın ürəyinə toxtaqlıq və rahatlıq gətirər. Məhəmməd Peyğəmbərimiz (s.a.s.) xeyir iş barədə belə deyib: “Xeyir iş görməkdə inadkar olun.” İnamlı və imanlı olun. Sizi Yaradana ibadət edin. Çünki ibadət ruhunuzu Allaha qovuşdurar. Çörəyinizi halal zəhmətinizlə qazanın. Çalışın ki, boğazınızdan haram loxma keçməsin. Övladlarınıza da haram yedizdirməyin. Əmanətə xəyanət etməyin, oğurluqdan çəkinin. Özünüzdən böyüklərə hörmət və ehtiram göstərin. Özünüzdən kiçiklərə yaxşı əməllərinizlə nümunə olun. Zinadan uzaq olun. Başqasının halalına ehtirasla baxmayın. Elm dalınca gedin. Bilikli və savadlı olun. Bilik ən çətin açılan qapıların açarıdır. Çalışın hər zaman həqiqəti söyləyin, hər işinizdə ədalətli olun. Çətin vəziyyətə düşüb, sizdən kömək istəyənləri məyus etməyin, onlara yardım edin. Kimsəni yarı yolda buraxmayın...”

Fəridgil atalarının nəsihətlərinə həmişə əməl etməyə çalışmışdılar. Ona görə də Fərid marketdən çörəyi alandan sonra Sevili də götürüb evinə qalxdı. Artıq hava qaranlıqlaşmışdı, küçə işıqları yanırdı. Fərid evinə dəvət etdiyi müsafirə özünü sərbəst hiss etməyi tapşırdı və idmandan gəldiyi üçün duş almaqdan ötrü hamama girdi.

Fərid hamamdan çıxandan sonra qız onun maykadan açıqca hiss edilən dolu bədəninə və əzələlərinə baxaraq soruşdu:

- Siz idmançısınız?

- Xeyr, idmançı deyiləm. Amma idmanla məşğul oluram. Bunu bağlı olduğum məslək tələb edir.
- Onun necə məslək olduğunu bilmək olarmı? Çünki mən də idmanla məşğul olmaq istəyirəm. Amma kiminsə mənimlə məşğul olması gərəkdir. - Sevil gülərək Fəridə yaxınlaşdı və əli ilə onun əzələli qoluna toxundu.
- Siz doğrudanmı idmanla məşğul olmaq istəyirsiniz, yoxsa bunu sözgəlişi dediniz?
- Doğru sözümdür. İdmanla məşğul olmaq istəyirəm.
- Bu sizin nəyinizə lazımdır?
- Özünü müdafiə etmək üçün qız uşağına idman hökmən lazımdır.
- Eləsə, mən sizlə məşğul olaram. İndi isə bir şey yemək lazımdır.
- Yaxşı oldu. O zaman yeməkdən sonra dərhal idmana başlayırıq, eləmi?
- Sizin üçün necə münasibdir, elə olsun. - Fərid şam yeməyinə bir şey hazırlamaq üçün mətbəxə keçdi.

Şam yeməyindən sonra Fərid qıza özünümüdafiə üçün bəzi idman fəndlərini öyrətmək istədi. Belə ki, o, qıza ilkin olaraq sadə bir fənd işlətməyi qərara aldı. Fənd işlədərkən Fəridin əli yavaşca Sevilin sağ böyrünə toxundu. Bu zaman qız: “Vay, öldüm!” deyə bərkdən qışqıraraq yerə uzandı. Fərid qorxdu. Sevil isə əli ilə sağ tərəfini tutub qışqırmaqda davam edirdi. O, özünü itirmədən qızı qucağına götürüb aşağı düşdü, bir taksi tutub onu yaxınlıqdakı tanış xəstəxanaya apardı. Burada Fəridin tanış həkimi vardı. Xöşbəxtlikdən bu axşam onun növbəsiydi. Həkim qıza baxan kimi xəstənin təcili əməliyyatxanaya götürülməsini tapşırdı. Fərid isə

dəhlizdə gözləməli oldu. Qırx-əlli dəqiqədən sonra Fuad həkim çıxdı və Fəridə qorxulu bir şeyin olmadığını söylədi. Qızın kor bağırsağıymış. Əməliyyatın uğurlu keçdiyini bildirən həkim Fəridi sakitləşdirdi.

Üç gündən sonra Fərid qızı xəstəxanadan çıxarıb yenə evlərinə gətirdi. Bir də üç gündən sonra yaranın tikişini sökmək üçün həkimin yanına aparacaqdı...

... Fərid gündüzlər döyüşçü dostlarıyla idmanla məşq edir, axşamlar isə evə qayıdırdı. Xüsusi təyinatın uşaqları əsasən fiziki sağlamlıqlarına ciddi fikir verirdilər. Fərid döyüşçü dostlarıyla birlikdə Ağdam, Goranboy, Ağdərə, Tərtər bölgələrində bir sıra mühüm tapşırıqları yerinə yetirmişdi. Növbəti tapşırıq Ağdamın Şelli kəndinə hücum edən ermənilərin qarşısını kəsmək və oradakı düşmən bölmələrini məhv etmək idi. Onlar iyirmi nəfər xüsusi təyinatlı dəstənin uşaqlarıyla əvvəlcə kəşfiyyata getmişdilər. Geri qayıdarkən ermənilərin mühasirəsinə düşürlər. Həmin mühasirədə Fərid on iki yoldaşını itirir. Mühasirədən yaralılarla birlikdə cəmi yeddi nəfər çıxa bilmişdi. Fərid yaralı yoldaşını çiyninə alıb sürünərkən arxadan həm yoldaşına, həm də özünə bir neçə güllə dəymişdi. Yoldaşı kürəyindəcə keçinmişdi, ancaq buna baxmayaraq Fərid onu da mühasirədən çıxara bilmişdi. Ölmüş yoldaşını uşaqlara təhvil verərək yenidən digər yaralı yoldaşını xilas etmək üçün geri qayıtmaq istəmişdi. Yoldaşları yaralı olduğunu Fəridə anlatsalar da, buna fikir verməmiş, digər yaralı dostunu qurtarmaq üçün yenidən irəli can atmışdı. O, yoldaşlarından iyirmi metr aralanmışdı ki, yanında qumbara partlamışdı. Fərid yerə yıxılmışdı. Gözlərinə qaranlıq çökmüş, xəyalında son

dəfə anasını xatırlamışdı. Anası ona həmişə xoşladığı üçün bişmiş südün üzünü verərdi. O, həm də soyuq aylarda anasının bişirdiyi çörəkləri təndirdən çıxardıqdan sonra qonşu uşaqlarla birlikdə ayaqlarını təndirə salladıqlarını, təndirin közünün altına kartof basdır-malarını, sonra da bişmiş kartofları əlləri yana-yana necə soyduqlarını, yay aylarında isə çayda balıq tutmaq üçün uşaqlarla gəndəlaş bitkisindən düzəltdikləri kolaz çəkmələrini xatırlamışdı...Yoldaşları elə bilmişdilər ki, Fərid ölüb. Lakin ona yaxınlaşanda nəbzinin hələ də vurduğunu hiss etmişdilər. Sonra döyüşçü dostları onu götürüb tez rayon xəstəxanasına aparmışlar. Amma vəziyyəti ağır olduğu üçün Bakıya göndərməli olmuşdular...

... Artıq doqquzuncu gündü ki, Sevil Fəridin müsafiriy-di. Qız sağalmışdı. Həmin axşam Sevil Fəridə göstərdiyi qonaqpərvərliyə və xeyirxahlığa görə minnətdarlığını bildirdi. Sabah qız rayona gedəcəkdi. Bu zaman qapı döyüldü. Fərid qapıya yaxınlaşıb gözlükdən baxdı və tələaş içində dönüb Sevilə dedi: “Vay, yandım, bibimdir! Səni burada görsə, mənə toy tutacaq...”

Xuraman haradansa Fəridin evində yad bir qızın qaldığını öyrənmişdi. Ona görə də bu xəbəri eşidən kimi birbaş qardaşı oğlunun qapısına dayanmışdı. Fərid qapı arxasında bibisini görən kimi qızı hamamda gizlətməyə çalışmışdı. Amma Xuraman xanım evə girən kimi Fəridin üstünə: “Hanı o, qancıq?! Hardadır o, fahişə?” deyə əsəbi halda ucadan qışqırmağa başlamışdı. Qardaşı oğlu ona mane olmağa çalışmış, ancaq bibi əliylə qoymuş kimi qızı tapıb saçından tutaraq onu hamamdan çıxarmış və onu döyəcləməyə başlamışdı. Birdən Fəridin

yadına nəsə düşmüşdü və ucadan bağıraraq demişdi: “Bibi, qız yaralıdı! Ona toxunma! Onu burax! Əməliyyat olunub. İndi yarasının tikişi açılacaq!”

Bu sözdən sonra Xuraman qızı rahat buraxdı. Fərid bibisini sakitləşdirdi və əhvalatı olduğu kimi ona anlatdı. Bibisi Fəridi sona qədər dinlədikdən sonra: “Fərid, bu sənə heç yaraşmır. – dedi. - Sən ki ağıllı oğlansan. Sənin küçə qadınlarıyla nə işin var? Bizim adımız-sanımız var. Gör bir sən kimin oğlusan?”

- Bu qızı sabah tezdən rayona yola salırsan. Daha başqa bir söz eşitmək istəmirəm.

- Yaxşı, bibi. Mən Sevili sabah rayonlarına yola salacağam. - Fərid bibisini əmin etdi.

Ertəsi gün Fərid Sevili avtovağzala gətirdi, ona bilet aldı, əl çantasına bir az da yolxərci qoydu və dedi:

- Yaxşı ki, bizim kimi adama rast gəlmisiniz, yoxsa şorgöz kişilər sizi çoxdan kirlətmişdilər. Məsləhətim odur ki, bir də şəhərə gəlməyin.

Bu hadisədən iki il keçəndən sonra indi həmin qız yenidən Fəridin qarşısında dayanmışdı. Fərid gülümsündü:

- Bəs bu dəfə nədən gəldiniz?

- Sizə bir təşəkkür borcum vardı, onunçün gəldim. O zaman sizə minnətdarlığımı bildirməyə macal olmadı, həm də buna bibiniz imkan vermədi. Bu gün mən sizə hər şeyi səmimi şəkildə etiraf edəcəyəm. Hər şeydən öncə, onu deyim ki, siz mənim xilaskarımsınız. Bu barədə evdəkilər də bilir. Siz mənim həyatımı qurtarmısınız. Məni pis yola düşməkdən çəkindirmisiniz. Namusumun ləkələnməsindən qorumusunuz! Siz məni

həyatın dibinə yuvarlanmaqdan xilas etmisiniz. İndi nişanlanmışam. Bu yaxınlarda toyum olacaq. Çox istərdim ki, toyumda qardaş əvəzi olaraq siz də iştirak edəsiniz. Çünki mənim həyatda qardaşım olmayıb. Bir qardaş kimi gəlin köçərkən xeyir-duanı sizdən almaq istərdim. Biz ailədə üç bacı olmuşuq. Bizi anamız böyütmüşdü. Atamız qız uşağı istəmədiyi üçün bizləri atıb birdəfəlik harasa gedib. Mən o zaman Bakıya niyə gəldiyimi sizə indi anladacağam. Evdə olarkən sağ tərəfimdən tez-tez ağrılar tuturdu. Bir dəfə əlacsız qalıb anam məni kənd həkiminə apardı. O, mənə baxıb dedi ki, məndə "apendisit"dir. Təcili əməliyyat olunmalıdır. Yeməyə çörəyi güclə tapırdıq. Əməliyyata pulu hardan tapacaqdıq. Buna görə də anama və bacılarıma yük olmaq istəmədim. Bakıya gəldim. Fikrimdə tutmuşdum ki, rastıma çıxan hər hansı bir oğlanla tanış olum. Onunla yatarkən birdən qışqırıb qəsdən böyrümü tutacağam. O da istər-istəməz məni xəstəxanaya aparacaqdı. Və "apendisit"im olduğu məlum olacaqdı. Beləliklə, həmin adamın hesabına əməliyyat olunacaqdım. Yaxşı ki, Allah qarşıma ilk olaraq Rüfət və sizi çıxardı. Sizin kimi namuslu, qeyrətli adamlar qarşıma çıxmasaydı, kim bilir həyatım indi necə olacaqdı. Siz Allah təklifimi və dəvətimi qəbul edin. Məni qırmayın. Sizin kimi qardaşın xeyir-duasına indi həqiqətən də çox ehtiyacım var. Necə olursa-olsun qardaş bacısının xoş günündə onun yanında olmalıdır, elə deyilmi?!

Fərid Sevilin son cümləsindən keçə bilmədi. Və gülərək: "Narahat olma. Sizə xeyir-dua verib, ər evinə bir qardaş kimi mən yola salacağam, bacım!" dedi.

# Xeyirxah düşmən

( hekayə)

Nurəddin əsgərilikdən sonra Ukraynanın Krivoy Roq şəhərində qalıb milis sistemində işə düzəldi. Bacarığı və təcrübəsi sayəsində o, kapitan rütbəsinə qədər yüksəldi. Qarabağ savaşı başlayanda, başqaları kimi, onu da Vətən sevgisi, torpaq namusu narahat etməyə bilməzdi. Ona görə də o, xalqının belə bir ağır günündə düşmənlə savaşmaq, torpaqlarımızı erməni işğalçılarından qorumaq üçün Vətənə qayıtdı. O zaman polis işçilərini növbə ilə ayrı-ayrı döyüş bölgələrinə göndərirdilər. İndi kapitan Nurəddin də bir qrup polis yoldaşları ilə xəyanətkar düşmənlə üz-üzə dayanmış-dılar...

Vaxtilə çörəyimizi yeyən, suyumuzu içən, xəyanətləri ucbatından bir çox ölkələrdən qovulmalarına baxmayaraq, xeyirxahlıq göstərib, qucaq açdığımız, yaşamaq üçün torpağımızdan pay verdiyimiz haylar indi başımıza bəla olub. Onlar bizimlə qonşu olandan bəri rahatlığımız ərşə çıxıb. Ermənilər bizə “ağaları”nın himayədarlığı sayəsində heç bir millətin edə bilməyəcəyi xəyanət ediblər. Xəyanəti isə heç kəs bağışlamır, hətta tarixin özü belə...

***

Nurəddin hələ Krivoy Roqda işləyən zaman Qafqazdan olan neçə-neçə insanlara kömək əlini uzatmış, onlara "dayı"lıq etmişdi. Onların arasında gürcü də vardı, erməni də. Buna görə də bu şəhərdə milis kapitanı Nurəddini hamı yaxşı tanıyır, xətrini çox istəyirdilər. İşləri çətinə düşən hər bir qafqazlı ümid yeri bildikləri Nurəddinin yanına gəlir, məsləhət alır, onlara kömək etməyini xahiş edirdilər. Polis kapitanı isə işlədiyi müddətdə millətindən asılı olmayaraq heç kimsəyə haqsızlıq etmədi, kimsəni haqsız yerə incitmədi. Ona görə də Nurəddin Krivoy Roqu tərk edib Azərbaycana qayıdanda, onu yola salanlar arasında göz yaşlarını saxlaya bilməyənlər də olmuşdu...

1992-ci ilin may ayında Nurəddin bir qrup polis həmkarları ilə birlikdə Şuşa yaxınlığındakı Böyük Kirs dağında növbə çəkirdilər. Neçə gün idi ki, aşağıdakı döyüş yoldaşlarından əlaqə kəsilmişdi. Onların ərzaqları tükənmiş, içməyə bir qurtum su belə qalmamışdı. Onlar bu dağın başında sanki unudulmuş-dular. Uşaqların bəzisi, hətta, "Maksim" pulemyotunun suyunu içmək məcburiyyətində qalmışdı... Nurəddin döyüşçü dostlarının bu durumuna tab gətirə bilməyib, dağdan aşağı enməyə qərar verdi. O, yoldaşlarına üzünü tutub dedi:

- Uşaqlar, görünür bizə kömək gəlməyəcək. Bizim burada ac-susuz oturub kimsəni gözləyəcək halımız yoxdur. Mən aşağı enib, hardan olursa-olsun sizlərə

yemək və su gətirəcəyəm. Siz isə ayıq-sayıq olun. Düşmən kəşfiyyatı buraya hər an gələ bilər.

Nurəddin uşaqlarla sağollaşaraq durduqları mövqedən aşağı enməyə başladı. O, postdan təxminən 450-500 metr aralanmışdı ki, düşmən pusqusuna düşdü. Hər tərəfdən Nurəddinin üstünə güllə yağışı yağmağa başladı. Ermənilər sanki onu gözləyirlərmiş. O, cəld iri bir daşın arxasına keçib, ermənilərlə tək döyüşə girdi. O, açılan atəşlərdən təxmini müəyyən etdi ki, onlar altı nəfərdilər. Kapitan sərrast atəşiylə qaniçənlərin ikisini susdura bildi. Amma avtomatın güllələri qurtarmaq üzrə idi. Düşmən yavaş-yavaş Nurəddini dövrəyə almağa çalışırdı. Cəsur döyüşçü düşmənin bu hiyləsini anladı. Onlar Nurəddini əsir götürmək istəyirdilər. Nəhayət, avtomatın güllələri qurtardı. Nurəddin əl atıb qoburdan tapançasını çıxardı və yenidən atəş açdı. O, atdıqca güllələri sayırdı. Dığaların birini də vurdu. “Bu da sonuncu güllə!” deyə Nurəddin döyüş yoldaşlarını, evdəkilərini - səkkiz yaşlı bircə oğlunu, həyat yoldaşını, atasını, anasını, bacısını, qardaşını bir-bir xəyalından keçirdi. O, ölümdən qorxmurdu, sadəcə yarımçıq qalmış, gələcəkdə bu Vətənə, bu millətə daha çox xeyir verə biləcək arzularını həyata keçirə bilməyəcəyi üçün heyfsiləndi. Kapitan tapançasında qalmış son gülləsini gicgahına dayadı, ancaq nə düşündüsə, fikrindən tez də vaz keçdi. “A-a-a, məndə hələ bir qumbara da var!” deyə cəsur döyüşçünün çöhrəsində təbəssüm cilvələndi. “Nə qədər düşmən öldürsəm, ruhum bir o qədər rahat olar.

Bu sümsük dığalara təslim olmaqdansa...” deyə kapitan düşündü.

Düşmənlər də Nurəddinin gülləsinin bitdiyini bilirdilər. Ona görə də onlar gizləndikləri yerdən çıxaraq, əllərindəki avtomatları hazır vəziyyətdə Nurəddinə tərəf addımladılar. Nurəddin artıq nə edəcəyini götür-qoy etmişdi. Dığalardan ikisi qarşı tərəfdən, digəri isə tək sağ tərəfdən ona yaxınlaşırdı. Cəsur döyüşçü qumbaranın kilini çıxarıb sol əlində hazır saxladı. O, sağ tərəfdən ona qarşı tək gələn düşməni tapançasının sonuncu gülləsi ilə vurmaq, sonra da qumbaranı qarşıdan gələnlərin üstünə atmağı planlaşdırmışdı. Amma o, istəyirdi ki, onların üçü də ona daha da yaxınlaşsın. Elə də oldu. Nurəddin ilk oncə, sağ tərəfdən gələn erməni faşistini sonuncu güllə ilə alnından vurdu və sol əlindəki qumbaranı qarşıdan gələn iki ermənininin üstünə atdı. Bu zaman güclü partlayış səsi eşidildi. Ətrafı toz-duman bürüdü. Sonra araya ölüm sükutu çökdü. Hər kəs yerdə - həm düşmənlər, həm də cəsur kapitan sərilib qalmışdılar. Bu vaxt hardansa üç azərbaycanlı kəşfiyyatçısı peyda oldu. Onlar düşmənlərin ölüb-ölmədiyini yoxladıqdan sonra Nurəddinə yaxınlaşdılar. Nurəddin al-qan içindəydi. Amma o, sağ idi. Kəşfiyyatçılar tez Nurəddini götürüb, aşağı enməyə başladılar. Az keçməmiş onlar da düşmən pusqusuna düşdülər. Atışma başladı. Kəşfiyyatçılar yaralı Nurəddini böyük bir daşın arxasında gizlədib, özləri ermənilərlə qeyri-bərabər döyüşə girişdilər. Amma bu döyüşdə cəsur

kəşfiyyatçılarımızın üçü də şəhid oldu, ağır yaralı Nurəddini isə ermənilər əsir götürdülər...

Həmin vaxt Nail Kazımov batalyonu ilə uşaqlara köməyə getməliydi. Amma o, gecəykən 120 nəfərlik batalyonunu uşaqlara kömək etməyə aparmaq əvəzinə, geri çəkib apardı. Bu, xəyanət idi. O yerdən ki, bizimkiləri o, müdafiə edəcəkdi, həmin istiqamətdən gözlənilmədən ermənilər hücum etdilər. Düzdür, sonradan xəyanətkar layiqli cəzasını aldı. Amma onun xəyanəti nəticəsində say-seçmə oğullarımız şəhid oldular. Elə alınmaz qala olan Şuşa da həmin vaxt düşmən tərəfindən işğal olundu...

***

Nurəddin gözlərini açanda, başının üstündə tanımadığı, yad dildə danışan adamlar gördü. O, başa düşdü ki, onu əsir götürüblər. Bədənində şiddətli ağrılar vardı. Bu zaman bir nəfər başını ona tərəf yaxınlaşdırıb dedi:

- Nurik, mənəm, Edik Poqosyan! Tanıdınmı?!

Ağrıdan Nurəddinin başı hərlənirdi, gözləri tor görürdü. Onun kim olduğunu hardan tanıyacaqdı. O, güclə eşidiləcək səslə mızıldadı:

- Kimsəni tanımaq halım yoxdur. Deyin görüm, mən hardayam?

- Nurik, narahat olma. Yaxşı ki, mənə rast gəldin, yoxsa səni öldürəcəkdilər. Sən mənə indi hava, su kimi lazımsan. Düzdür, yaraların çox ağırdır. Güllə boyun nahiyəndən girib, ağ ciyərini zədələyərək sağ

qabırğanda ilişib qalıb. Bundan əlavə, bədənində də çoxlu sayda qəlpələr var. Amma həkimə yalvar-yaxar etmişəm ki, səni hələlik ölməyə qoymasın. Çünki sən mənə indi çox lazımsan. Oğlum Aşot sizinkilərin əlindədir. Səni onunla dəyişəcəyik. Müalicəni isə öz xəstəxananızda alarsan. Bilirəm ki, onsuz da burada səni yaxşı əməliyyat etməyəcəklər. Həkim dedi ki, möcüzə nəticəsində sağ qalmısan. Səni xəstəxanadan alıb buraya gətirdim. Xəstəxanada oğlumla dəyişmək üçün yaralı azərbaycanlı axtarırdım. Təsadüfən səni gördüm və komandirdən səni mənə verməyi xahiş etdim. Onlar oğlumun sizinkilərin əlində olduğunu bildikləri üçün səni mənə verdilər, yoxsa danışıqlarından məlum olurdu ki, danışmadığın təqdirdə səni öldürəcəkdilər. Oğlum Aşot da sizinkilərə könüllü əsir düşüb. O, sizinkilərə əsla güllə atmayıb. O, əsir düşəndə deyib ki, “mən qardaşlarıma necə güllə ata bilərəm. Axı mən Bakıda doğulmuşam, orada böyüyüb boya-başa çatmışam, o torpağın çörəyini yeyib, suyunu içmişəm. Bakıda çoxlu dostlarım var. Orada ali təhsil aldım. Hər yerdə mənə hörmətlə yanaşdılar. Bütün bunları unutmaq olarmı?!” Mən də oğlumun fikirləriylə tam razıyam. Biz sizinlə dinc və rahat yaşayır, gözəl günlər keçirirdik. İnanın ki, həyatımızın ən gözəl və unudulmaz günlərini Bakıda keçirmişik. Allah mərdimazarın, xainlərin evlərini xaraba qoysun! Necə ki, bizi isti yuvamızdan, ev-eşiyimizdən didərgin saldılar. Mən sənə başıma gələnləri danışım. Nurikcan, biz əvvəlcə Rusiyaya getdik. Orada 5-6 ay yaşadıqdan

sonra Stepanakertdəki qohumum bizi buraya dəvət etdi. Amma Bakıdakı ermənilərə burada yaxşı baxmırlar, bizə yad adam kimi, ögey münasibət bəsləyirlər. Oğlum Aşotu da zorla əsgərliyə apardılar. Oğlumu sənlə dəyişdikdən sonra, buradan qaçıb gedəcəyik. İnan ki, burada qala bilmirik, sıxılırıq, sanki havamız çatmırmış kimi boğuluruq. Burası bizlik deyil. İndi Bakı üçün burnumuzun ucu göynəyir...

- Mən səni heç xatırlamıram. - Nurəddin zarıdı.

- Mənəm də, bərbər Edik! Evimiz Razindəydi. Yadındadırmı, sən Rusiyada milis işlədiyin vaxt məni həbs olunmaqdan qurtardın. Bir "karobka" nar əhvalatını xatırlayırsanmı?! - -

- Hə..ə..ə.. Demək, o..o.. sən..sən?!

- O vaxt sən məni həbsdən qurtardın, indi isə mən səni ölümdən qurtaracağam. Biz artıq sizinkilərlə danışıqlara başlamışıq. Üç gündən sonra səni oğlumla dəyişəcəyik. - Edik nəfəsini dərmədən bildirdi.

***

Nurəddinin fikri xəyallar aləminə qanad açdı... O, Krivoy Roqda milis işlədiyi zaman, bir gün onun tabeliyində çalışan serjant Vadim dedi ki, onun "zemliyakı"nı tutublar. Rəisin otağındadır. Nurəddini maraq götürdü ki, görəsən tutulan şəxs kimdir. Ona görə də o, tez rəisin otağına getdi. Mayor Sergey Vasilyev Nurəddini görcək gülərək dedi:

- Nurik, bu erməni sənin yerlindir, özü də Bakıdandır.

- Seryoja, bu nə edib? - Nurəddin ərkyana mayordan soruşdu.
- Nar satarkən yaxalanıb! - Mayor yenidən qımışdı.
- Nə etmək istəyirsən?
- Daha orasını sən bilərsən. Edik Poqosyan sənin yerlindir. Cəzasını da sən verməlisən! - Bu dəfə Sergey ucadan güldü.

Bundan sonra Nurəddin Edikə tərəf dönərək soruşdu:

- De görüm, nə etmisən? Hər şeyi mənə ətraflı danış, ancaq yalan olmasın.

Məlum oldu ki, Edik buraya əsgərilikdə olan oğlunun yanına gəlib. Gələrkən də yol xərcini çıxarmaq üçün özü ilə bir "karobka" nar da gətirib. O, narı küçədə ədədlə satarkən milis işçiləri tərəfindən tutularaq şöbəyə gətirilib. Nurəddinin Edikə yazığı gəldi. Nə də olmasa, Edik onun yerlisi hesab olunurdu. Nurəddin ondan Bakının harasından olduğunu və harada işlədiyini soruşdu. Edik dedi ki, o, Razində yaşayır, bərbər işləyir. Nurəddin sağ əlini ermənin çiyninə qoyub dedi:

- Yaxşı, dur get, mayora bir blok siqaret al, gətir!
- Bu dəqiqə, yoldaş kapitan! - Edik oturduğu yerdən güllə kimi sıçrayıb qapıdan çıxdı.

Heç aradan beşcə dəqiqə keçməmiş, Edik əlində iki blok siqaret geri qayıtdı. Beləliklə, Nurəddin iki blok siqaretə erməni Ediki ən azından iki il həbs olunma cəzasından qurtardı. Erməni az qalırdı ki, Nurəddinin ayaqlarına düşsün. Nurəddin buna imkan vermədi...

Bu hadisədən yeddi ay ötmüşdü. Nurəddin işlə əlaqədar on günlük Bakıya ezamiyyətə gəlmişdi. O, məslək yoldaşı ilə görüşməliydi. Görüş vaxtına hələ vardı. Nurəddin bu zamandan istifadə edib, saçını qırxdırmaq üçün bərbərxanaya girdi. O, keçib müştəri gözləyən bərbərin boş stulunda əyləşdi. Bərbər mələfəni bir-iki dəfə çırpdıqdan sonra onu Nurəddinin boynuna bağladı. Usta güzgüdə diqqətlə müştərisinə baxarkən heyrət içində ucadan qışqırdı:

- Nurikcan, bu sizsiniz?! Aman Allah! Gözlərimə inana bilmirəm!

- Biz tanışıqmı? Məni hardan tanıyırsınız? Mən ki sizi xatırlamıram. - Nurəddin də təəccüblə bərbərə baxdı.

- Necə yəni xatırlamırsınız? Siz ki məni yeddi ay bundan öncə, Krivoy Roqda həbs olunmaqdan qurtardınız! Orada məni küçədə nar satdığım üçün tutmaq istəyirdilər. - Bu dəfə bərbər Nurəddinin onu tanımadığını görüb canfəşanlıqla dilləndi.

- A...a... indi xatırladım. Demək, siz həmin Edik Poqosyansınız?! - Kapitan bərbəri indi xatırladığını bildirdi.

Edik tez telefonla harasa zəng etdi. Və gülə-gülə gəlib Nurəddinin saçlarını qırxmağa başladı:

- Nurikcan, heç bilirsiniz sizi nə qədər axtarmışam. Yaxşı ki, öz ayağınızla gəldiniz. Bu gün nahar yeməyinə bizə gedəcəyik, artıq evə zəng də etmişəm. Heç bir etiraz istəmirəm.

- Edik, bu gün olmaz, çünki bir azdan məslək yoldaşımla görüşüm olacaq. Bəlkə, sizə getməyi

axşama saxlayaq? - Nurəddin naharda onlara getməyin imkansız olduğunu bildirdi.

- Yaxşı, siz deyən kimi olsun. Amma axşam mən özüm gəlib sizi dediyiniz yerdən alacağam, - deyə onlar razılığa gəldilər.

Axşam şam yeməyində Nurəddin erməni Edik Poqosyangildə idi. Onlar kapitanın şərəfinə gözəl bir süfrə açmışdılar. Evdəkilər - Edikin arvadı, qızı və oğlu Nurəddinlə elə davranırdılar ki, onlar sanki kapitanı çoxdan tanıyırdılar. Edik sözgəlişi vurğuladı ki, o, Nurəddin haqqında evdə çox danışıb. Ona görə də onu evdə hamı qiyabi də olsa tanıyırdı. Düzü, onların Nurəddinə qarşı bu cür qonaqpərvərliyi, canfəşanlıq göstərmələri, başına pərvanə tək fırlanmaları kapitanı çox utandırırdı. Sonda Edik Nurəddinə dedi:

- Nurikcan, sizdən bir ricam olacaq. Krivoy Roqa nə vaxt qayıdacaqsınız?

- Hardasa, iki gündən sonra. - Nurəddin cavab verdi.

- Mənim orada bir dostum var, ona bir bağlama göndərəcəyəm. Deyirəm ki, əgər sizə zəhmət deyilsə, onu dostuma çatdırarsınız. O, sizi aeroportda qarşılayacaq. - Edik ciddi tərzdə bildirdi.

- Nə zəhməti var, çatdıraram, narahat olmayın. - Nurəddin arxayınlıqla dilləndi.

İki gündən sonra Edik öz maşınında Nurəddini Binə aeroportuna gətirdi. O, maşından səliqə ilə qablaşdırılmış əl çantasını götürüb və qoltuq cibindən çıxardığı bir məktubu Nurəddinə verdi. Edik hər ehtimala qarşı özünün ev telefonunu da kapitana verib dedi:

- Əmanətləri dostuma verəndən sonra, mənə zəng edərsiniz.
- Yaxşı, siz narahat olmayın. Əmanətləri dostunuza hökmən çatdıracağam. Buna əmin ola bilərsiniz! - Nurəddin gülərək bildirdi.

Edik qardaşcasına qollarını Nurəddinin boynuna doladı. Nurəddini Krivoy Roqdakı aeroportda kimsə qarşılamadı. Nurəddin Edikin dostunu çox gözlədi. Əlacsız qalıb, o, aeroportdan Edikin evinə zəng vurdu:

- Edik, məni burada kimsə qarşılamadı. Bir saata yaxındır ki, burada gözləyirəm. Amma gələn yoxdur. Bəs mən bunları nə edim?!
- Nurikcan, kimsə gəlməyəcək! Onların hər ikisi sizin üçündür. Bilirdim ki, onları burada sizə versəydim, götürməyəcəkdiniz. Bunlar sizin mənə etdiklərinizin qarşılığında nədir ki?! Di, salamat qal! Halal xoşunuz olsun! - deyə Edik telefonun dəstəyini yerinə qoydu.

Nurəddin evə gəlib, əvvəlcə Edikin ona verdiyi məktubu açdı. Məktubun içində iki min manat pul vardı. Bağlamada isə üç ədəd hisə verilmiş və qurudulmuş balıq, iki ədəd Yerevan konyakı, evdə bütün ədviyyatları ilə xüsusi hazırlanmış üç “rulon” kolbasa, yarım kiloluq bankada qara kürü vardı...

... Üç gündən sonra ermənilər doğrudan da, ağır vəziyyətdə olan kapitan Nurəddin Qənbərovu Edik Poqosyanın oğlu Aşot Poqosyanla dəyişdilər.

Cəsur kapitan isə həkimlərimizin səyi nəticəsində ölümün pəncəsindən qurtuldu...

# Nərəy dərəsində qanlı döyüş

(hekayə)

Polkovnik Yevgeni Alekseyeviç azərbaycanlı tərcüməçisi Akif Zeynalovu yanına çağırıb dedi:

- Zeynalov, bilirəm, bu sizin vəzifəniz deyil, ancaq bu işi sizə tapşırmaq məcburiyyətində qaldım. Bizim Keşlakdakı xəbərçimizi ötən həftə mücahidlər öldürüblər. Biz məlumatsız qalmışıq. Mərkəzdən bizə verilən məlumata görə, bu günlərdə Pakistandan mücahidlər üçün yeni silah karvanı gələcək. Nəyin bahasına olursa-olsun biz bu silahların mücahidlərin əlinə keçməsinə yol verməməliyik.
- Mən nə etməliyəm, yoldaş polkovnik? - Akif soruşdu.
- Yenə deyirəm, bu bir kəşfiyyatçı işidir. Amma siz Puştu dilini daha yaxşı bilirsiniz, həm də zahiri görünüşünüz heç də əfqanlardan seçilmir. Onların libaslarını da əyninizə geyinəndən sonra kimsə sizin sovet əsgəri olduğunuzu qətiyyən hiss etməz. Ona görə bu əməliyyatı həyata keçirmək üçün sizi seçdim. İnanıram ki, siz bu işin öhdəsindən gələcəksiniz. İndi keçək əsas məsələyə. Keşlakda bir dükançı var. Bizdə olan məlumata görə, həmin dükançı mücahidlərlə əlbirdir. Silah karvanı barədə o, hökmən məlumatlıdır. Siz Keşlakdakı həmin dükana girib inandırıcı çıxsın deyə, bir az alış-veriş edərsiniz. Bizə sadəcə, silah karvanının Pakistan sərhəddindən keçəcəyi dəqiq vaxt lazımdır. Təbiilik üçün sizə hər iki

heybəsi qarpızla dolu olan bir eşşək də verəcəyik. Hər ehtimala qarşı, bu ratsiyanı da özünüzlə götürərsiniz. Bir şey olarsa, dərhal bizimlə əlaqə yaradarsınız.

- Demək, Qışlağa kəşfiyyata gedirəm, yoldaş polkovnik? - Akif təbəssüm etdi.

- Tamamilə elədir, yoldaş Zeynalov. Siz indi tərcüməçi deyil, əsl kəşfiyyatçı vəzifəsini yerinə yetirirsiniz, - deyə Polkovnik də gülümsədi.

- Nə vaxt yola düşməliyəm, yoldaş polkovnik?

- Bir saatdan sonra. Uğur olsun, Zeynalov! - Polkovnik ayağa qalxıb Akifin əlini sıxdı.

- Tapşırığınızı yerinə yetirmək üçün əlimdən gələni edəcəyəm, yoldaş polkovnik! - Akif farağat vəziyyəti aldı.

- Gedə bilərsiniz! - Polkovnik dedi.

- Oldu, yoldaş polkovnuk! - deyə “kəşfiyyatçı” otağı tərk etdi.

Günorta namazından sonra “kəşfiyyatçı” Akif Zeynalov həmin Qışlağa çatdı. O, eşşəyi dükanın qarşısındakı tənha ağaca bağlayıb dükana girdi. “Kəşfiyyatçı” təmiz puştu dilində dükançıya salam verdikdən sonra, ondan bir kiloqram qənd, bir kiloqram xurma, bir kiloqram şəkər tozu və bir ədəd quru çay istədi. Dükançı Akifin dediyi şeyləri tərəzidə çəkə-çəkə gözaltı ona baxırdı və dözə bilməyib soruşdu:

- Deyəsən, siz bizim Qışlaqdan deyilsiniz, eləmi? Çünki mən Qışlaqdakılarımızı tanıyıram.

- Düz deyirsiniz, qonşu Qışlaqdanam. - Akif sakit halda dedi.

- Qarpızları satırsınız?

- Alan olarsa, sataram.
- Neçəyə satırsınız?
- Bir kiloqramı 10 əfqaniyə. - Akif dedi.
- Elə isə o qarpızlardan ikisini mənə ver, aldığın şeylərlə hesablaşarıq. - Dükançı dedi.
- Yaxşı, siz deyən olsun, - deyə Akif bayıra çıxaraq, eşşəyin heybəsindən iki qarpız götürərək, gətirib dükançıya verdi.

Bu vaxt içəri naməlum bir adam daxil oldu. O, dükançıya yaxınlaşıb kef-əhval tutduqdan sonra soruşdu:

- Yeni nə xəbər var?
- Sabah axşam yeni mal alacağam. Bu dəfəki mallar Pakistandan gələcək. - Dükançı təzə gələn adama bildirdi.

"Bu paroldur. Demək, silah karvanı sabah axşam Pakistan sərhəddindən keçəcək", deyə Akif düşündü. Akif məlumatı bu qədər tez əldə etməyinə heç cür inana bilmirdi. Sanki "kəşfiyyatçı"nın bəxti gətirmişdi. O, tez aldığı şeylərlə dükançı arasındakı haqq-hesabını bitirib bayıra çıxdı. Akif ağaca bağladığı eşşəyi açıb birbaş hərbi hissəyə tələsdi. O, sevincindən sanki quş kimi qanad açıb uçurdu. "Kəşfiyyatçı" dükançıdan əldə etdiyi məlumatı polkovnikə çatdıranda, Alekseyeviç oturduğu yerdən ayağa qalxıb Akifi qucaqladı və:

- Zeynalov, siz böyük bir iş bacardınız. Təşəkkür edirəm. - sevincək dedi.

Ertəsi gün axşam Sovet əsgərlərinin keçirdikləri gizli əməliyyat nəticəsində Pakistandan mücahidlər üçün gələn silah karvanı ələ keçirildi. Bu uğurlu əməliyyata

görə tərcüməçi-kəşfiyyatçı Akif Zeynalov "İgidliyə görə" Əfqan medalı ilə təltif olundu...

***

1984-cü ilin yay ayı idi. Əfqanıstanın Pakistanla həmsərhəd olan Paktiya vilayətində qanlı döyüşlər gedirdi. Həmin vilayətdə mücahidlər daha fəal hərəkət edərək, həm Əfqan qoşunlarının, həm də Sovet qoşunlarının xeyli sayda döyüş texnikasını məhv etmişdilər. Bu qanlı döyüşdə hətta, bir Sovet generalı da həlak olmuşdu.

Bir gün səhər yeməyindən sonra Əfqanıstandakı Sovet polkuna xəbər gəldi ki, onların bir bölüyü mücahidlər tərəfindən pusquya düşüb və xeyli sayda əsgər həlak olub. Yuxarıdan tapşırıq gəldi ki, həm təcili olaraq həmin polka kömək etmək, həm də həmin bölgəyə cəmlənmiş mücahidləri məhv etmək lazımdır. Ona görə də, vaxt itirmədən həmin əraziyə yaxın olan Sovet polkunun komandiri polkovnik Yevgeni Alekseyeviç dərhal Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir ilə toplantı keçirdi. Sonra polkovnik Yevgeni Alekseyeviç tərcüməçisini yanına çağırıb dedi:

- Zeynalov, hazırlaş, yenə döyüşə gedirik!
- Oldu, yoldaş polkovnik! - deyə gənc tərcüməçi Zeynalov farağat vəziyyəti aldı.

***

*Akif Zeynalov BDU-nun Şərqşünaslıq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdi. Müəllimlər əvvəlcə onu Universitetdə saxlamaq istədilər, çünki onun Tələbə Elmi Cəmiyyətindəki elmi çıxışları müəllimlərinin diqqətini çoxdan çəkmişdi. Daşkənddə keçirilən Tələbə Elmi Konfransında da Akifin çıxışı ikinci mükafata layiq görülmüşdü. Amma istedadlı tələbənin yuxarılarda adamı olmadığından onu Universitetdə saxlamadılar. Onlar Akifin şəhərdə daimi qeydiyyatı olmadığını bəhanə gətirdilər. Sonra Akifi İranda diplomatik korpusda işləməyə dəvət etdilər. Bu dəfə də Akif onların təklifini qəbul etmədi. Tərcüməçi olmağı üstün tutdu. Amma onun ilk arzusu kimyaçı olmaq idi. Hələ orta məktəbdə oxuyarkən o, rayonda keçirilən Kimya Olimpiadasının qalibi olmuşdu. Kimya müəllimi Akifin istedadını görüb onunla daha əzmlə çalışmağa başladı və bacarıqlı şagird də sevimli müəllimi olan İxtiyar Bəxtiyarovun əməyini yerə vurmadı, əksinə onun sevincinə daha bir sevinc qatdı. Belə ki, Akif sinif yoldaşı Zeynalla bərabər respublika üzrə keçirilən Kimya Olimpiadasında üçüncü yeri tutdu. O, təkcə kimya fənnini deyil, bütün fənnləri yüksək səviyyədə bilirdi. Amma tale elə gətirdi ki, Akif kimyaçı deyil, dilçi- tərcüməçi və Əfqanıstanda 3 il hərbi xidmətdə, qanlı-qadalı döyüşlərdə oldu...*

***

İki ildən artıq idi ki, Akif Əfqanıstanda həm döyüşçü kimi, həm də tərcüməçi kimi çalışırdı. O həm Əfqan, həm

də Sovet ordusunda xidmət edirdi. Tərcüməçi-döyüşçü artıq güllə səslərinə, top mərmilərinə, təyyarə bombardmanlarına, raket atəşlərinə alışmışdı. Hətta, bir dəfə Kabulda yaşadığı evin əlli metrliyinə raket mərmisi düşmüşdü. Güclü partlayışdan evin pəncərələrinin şüşələri çilik-çilik olub yerə tökülmüşdü. Akif Qəndəharda, Heratda, Məzari-Şərifdə, Xosda, Calalabadda, Paktiyada, Vazaxvada gedən ağır, qanlı döyüşlərdə iştirak etmiş və göstərdiyi igidlik və şücaətlərə görə iki dəfə "Döyüşlərdə göstərdiyi xidmətə görə" Sovet medalına, iki dəfə də "İgidliyə görə" Əfqan medalına layiq görülmüşdü. Əlbəttə, bu təltiflər Akifin komandiri, polkovnik Yevgeni Alekseyeviçin təqdimatı nəticəsində olmuşdu. Polkovnik tərcüməçi Zeynalovun xətrini çox istəyirdi. Bu istək təkcə onun döyüşlərdəki xidmətinə görə deyildi. Tərcüməçi-döyüşçü polkovnikin həyatını bir neçə dəfə xilas etmişdi. Bu xilasetmə təkcə döyüşdə olmamışdı.

Bir dəfə Akif Yevgeni Alekseyeviçi Kabulun mərkəzində, dükandan alış-veriş edərkən ölümdən qurtarmışdı. Akifin zahiri görünüşü əfqanlardan elə də seçilmirdi, onlara tam bənzəyirdi - qarabuğdayı, bığlı, saqqallı. Küçədə, bazarda olarkən hamı onu Əfqan əsgəri olduğunu sanırdı. Əfqanlar əsasən Puştu dilində danışırdı. Akif də Fars dilindən savayı, Puştu dilini də bilirdi. Tərcüməçi əsgərimiz bu dildə də çox gözəl, qüsursuz və səlis danışırdı.

Bir gün polkovnik Akifə dedi ki, arvadına ad günü münasibətilə qızıl boyunbağı almaq istəyir. Polkovnik tərcüməçisinin qızıl dükanlarını yaxşı tanıdığından ona

müraciət etməli oldu. Akif komandiri ilə Kabulun ən yaxşı qızıl dükanlarına baş çəkməli oldular. Təcüməçi həm də onu da bilirdi ki, dükanlara Sovet əsgəri və ya hər hansı rütbəli zabit üçün tək girmək qorxuludur. Çünki dükan sahibləri hər bir Sovet əsgərinə və zabitinə qarşı olan nifrət hisslərini heç də gizlətmirdilər. Buna görə də, dükana girən əsgər və ya zabit tək olarsa, onu aradan götürmək onlar üçün çox asan olurdu. Belə ki, hər bir dükanda əfqanların hökmən gizli bir qapısı olmalı idi. Həmin qapı arxasında isə hər zaman iki Əfqan mücahidi gizlənirdi. Dükan sahibi dükana tək gələn Sovet əsgər və ya zabitini yaxşı malların içəridə olduğunu söyləyərək, onu həmin qapıdan içəri ötürürdü və bu zaman qapı arxasında şikarını gözləyən mücahidlər həmən "qonağın işini bitirirdi"lər. Bu minvalla günün-günorta çağında çoxlu Sovet əsgəri və zabiti bilinmədən, xəbərsiz-ötərsiz yoxa çıxırdı. Bütün bunlardan həm polkovnikin, həm də Akifin xəbəri vardı. Ona görə də onlar alış-veriş üçün dükana heç vaxt tək getməzdilər. Həm də bütün əsgər və zabit heyətinə təlimat verilmişdi ki, şəhərdə, küçədə, bazara gedərkən, dükanlardan alış-veriş edərkən tək olmasınlar.

Həmin gün qızıl dükanına əvvəlcə polkovnik daxil oldu. Akif maşını saxlamaq üçün münasib yer axtardığından dükana komandirindən bir qədər sonra daxil oldu. Yevgeni Alekseyeviç piştaxta altındakı qızıllara baxmaqla məşğul idi. Həmin dükanda iki nəfər satıcı vardı - biri dükan sahibi, o birisi isə onun köməkçisi. Akif polkovnikdən bir az aralıda dayanmışdı. Eyni zamanda dükançılar Akifi Əfqan əsgəri hesab etmişdilər. Bu vaxt

tərcüməçi əsgərimiz dükan sahibi ilə onun köməkçisinin arasındakı puştu dilindəki danışığı eşitdi. Dükan sahibi Sovet zabitinin tək olduğunu köməkçisinə söyləyirdi. Dükan sahibi polkovnikə gülərüzlə dedi ki, onda ən yaxşı mallar içəridədir. Əgər baxmaq istəyirsə, bu qapıdan içəri buyursun. Polkovnik dükan sahibinin təklifini qəbul edib, "gizli qapı"dan içəri keçmək istərkən, Akif komandiri başa düşməsin deyə, dükan sahibinə təmiz puştu dilində:

- Ze tənha nəim!* - dedi.

Bu sözləri eşidəndə, dükan sahibini sanki ildırım vurdu, rəngi avazıdı. Əlbəttə, Akif həmin vaxt bu barədə polkovnikə heç bir söz demədi. Dükan sahibi tez üzündə süni təbəssüm yaradaraq, içəri girib ən yaxşı qızıllarını gətirib polkovnikin qarşısına tökdü. Yevgeni Alekseyeviç qarşısındakı müxtəlif çeşidli qızıllar arasından arvadına ən layiqli bir boyunbağı seçdi. Sözarası dükan sahibi yenə puştu dilində Akifə dedi ki, o, elə bilib ki, o, Əfqan əsgəridir.

Akif bu hadisə barədə polkovnikə sonralar üstüörtülü, fərqli bir şəkildə söylədi. Bundan sonra polkovnikin tərcüməçisinə olan rəğbəti və güvənci daha da artmışdı. O, hara gedirdisə, Zeynalovu da özüylə aparırdı...

***

...Pakistanla sərhəd bölgəsində, mühasirəyə düşən Sovet polkuna kömək etmək üçün təcili hazırlıqlar

---

***O, tək deyil!**

görüldü. Sərhəd polkuna yardıma 2 Sovet polku və bir Əfqan polku yola düşdü. Düşmənlər mühasirəyə aldıqları polka kömək gələcəyini öncədən bilirdilər. Çünki onların da özlərinə görə hər yerdə adamları vardı. Polkovnik Yevgeni Alekseyeviçlə birgə Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir də onlara köməyə gedirdi. Tərcüməçi Zeynalov, polkovnik və general eyni maşında idilər. Onlar ikinci polkda hərəkət edirdilər. Onlardan qabaqda birinci polk, arxada isə üçüncü polk gedirdi. Əsas döyüş maşınları tanklar və BMP-lərdən ibarət idi. Sovet və Əfqan döyüşçüləri Nərəy dərəsinə çatdılar. İkinci polk - Akifgilin polku artıq dərənin yarısına qədər gəlmişdi. Bu zaman polkovnik Alekseyeviçə ratsiya vasitəsilə bildirdilər ki, bu dərədə düşmənlər onlara pusqu qura bilərlər. Elə bu zaman yer-göy titrədi, onların qabağınca gedən tank və BMP-lər bir-bir alovlanmağa başladı. Minamyot və qumbaraatanlardan açılan atəşdən, yağış kimi yağan güllələrdən qulaq batırdı. Birdən polkovnikin amiranə səsi eşidildi:

- Zeynalov, dərhal maşından tullan! O, böyük daşın arxasında gizlən!

Akif cəld maşından yerə sıçradı və özünü böyük bir sal daşın arxasına verdi. Onun arxasınca general da özünü yerə atdı. Sürücü sükan arxasındaca vurulmuşdu. Polkovnik isə Akifgildən 4-5 metr aralıda olan kiçik bir daşın arxasına sığına bildi. Bura polkovnik üçün əlverişli mövqe deyildi. Mücahidlər onu hər an vura bilərdilər. Bu zaman onların maşını güclü partlayışdan sonra od tutub

yanmağa başladı. Baş qaldırmaq mümkün deyildi, güllələrdən yayınmaq çətin idi. Yeganə çıxış yolu daşın arxasından çıxmamaq idi. Mücahidlər yüksəklikdə olduğundan onlar dərədəki hər bir əsgəri aydınca görürdülər. İndi əsas hədəf Akifgil idi. Akif heybəsindəki qumbaraları və ehtiyat avtomat darağlarını çıxarıb yanına düzdü. O, geri qanrılıb 3-cü polkun vəziyyətinə baxmaq istədi. Gördü ki, 3-cü polk geri çəkilərək, qaçırlar. BMP-lər, tanklar od tutub yanırdılar. İndi Akifi özündən daha çox polkovnik narahat edirdi. Onlar artıq düşmən mühasirəsindəydilər. "Nəyin bahasına olursa-olsun, onu qorumalıyam!" deyə tərcüməçi-döyüşçü öz komandiri barədə düşündü. O, üzünü polkovnikə tutub ucadan qışqırdı:

- Yoldaş polkovnik, mənim yanıma tullanın! Ora sizin üçün təhlükəlidir. Düşmənlər sizi hər an vura bilərlər. Hər tərəfdən düşmənlər sizi görürlər. Mən sizi qoruyacağam.

Akif yanındakı qumbaranın birini götürüb düşmən tərəfə atdı və polkovnikə qışqırdı:

- Yoldaş polkovnik, indi tullanın!

Qumbaranın partlaması nəticəsində toz dumanı havaya qalxdı və bundan istifadə edən polkovnik Alekseyeviç bir göz qırpımında, pişik cəldliyi ilə Akifin sığındığı daşın arxasına sıçradı. Akif başını qaldırıb avtomatını işə saldı. Mücahidlər get-gedə onlara yaxınlaşırdılar. Artıq düşmənlər onlara qarşıdan deyil, sağ və sol cinahlardan da atəş açırdılar. Demək, düşmən onları əsir götürməyə çalışırdı. Akif güllələri bacardıqca qənaətlə sərf edirdi. Tərcüməçi - döyüşçü bir də gördü ki,

polkovnikin avtomat silahı əlində deyil. O, tələsdiyindən avtomatını və ratsiyasını ilk gizləndiyi daşın arxasında unutmuşdu. Bu heç də yaxşı hal deyildi. Polkovnik silahını döyüş mövqeyində qoymuşdu. Bunu görən Akif polkovnikə dedi:

- Yoldaş polkovnik, icazə verin silahınızı gətirim. Güllələrimiz tükənmək üzrədir.

- Olmaz, Zeynalov! Mən buna icazə vermirəm! Bu çox təhlükəlidir, - deyə o, Akifin yanındakı qumbaradan birini götürüb gizlənə-gizlənə onlara yaxınlaşan üç mücahidə tərəf atdı.

Toz-duman çəkiləndən sonra, onlar mücahidlərin üçünün də yerdə sərili vəziyyətdə qaldığını gördülər. Akif bu dəfə komandirinin əmrini dinləmək istəmədi. O, necə olursa-olsun polkovnikin avtomat silahını oradan götürməli idi. Buna görə də o, əvvəlcə silahını komandirinə verib dedi:

- Yoldaş polkovnik, məni qoruyun.

- Zeynalov, dedim ki, olmaz! Mən buna icazə vermirəm! Əmrimi dinlə! - Polkovnik ikinci dəfə Akifə dedi.

- Bağışla, yoldaş polkovnik, bu dəfə əmrinizə tabe olmayacağam. - Akif məyus halda dedi.

Daha gecikmək olmazdı. Düşmən onlara daha da yaxınlaşırdı. Akif avtomat silahını komandirinə verib, qumbaralardan birini götürüb qarşıdan irəliləməkdə olan düşmənlərə tərəf atdı. Toz-duman havaya qalxan kimi, Akif cəld polkovnikin silahı olan yerə sıçradı. Düşmənlər bunu aydın görürdülər. Və onlar Akifi bir də geri qayıtmamaq üçün onunla polkovnik arasında güllələrdən

çəpər çəkdilər. Arası kəsilməyən atəşlərdən nə baş qaldırmaq, nə də geri tullanmaq mümkün deyildi. Çətin vəziyyət yaranmışdı. Akifi bu durumdan yalnız polkovnik çıxara bilərdi. Polkovnik gördü ki, sağ cinahdan Akifə tərəf iki düşmən yaxınlaşır. Onların məqsədini komandir dərhal anladı. Belə ki, o, dalbadal mücahidlərə tərəf iki qumbara atdı və Akifə bərkdən qışqırdı:

- Zeynalov, indi tullan!

Akif silahı və ratsiyanı götürüb yaranmış toz-dumandan istifadə edərək, yenidən geriyə, əvvəlki yerinə sıçradı. O, polkovnikin silahını özünə qaytardı. "Çox sağ ol, Zeynalov!" deyə komandir silahı əlinə alan kimi, əvvəlcə sola, sonra da sağ tərəfə dönərək atəş açdı. Akifi heyrət bürüdü. Onların xəbəri olmadan, iki tərəfdən onlara yaxınlaşan iki düşmən polkovnikin sərrast atəşi ilə yerə sərildi. Tərcüməçi-döyüşçü yarım saatdan bəri davam edən atəşdə Əfqan generalının heç bir səsi çıxmadığını və bircə dəfə də olsa atəş açmadığını görüb onun avtomat silahını əlindən aldı. O, generala qarşı bu hərəkəti həm də özlərinin təhlükəsizlik baxımından etdi. Akif ani olaraq düşündü ki, mücahidlərin onlara yaxınlaşdığını görüb, general arxadan onları vura bilər. Digər tərəfdən də onsuz da onların güllələri qurtarırdı. Generalın avtomat silahında isə düşmənə atəş açmaq üçün hələ xeyli güllə vardı. Akiflə polkovnik avtomatdan tək-tək atırdılar. Polkovnikin atdığı boşa çıxmırdı. O, hər atəşlə bir düşmən vururdu. Mücahidlər mühasirə halqasını get-gedə daraltmağa başladılar. Polkovnik tam əmin idi ki, düşmənlər onları əsir götürmək istəyirlər. Akif

və polkovnik hər biri əlinə yenə də qumbara götürərək, onlardan biri sağ tərəfdən gələn, digəri isə sol tərəfdən yaxınlaşan mücahidlərə tərəf atdı. Bu partlayışda da daha üç düşmən öldü. Artıq güllələr tükənmək üzrə idi, cəmi iki qumbara qalırdı. Akiflə komandir bir-birlərinə baxdılar. Bu səssiz baxışlarda hər şey anlaşılırdı. Yəni, indi bu son demək idimi?! Polkovnik Akifi tam anladığından dedi:

- Xeyr, Zeynalov, bu hələ son demək deyil! Bizim hələ daha bir şansımız var! - Polkovnik Alekseyeviç nəsə tapmış kimi ucadan qışqırdı. - Mən indi qırıcı bombardmançı təyyarələrə kordinatları verib, buranı bombalamalarını əmr edəcəyəm.
- Yoldaş polkovnik, siz nə danışırsınız? Elə isə biz də həlak olacağıq! - Akif təəccüblə komandirinə baxdı.
- Zeynalov, siz bu barədə narahat olmayın. Mən hər şeyi dəqiqliklə hesablayacağam. Bu bombardmanda bizə bir şey olmayacaq. - Polkovnik özünə əminliklə bildirdi.

Polkovnik Alekseyeviç ratsiya vasitəsilə hərbi hissəylə əlaqə saxlayanda, oradakılar onların hələ də sağ qaldıqlarına heyrət etdilər. Çünki döyüşü qoyub geri qaçan 3-cü polkun əsgərləri hamının həlak olduğunu hərbi hissədə söyləyibmişlər. Sovet qırıcı bombardmançı təyyarələri artıq havaya qalxmışdılar, hansı ərazini bombardman edəcəkləri polkovnikin verdiyi kordinatlar da onların əlində idi. Beş dəqiqədən sonra qırıcılar onların başı üzərində fırlanırdı. Qırıcılar əvvəlcə bir dövrə




vurdular, sonra polkovnik ratsiya ilə onlara, “Bombalayın!” deyə əmri verdi. Sonra polkovnik üzünü Akifə tutub dedi:

- Zeynalov, bombardman sona çatana qədər başını daşın arxasından qaldırma!

- Oldu, yoldaş polkovnik! - Akif əmrə tabe olduğunu bildirdi.

Bu zaman qırıcılar aşağı şığıdılar. Bir-birinin ardınca ölümsaçan, dəhşətli partlayışlar eşidildi. Toz-dumandan ətraf görünməz oldu. O böyüklükdə sal daşlar, qayalar parçalanaraq yumuşaq torpağa çevrildi. Hər üç qırıcı bombalarını töküb qurtardıqdan sonra geri qayıtdılar. Aralığa ölüm sükutu çökdü.

- Zeynalov, sağsanmı?! - deyə ilk olaraq polkovnik Akifi səslədi.

- Hər şey qaydasındadır, yoldaş polkovnik! - Akif başını daşın arxasından qaldırıb cavab verdi.

Bombardman nəticəsində düşmənlərin əksəriyyəti məhv edilmişdi. Sağ qalanlar isə canlarını qurtarmaq üçün dağdakı mağaralara doğru qaçırdılar.

Qanlı döyüşdən sonra Əfqan diviziyasının komandanı, general Məhəmməd Fəqir, Sovet polkovniki Yevgeni Alekseyeviç və azərbaycanlı tərcüməçi-döyüşçü, leytenant Akif Zeynalov piyada hərbi hissəyə qayıdarkən yol boyu yanmaqda olan tanklar, BMP - lər və çoxsaylı yaralı əsgərlərlə qarşılaşdılar...

Ertəsi gün hərbi hissənin divar qəzetində “Tərcüməçi-döyüşçü öz komandirini necə xilas etdi?” adlı yazı dərc edilmişdi. Bu yazı tərcüməçi, leytenant Akif Zeynalov haqqında idi. Yazının təşəbbüsçüsü polkovnik Yevgeni Alekseyeviç olmuşdu. Bundan sonra polkovnik azərbaycanlı döyüşçüyə dərhal “Qızıl Ulduz” verilməklə “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülməsi üçün Moskvaya raport göndərdi. Amma təəssüflər olsun ki,

Moskvada Müdafiə Nazirliyində özünə yuva salmış nankor erməni zabitləri azərbaycanlı oğlanın belə bir yüksək ada layiq görülməsini heç cür həzm edə bilməyib, buna paxıllıqla, qısqanclıqla yanaşaraq, hər vasitə ilə Akif Zeynalovun bu mükafatı almasına mane oldular. Akif Zeynalovu "Qızıl Ulduz" əvəzinə, yenə də "İgidliyə görə medalı" ilə təltif etdilər. Polkovnik Yevgeni Alekseyeviç bunu eşidən kimi, bərk qəzəbləndi və növbəti məzuniyyətində Moskvaya gələrkən Müdafiə Nazirliyinə baş çəkdi. Polkovnik onun əsgərinə belə bir ad almasına mane olanların yanında ucadan dedi:

- Siz həyatımı xilas edən, dəfələrlə ağır və çətin döyüşlərdə həmişə yanımda olan, mənimlə iki ildən artıq çiyin-çiyinə döyüşən bir qəhrəman gəncin bu ad almasına niyə razı olmadınız? O çılpaq dağlarda, su üzü görməyən səhralarda düşmənlə qorxmadan çarpışan, dəfələrlə döyüşçü dostlarını, məni qoruyan igid bir əsgərə bircə o, "Qızıl Ulduzu" niyə qıymadınız? Niyə bu adın Zeynalova verilməsinə bu qədər qısqanclıqla yanaşdınız?! Mən Zeynalova həyatımı borcluyam. Bu gün mən burada sizinlə söhbət edirəmsə, buna görə Zeynalova minnətdaram. Onun döyüşlərdə göstərdiyi şücaəti, igidliyi mən heç bir zaman unutmayacağam. Bu işdə siz hamınız Zeynalova qarşı böyük bir haqsızlıq etdiniz. Siz təkcə ona deyil, həm də mənə qarşı böyük sayğısızlıq göstərdiniz, təqdimatıma laqeyd yanaşdınız. Bu adam mənimçün həm gözəl tərcüməçi, həm cəsur döyüşçü, həm də bacarıqlı "kəşfiyyatçı" olub. Siz rəsmi

olaraq Zeynalova qəhrəmanlıq adı verməsəniz də, o mənim üçün əsl qəhrəmandır!..

Polkovnik Yevgeni Alekseyeviçin artıq istefaya çıxmaq yaşı da çatmışdı. Ona görə o, elə həmin gün raport yazaraq, nazirə təqdim etdi...

Bundan sonra polkovnik Yevgeni Alekseyeviçlə azərbaycanlı tərcüməçi-döyüşçü Akif Zeynalov arasında dostluq əlaqələri uzun illər davam etdi. Akifin yolu nə vaxt Moskvaya düşərdi, o, hökmən keçmiş komandirinə baş çəkərdi.

**07.02.2014**

# Qəndəharda "ov" əməliyyatı

(hekayə)

Əfqanıstanda sovet-mücahid qarşıdurmasının ən qanlı çağlarıydı. Əfqan hərbi hava qüvvələrinin mücahidlərə endirdiyi hava zərbələrinə baxmayaraq, bir çox bölgələrə rahat getmək olmurdu. İstər əfqan piyada qoşunları, istərsə də, sovet qoşunları Kabildən kənar bölgələrə hərəkət edərkən tez-tez mücahidlərin pusqusuna düşürdülər. Belə döyüşlərdə hər iki tərəfdən xeyli itki olurdu.

Bir gün Əfqan hərbi hava qüvvələrinin Qərargah Mərkəzinə verdikləri statistik məlumatları general Yasenyuk Sergeyeviç nəzərdən keçirərkən gülməli bir vəziyyətin şahidi oldu. O, əfqanların Qərargah Mərkəzinə təqdim etdiyi məlumatların hamısını diqqətlə nəzərdən keçirdikdən sonra, növbəti hərbi müşavirədə üzünü sovet hərbi heyətin üzvlərinə tutub gülərək dedi:

- Yoldaşlar, mən əfqanların bizə verdikləri statistik məlumatları izlədikdən sonra belə qənaətə gəldim ki, Əfqanıstanda nə bir mücahid, nə də bir mülki vətəndaş qalmayıb. Yəni bütün Əfqanıstan bu müharibədə mücahidləriylə birlikdə məhv olub. Əgər bu rəqəmlər doğrudursa, belə olan halda indi biz kiminlə döyüşürük? Hər gün hərbi birləşmələrimizə kimlər hücum edir?! Bizi

hər gün pusquya düşürən hansı qüvvələrdir?! Digər tərəfdən kəşfiyyatımızın bizə verdiyi məlumata görə, son zamanlarda Qəndəhar vilayətində istər sovet ordusunun, istərsə də əfqan ordusunun hərbi texnikasının regionlara sərbəst hərəkəti mümkünsüz olub. Bu bölgədə mücahidlər günü-gündən fəallaşmağa başlayıb. Nəzərinizə çatdırım ki, son bir ay ərzində bu bölgədə həm sovet, həm də əfqan ordusu xeyli sayda hərbi texnika və canlı qüvvə itirib. Bu artıq çox ciddi məsələdir. Bu barədə yuxarıdan kəskin əmr var. Bu bölgə tezliklə mücahidlərdən təmizlənməlidir!

Bütün heyət sakitcə bir-birinə baxdı. Kimsə bir söz deyə bilmədi. Hərbi heyətin susduğunu görən general sözünü davam etməli oldu:

- Buradan belə çıxır ki, əfqan həmkarlarımız bizə yalan məlumat verir. Biz isə bu məlumatların nə dərəcədə doğru olub, olmadığını hökmən yoxlamalıyıq. Polkovnik Nikolay Zaxaroviç, sabaha MİQ-ləri hazırla. Qəndəhara uçuşa hazırlaşın. Mən özüm də sizinlə uçacağam.
- Yoldaş general, sizin bu bölgəyə uçmağınız çox risklidir. Orada hər an həyatınıza təhlükə yarana bilər. Əgər icazə versəydiniz... - polkovnik sözünü tamamlaya bilmədi.

General Sergeyeviç polkovnik Nikolay Zaxaroviçin sözünü kəsərək, əsəbi halda bildirdi:

- Polkovnik Zaxaroviç, hər halda bizim burda müharibədə olduğumuzu unudursunuz. Müharibə özü elə təhlükə deməkdir də. Buna görə də, əsgər və zabit bütün təhlükələrə qarşı həmişə hazır olmalıdır. Gördüyünüz

kimi, bizə verilən rəqəmlər də ortadadır, hazırkı mənzərə də. Bizə verilən bu məlumatları hökmən yoxlamalıyıq. Bu barədə sözü olan varmı? Təklifiniz yoxsa, çıxa bilərsiniz! Müşavirə bitmişdir!

Nikolay Zaxaroviç generalın əmrinə əsasən sabah Qəndəhara uçacaq bombardmançı MİQ-lərin son hazırlığını yoxlamaq üçün anqara getdi. Yolda o, pilot heyətinin komandiri, polkovnik Aleksey Petroviçlə rastlaşdı. Nikolay general Yasenyukun müşavirədəki fikrini Alekseyə də bildirdi. Aleksey Petroviç təəccüblə dedi:

- Nikolay Zaxaroviç, indiki zamanda Qəndəhara uçuş çox təhlükəlidir. Son aylar orada mücahidlər xeyli fəallaşıblar, hava uçuşlarına ciddi nəzarət edirlər. Keçən ay həmin regionda iki vertolyotumuzun vurulduğu sizə də məlumdur. Birdən-birə generalın o bölgəyə uçuşu bizimçün sıxıntı yaradacaq. Çalışın, generalı fikrindən döndərəsiniz.
- Siz də bilirsiniz ki, Sergeyeviçi fikrindən kimsə döndərə bilməz. Mən də Qəndəhara uçuşun çox təhlükəli olduğunu onun nəzərinə çatdırdım, ancaq məni dinləmədi. - polkovnik Zaxaroviç məyus halda bildirdi.
- Elə isə generalı fikrindən döndərmək üçün general-mayor Mixail Antonoviçə müraciət edin. Yoldaş Antonoviç Yasenyukun dilini yaxşı bilir. Onların bir-biriylə çox yaxın, hətta ailəvi dost olduğunu yaxşı bilirəm. Generalı Qəndəhara uçuş fikrindən ancaq Mixail Antonoviç vaz keçirə bilər. Yoxsa, başqa birisini tanımıram, - deyə polkovnik Aleksey Petroviç təəssüf hissiylə qeyd etdi.

Nəsə, general-mayor Aleksey Petroviç də general Yasenyuk Sergeyeviçi Qəndəhara uçuş fikrindən döndərə bilmədi.

Ertəsi gün uçuşa hazırlıq zamanı diviziya komandiri, general-mayor Vladimir Juravlyov general Yasenyuk Sergeyeviçə yaxınlaşıb dedi:

- Yoldaş Sergeyeviç, bəlkə, siz uçmayasınız?

- Xeyr, uçacağam. Əfqanların haranı bombalamalarını öz gözlərimlə görməliyəm! Mən onların bizə verdikləri məlumatlara daha inanmıram, - deyə general əsəbi halda cavab verdi.

- Yoldaş general, deyirəm, bəlkə sizi iki qırıcı müşayiət etsin? Bu sizin üçün daha təhlükəsiz olar.

- Yoldaş Juravlyov, birinci dəfə deyil ki, uçuram. Əlavə qırıcılara ehtiyac yoxdur. - general Yasenyuk MİQ-in kabinəsinə qalxdı.

O, kabinədə yerini rahatladıqdan sonra əlini yerdəki hərbi heyətə yellədi. General özü də as pilotlardandı. O, dəfələrlə Əfqanıstanın ən qızğın bölgələri olan Qəndəhara, Herata, Məzari-Şərifə, Paktiyaya, Calalaba-da uğurlu uçuşlar etmişdi. General xaraktercə yaxşı adamdı; hamıyla mehriban danışar, hamıyla kef-əhval tutardı, tabeçiliyindəkilərə qarşı qayğıkeş və tələbkardı. O, cəsur və qorxmazdı...

General Yasenyuk Sergeyeviç MİQ-lər dördlüyündə sonuncu təyyarənin sükanı arxasındaydı. Həm onu yola salan zabitlər, həm də generalın özü hardan biləydi ki, bu onun son uçuşu olacaq...

Artıq çox böyük döyüş təcrübəsinə malik olan mücahidlərin öz döyüş taktikaları vardı. Onlar əvvəlcə ərazi üzərində kəşfiyyat və tanıma uçuşu həyata keçirən təyyarələrin sayının dörd olduğuna əmin olduqdan sonra, ilk şığıyan 3 təyyarəyə atəş açmadılar. Həmin üç təyyarə bombalarını əraziyə boşaldıb yenidən yuxarı milləndilər. Mücahidlər dördüncü təyyarəni, generalın idarə etdiyi təyyarəni DŞK ilə hədəfə aldılar. "Ov" üçün gedən general çox asanlıqla özü "ovlanmış" oldu. Çünki şığıma vəziyyətindən çıxan və arxasınca onu qoruyan birinin olmadığı təyyarə göydə dayanıb sanki, "gəl, məni vur!" deyirdi. Bu zaman general Yasenyukun son sözü eşidilir: "Yüksəklik 600 metr, məni vurdular, katapult edirəm!" Generalın bu son cümləsi Əfqanıstanda olan bütün Sovet personalını şoka saldı. Hamı heyrət içindəydi. Heç kəs generalın ya diri, ya da ölü halda mücahidlərin əlinə keçməsini istəmirdi. Ona görə də həmin gün axşama qədər həm sovet, həm də əfqan hərbi hava qüvvələri generalı xilasetmə əməliyyatına cəlb edildi. Amma bütün hava hərbi əməliyyatları nəticəsiz oldu. Belə olan halda, ertəsi gün Cənub istiqamətində quru qoşunlarından ibarət geniş hərbi əməliyyat başladıldı. Qərargah Mərkəzinə generalın həyat yoldaşı Mariya Vasiliyevna da gəlmişdi. O, çox pərişan və həyəcanlıydı, gözlərinin yaşı qurumurdu. Hamı onu sakitləşdirməyə çalışır, böyük acısına şərik çıxırdı. Amma bütün bu təsəllilər Mariya Vasiliyevnanı sakitləşdirməyə yetmirdi, onu ovundurmaq mümkünsüzdü. O, otuz beş illik həyat yoldaşı Yasenyuku çox istəyirdi. Bu illər ərzində Mariya ərindən heç

inciməmiş, ondan bircə kəlmə belə acı söz eşitməmişdi. Çətin günlərini birgə adlamışdılar...

Mücahidlərlə altı gün şiddətli döyüş getdi. Döyüşün üçüncü günü mücahidlər sovet və əfqanların çoxsaylı hərbi hava qüvvələrinin və quru qoşunlarının texnikası qarşısında duruş gətirə bilməyib geri çəkilməyə məcbur oldular. Üçüncü gün generalın katapult etdiyi oturacaq tapıldı. Oturacağın söykənəcəyini güllə deşib keçmişdi. Belə çıxırdı ki, o, hələ göydəykən gülləylə vurulub. Amma həmin gün generalın cəsədini tapmaq mümkün olmadı.

Səhərisi gün həmin əraziyə vertolyotlarla desant çıxarıldı. Kremldən kəskin əmr vardı. Nəyin bahasına olursa-olsun generalın cəsədi tapılmalıydı.

Beşinci gün həmin əraziyə yenə də vertolyotla desant çıxarıldı. Desantın tərkibində iki azərbaycanlı leytenant da vardı. Onlardan biri Abdulla, digəri isə Qurban adlı leytenantdı. Amma həmin gün də itkisiz ötüşmədi. Bugünki döyüş zamanı vertolyot alayının komandiri Vadim Solovyov mücahidlərin atdığı raket vasitəsiylə vuruldu. Buna baxmayaraq generalın cəsədi qumun altında basdırılmış halda tapıldı. Görünür, mücahidlər onun general olduğunu bilməyiblər, yoxsa onlar yüksək rütbəli sovet zabitlərinin istər ölüsünü, istərsə də dirisni vermirdilər. Sonra generalın vurulmuş təyyarəsini tapdılar. Təyyarədən ancaq gövdənin qabaq hissəsi və bir də sağ qanadı qalmışdı. Qanadın yanından bir kasset də tapıldı. Həmin kassetə baxış keçirildi. Bunu mücahidlər çəkərək qəsdən buraya buraxmışdılar.

Onlar təyyarəni vurduqdan sonra onun üstünə çıxaraq sevinclərini əllərilə, çığır-bağır salmaqla, havaya atəş açmaqla qeyd edirdilər. Onlar sovet hərbçilərinə müxtəlif cür hədələyici işarələr etməkdən belə çəkinməmişdilər...

Generalın cəsədi Qərargah Mərkəzinə gətirildi və orada bütün zabit heyətiylə vida törəni keçirildi. Sonra meyit təyyarəylə generalın həyat yoldaşı Mariya Vasiliyevna başda olmaqla Moskvaya yola salındı.

# Zəfər dolu dörd gün

(hekayə)

***Bu hekayəni Aprel döyüşlərində doğma torpaqlarımızın geri qaytarılması uğrunda şəhid olmuş Milli Ordunun əsgərləri və XTD-nin cəsur üzvlərinin əziz xatirəsinə ithaf edirəm.***

Mart ayının sonlarında kəşfiyyatçılarımız mühüm bir məlumat gətirdilər: düşmən Tərtər rayonu istiqamətində genişmiqyaslı təxribat planı hazırlayır. Düşmənin planı beləydi: qabaqcadan, gizlicə erməni "sapyorlar"ı tərəfindən eni bir tank keçidi olan ərazidə minalanmış sahəni təmizləmək, hərbi texnika ilə sürətlə hücuma keçib, rayon mərkəzini darmadağın etmək, Azərbaycanda çoxlu əsgər və dinc sakini məhv etmək və yenidən əvvəlki mövqelərinə qayıtmaq. Düşmənin bu planı 1992-ci ildə törətdiyi Xocalı ssenarisinə bənzəyirdi.

Ermənilərin belə bir təxribat törətmələrinə qətiyyən yol vermək olmazdı! Ona görə də bu məlumatın nə dərəcədə doğru olduğu müxtəlif mənbələr vasitəsilə bir daha yoxlanıldı. Kəşfiyyatımız haqlı çıxdı. Bundan sonra ermənilərin növbəti təxribatının qarşısını almaq üçün təcili əks-həmlə planı hazırlandı. Artıq səbr kasası daşan Azərbaycan Ordusunun düşmənə öz həddini bildirmək və

Azərbaycan əsgərinin nəyə qadir olduğunu göstərmək vaxtı çatmışdı.

Azərbaycan Ordusu bu əməliyyatı hökmən keçirməliydi, müəyyən qüvvələr bu əməliyyatın əleyhinə olsalar belə. Ona görə də düşmənlə sərhədyanı bütün hərbi hissələr döyüş hazırlığı vəziyyətinə gətirilmişdi. Topların hamısı düşmən mövqelərinə tərəf tuşlanmışdı. Koordinatlar topçulara qabaqcadan verilmişdi. Tanklar və piyada dəstələri hücum əmrini gözləyirdi. Piyada döyüşçülərimizə havadan da dəstək olacaqdı...

***

Aprelin 2-nə keçən gecə təxminən altımışa yaxın cəsur əsgərimizdən ibarət xüsusi təyinatlı dəstə

kəşfiyyatın nişan verdiyi yerdən düşmənin möhkəmləndiyi mövqeni keçdi. Xüsusi təyinatlılar kəşfiyyatın qabaqcadan minalanmış sahədən çəkdiyi ip üzrə hərəkət etməliydilər. İpdən azacıq kənara çıxmaq ölüm deməkdi. Çünki düşmən hər tərəfi minalamışdı. Onlar çox dəqiq və ehtiyatla hərəkət edərək düşmənin birinci postunu keçdilər. Dəstə iyirmi nəfər olmaqla üç qrupa bölünmüşdü. Hər qrupun qarşısında xüsusi tapşırıq qoyulmuşdu. Arxadan gələn üçüncü qrup düşmənin rabitə əlaqəsini kəsməliydi ki, onlar ikinci postla əlaqə saxlaya bilməsinlər. Amma üçüncü qrup postda dayanan düşməni hələlik məhv etməməliydi. Tapşırıq beləydi. Birinci qrup isə ikinci postdakı düşməni sakitcə aradan götürməliydi. Bununla da Talış kəndinə gedən yol düşməndən təmizlənməklə sabah Dağlıq Qarabağı azad etməyə başlayacaq əsas qoşunlar üçün keçid açılmalıydı. Nəhayət ki, birinci qrup ikinci posta gəlib çatdı. Dəstə artıq xeyli məsafədə düşmən mövqeyinin içərisinə girmişdi. Kəndə isə hələ iki kilometr qalırdı. Gecə saat 4-ə işləyirdi. Birinci dəstənin komandiri mayor Samid İmanov digər qruplarla Talış kəndində görüşəcəklərini qabaqcadan bildirmişdi. Onlar səssiscə ikinci posta yaxınlaşaraq oranı müşahidə etdilər. Dəqiq müşahidə nəticəsində məlum oldu ki, postda 6 erməni əsgəri var. Onlardan ikisi “dot”da qoyulmuş pulemyotun yanında, ikisi postun arxa tərəfində, ikisi də postun içindəydi. Komandir döyüşçülərindən üç nəfər seçib onlara pıçıltıyla təlimat verdi:

- Uşaqlar, düşməni heç bir səs salmadan, yalnız bıçaqla aradan götürməlisiniz. Zəruri halda isə səssiz tapançadan istifadə edə bilərsiniz.

Əsgər Tərlan dedi:

- Cənab komandir, siz narahat olmayın. Biz onları elə aradan götürəcəyik ki, heç səslərini çıxarmalarına imkan tapmayacaqlar. Onlar gözlərini bir də cəhənnəmdə açacaqlar!

Mayor əsgərin sözünə gülümsəyərək:

- Elə isə sizə uğur olsun! - dedi.

Tərlangil əvvəlcə postun arxasındakı erməni əsgərlərini aradan götürmək qərarını verdilər. Arxadakı erməni əsgərlərin səsi də çıxmadı. Sonra ildırım sürətilə postun içinə tullanaraq buradakı iki erməni əsgərini də öldürdülər. İndi əsas məsələ "dot"dakı əsgərlər idi. Ora girmək çətin idi. Çünki oranın giriş qapısının açılması üçün gizli parolu söyləmək lazım gəlirdi. Parolu isə uşaqlar öldürdükləri erməni əsgərlərindən öyrənməyə macal tapmamışdılar. İndi yeganə çıxış yolu düşməni yalnız səssiz tapançayla vurmaqdı. Buna imkan isə ancaq beton istehkamın qarşısındakı kiçik baxış pəncərəsindəndi. Uşaqların hər üçü gəlib "dot"un altında oturub, ermənilərin "pəncərə"dən görünmələrini müşahidə etməyə başladılar. Onların sifəti "pəncərə"də görünən kimi atəş açılmalıydı. Buna görə də "dot"un qabağında nəsə bir səs, xışıltı yaratmaq lazımdı. Tərlan bir ağac parçası götürüb beton istehkamının qarşısına atdı. Bu zaman hər iki əsgərin başı baxış pəncərəsindən göründü. Eyni anda iki atəş açıldı. Eləcə iki baş bir-birinə söykənib

daşa döndü. Ətrafı ölüm sükutu bürüdü. Bundan sonra dəstə kəndə tərəf istiqamət götürdü...

Sübh çağı xüsusi təyinatlı dəstənin üzvləri artıq kənddəydilər. Komandirin göstərişiylə döyüşçülərimiz hamısı maska taxmışdı. Onlar kənd camaatıyla ünsiyyətdə olmamalıydılar. Əsas məqsəd erməni xüsusi təyinatlıların və kəndin ətrafında yerləşən hərbi texnikanın yerini öyrənməkdi. Səhər yuxudan ayılan kənd

sakinləri maskalıları görüb təəccübləndilər. Amma onlar elə bildilər ki, erməni əsgərləri yenə hərbi təlim keçirlər. O biri əsgərlərimiz evlərin zirzəmilərində gizlənmişdilər. Komandirə məlumat çatdı ki, on nəfərə yaxın erməni hərbçisi kəndin qurtaracağında yerləşən qəbiristanlığın yanındakı evdə cəmləşib. Komandir əmr verdi ki, təcili həmin dəstə məhv edilməli, sonra isə hərbi texnikanın yeri öyrənilməlidir. Bir saatdan sonra həmin evdəki on iki

erməni əsgəri öldürüldü. Bizimkilər oradan bir xəritə tapmışdılar. Həmin xəritədə Tərtər rayonu qırmızı dairəyə alınmışdı. “Demək, kəşfiyyatımızın məlumatı düzgünmüş. Alçaqlar bizə qarşı növbəti çirkin plan hazırlayırlarmış”, - deyə mayor İmanov düşündü.

Günortaya yaxın ikinci dəstədən xəbər gəldi ki, düşmən tankları və piyada əsgərləri kəndə yaxınlaşır. “Deməli, ermənilər bizim kənddə olduğumuzdan artıq xəbər tutub. Bu necə ola bilər? Onlar bu tezliklə xəbər tutmamalıydılar!” - deyə mayor İmanov fikrə getdi. Komandir əsgərlərimizə kənddə mövqe tutmağı tapşırdı. Çünki tanklar kəndə girə bilməzdi. Kəndə ancaq ermənilərin xüsusi təyinatlıları və piyada əsgərləri girə bilərdi. Bu da bizimkilərə döyüşmək üçün sərf edirdi. Amma gözlənilən kimi olmadı. Düşmən tankları gəlib sırayla kəndin girişində dayandılar və atəşə başladılar. “Adə, bu qansızlar nə edir?! Bunlar kənd camaatını qırmaq istəyirlər?! Vay, sizi şərəfsizlər!”, - deyə yenidən Tərlanın səsi eşidildi. Sonra komandir əmr etdi: “İgid qartallarım, indi düşmənə kim olduğumuzu sübut etmək vaxtıdır. Biz buraya Azərbaycan əsgərinin nəyə qadir olduğunu göstərmək üçün gəlmişik. Siz bu gün şərəfinizlə, göstərəcəyiniz şücaətinizlə tarix yazacaqsınız. Allah bizə düşmənin anasını ağlatmaq üçün güc-qüvvət versin!” Əsgərlər bir ağızdan: “Amin, komandir! Amin!” dedilər.

Tankların atdığı mərmilərdən yer-göy lərzəyə gəlirdi. Evlər bir anda yerlə-yeksan olurdu. İnsan qışqırtısı partlayan mərmi səslərinə qarışmışdı. Kənd sakinləri hara

qaçacaqlarını belə unutmuşdular. Çünki top və tanklardan atılan mərmilər kəndin hər tərəfinə düşürdü. Mayor İmanovun dəstəsi yaxşı döyüş mövqeyi seçmişdi. Kəndə tərəf irəliləyən düşmənin canlı qüvvəsi xeyli tələfat versə də, geri çəkilmək fikrində deyildi. Bu zaman kəndin şərq və qərb istiqamətində yerləşən birinci və ikinci dəstədən on nəfərə yaxın əsgər arxa tərəfdən mayor İmanovun dəstəsinə yaxınlaşdı.

- Bəs digər uşaqlar hanı? - deyə komandir soruşdu.

Əsgərlər əvvəlcə susdular. Sonra Zakir adlı oğlan astadan dedi:

- Komandir, qalanlar elə təkcə bizik. Digərlərindən xəbərimiz yoxdur.

Bunu eşidəndə komandirin gözlərindəki ümid işartısı öləziləşdi. Bu vaxt səmada iki döyüş vertolyotu göründü. Vertolyotlar tankları raket atəşinə tutdular. Düşmən tanklarından üçü alışıb yanmağa başladı.

- Uşaqlar, bizim vertolyotlardır! Bizə köməyə gəliblər! Sizə dedim ki, bizimkilər köməyə gələcəklər! - deyə komandir ucadan qışqırdı.

Sonra mayor:

- Uşaqlar, bizimkilər hücuma keçib. Bu əclaflara aman verməyin! Daha bəsdir, əsəblərimizlə oynadılar. Bu döyüşdə erməni faşistlərinə nəyə qadir olduğumuzu göstərməliyik! - dedi.

Düşmən tankının alovlandığını görən döyüşçülər daha da ruhlandılar. Onlar yaxınlaşmaqda olan düşmən “dığalarını” bir-bir “dənləməyə” başladılar. Snayper Kamran bu dəfə daha fəal idi. O, bacardıqca düşmənin

qara beretli xüsusi təyinatlılarını aradan götürməyə çalışırdı. İstəyinə də nail olurdu. Bu vaxt Tərlanın sağ tərəfində bir mərmi partladı. Çığırtı eşidildi. Tərlan əsgərlərə tərəf süründü. Vaqif, Qabil al-qan içindəydilər. Onlara heç cür kömək etmək mümkün deyildi. Ancaq Vaqif: "Tərlan, bizim də intiqamımızı alarsınız. Bizə söz ver!", - deyib gözlərini yumdu. Tərlanı qəhər boğdu və: "Qardaşlarım, söz verirəm ki, həm sizin, həm də bütün şəhidlərimizin intiqamını bu alçaqlardan alacağam!", - deyib hər iki döyüşçü yoldaşını qucaqladı. Tərlan yoldaşlarının ölümünü komandirə söylədi. Komandir pərişan halda: "Allah rəhmət eləsin! Qardaşlarımız şəhidlik zirvəsinə yüksəldilər... Allah sizi qorusun!" - dedi.

Şiddətli döyüş axşama kimi davam etdi. Kənd sakinləri ara azacıq sakitləşən kimi evlərini qoyub qaçırdılar. Erməni tanklarının atdığı mərmilərdən çoxlu ev

dağılmışdı, camaat arasında xeyli ölən vardı. Düşmənin piyada və xüsusi təyinatlı dəstələri kəndi mühasirə vəziyyətində saxlamağa çalışırdılar. Onlar istəyirdilər ki, Azərbaycanın xüsusi təyinatlı dəstəsinin üzvlərini əsir götürsünlər. Düşmən bunu da yaxşı bilirdi ki, xüsusi təyinatlılar heç bir zaman əsir düşmürlər. Ermənilər axşam kəndə girməyə cəsarət etmədilər. Başa düşürdülər ki, kəndə girsələr, özləri xeyli itki verəcəklər.

Həmin axşam komandir qalan döyüşçüsünə belə bir tapşırıq verdi: "Uşaqlar, sübh tezdən 3 kiçik qrupa bölünüb, mühasirəni yararaq mövqelərimizə çatmalıyıq. Bilirsiniz ki, biz hazırda döyüş mövqelərimizdən təxminən 4-5 kilometr düşmən mövqeyinin içərisindəyik. Narahat olmayın, bizə kömək gələcək. Çünki indi bizimkilər Tərtər-Ağdərə və Xocavənd-Füzuli istiqamətində bütün cəbhəboyu hücuma keçiblər. Bu saat düşmən böyük vahimə içindədir. Onlar özlərinə gəlməmiş biz mühasirədən çıxmalıyıq. Bilirəm, iki gündür yuxusuz və acsınız. Amma dözmək lazımdır. Siz belə şeylərə artıq alışmısınız. Bunu da bilməlisiniz ki, bu döyüş əməliyyatından çox şey asılıdır. Bu döyüşdən sonra biz ermənileri məcburən danışıqlar masasına əyləşdirəcəyik. Çünki onlar bizə başqa çarə buraxmadılar. Ermənilərin yalnız burnu ovulandan sonra ağılları başlarına gəlir. Bu əməliyyat sabahkı sülhün taleyini həll edəcək! Bundan sonra ermənilər anlayacaqlar ki, bizimlə zor dilində danışmaq olmaz. Bu torpaq bizim əcdadlarımızın bizə qoyub getdiyi müqəddəs əmanət və mirasdır. Biz bu əmanətə sahib çıxmalıyıq ki, gələcək nəsillər qarşısında

üzüqara olmayaq və onlar bizi qınamasınlar. Allah yardımçımız olsun! Kim bilir, bəlkə sabah bugünkü döyüş haqqında sizin qəhrəmanlığınızdan yazacaqlar. Allah-təala bizi bu sınaqda utandırmasın! Hə, uşaqlar, sabahkı qəzamız mübarək olsun!”

- Qəzamız mübarək olsun! - deyə döyüşçülər bir ağızdan səsləndilər.

Komandir döyüşçülərə qəti tapşırdı ki, sabaha qədər kimsə gözünü qırpmasın.

Sübh çağı, aprelin 3-də komandirin dediyi kimi, 3 kiçik qrup kəndin üç istiqamətindən düşmən mühasirəsini yarıb keçmək üçün hərəkətə keçdi. Tərlangilin qrupunda komandirin özü, Kamran, Teymur, Şahin, Elnur, Müşfiq və Sərxan vardı. Komandir uşaqlara göstəriş verdi ki, əsas istiqamət meşə olmalıdır.

Bu zaman ermənilər artıq ikinci postlarını yenidən bərpa etmişdilər. Postu qorumaq üçün oraya çoxlu sayda əsgərlər qoymuşdular. Düşmən əsas canlı qüvvəsini meşə ətrafına cəmləşdirmişdi. Mayor İmanov Tərlanın dediyi istiqaməti qəbul etmədi. O, qrupa meşəyə doğru hərəkət etmək əmri verdi. Amma yenə birlikdə deyil, üç-üç olmaqla ayrı-ayrı qruplarda meşəyə doğru istiqamət götürdülər. Onlar kənddən bir kilometr yarım aralanmışdılar ki, arxalarıyca güllələr yağmağa başladı. Onlardan aralı bir neçə minamyot mərmisi də partladı. Qəlpələrdən biri Sərxanın sol qolunu siyirdi. Əsgərlər dayanmadan qaçırdılar ki, mümkün qədər meşəyə tez girsinlər. Ermənilərin xüsusi təyinatlı dəstəsi onları izləyirdi. Meşəyə təzəcə girmişdilər ki, düşmən snayperi

Şahini arxadan vurdu. O, yerindəcə gözlərini əbədi yumdu. Bir azca getmişdilər ki, Teymuru da vurdular.

- Komandir, onlar bu yolla hamımızı dənləyəcəklər. Qaçarkən biz onların hədəfinə daha yaxşı tuş gəlirik. Gəlin, ağacların arxasında özümüzə mövqe seçək və onları ləngidək. Bu zaman digər yoldaşlarımızın uzaqlaşmaları üçün imkan yaranar, - deyə Tərlan komandirə məsləhət verdi.

- Yaxşı, bu dəfə sən deyən olsun!", mayor Samid döyüşçünün fikriylə razılaşdı.

Sonra komandir üzünü Kamrana tutub dedi:

- Kamran, indi öz şücaətini göstərmək vaxtındır!"

- Oldu, komandir!" - deyə Kamran cəld böyük bir ağacın arxasında özünə mövqe seçdi. Digər əsgərlər də ermənileri qarşılamaq üçün silahlarını hazır vəziyyətə gətirdilər. Ermənilər görününcə Kamranın snayperi işə düşdü. On dəqiqənin içərisində Kamran altı erməni gəbərtdi. Tərlan da sərrast atəşlə dörd erməni dığasını o dünyaya göndərdi. Düşmən qüvvələri getdikcə artırdı. Onlar əsgərlərimizi mühasirəyə alıb, əsir götürmək istəyirdilər. Bu zaman Kamran dedi:

- Komandir, uşaqları da götürün, gedin. Mən onları gecikdirərəm. Ona kimi siz də bir xeyli uzaqlaşmış olarsınız.

- Bəs sən sonra necə edəcəksən, Kamran?

- Məndən ötrü narahat olmayın, komandir. Mən arxadan gəlib sizə çatacağam!

- Yox, qəti olmaz! Gediriksə, birlikdə gedəcəyik. Səni burada tək qoymarıq! - deyə komandir Kamrana etiraz etdi.
- Komandir, gedin, yoxsa burada hamımız həlak olacağıq. Siz getsəniz, yoldaşlarımızı da xilas edərsiniz. Mən söz verirəm ki, arxadan gəlib sizə çatacağam, - deyə Kamran yenə israr etdi.
- Yaxşı, biz gedirik, ancaq səni meşənin çıxacağında gözləyəcəyik. Allah səni qorusun! - komandir dedi.

Əsgərlər meşənin içiylə qaçmağa başladılar. Onlar iyirmi dəqiqədən sonra meşənin qurtaracağına gəlib çıxdılar. Bir az oturub dinclərini aldılar. Komandir: "Burada Kamranı gözləyək", - dedi. Meşədən fasilələrlə silah səsləri gəlirdi. Bir azdan sükut çökdü. Amma qarşıdakı ermənilərin döyüş mövqelərində mərmi səslərinin arası kəsilmirdi.

- Komandir, getmək vaxtıdır. Deyəsən, bizə kömək gəlməyəcək, - deyə Tərlan dilləndi.
- Necə gedək?! Bəs Kamran? - Komandir sərt baxışla Tərlanı süzdü.
- Komandir, o, artıq gəlməyəcək. - Tərlan məyus halda başını aşağı dikdi.
- Ola bilməz! O, söz verdi ki, gəlib bizə çatacaq. - Komandir dolmuş gözlərini uşaqlardan gizlətmək üçün yana çevirdi.
- Komandir, biz tələsməliyik, ermənilər hər an bizi haqlaya bilərlər, - deyə Tərlan yenidən komandiri tələsdirdi.
- Yaxşı, gedək. - Komandir göstəriş verdi.

- Onlar yerlərindən təzəcə tərpənmişdilər ki, arxadan düşmən snayperindən atılan güllə komandirin qıçına dəydi. Komandirin dizdən aşağıdakı sümüyü az qala bayıra çıxacaqdı. Sadəcə, dəri sümüyü saxlamışdı. Tərlan tez komandiri yerə uzandırdı, qan çox axmasın deyə, güllə dəymiş qıçını dizdən yuxarı hissəsini bel kəməriylə möhkəmcə bağladı.
- Demək, mənimki bura qədərmiş. - Komandir dərindən köks ötürdü. - Tərlan, uşaqları da götür, get. Qarşıdan sizə hökmən kömək gələcək!
- Xeyr, komandir, biz sizi burada tək qoyub gedə bilmərik. - Tərlan komandirinə etiraz etdi.
- Komandir, Tərlan haqlıdır. Biz sizi burada necə qoyub gedə bilərik? - Uşaqlar bir ağızdan səsləndilər.
- Mən sizə əmr edirəm. Siz gedin! Məni apara bilməzsiniz. Sizə ancaq artıq yük ola bilərəm. Əvvəlcə məni burada yaxşıca gizlədin ki, ermənilər görə bilməsin. Sonra gəlib məni apararsınız. İndi gedin. Verilən əmri icra edin! Tərlan, uşaqlar sənə əmanət, onları qoru! - Komandir ucadan dilləndi.

Əsgərlər vaxt itirmədən komandiri böyük bir kolluğun altına gətirdilər və üstünü yarpaqlı budaqlarla örtdülər. Sonra Tərlan üzünü uşaqlara tutub dedi:

- Uşaqlar, bundan sonra komandanlıq məndədir. Nə desəm, onu yerinə yetirəcəksiniz!
- Oldu, komandir! - uşaqlar bir ağızdan səsləndilər.

Onlar Tərlanın göstərişiylə ermənilərin ikinci postuna tərəf getdilər. Posta yaxınlaşanda Tərlan dedi ki, axşamın düşməsini gözləməlidilər. Çünki posta gündüz vaxtı

hücum etsələr, onların itkisi çox ola bilər. Posta hökmən axşam hücum edilməlidir. Belə ki, uşaqlar çox da dərin olmayan bir kanalda gizlənib axşamın düşməsini gözlədilər. Bəlli ki, düşmən postunda çoxlu sayda erməni əsgəri vardı. Onlar isə dörd nəfərdi. Əsgərlər artıq üçüncü gündü ki, ac idilər. Onlar ancaq su içirdilər, çünki əməliyyatın bu qədər uzun çəkəcəyini bilmədiklərinə görə özləriylə yemək götürməmişdilər. Aclıqdan heydən düşmüşdülər, gücləri tükənmişdi. Silah-sursat da qurtarmaq üzrəydi. Tərlan axşamkı hücumda ancaq əl qumbaralarından istifadə etməyi qərara almışdı.

Əsgərlər arxası üstə uzanıb səmaya baxırdılar. Hər kəs evdəkiləri düşünürdü. “İndi evdə heç kəs bilmir ki, biz düşmən arxasındayıq. Kaş ki, indi burada anamın bişirdiyi kənd çolpasının bozbaşı olaydı. Onu necə də acgözlüklə yeyərdim!” deyə Tərlanın xəyalı kənddəki evlərini gəzib dolandı. Onların ailəsi böyükdü, doqquz nəfərdən ibarətdi. Atası Arif süfrə başına oturmadan kimsə süfrədə oturmazdı. Anası toyuq bişirəndə, Tərlanın bu toyuqdan nəsibi yalnız onun bir qanadı olardı. Atası ailəsini halal zəhmətiylə dolandırırdı. Anası Zəminə evdar qadındı. Qardaşlarının ikisi Tərlan kimi Milli Ordu sıralarında xidməti müddəti başa çatdıqdan sonra könüllü qalaraq xidmət edirdilər. İki qardaşı isə məktəbliydilər. Bacısının biri ərə getmiş, digər bacısı isə evdə anasına kömək edirdi. O da nişanlıydı. Qonşuların evlərinə baxanda, onlarınkı müasir daxmaya bənzəyirdi. Cəmi üç otağı vardı. Böyük bir ailə üçün əlbəttə ki, bu çox kiçikdi. Onsuz da üç oğul hərbçi olduğundan evə nadir hallarda

gəlirdilər. Onlar da artıq evlilik yaşını keçirdi. Anası Zəminə kənddən oğlanlarına qız almaq üçün bir neçə evin qapısını döymüşdü. Amma heç kəs ona qız verməmişdi. Bəhanə də onu göstərirdilər ki, qızlarını o cür daxmaya gəlin köçürmələrinə razı deyillər. Buna baxmayaraq, Arif kişi bu günə kimi övladlarının boğazından haram tikə keçirməmişdi. Ona görə də onun övladları atasını, anasını, bacı-qardaşlarını necə sevirdilərsə, doğma torpağını, Vətənini də o cür sevirdilər. Tərlanı xəyal bir anlıq orta məktəb illərinə apardı; yaxşı xatırlayırdı, yeddinci sinifdə oxuyurdu. Onunla bir sinifdə atası rayon İcra hakimiyyətində məsul vəzifədə işləyən Mürsəl müəllimin oğlu Ramal da oxuyurdu. O, məktəbdə uşaqlara göz verib, işıq vermirdi. Atasına görə məktəbdə müəllimlər də daxil olmaqla, kimsə Ramala gözün üstə qaşın var demirdi. O, istədiyi uşağı döyür, təhqir edir, yoldaşları yanında alçaltmağa çalışırdı. Ramal məktəbdə təkcə Tərlandan çəkinirdi, onun gücünə bələd idi. Çünki bir dəfə o, Tərlanı da başqaları tək təhqir etmək istəmişdi. O zaman Tərlan: “Ramal, məni başqalarıyla səhv salma. Sənə elə bir dərs verərəm ki, ömrün boyu o dərsi unuda bilməzsən!” demişdi. Sonra Ramal ondan soruşdu:

- Tərlan, özünü niyə bu qədər dartırsan? Özünü niyə yuxarıdan aparırsan? Buna yalnız mənim haqqım çatır. Çünki dərslərimi yaxşı oxuyuram. Sən isə dərslərdən çox zəifsən. Gələcəkdə səndən heç nə çıxmayacaq. Mən isə ali məktəbi bitirib, tanınmış biznesmen olacağam. Bax, o zaman gəlib əlimi sıxaraq məndən yardım istəyəcəksən.

Tərlan isə Ramalın bu sözünə bərk əsəbiləşdi və:

- Mən ölərəm, ancaq sənin kimi şərəfsizə heç vaxt əl açmaram. Bir də ki, kim-kimin ayağına gələcəyini zaman göstərəcək. - dedi.
- Bəs sən gələcəkdə kim olacaqsan? - Ramal yenə də irişərək soruşdu.
- Mən böyüyəndə qəhrəman olcağam. O zaman hamınız gəlib mənimlə görüşəcəksiniz. Mənə həsəd aparacaqsınız. Hətta, sənin atan Mürsəl müəllim də yanıma gəlib məni bağrına basıb alnımdan öpüb: “ananın südü sənə halal olsun, Tərlan! Sən bizim fəxrimizsən. Biz, bütün kənd, rayon, el-oba, xalqımız sənlə qürur duyur!” deyəcək.

Bunu eşidən Ramalı gic gülmək tutdu. O qədər güldü ki, axırda əllərilə qarnını qucaqladı.

- Qəhrəman ha! Lap kinolardakı kimi danışdın, Tərlan. Allah səni güldürsün. Qəhrəmana bir baxın! Bu gündən sonra adın Qəhrəman qaldı. Uşaqlar, bundan sonra Tərlanın adı Qəhrəman oldu. Onu daha Tərlan deyil, Qəhrəman çağıracaqsınız. Eşitdinizmi?! - deyə Ramal amiranə tərzdə bildirdi...

Bu zaman yaxınlıqda xışıltı səsi Tərlanı şirin xəyallardan ayıltdı. Tərlan döyüşçü yoldaşlarına əl işarəsiylə “hazır olun!” göstərişini verdi. Bizim uşaqlardandı, ikinci dəstədən. Üç nəfərdilər. Onların dediyinə görə, digər dəstənin uşaqları düşmənin cəbhə xəttini şərq istiqamətindən yarıb keçməyi planlaşdırıblar. Bunlar isə Tərlangilin ikinci postdan keçib gedəcəklərini bilirdilər. Artıq vaxtdı. Tərlan posta iki tərəfdən - şimal və

qərb istiqamətindən hücum etməyə göstəriş verdi. Onun işarəsiylə deyildiyi kimi, postun hər iki tərəfindən əl

qumbaraları erməni əsgərlərinin üstünə atıldı. Bir-birinin ardınca dörd partlayış oldu. Ermənilərin qışqırtısı eşidildi. Uşaqlar onlara avtomat silahlarından atəş açmağa belə macal vermədilər və hamısını öldürdülər. Tərlangil posta daxil oldu. O, on bir erməni meyiti saydı. Əsgərlər ac olduğundan yemək axtardılar və tapdılar da. Onlar tez "tuşonka"ların ağzını açıb yeməyə başladılar. Bir az keçmişdi ki, posta atəş açıldı. Demək, ermənilər postdakı partlayışın səsini eşidiblər. Ona görə də, onlar posta hücuma keçiblər. Tərlangilin silah-sursatı qurtardığından öldürdükləri erməni əsgərlərin silahlarından istifadə etməyə başladılar. Güclü atışma başladı. Tez bir zamanda uşaqların güllələri tükəndi. Tərlan postun içini

axtarmağa başladı. O, üç yeşik əl qumbarası tapdı. Hər yeşikdə də 40 ədəd qumbara vardı. Amma qumbaraların "zapal"ları yox idi. Sonra o, digər qutuları axtardı. "Uşaqlar, zapallar da burda olmalıdır. Səngəri yaxşı axtarın!" deyə Tərlan yoldaşlarına göstəriş verdi. Bu vaxt Sərxan səsləndi:

- Tərlan, burada böyük "tuşonka"lar var. Onları da açaqmı?
- Əlbəttə, açın!" - Tərlan dedi.

Sərxan "tuşonka"nı açanda, "zapal"ların burada olduğunu görüb tez Tərlanı səslədi:

- Tapdım! "Zapal"ları tapdım! "Tuşonka"ların içindəymiş!

Tərlan uşaqlara göstəriş verdi:

- Uşaqlar, siz tez-tez "zapal"ları qumbaralara bağlayıb mənə verirsiniz. Ermənilər artıq yaxındadırlar. Cəld olun!

Tərlan hazır qumbaraları bir-bir əsgərlərdən alıb, "Ya Allah!" - deyərək erməni əsgərlərinə tərəf atırdı. Bu minvalla Tərlan ermənilərə doxsana yaxın qumbara atdı. Bu döyüş bir saatdan çox çəkdi. Sonra ara sakitləşdi. Teymur və Elnur ağır yaralanmışdılar. Digər əsgərlər onların yaralarını sarımışdılar. "Dözün, tezliklə bizə kömək gələcək!" - deyə vəziyyəti ağır olan yaralıları yoldaşları sakitləşdirməyə, onlara ümid verməyə çalışırdılar. Daha ermənilərdən atəş səsi, səs-səmir gəlmirdi. Əsgərlər təəccüb içindəydilər. "Görəsən, dığalara nə oldu belə, səslərini kəsdilər?" - deyə Tərlan soruşdu. Bu zaman Sərxan ucadan gülüb dedi:

- Nə olacaq? Dığaların hamısını gəbərtdin də!..

- Ola bilməz. Yəni deyirsən ki, bizə hücum edənlərin hamısı öldü?! - Tərlan təəccüblə dilləndi.
- Yəqin ki, ölənlər ölüb, sağ qalanlar da qorxub qaçıblar. Qoy, bir baxım görüm, bunlar hara yox oldular. Bəlkə, səhərin açılmasını gözləyirlər? - Sərxan başını azca səngərdən bayıra çıxarmaq istədi.
- Başını səngərdən çıxarma, Sərxan! Snayper vura bilər! - Tərlan tez Sərxanın qıçından tutub səngərin içinə çəkdi.

Onlar oturub səhərin açılmasını gözlədilər. Aprelin 4-ü səhər tezdən Tərlan gördü ki, kapitan Məmmədov on döyüşçü ilə onlara köməyə gəlib. Kapitan səngərin ətrafında ölmüş erməni əsgərlərini Tərlangilə göstərib soruşdu:

- Bunlar sizin işinizdir?! Vətənin çörəyi sizə halal olsun! Rəis məndən qəhrəman adı istəyirdi. İndi bu dəqiqə zəng edib, adlarınızı ona söyləyəcəyəm. Siz hamınız əsl qəhrəmanlarsınız! Sizin kimi oğullarla fəxr edir, qürur duyuruq! Bu dəfə ermənilərin yaxşıca dərsini verdik. Düzünü deyim ki, sizin sağ olmağınızı bilmirdik. Bizə məlumat verdilər ki, siz hamınız şəhid olmusunuz. Buna görə bizi bağışlayın, vaxtında sizə köməyə gələ bilmədik. Amma sizə sevindirici xəbərlərim var. Xocavənd-Füzuli istiqamətində də Milli Ordumuz böyük qələbə əldə edib. Bizim istiqamətdə düşmənin ən iri hərbi bazalarından biri sayılan, Ağdərə şəhərinə aparan əsas yol üzərində və onun şimalında yerləşən strateji baxımdan əhəmiyyətli olan Madagiz məntəqəsindəki hərbi bazanın qərargahı artilleriyamızın dəqiq zərbələri nəticəsində dağıdılıb,

ermənilərin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib. Ən böyük şad xəbər odur ki, uzun müddətdən bəri ermənilər tərəfindən işğal edilmiş, mühüm strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyi şanlı ordumuzun əsgərləri tərəfindən azad olunub. İndi həmin yüksəklikdə Azərbaycan bayrağı dalğalanır. İndi isə gedək, göstərdiyiniz qəhrəmanlığı gözlərinizlə görün. Sonra yaralı əsgərlərimizi buradan təcili çıxarmalıyıq!

Bundan sonra qabaqda kapitan Məmmədov, arxasınca da digər əsgərlər dünən axşam döyüşdə ölən erməni əsgərlərinin meyitlərinə baxmağa getdilər. Onlar əlli səkkiz erməni meyiti saydılar.

- Yoldaş kapitan, bunların hamısını axşam Tərlan əl qumbaralarıyla öldürüb! - uşaqlar bir ağızdan dilləndilər.

- Bunların hamısını təkcə mənim adıma niyə çıxırsınız? Bəs özünüzün öldürdüklərinizi niyə demirsiniz?! Siz hamınız axşam böyük şücaət göstərdiniz! - deyə Tərlan döyüşçü dostlarının göstərdikləri igidliyi yerə vurmaq istəmədi. Sonra əlavə etdi. - Yoldaş kapitan, mayor İmanovu ağır yaralı halda meşədə gizlətmişik. Onu oradan götürmək lazımdır.

- Siz narahat olmayın, mayoru ordan götürəcəyik, - deyə kapitan Tərlanı sakitləşdirdi. Sonra o, ratsiyanı açaraq dedi: “Cənab rəis, siz məndən qəhrəman adı istəyirdiniz. İndi mən sizə əsl qəhrəmanın adını söyləyirəm. Yazın, əsgər Tərlan Arif oğlu Zahidov. Tərlan təkbaşına 60 erməni əsgəri öldürüb. Mən buna şəxsən şahidəm.”

- Bəli, cənab kapitan, bu döyüşün əsl qəhrəmanı Tərlandır! - deyə uşaqlar bir ağızdan kapitanın dediklərini təsdiqlədilər.
- Bu hamımızın qələbəsidir. Bunu təkcə mənim adıma yazmaq böyük ədalətsizlik olar. Bu bütünlüklə Azərbaycan əsgərinin zəfəridir. Biz bu döyüşdə ermənilərə nəyə qadir olduğumuzu göstərdik. Bundan sonra çətin ki, onlar bir daha təxribat törədərlər. Yoldaş kapitan, bəs arxamızca Milli Ordunun əsgərləri niyə hücuma keçmədilər? Talış kəndi bizim əlimizdəydi axı. İki gün gözlədik orada.
- Oğul, elə şeylər var ki, bizim imkanımız xaricindədər. Əlbəttə, biz bu sürətlə hərəkət etsəydik, bir həftənin içərisində bütün Qarabağı işğaldan azad edərdik. Amma nə edəsən ki, böyük güc dövlətləri və bütün beynəlxalq təşkilatlar bizə torpaqlarımızı döyüş yoluyla işğaldan azad etməyə imkan vermirlər. Onlar məsələnin dinc yolla, sülhlə həll olunmasını istəyirlər. Sülh danışıqlarını da hər dəfə erməni tərəfi təxribat törətməklə pozur. Bu döyüşdə Sarkisyan bizim tərəfimizdən hücumun dayandırılması üçün Moskvaya yalvarırmış. Yaxşı, yaralıları da götürün, mövqelərimizə geri çəkiləyin. Bir azdan bu postu geri qaytarmaq üçün ermənilər yenidən hücuma keçəcəklər. Biz tələsməliyik!
- Yoldaş kapitan, bəs ermənilərin birinci postu?!
- Bu barədə narahat olmayın, 1-ci postu da bizim uşaqlar götürüblər.
- Bəs mayor İmanov necə olacaq? Onu oradan götürməyəcəyik?

- Samidi götürməyə hökmən qayıdacağıq! İndi isə getmək vaxtıdır, - deyə kapitan uşaqları tələsdirdi.

Onlar ermənilərin 1-ci postuna az qalmış birdən kapitan yerə yıxıldı. Erməni snayperi arxadan Məmmədovun başından vurmuşdu. Bu atəşdən sonra Tərlanın göstərişiylə uşaqlar sürünə-sürünə hərəkət etməyə başladılar. Bir neçə dəqiqədən sonra onlar kapitanın meyitini 1-ci posta çatdırdılar. Əsgərlər kapitan Məmmədovun ölümündən bərk sarsılmışdılar. Bir neçə dəqiqə bundan öncə onlarla həmsöhbət olan, uşaqlara ümid verən insan artıq həyatla vidalaşmışdı. Nə etmək olar, müharibənin öz qanunları var. Burada ölümdən kimsə sığortalanmayıb...

***

Ertəsi gün ermənilərin yalvarışı, Moskvanın təkidi, eləcə də digər güc dövlətlərinin və beynəlxalq təşkilatlarının xahişi ilə yenidən atəşkəs elan olundu. Qərara alındı ki, Qırmızı Xaçın iştirakı ilə hər iki tərəf meyitlərini döyüş ərazisindən götürsünlər.

Həmin gün Tərlan da döyüşçü dostlarıyla birlikdə mayor İmanovu və Kamranı qoyub gəldikləri yerə getdilər. Onlar komandirlərini gizlətdiyi yerə çatanda, Samid artıq Haqqın dərgahına qovuşmuşdu. O, çoxlu qan itkisindən keçinmişdi. Komandirin sağ əlində başlığı çıxarılmış qumbara vardı. Sonra bir az da irəli gedib, Kamranın meyitini ağacın arxasında tapdılar...

Sonradan ermənilər apreldəki bu dörd gün döyüşünün məğlubiyyətini müxtəlif bəhanələrlə ört-basdır etməyə çalışırdılar. Belə ki, onlar Tərlanın “Ya Allah!” -

deyib qumbara atmasını, “aprel döyüşündə azərbaycanlılar tərəfindən İŞİD-çilər də vuruşurdular” deyə sərsəmləyirdilər...

Zəfər dolu bu dörd günlə Azərbaycan Ordusu şanlı tarix səhifəsi yazdı. Müqəddəs torpaq və haqq uğrunda şəhid olan cəsur oğullarımız da unudulmadı. Onlar Ali Baş Komandan tərəfindən ali mükafat olan Milli Qəhrəman adına layiq görüldülər...

Xalq döyüş ovqatı üstündə köklənmişdi... Hamı Ali Baş Komandanın şücaətindən, Azərbaycan Ordusunun zəfər yürüşündən, ermənilərin hücumunu darmadağın etməsindən danışırdı. Cavanlar da, qocalar da Qarabağın azadlığı, Azərbaycan torpaqlarının bütövlüyü naminə səfərbərliyə hazır idi...

Döyüşdən bir həftə sonra Tərlan kəndə, doğma yurda əsl qəhrəman kimi qayıtdı. Kənd camaatı Tərlanın ayaqları altında qurbanlar kəsdilər. Kəndin bütün cavanları dəstə-dəstə Tərlana baş çəkməyə gəlirdilər. Gələnlər arasında onun sinif yoldaşı Ramal da vardı. Ramal Tərlanı qucaqlayıb hər iki üzündən öpərək dedi:

- Tərlan, sən doğrudan da əsl qəhrəmansan. Sən vaxtiylə orta məktəbdəki dediyin sözü tutdun və həqiqətən də nəinki bizim qəhrəman, hətta xalqımızın qəhrəmanı oldun. Biz sənlə fəxr edirik!

Azca keçmişdi ki, Mürsəl müəllim də xarici maşınıyla gəldi. O, maşından gülə-gülə düşüb Tərlana tərəf addımladı. Onu bərk-bərk qucaqlayıb bağrına basdı. SonraTərlanın alnından öpüb dedi:

- Ananın südü sənə halal olsun ki, sənin kimi mərd, cəsur, qəhrəman oğul böyüdüb. Sən bizim kəndin, el-obamızın adını göylərə ucaltdın, Tərlan! Allah səni ucaltsın və daim qorusun! Rayonda hamı səndən danışır. Mən də fəxrlə deyirəm ki, Tərlan mənim kəndçimdir, qohumumdur, əzizimdir, can-ciyərimdir...

Aprel zəfərindən sonra vaxtilə Arifin oğlanlarına qız verməyənlər indi özləri ona qızlarını vermək üçün elçi düşmüşdülər. Çünki eşitmişdilər ki, Arifin iki oğluna Ali Baş Komandanın göstərişiylə ev veriblər.

***15.09.2016***



**"Lələtəpə" yüksəkliyi**

# Mühasirə

(hekayə)

1992-ci ilin avqust ayı idi. Bundan əvvəl ermənilər mütəmadi olaraq Ağdamın Şıxlar, Kosalar, Məlikli, Abdal-Gülablı, Güllücə, Mərzili, Mahrızlı, Yusifli, Qaradağlı, Kürdlər, Alıbəyli kəndlərinə hücum edirdilər, ancaq Ağdamın özünümüdafiə dəstələri tərəfindən düşmən həmən geri otuzdurulurdu.

Bu dəfə ermənilər Şelli kəndinə hücuma keçmişdilər. Kənd uğrunda qızğın döyüşlər gedirdi. Həmin vaxt Ağdamın digər kəndlərində də ermənilərin ardıcıl hücumlarının qarşısı rayonun polis idarəsinin əmək-daşları, həmçinin "Qatır Məmməd" ləqəbli Yaqub Rzayevin, özünümüdafiə batalyonun komandiri Şirin Mirzəyevin, Allahverdi Bağırovun, Fred Asifin (Asif Məhərrəmov) rəhbərlik etdikləri dəstələr və Milli Ordunun əsgərləri tərəfindən layiqincə alınırdı. Amma bu dəfə ermənilər həm çoxlu hərbi texnika, həm də xeyli canlı qüvvəylə hücuma keçmişdilər. Düşmənin fasiləsiz olaraq iriçaplı pulemyotlardan və BMP-lərdən atdığı mərmi və güllələr mövqelərimizdəki əsgərlərimizin sırasını get-gedə seyrəldirdi. İtkilərimiz anbaan çoxalırdı. Arxadan kömək gəlməsəydi, Şellini itirə bilərdik. Xüsusi təyinatlı dəstənin uşaqları bu döyüşdə böyük şücaət göstərirdilər. Onlar Şellinin qərb istiqamətindəki mövqelərində qərar

tutmuşdular. Dəstənin komandiri Elşad Ağayev düşmənin hərbi texnikasının döyüşçülərə göz açmağa imkan vermədiyini görüb, yanındakı yoldaşının əlindən qumbaraatanı alıb sağ cinahdan onlara aramsız atəş açan PDM-ə doğru sürünməyə başladı. Artıq komandirlə piyadaların döyüş maşını arasında atəş məsafəsi yetərincəydi. Və Elşad bu fürsəti qaçırmayaraq onu nişan aldı. Açılan atəş düz hədəfə dəydi, PDM-dən qara tüstü çıxmağa başladı. Bu zaman arxadan uşaqların: - "Afərin, komandir! Halal olsun!" səsləri eşidildi...

Döyüş meydanında çoxlu yaralılar vardı. Onları oradan çıxarmaq lazımdı. Amma dolu kimi yağan güllələrdən yaralılara yaxınlaşmaq mümkün deyildi. Bacarıqlı və cəsur komandir indiyə kimi döyüşçü dostlarını nə yarı yolda qoymuşdu, nə də ki köməyini onlardan əsirgəmişdi. Bu dəfə də belə oldu. O, yaralı döyüşçü yoldaşlarının ona tərəf uzanan əllərini və yalvarış dolu baxışlarını cavabsız qoymamağı qərara almışdı. Bu, onun həyatı bahasına olsa da belə, yenə də onlara köməyə yetməliydi."Necə olursa-olsun, onları odun-alovun içindən çıxaracağam. Yoldaşlarımı bu vəziyyətdə orda qoymağı heç cür kişiliyimə sığışdıra bilmərəm, buna vicdanım da yol verməz!" deyə bölüm komandiri düşündü. Qalan döyüşçülərimiz geri çəkilmək istəyirdilər. Onlardan biri komandiri ucadan səslədi: "Komandir, oraya getmək ölüm deməkdir! Biz artıq mühasirə vəziyyətinə düşmüşük. Siz onlara köməyə getsəniz, geri qayıda bilməyəcəksiniz! Bilə-bilə özünüzü ölümün pəncəsinə atmayın!"

Elşad geri dönüb onu səsləyən əsgərin Fərhad olduğunu gördü. O, həmin Fərhad idi ki, Elşad onu iki dəfə ölümdən qurtarmışdı. Birinci dəfə Tərtər istiqamətində gedən döyüşlərdə, ikinci dəfə isə Laçında. Döyüşçü dostları Elşadı "güllədən qorxmayan komandir" deyə çağırırdılar. O, bütün döyüşlərdə öndə olurdu ki, uşaqları ruhlandırsın. Həmişə "güllə məndən qorxur" deyə gülərək uşaqlarla zarafatlaşardı...

"Mən getdim" deyə komandir sürünə-sürünə yaralılara doğru hərəkət etməyə başladı. Yağış kimi yağan güllələrdən baş qaldırmaq mümkün deyildi. Bu yerdə kiçik bir səhv hərəkət ölüm deməkdi. Odur ki, Elşad bacardıqca otların arasıyla çox diqqətlə sürünürdü ki, düşmən snayperindən yayına bilsin. Komandir ehtiyatla yaralılardan birinə yaxınlaşdı. Güllə döyüşçünün hər iki qıçından və böyründən dəymişdi. O, yaralı döyüşçü Vüsalı sağ çiyninə alaraq, yenə də sürünə-sürünə geri, mövqelərimizə doğru hərəkət etdi. Yaralını uşaqlara təhvil verib, ikinci dəfə geri qayıdarkən Fərhad yenə dilləndi: "Komandir, bu çox təhlükəlidir! Biz özümüz də burada güvəndə deyilik, hər an bizi burdan əsir götürə bilərlər. Çünki biz tam mühasirə vəziyyətinə düşmüşük. Sursatımız da tükənmək üzrədir. Gəlin, birlikdə geri çəkiləyin!"

Komandir əsəbi və qəzəbli baxışlarla Fərhadı süzərək: "Mən komandirəm, - dedi, - onları orada tək qoya bilmərəm. Qorxursunuzsa, geri çəkilə bilərsiniz. Mən qayıdıram. Cəsarəti olan varsa, arxamca gəlsin!"

Cəsur komandir sürünə-sürünə təkrarən yaralı döyüşçü yoldaşlarının köməyinə can atdı. O, yarlılardan birinə yaxınlaşdı, gördü ki, vəziyyəti ağırdı, çoxlu qan itirib. Rahidin yanında qan gölməçəsi yaranmışdı, ona bir neçə yerdən güllə dəymişdi. O, komandirini görəndə gülümsədi və astadan "Çox sağ ol, komandir. - dedi - Bilirdim ki, bizi darda qoymayacaqsız. Ancaq indi vəziyyət çox pisdir, məni apara bilməyəcəksiniz. Məni burda buraxın, çünki ölürəm. Özünü qoru, komandir! Sən uşaqlara lazımsan. Mənimki, bura qədərmiş..."

Komandir Rahidin ruhdan düşməməsi, ümidini itirməməsi üçün onunla zarafatlaşaraq dedi: "Sənə nə olub ki, belə ümidsiz danışırsan, Rahid?! Biz sənlə bundan da betər çətin anlar yaşamışıq. Tərtəri, Laçını, Ağdərəni, Qubadlını xatırlayırsanmı? İndiki durumun o vaxtkından qat-qat yaxşıdır. İndi səni də Vüsal kimi sağ-salamat buradan çıxaracağam".

Rahid:

- Komandir, lazım deyil, - dedi. - qoyun mən burada qalım. Bilirəm, bura mənim son mənzilimdir. Sizsə özünüzü xilas edin! Ancaq sizdən bir xahişim var: qoltuq cibimdə üç yaşlı oğlumun şəkli var. Onu çıxarıb mənə verin, - deyə Rahidin gözləri bulud kimi doldu. Elşad tez əl atıb Rahidin qoltuq cibindən şəkli çıxarıb ona verdi. Rahid oğlunun şəklini əvvəlcə ürəyinin üstünə qoydu, sonra da öpüb gözlərinə sürtdü. Və qaytarıb komandirə verib dedi:

- Komandir, şəkli yoldaşım Nərminə verərsiniz... və deyərsiniz ki, mən... onların hər ikisini dünyalar qədər

sevirəm... Oğlum Seymuru sizə… əmanət edirəm, komandir... Həyat adama son anda daha şirin gəlir. Amma heç ölmək istəmirəm...

- Sən ölməyəcəksən, Rahid! Mən səni buradan çıxaracağam. Həyatım bahasına olsa belə! – deyə Komandir bərkdən qışqırdı.

- Yox, komandir… siz gedin. Mən sizə ancaq... yük ola bilərəm. Onsuz da ölürəm... Yalvarıram... komandir, özünüzü xilas edin! Əl-vi-da!!! - Rahidin başı sağa əyildi.

- Ra-a-a-h-i-i-d-d!!! - Komandir yenidən qışqırdı və onu qucaqladı. Sonra sağ əliylə Rahidin gözlərini qapadı.

Komandir Rahidin meyitini kürəyinə alıb mövqeyimizə doğru süründü. Uşaqlara çatmağa 35-40 metr qalmış düşmən yenidən atəş açdı. Artıq sürünmək də qorxulu idi. Komandir dayandı, güllələrin səngiməsini gözlədi. Ancaq güllələr yağış kimi ona doğru yağmaqda davam edirdi. Sən demə, düşmən Elşadı görübmüş və onu yoldaşlarından təcrid etmək üçün dayanmadan atəş açırdı. Bu güllələrdən yayınmaq heç cür mümkün deyildi. Arxadan atılan güllələrdən biri komandirin sağ əlinə, digəri sol qoluna dəydi, üçüncü güllə isə Elşadın kürəyini deşib sinəsindən çıxdı. Döyüşçü yoldaşları komandirin çətin vəziyyətdə olduğunu görürdülər. Amma ona kömək etmək üçün əllərindən bir şey gəlmirdi. Çox riskliydi. Hətta, komandirin iki dəfə ölümdən qurtardığı Fərhad da çarəsiz qalmışdı. O, komandirinə kömək edə bilmirdi. Fərhad məyus halda komandirə baxıb sanki gözləriylə demək istəyirdi: “bağışla məni, Elşad, sənə kömək edə bilmirəm. Buna görə məni qınama! Sənə kömək etmək,

mənim də ölümüm deməkdir. Bağışla, məni komandir, bağışla!” Onlar get-gedə görünməz oldular. Çünki geri çəkilmək məcburiyyətində qalmışdılar...

Bundan sonra Elşad Rahidin meyitini kürəyindən yerə aşırdı və özü də arxası üstə uzanıb səmanın sonsuz ənginliklərinə baxdı: “Yəni bu, sondurmu?! Mən bu cür ölməyi heç vaxt arzulamamışam. Mən bu cür ölümə layiq deyiləm!” deyə düşündü.

Güllədən və ölümdən qorxmayan Elşad ilk dəfə olaraq özünü çarəsiz gördü, əvvəlki təkəbbürlülüyü bir anda yox olub getdi. O, özündən asılı olmayaraq bərkdən güldü. İndiyə kimi heç belə gülməmişdi. “Deyəsən, bu ölüm gülüşüdü!” deyə düşündü. İnsan çarəsiz qalanda bəzən bərkdən gülür, bəzən göz yaşları axıdır, bəzən də həyatda ən çox istədiyi bir anı və ya adamı xatırlayır. Həyatda ən pis şey insanın öz-özünə təsəlli vermək məcburiyyətində qalmasıdır. Bu yerdə komandir təsəlli olaraq düşündü ki, “kaş indi anamın bişirdiyi bir kasa dovğa olaydı, içəydim və bir də son kərə anamın əllərindən öpəydim.”

Ən əsası insan çarəsiz qalanda, son anda Allah-təaladan kömək istəyir. O, adam ömründə onu Yaradanı heç xatırlamasa belə. Elşad da bu anda vaxtilə anasının ona dediyi sözləri xatırladı: “Oğul, hər hansı müşkül işin olanda və ya dara düşəndə hökmən Allahdan kömək istə. O, adildir, rəhmlidir. O, ondan imdad istəyən bəndələrini heç vaxt köməksiz qoymaz, onlara yardım edər.” Və xəyalından ani olaraq: “Allahım, indi yeganə ümidim Sənədir! Sən özün mənə kömək et! Məni bu soysuzlara

əsir etmə!” fikrini keçirdi. Bu vaxt Elşad sanki qeybdən amiranə bir səs eşitdi. O, səs dedi: “Ayağa qalx!”

Elşad bu səsi eşitcək, heç nə olmamış kimi ayağa qalxdı və var gücüylə bostanlığın içiylə qaçmağa başladı. Sanki ona İlahi bir güc, qüvvə gəlmişdi. Bədənində də heç bir ağrı hiss etmirdi. Həmin vaxt komandir Tanrının köməkliyi ilə düşmən mühasirəsindən çıxaraq, öz mövqeyimizə gəlib çatdı. Döyüşçü yoldaşları komandirlərini görcək heyrət içərisində bir ağızdan soruşdular:

- Komandir, siz oradan, mühasirədən, odun-alovun içindən necə xilas oldunuz?! Biz sizi ... Əstəğfurullah!!!

- Məni ölümün pəncəsindən Rəbbim qurtardı. O, düşmənin gözlərini bağladı və mən qaçıb qurtuldum. Buna görə Rəbbimə sonsuz şükürlər edirəm! O, həqiqətən də böyük Kəramət və Lütf sahibidir. O, hər şeyə qadirdir! Bunu kimsə unutmamalıdır! - Komandir amiranə tərzdə dedi.

Elşad gözləriylə Fərhadı axtardı. O, gözə görünməməkçün yoldaşlarının arxasında dayanmışdı. Amma buna baxmayaraq komandirin gözləri onu axtarıb tapdı. Fərhad komandirinin qınayıcı və nifrət dolu baxışlarına tab gətirə bilməyib başını aşağı dikdi. Bu vaxt Elşadın başı hərləndi, gözləri qaranlıq çaldı. Və bir də gözlərini Qaradağlı xəstəxanasında açdı...

Bu hadisədən sonra Elşad onu möcüzə nəticəsində düşmən mühasirəsindən çıxaran və ölümdən xilas edən, hər şeyə qadir və qalib olan Uca Tanrının qüdrətinə, mərhəmətinə, lütf və kəramətinə sığındı.

# O gecə ölüm mələyi enmişdi yerə

**(Esse)**

Bu gün hər birimizin köksündə Qarabağ dərdi, Qarabağ dağı var. Bu dərd hamımızı için-için ağladır, sızladır, göyüm-göyüm göynədir. Qarabağ kəlməsində bilsən, nə qədər şəhid yatır?! Şəhid ruhları şahə qalxaraq yurdumuzda doğulan balaca körpələrin başı üzərində durub onları mərdliyə, mübarizəyə səsləyir. Qarabağ anaların ah-naləsidir, axan göz yaşlarıdır, bir an belə rahatlıq tapmayan qəlb sızıltılarıdır. Qarabağ dərdi anaların, ataların, bacıların, qardaşların saçlarına erkən qar yağdırdı. Burda dərdə qardaş olub qardaşını itirmiş bacılar... Qarabağda cavanların talelərini güllələr yazır. Qızlar həsrət qalır qardaşına, sirdaşına, istəyinə. Burda güllər, çiçəklər qoxusu əvəzinə, sevən cavanlar barıt qoxusu çəkir ciyərlərinə. Burda güllər, çiçəklər şəhid qanıyla sulanır. Burda yarımçıq qalmış arzular, yarıyolda qalan uğursuz talelər, qırılmış könüllər sevən gənclərin qismətinə yazılmış sanki...

Vətəninə hədsiz sevgi, məhəbbət bəsləyən qəhrəmanlarımızın coşqun ruhlu qəlbləri həmişə Vətənlə bir döyünür. Bu qəlblər Vətən darda olanda özündə rahatlıq tapmır, düşməndən qisas almaq üçün daim çırpınır, vulkan kimi püskürür, dəniz kimi kükrəyir. Bu igidlər Vətənin sabahı və ümid çıraqlarıdır. Onlar yurdun, el-obanın üzünü ağ, başını uca edən oğullardır. Bu

oğullar vətənini, torpağını, xalqını və dövlətini düşməndən qorumaq üçün hər an canlarını seçdikləri məslək, amal

yolunda fəda etməyə hazırdılar. Bu yurdun mərd oğulları "Qarabağın qisasını almadan dünya bizə dar olub" deyə hər an düşünürlər. İgidlərimiz məqam gözləyir, onlar aslan tək döyüş meydanına atılmağa hər an əmrə hazırdılar. Amma bəzən qəlbində düşmənə hədsiz nifrət hissi olan igid oğullarımız əmr gözləmədən, qorxmadan, çəkinmədən "canımı Vətənimə halal edirəm!" deyə təkbaşına döyüş meydanına atılaraq düşməndən istədiyi qisası alır və özü də ölümün ən ali zirvəsinə - şəhidlik zirvəsinə ucalır. Qəhrəman Mübariz İbrahimov kimi, Fərid

Əhmədov kimi, Əlif Hacıyev kimi, Aqil Quliyev kimi... Bu igid oğullarda Vətən qeyrəti olmasaydı, onlar böyük Sevgi yolunun yolçularına çevrilə bilməzdilər.

Qarabağda həm də heç bir zaman sağalmayan, qaysaq bağlasa da, daim sızlayan Xocalı yarası var.

Quşbaşı qar yağan sərt qış gecəsi... O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə müsibət, belə vəhşilik görməmişdi. Rus ordusunun 366-cı motoatıcı alayının köməyilə erməni hərbi birləşmələri həmin o müdhiş gecə Xocalıda genosid – soyqırım törətdilər. Ev-eşiklərə od vuruldu, ağ örpəyə bürünmüş torpaq al-qana qərq edildi. Amansız düşmən qocaya, xəstəyə, qadına, uşağa əsla aman vermədi. Uşaqlar valideynlərinin, valideynlər isə uşaqlarının gözləri qarşısında xüsusi qəddarlıqla qətlə yetirildilər. Xocalının neçə-neçə qeyrətli oğulu erməni dığalarının qəbirləri üstündə qurbanlıq kəsildilər. Qız-gəlinlər əsir alındılar. Od tutub yanan şəhərdən canlarını qurtarıb ayağı yalın, başı açıq halda meşələrə, dağlara üz tutanların çoxusu yolda dondu, qalanları da ermənilərin qabaqcadan qurduqları pusquya düşərək həlak oldular, bir qismi isə əsir alındı. O gecə hara gedəcəyini, kimdən imdad diləyəcəyini bilməyən uşaqların doğmalarının meyitləri arasında caş-baş halda vurnuxmalarını, ətrafda nə baş verdiyindən xəbərsiz körpənin gözlərini həyata əbədi yummuş ananın buz kimi soyuq cəsədi yanında köməksiz qalması heyrətləndirici və tükürpədici bir səhnəydi.

Sənin qoynunda doğulan bu məsum körpələrin günahı nəydi, Xocalı?! Toyda, bayramlarda hamının

birlikdə şənləndiyi bu şəhər niyə xarabalığa çevrildi bir anda? İgidlərin sənə ana deyərdi, sənsə onlara oğul. Qarqar sənin qopuzundu, hər axşam övladlarına layla çalardı. İndi bu çay sənin igidlərinin, övladlarının al qırmızı qanına boyanıb. Əlim kimsəyə çatmadı, dərdindən belim büküldü! Bu düşmən çox amansız, qəddar, vəhşi xislətliydi. Qoca, uşaq, qadın qanmadan yanar oda atdılar, qəlbimə çalın-çarpaz dağ çəkdilər.Qəfil matəmə büründü o gecə Xocalı. Nə qədər şəhid verdik, neçə ana itirdik o gecə... Od tutdu o gecə torpağın, daşın. İndi mən ərini itirmiş o gənc gəlini, körpəsini itirmiş o gənc ananı necə ovudum?! Onların göz yaşlarını necə qurudum?!

Oxlandı o gecə Xocalım mənim. Qan sızdı yarasından, can verdi o gün. Cavanların diri-diri gözlərini çıxartdılar. Qocasını, qızını, körpəsini, gəncini keçirtdilər süngüdən. Dünyanın gözü kor, qulaqları kar, dili lal idi o gecə. O gecə Xocalıma qanabulaşmış qarla bərabər ölüm yağırdı. O gecə qeyrətli bir qızımız hamını heyrətə saldı. Kafir düşmənin əlinə sağ keçməsin deyə, bu qızımız qardaşından onu güllələməyi xahiş edir. Qızcığaz qardaşının qarşısında diz çöküb yalvarır: “Gözümün nuru, qeyrətim, namusum, şərəfim qardaşım, vur sənin əlində ölüm, qıyma güllənə. Qoyma əsir düşüm kafir düşmənə!” Qardaş isə: “Əziz bacım, mən sənə necə qıyım?! Əlim gəlməz tətiyi çəkməyə. İlahi, bu nə zülüm, bu nə sitəm, bu nə müsibətdir bizə göstərirsən?! Ya Rəbbim, sən bunu bizə necə rəva bilirsən?!”

Həmin o müdhiş gecə “qiyamət günü yetişdi”, deyə düşündüm. Həmin gecə qış çox sərt gəldi. Al qana qərq oldu bulaqlarda su. Qəfil əcəl haxladı o gecə Xocalını. Kimsəyə çatmadı səsi, harayı. Məkrli, hiyləgər, şər, böhtan yuvası olan çaqqal, tülkü xislətli dığalar güc alıb himayədarından qorxutmaq istədi şiri öz yuvasında.

Eşqim dəli olubdu həsrət yağışından, Xocalım. Burada neçə-neçə arzular, niyyətlər həsrət qaldı vüsala.

Vüsala yetməyən neçə-neçə nakam eşq, məhəbbət qaldı o gecə. Sevincim qoy inciməsin məndən. Mən Xocalı dərdindən elə böyük bir tonqal qalayacağam ki, qoy bu tonqalın işığı bütün yer kürəsinə şölə salsın. Bəlkə o

zaman bütün dünya Xocalı soyqırımını anlayar, Xocalı harayına səs verər.

Ey Adəm övladı, unutma bu dəhşəti, unutma bu vəhşəti! Unutma bu kədəri, unutma o gecəni! Unutma bu zilləti, danış hər yerdə hamı bilsin. Səni dinləməsələr belə, yenə də Xocalı harayını dünyaya hayqır! Qoyma zaman unutsun bu ağır faciəni. Allahım, cəzasız qoyma bu amansız qırğını!

Qarabğda şəhid olmuş oğulların analarının həsrət dolu baxışları yollara dikilib. Söz kimi göz yaşları da onların yanaqlarında eləcə də donub qalıb. Sanki göz yaşı anaların yanaqlarında hələ yol gedir kimi görünür. Yaşamaq şəhid anaları üçün indi bir aldanışdır. Qara qanlar axır anaların qəlbindən. Onların qəmli ürəyində bahar öz yerini əbədi olaraq qışa verib. Yollara göz dikməkdən anaların arzuları, ümidləri qırış-qırışdı...

Ələnib ömrünə həsrətin qarı, hər yerdən bağlayıb fələk yolları. Dərd, kədər sarmaşıq tək sarılıb anaların boynuna...

Hər ötən axşamı, açılan səhəri intizarla, həsrətlə, qəhərlə qarşılayır Şəhid Anaları! İndi onlar qəhrəman övladları haqqındakı xatirələri göz yaşlarıyla yuyaraq əzizləyirlər. Onlar heç kəsin görə bilmədiyi, duymadığı şəhid oğullarına qəlblərində ağrı-acıdan, dərddən, kədərdən, həsrətdən əbədi bir heykəl qoyublar...

Gün gələr, dərdimiz sona yetər, şəhidlərimizin ruhu sevinər! Anaların haqqı düşməndən sorular bir gün. İgid oğulların səni düşməndən qurtaracaq gün uzaqda deyil, dağ boyda dərdli, Xocalım!..

Milli Ordumuzun apreldəki 4 günlük döyüş əməliyyatı zamanı əsgərlərimizin yazdığı yeni tarix düşmənin güclü ordumuz qarşısında nə qədər aciz, zəif olduğunu bir daha sübut etdi. Bu 4 gündə əsgərlərimizin, eləcə də xalqımızıın qələbə əzmi bütün dünyanı silkələdi və onların diqqəti Azərbaycana yönəldi. Və bütün güc dövlətləri gördülər ki, azərbaycanlılar doğma torpaqlarının geri qaytarılması uğrundakı döyüşlərdə nə dərəcə haqlı və israrlıdırlar. Tanrı Qarabağ uğrundakı bu haqq savaşımızda bizləri, igid əsgərlərimizi utandırmasın! İnanırıq ki, Azərbaycanın qəhrəman əsgərləri tezliklə xalqımızı qələbə müjdəsi ilə sevindirəcək. İnşallah!..

# Şəhid anası

(Esse)

Gözləri yollara dikilib Şəhid anasının. Təsəlli verir özü-özünə: “Mənim balam məni belə tənha, belə gözüyaşlı qoyub getməz! O məni heç bir zaman yalqız buraxmayacağına söz vermişdi! Vüqar balam mənə heç zaman yalan danışmazdı. Onun qəlbində düşmənə hədsiz nifrət hissi vardı. Həmişə əsəbiləşib deyirdi: “Haqlı olduğumuz halda, bütün dünya yenə də “onlara” gözün üstə qaşın var demək istəmir. Torpaqlarımızı işğal etdikləri bəs deyil, hələ bir dünya ictimaiyyətinin gözündə özlərini haqlı çıxarmağa çalışırlar. Çünki arxaları böyük güc sahiblərinə bağlıdır. Kaş ki, üçcə gün dığaların ağası onlardan üz döndərəydi... o zaman bizim kim olduğumuzu onlara göstərərdik. Nə edək ki, beynəlxalq aləm: “bu münaqişə sülh yolu ilə həll edilməlidir”, deyərək əl-qolumuzu bağlayır. Özündən qat-qat zəif birisinin sənin doğma ata-baba torpaqlarında at oynatması istər-istəməz adamın qururuna, şəninə toxunur.”

Ana oğlunu əsgərliyə yola salarkən o, geri qanrılıb, günahkarcasına anasına baxaraq deyir: “Əgər geri qayıtmasam, bağışla məni, Ana... Haqqını halal et. Düşməndən mütləq intiqam alacağam! Yoxsa vicdan əzabı, torpaq namusu məni heç zaman rahat buraxmaz!” Elə də oldu. Düşmən növbəti dəfə təxribat törədərək, səngərlərimizə doğru irəliləyiblər. Bu zaman şiddətli

atışma başlayıb. “İntiqam almağın lap zamanıdır. Göstər özünü! İndi bu quduz köpəklərin “dərsini” vermək vaxtıdır!”

Vüqar öz-özünə düşündü. Onun əl pulemyotundan açdığı atəşlə bir neçə düşmən torpağa sərilir. Qalanları hücuma keçdiklərinə peşman olaraq, yoldaşlarını döyüş meydanında qoyub, geri qaçırlar. Bu zaman düşmən snayperinin açdığı atəş Vüqarın gənc həyatına son verir...

# Aqil yanğısı

***Azərbaycanın Milli Qəhrəmanı Aqil Quliyevin əziz xatirəsinə ithaf edirəm.***

(Esse)

Şair-publisist Şəmsi Vəfadar Aqil haqqında yazdığı poemasında deyir:

**«...Hər ananın köksündə oğul adlı dağ yatır.**
**Torpaqçün ölənlərin köksündə torpaq yatır.**
**Oğullar nəğmə kimi oxunar dodaqlarda.**

**Harda oğul doğulsa, atəş doğular orda.**
**İgid oğullarıyla göyə ucalır Vətən.**
**Əgər oğullar varsa, demək, yaşar, var Vətən!..**
**İgidin cəsuru ölümə yardı.**
**Yazılar şerimə Vətən dağları.**
**Ay keçər, il keçər əsrlər ötər, silinməz sinədən oğul dağları...”**

Qəhrəmanlarımız, şəhidlərimiz xalqımızın qürur mənbəyidirlər. Hər bir xalqı onun qəhrəman övladları və şəhidləri ilə tanıyırlar. Qəhrəmanlarımız “Öncə Vətən!” şüarının daşıyıcılarıdır. Qəhrəman Mübariz İbrahimov kimi, Əlif Hacıyev kimi, Allahverdi Bağırov kimi, Çingiz Mustafayev kimi, Tahir Bağırov kimi, Səfiyar Behbudov kimi, Yelmar Edilov kimi, Elşad Əhədov kimi, Əliyar Əliyev kimi, Rövşən Əliyev kimi, Fikrət Hacıyev kimi, Məhəmməd Həsənov kimi, Səyavuş Həsənov kimi, Fərhad Hümbətov kimi, Əfqan Hüseynov kimi, Şahlar Hüseynov kimi, Tofiq Hüseynov kimi, Təbriz Xəlilbəyli kimi, İlqar İsmayılov kimi, Muxtar Qasımov kimi, Asif Məhərrəmov kimi, Şirin Mirzəyev kimi, Koroğlu Rəhimov kimi, Canbulaq Rzayev kimi, Fəxrəddin Musayev kimi, Yusif Mirzəyev kimi, Şikar Aslanov kimi, Şikar Şikarov kimi, Şahlar Şükürov kimi,Yavər Əliyev kimi, Aqil Quliyev kimi...

Bu igidlər canlarını vətən yolunda qurban dedilər. Sinəsini düşmən qülləsinə sipər edən oğullar son anda, “Təki Vətən sağ olsun!” deyə qanlarıyla doğma yurdun torpağını suladılar. Suladılar ki, onlardan sonra neçə-neçə igidlər bu diyardan, bu torpaqdan doğulub onların

intiqamını alsınlar... Aqil də belə etdi. Yarasından doğma torpağa axan qanı gördükcə, gözlərində mənfur düşmənə qarşı nifrəti birə-min artdı. Döyüşçü yoldaşları - İlqar, Cabbar, Hafiz komandirləri Aqili nəyin bahasına olursa-olsun mühasirədən çıxarmaq istəyirdilər. Amma düşmən hər tərəfi havadarlarının köməyi ilə elə kəsmişdilər ki, bu qanlı səddi aşmaq heç cür mümkün deyildi. Onlar son güllələrinə qədər döyüşdülər. Amma Aqilin döyüşçü dostları fikirlərində israrlıydılar. On bir nəfərdən yalnız dördü qalmışdılar, onlar da yaralıydılar. Hər tərəfdən güllələr dolu kimi onların üzərinə yağırdı. Buna baxmayaraq döyüşçülər Aqili sürünə-sürünə də olsa, mühasirədən çıxarmağa çalışırdılar. Aqilin hər iki qıçına güllə dəymişdi. Hafizlə Cabbar özlərinin ağır yaralı olmalarına baxmayaraq komandirlərinin qoluna girərək yavaş-yavaş Kətik kəndi istiqamətində sürünürdülər. Amma onlar Kətiyə çata bilmədilər. Arxadan atılan güllələr Cabbarla Hafizin həyatına son qoydu. İlqar isə onlardan öncə əbədiyyətə qovuşmuşdu. Güllələrdən biri də yenidən arxadan Aqilin kürəyindən dəymişdi. Aqil yerdə cansız uzanmış döyüşçü yoldaşlarını görəndə, hiddətindən dəli bir nərə çəkdi. Bu qorxunc bağırtının əks-sədası Xocalını da titrətdi. Bu zaman Xocalı anladı ki, hər zaman onun harayına yetişən igidi, cəsur və qorxmaz oğlu dardadır. Amma həmin anda Xocalının özü can verirdi. Yaralı aslan bir anlığa nəfəsini dərib geri, son dəfə Xocalıya tərəf boylandı. Kömək yolu gözləyən, amma köməksiz qalan şəhər od tutub yanırdı. Aqil heç vaxt özünü bu qədər aciz və çarəsiz hiss etməmişdi. O, indi

doğma Xocalının harayına yetə bilmədiyi üçün xəcalətindən üzünü ağ örpəyli torpağa qoyub göz yaşları axıtdı. Bir anlığa olub-keçənləri - Xocalıya qədərki həyatını, doğulduğu yeri - Urud kəndini, Bakıya gəlib Neft Akademiyasına qəbul olmasını, daha sonra Xarkov Ali Milis məktəbinə, daha sonra isə Xarkov Ali Hərbi Məktəbinə daxil olmasını, Vətənin dar günündə onun harayına yetişməsi, atası Sahibi, anası İfratı, qardaşlarını - Nəsimini, Azəri, Validi, Rahibi, bacıları - Sevda və Rəmziyyəni, həyat yoldaşını və yeganə ciyərparəsi olan balaca Səbinəni və bir də bura qədərki döyüş yolunu xatırladı...

***

1963-cü il sentyabrın 19-da Qərbi Azərbaycanın Zəngəzur dağlarının qoynunda yerləşən Sisyan rayonunun Urud kəndində dünyaya göz açan Aqil Quliyev orta məktəbi bitirdikdən sonra ali məktəbə daxil olmaq üçün Bakıya üz tutdu. O, 1980-ci ildə Azərbaycan Neft Akademiyasının axşam şöbəsinə qəbul olunur. Üçüncü kursda olarkən hərbi xidmətə çağırılıb. Hərbi xidməti başa vurduqdan sonra 1985-ci ildə Xarkov Ali Milis məktəbinə daxil olub. Aqil məktəbi fərqlənmə diplomu ilə bitirdikdən sonra 1988-ci ildə Milli Ordu qərargahına gələrək hərbi xidmətə yazılıb. O, Ağdam bölgəsinə göndərilərək rota komandiri təyin edilib. Onun hərbi peşəsinə olan marağı və bacarığını görən DİN - nin rəhbərliyi onu Xarkov Ali Hərbi Məktəbinə göndərir. Narahat dolu günlər 1988-ci ildən sonra başladı.

Ata-anasının, bacı-qardaşlarının doğma ocaqlarından didərgin salındığını o, Xarkovda eşitdi. Nigarançılıqdan qurtarmaq üçün Aqil körpə qızını da götürüb Bakıya qayıtdı. Həmin vaxt onun ailəsi Bakıda qohum-tanışlarının evində sığınacaq tapmışdı.

Qarabağdan gələn dəhşətli xəbərlər Aqili çox narahat edirdi. O zaman Milli Orduya təcrübəli hərbi mütəxəssislərə, xüsusən də zabit kadrlara böyük ehtiyac vardı. Aqil leytenant rütbəli zabit idi. O, evdə heç kəsə demədən, Milli Ordunun qərargahına gələrək cəbhəyə göndərilməsini xahiş etdi. Həmin axşam qardaşı Nəsimi Aqilin cəbhəyə getməsindən xəbər tutmuşdu. Ona görə də Nəsimi qardaşı Aqillə birlikdə o zaman hər tərəfdən əlaqəsi kəsilmiş Xocalı şəhərinin müdafiəsinə göndərilir. O zaman Xocalı cəbhə bölgəsinin ən qorxulu nöqtəsiydi. Beləliklə, Aqil 21 nəfər döyüşçü ilə Xocalı aeroportunun rəisi Əlif Hacıyevin müdafiə batalyonuyla çiyin-çiyinə şəhərin müdafiəsində dayandı. Nəsimi qardaşı Aqil sarıdan çox nigaran olurdu. Çünki o, bir yerdə “dinc” dayanmırdı. Harada kömək lazımdısa, özünü oraya yetirirdi. Xocalıda vəziyyət günü-gündən çətinləşirdi. Silah-sursat, hərbi texnika, ərzaq çatışmırdı. Ermənilərin Xocalıya hücum qorxusu vardı. Onlar hər an havadarlarının köməyi ilə şəhərə hücuma keçə bilərdilər. Xocalıya hərbi texnika, canlı qüvvənin gəlməsini yuxarıdan söz versələr də, hələlik heç bir kömək gəlmirdi. Çünki Bakıdakıların başı kürsü davasına qarışmışdı. Bakıdan kömək gözləyən xocalılar isə kimsənin yadına belə düşmürdü. Aqil vəziyyətin ciddiliyini görüb heç kəsin

ağlına gəlməyən bir əməliyyat planı hazırladı. Gizli plandan yalnız onun tabeliyində olan 21 əsgərin xəbəri vardı. 1992-ci ilin fevral ayının əvvəli idi. Bu dəliqanlı gənc heç nədən qorxmadan komandiri olduğu 21 nəfər döyüşçü ilə hücum edib MDB-nin qoşun hissələrinin ermənilərə yardım aparan 3 BRDM-i, ərzaq dolu 2 URAL maşınını və 13 hərbçisini girov götürdü. Bu hadisə rus qoşun heyətini xeyli hiddətləndirmişdi. Ona görə də onlar Xocalı milis şöbəsinə qəfil hücum edərək bir neçə nəfəri öldürdülər və rəis müavinini də əsir götürüb aparmaq istədilər. Amma Aqil onlara imkan vermədi. Hadisədən xəbər tutan kimi, o, dərhal hücuma keçərək düşmənin BRDM-ni heyəti ilə birlikdə ələ keçirdi. Cəsur komandir milis şöbəsindəki rusları da girov götürüb qərargaha göndərdi. Bu əməliyyatda dəliqanlı qardaşını tək buraxmaq istəməyən Nəsimi Quliyev də iştirak edirdi. Aqili yandıran o idi ki, Xocalıda döyüşən və onun müdafiəsində gecə-gündüz mərdliklə dayanan əsgərlərimizin silah-sursat, ərzağa ehtiyacları olduqları halda, 366-cı rus polkuna Gəncədən maşınlarla dolu ərzaq və silah-sursat aparılırdı. Hərbi texnikanın, silah-sursatın, ərzaq və heyətin azərbaycanlı əsgərlər tərəfindən ələ keçirildiyini eşidən Gəncə diviziyasının komandiri rus general-mayoru şəxsən özü Xocalıya gələrək igid, qorxmaz komandir Aqil Quliyevlə görüşdü. Diviziya komandiri amiranə şəkildə Aqildən soruşdu:

- Siz nə cürətlə diviziyaya məxsus maşını qarət etmisiniz?

- Cənab general, biz quldur deyilik. Bizim dinc sakinlər hər gün Xankəndi tərəfdən erməni silahlılarının hücumuna məruz qalır. Sizin əsgərlər isə bunları gödükləri halda, nədənsə seyrçi mövqe tuturlar. Sizin əsgərlər dinc əhalini qorumaq əvəzinə, ermənilərlə əlbir olub bir şüşə arağa onlara silah satır. Bizlərdə isə çoxunun silahı yoxdur. Sizcə, bəs biz əli silahlı ermənilər qarşısında nə etməliyik?!

- Sizi də başa düşürəm. Ancaq hər halda yol kəsmək, çapqınçılıq etmək də yaxşı iş deyil. Sizə xəbərdarlıq edirəm, bunun sonu pis nəticələnə bilər. Əgər silah baxımından çətinliyiniz varsa, qoy respublika rəhbərliyi bizə müraciət etsin. Amma girov götürdüyünüz əsgərləri təcili buraxın!

- İnanıram ki, silah barəsində tezliklə sizinlə əlaqə saxlayacağıq. O ki qaldı girovlar məsələsinə, bunu yuxarıya məruzə etdikdən sonra həll edəcəyik, - deyə Aqil generalı yola salmaq üçün ayağa qalxdı.

General isə gənc leytenantın onunla bu tonda danışmasından heç xoşlanmadı və əsəbi halda Aqilə xəbərdarlıq edirmiş kimi:

- Bilmirəm, mən diviziyaya qayıdana kimi girov götürdüyünüz bütün heyət sağ-salamat xidmət etdikləri hərbi hissədə olmalıdırlar - dedi.

Bu hadisəni eşidən rəhbərlik Aqilə təcili girovları buraxmağı tapşırır. Gənc leytenant məcbur qalıb girov götürdüyü rus əsgərlərini buraxır. Amma yuxarıdakılara belə bir məlumat verir: “*Xocalıya təcili kömək gəlməlidir. Burada vəziyyət olduqca pisdir. Dinc əhaliyə və Xocalını*

*müdafiə edən əsgərlər üçün ərzaq və silah-sursat göndərin. Ruslar ermənilərlə əlbir olub Xocalı şəhərini ələ keçirmək istəyirlər. Bunun üçün ermənilər hər vasitə ilə ruslardan silah, ərzaq və hərbi texnika alırlar. Əgər tez bir zamanda Xocalını müdafiə edən könüllü batalyonun uşaqlarına və Milli Ordunun əsgərlərinə silah-sursat, hərbi texnika və ərzaq yardımı gəlməsə, Xocalı əldən gedəcək. Bizim əsgərlərin düşmənin yüksək səviyyədə silahlanmış hərbi texnikası qarşısında dayanması mümkün olmayacaq. Xocalı uğrunda döyüş başlamazdan öncə, dinc əhali şəhərdən dərhal çıxarılmalıdır, yoxsa hücum olarsa, itkilərimiz çox olacaq. Mənim fikrim budur ki, Xocalıda ancaq döyüşən adamlar qalmalıdırlar. Qocalar, qadınlar, uşaqlar, qız-gəlinlər, körpə uşaqların hamısı təcili şəhərdən çıxarılmalıdır. Sonra gec olacaq."* Amma Aqilin bu məlumatını rəhbərlik "provakasiya" adlandırır və bir çoxları da onu əhali arasına vahimə salmaqda ittiham edirlər. Bundan sonra Bakının göstərişiylə Ağdamdan Xocalıya sərnişin vertolyotuyla silah-sursat çatdırmağı qərara alırlar. Ancaq bu məlumat xainlər tərəfindən tezliklə ermənilərə çatdırılır və həmin vertolyotu düşmən vuraraq məhv edir. Beləliklə, Xocalı köməksiz qalır. Bakıdan əlini üzən şəhərin müdafiəçiləri və Aqilin tabeliyində olan cəsur əsgərlər yeganə çıxış yolunu yenidən rus polkuna hücum edib, onların texnikasına sahib olmaqda görürlər. Başqa çarə də yox idi. Ona görə də sərt bir qış gecəsi Aqil döyüşçü yoldaşlarıyla bərabər 366-ci polka hücum edərək rusların 6 BMP-sini heyət üzvləri ilə birlikdə girov götürür. Girov

götürülmüş heyətin tərkibində bir rus polkovniki də vardı. Aqilin keçirdiyi əməliyyat barədə yuxarılar dərhal xəbər tutur və ona göstəriş verilir ki, təcili girovlar azad edilsin. Aqil ələ keçirdiyi "qənimət"i əldən vermək istəmir və rus polkovniki ilə bazarlığa girişir. O, rus polkunun əsgər heyətini və polkovnikini azad edəcəyi təqdirdə, onlardan 1 BMP, 1 "Kristall" raket qurğusu, çoxlu hərbi sursat və 1 maşın ərzaq alacağını bildirir. Sövdələşmə baş tutur və bundan sonra girovların geri qaytarılması barədə yuxarıya - rəhbərliyə məlumat verilir.

Bu hadisə həm erməniləri, həm də rusları həddindən artıq qıcıqlandırır və rus ordusu dığalarla bərabər Xocalını tam mühasirəyə alır. Buna baxmayaraq Aqil ruhdan düşmür və döyüşçü dostlarını götürərək mühasirəni yarmaq üçün erməni postuna hücum edir. Məqsəd mühasirəni yarmaq və dinc əhalini buradan çıxarmaqdı. Fevralın 18-də Aqil 11 nəfər döyüşçü ilə erməni postuna yaxınlaşır və düşmənə göz açmağa imkan verməyərək, postdakı 21 erməni dığasını məhv edirlər. Aqilin döyüşçü yoldaşı İlqar Musayev ermənilərin hamısının ölüb-ölmədiyini yoxlamaq üçün otağa girir və bu zaman yaralı erməni onu avtomatla vurur. Onun arxasınca gələn Cabbar da ermənini gəbərdir. Bunu görən Aqil tez İlqarın qoluna girib onu təhlükəsiz yerə aparmaq istəyir. Amma bu vaxt digər yaralı bir erməni avtomatdan açdığı atəşlə Aqilin qıçlarını biçir. İlqar hərəkətsiz halda yerə yıxılaraq həyatla vidalaşır. Hafiz bir atəşlə yaralı ermənini öldürür. Komandir yaralandığından daha burada çox dayanmaq olmazdı. Hər an postdakı

ermənilərə kömək gələ bilərdi. Ona görə də Cabbarla Hafiz Aqilin qollarına girib onu öz postumuza çatdırmağa çalışırdılar. Posta az qalmış arxadan atılan güllələr Cabbar və Hafizi də yaraladı. Hər üç döyüşçü yerə yıxıldı. Onlar ağır yaralandıqlarından çətinliklə sürünə-sürünə posta tərəf hərəkət edirdilər. Bu vaxt yenidən onları atəşə tutdular. Cabbar və Hafiz yerdə hərəkətsiz qaldılar. Güllələrdən biri də Aqilin kürəyindən dəydi və gözləri qaranlıq çaldı. İndi o, göylərdən həm döyüşçü yoldaşlarının, həm də özünün yerdə uzanmış cansız bədəninə baxırdı...

***

Beş gün sonra Aqilin meyitini oradan çıxarmaq mümkün oldu. Aqilin ölümünü qardaşı Nəsimi bir müddət evdəkilərdən gizlətdi. O gecə İfrat ana səhərəcən yata bilmədi, sanki yatağına qor ələnmişdi. Oğlu Aqil gəldi gözlərinin önünə. Analar hiss edər övladları darda qalanda. Ananın ürəyi çox narahatdı Aqil sarıdan. O, Xarkovdan qayıdıb gələndə İfrat ana çox sevinmişdi. Ancaq ananın sevinci uzun sürmədi. Aqilin “Anacan, mən Qarabağa gedirəm, orda mənə ehtiyac var. Axı mən zabitəm. Vətən darda olduğu halda zabit şərəfim məni onun harayına səsləyir. Mən burada qala bilmərəm. Mənə xeyir-dua ver, Ana!” Ana dolmuş gözlərini oğluna zilləyib dedi: “Bilirəm, indi onsuz da kimsə səni durdura bilməz. Çünki həmişə Vətənini ananla bərabər tutmusan. Anlayırsan ki, ona atılan hər bir güllə sanki doğma anana tuşlanıb. Anaları qorumaq isə övladların müqəddəs

borcudur, onların namus və şərəf məsələsidir. Get, oğlum, get. Allah amanında!”

İndi İfrat ana: “Bu narahatlığın hökmən bir səbəbi var, yoxsa qəlbim indiyə kimi bu qədər heç sıxılmamışdı.” deyə düşündü. Aqil isə bu zaman əllərini anasına tərəf uzadaraq can verirdi. İndi bu igid oğullar ana qollarının həsrətindəydilər. Analar əvvəllər ovladlarının ölüm xəbərinə inanmazlar. “Harasa gedibdir, səfərdədir tezliklə qayıdıb gələr” deyə düşünərlər. Amma vaxt ötdükcə analar darıxar; “ Oğul, bir az tez qayıt, boynuna qalxmağa qollarım ağlar. Gözlərim sən gedən yollardan çəkilmir bir an. Qayıt gəl, ananı ağlatma daha. Sən ki ananın ağlamasına heç zaman rəva bilməzdin. Qayıt gəl, yollardan çəkilsin gözlərim” deyə təsəlli verərlər öz-özlərinə. Analar dözümlü olurlar. Dağ boyda dərd

çəkməyə gücləri yetər. Bəs atasına hələ tamam alışmayan balaca Səbinəyə nə deyək? Atan səni qoyub hara getdi deyək?! Niyə atan Sahibi, qardaşın Nəsimini, Azəri, Validi, Rahibi, bacıların Sevda və Rəmziyyəni gözü yaşlı qoyub haraya getdin, Aqil?! Sənin yoxluğunla heç cür barışa bilmir dostlar-tanışlar, qohum-əqrəbalar...

Şəhidliyin mübarək, əziz qardaşım! Sən indi ən xoşbəxt insansan. Çünki həyatda əbədi izin qaldı sənin. Sənlə bütün dost-tanışların, qohum-əqrəban, yaxınların, elin-oban, xalqın fəxr edir, qürur duyur. Sən əbədiyyət günəşitək həmişə qəlblərə işıq saçacaqsan!

Yazımı şair Seyran Cavadovun "Şəhidlər" şeiri ilə bitirmək istəyirəm:

***Dağılar duman da, dağılar çən də,***
***Həm Tanrı sevinər, həm də ki bəndə.***
***Dava qurtaranda, üzlər güləndə***
***Şəhidlər qayıdar yenə bu yurda...***

***

***Bir dəli gülüşün uğultusunda,***
***Körpə bir uşağın qığıltısında,***
***Elin toy günündə, elin yasında***
***Şəhidlər qayıdar yenə bu yurda...***

# Erməni faşizmi

Tarix boyu Azərbaycan xalqı dəfələrlə erməni hiyləsinin, erməni təcavüzunun, erməni satqınlığının, erməni qəddarlığının, xüsusilə türk millətinə yönəlmiş nifrətinin şahidi olmuş və həmişə də bu nifrətin acısını dadmışdır.

Erməni naqisliyini, nankorluğunu, namərdliyini, əxlaqsızlığını tarix artıq sübut etmişdir.

Hələ eramızdan əvvəl Aralıq dənizi xalqları ermənilərin əxlaqsızlıqlarına görə onlara qarşı açıq müharibə elan edərək əksəriyyətini öldürmüş, vurub dənizə tökmüş, qalanlarını isə qovub Balkan ölkələrindən çıxarmışlar. Sağ qalanlar qaçıb Hindistan yarımadasında özlərinə sığınacaq tapmışlar. Az keçməmiş hindlilər də ermənilərin naqisliyini görüb onları Hindistan torpağından qovmuşlar. Bundan sonra ermənilər fars və ərəb ərazilərinə sığınırlar.

İllər ötdükcə ərəb və fars xalqları da ermənilərin pis əməllərinin acısını dadmalı olurlar. XIX əsrin əvvəllərində Rusiya-İran müharibəsində erməni satqınlığı özünü aydın şəkildə biruzə verdi. Bundan qəzəblənən Şərq xalqları ermənileri öz ərazilərindən qovdular. Hər yerdən əlləri üzülən ermənilər bu dəfə rusların ətəyindən yapışmalı olurlar. Ruslar da ermənileri Şimali Qafqazda, xüsusi ilə də Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrində

yerləşdirdilər. Ermənilər torpaqlarımızda sığınacaq tapan gündən biz də rahatlığımızı itirmişik. Qoynumuzda yer verdiyimiz, çörəyimizi paylaşdığımız haylar özlərinə yer elədikdən sonra xalqımız üçün rahatlıq olmadı. İllər uzunu erməni hiyləsinin, məkrli planları nəticəsində onlar bizə olmazın acısını, dəhşətlərini yaşatdılar.

Ermənilərlə türklər arasında olan tarixi hadisələrin xronikasına nəzər salsaq, bir daha görərik ki, bütün tarixi dönəmlərdə ermənilər türklərə və azərbaycanlılara qarşı həmişə son dərəcə amansız, qəddar olublar. Bu, türk toplumuna qarşı yönəlmiş bir faşizmdir! Haylar türkün ölüsündən də qisas alıblar. Əlsiz-ayaqsız insanlara, qadına, körpə uşaqlara qarşı amansız olublar. Xocalıda bu qəddarlıq özünü bir daha göstərdi.

Ermənilərin Qarabağ savaşında dinc əhalinin başına açdıqları ağılasığmaz vəhşiliklər II Dünya Müharibəsində faşistlərin əsrlər üzərində apardıqları qeyri-insani eksperimentlərindən də dözülməzdir. Ermənilərin bu savaşdakı vəhşilikləri bəşəriyyət üçün qorxulu olan erməni faşizmini bir daha sübut etdi.

Xocalılardan kimi dindirirsənsə, dərdi alovlanır, gözlərinə qəm buludu çökür, ürəyi sızlayır, sıxılır, nəbzi tez-tez döyünməyə başlayır, sanki havası çatışmır kimi dərindən köks ötürür. Bəli, o müdhiş dolu anları yenidən xatırlamaq onlar üçün çox çətindir. Amma bütün bunlar yazılmalı və erməni xislətini dünyaya göstərmək lazımdır ki, gələcək nəsillər bunlardan ibrət götürsünlər. Və kiminlə qonşu olduğumuzu heç unutmasınlar!

Xocalı soyqırımını təkcə biz deyil, həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri də təsdiqləmişlər. Belə ki, Rus hərbi jurnalisti olan **Viktoriya İveleva** Xocalıya hücum ərəfəsində və hücum zamanı orada olub. O, xatirələrində yazır ki, Xocalıya hücumda mən də iştirak edirdim və hücumu belə qiymətləndirir: "Ön sırada 366-cı motoatıcı alayın bütün hərbi texnikası gəlirdi. Hərbi texnikanın ardınca alayın canlı qüvvəsi, üçüncü sırada isə erməni cəza dəstələri gəlirdi. Biz də - jurnalistlər, həkimlər onlardan arxada gəlirdik".

Bu baxımdan faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın **"Libardion"** qəzetinin əməkdaşı **Jül Gen Vaynerin** qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi çoxlu müxtəlif ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpədici mənzərələrlə rastlaşmadığını yazmışdır. Jurnalist "Libardion" qəzetində çap etdirdiyi **"Erməni terrorizminin canlı şahidi oldum"** sərlövhəli yazıda Xocalıda baş verənlərin qabaqcadan cızılan ssenari olduğunu açıq bəyan etmişdir. Onun fikrincə, bunda məqsəd bütöv-lükdə bəşəriyyətin gözünü qorxutmaq olmuş, erməni terrorizmi dünyanı məhz bu yolla "ram etməyə" çalışmışdır. Fransalı müxbir Xocalı qətliamında iştirak edən erməni terror dəstələrinin necə amansızlıq etdiklərinin canlı şahidi olduğunu yazmışdır. Mənfur Sovet ordusunun 366-cı motoatıcı alayının ermənilərlə

birgə Xocalı üzərinə hücumundan bir gün əvvəl Xankəndidə bu alayın qərargahında olan Vayner orada rus polkovniki Zaviqarovun əməliyyata ciddi hazırlaş-dığının şahidi olduğunu göstərmişdir: "Hələ Xocalı işğal edilməmişdən bir gün əvvəl 49 azərbaycanlı əsir alınaraq kütləvi şəkildə güllələndi. Batalyon və hərbi hissələrin komandirləri dinc əhalinin məhvinə qərar vermişdilər. Hücumdan bir neçə saat əvvəl 366-cı alayın qərargahında 58 azərbaycanlı qətlə yetirildi. Onların çoxu qadın və uşaqlar idi. Cəsədlərin gömüldüyü quyuların yanından keçmək mümkün deyildi. Çünki oradan dəhşətli dərəcədə meyit iyi gəlir, itlərin, çaqqalların səsləri eşidilirdi", - deyə müşahidələrini obyektiv şəkildə qeydə almış fransalı jurnalist Xocalıya hücum ərəfəsində Ermənistanın hakimiyyət orqanları rəhbərlərinin 366-cı motoatıcı alayın qərargahında olduğunu da vurğulamışdır.

Buna görə də, nə qədər acı olsa da, Xocalıda əsir və girovlarmıza qarşı törədilmiş erməni vəhşiliklərini şahidlərin fdili ilə verməyi özümüzə borc bilirik:

**Cəlil Hümbətəli oğlu Hümbətov** - 1934-cü ildə anadan olmuşdur. Xocalı soyqırımı zamanı ailəsi ilə birlikdə girov götürülmüşdür. Gözləri qarşısında ermənilər oğlu Muğanı, gəlini Südabəni, qızı Simuzəri və həyat yoldaşı Firuzəni qətlə yetirmiş, elə Cəlil kişinin özünə onları dəfn etdirmişlər. Erməni girovluğunda saxlandığı 48 gün ərzində mütəmadi işgəncələrə məruz qalmışdır: armaturla və avtomatın qundağı ilə döyülmüş, qolları mismarla deşik-deşik edilmişdir.

Xocalı işğal olunan zaman atası ilə birlikdə girov götürülmüş **4 yaşlı Səlimova Aygün Araz qızının** gözləri qarşısında atasını döyə-döyə öldürmüş, uşağı bu mənzərəyə baxmağa və ayaqyalın qarın üzərində dayanmağa məcbur etmişlər. 51 yaşlı Paşayeva Kübra Adil qızının gözünün qabağında ermənilər onun girov götürdükləri həyat yoldaşı Şura Tapdıq oğlunu, oğlu Eldənizi avtomat silahla, qonşusu Surxayı başına mismarlar çalaraq qətlə yetirmiş, Eyvazov Hidayət Əli oğlunun isə qollarını bağlayaraq üstündən tank sürərək öldürmüşlər. K.Paşayeva Xocalı şəhərindən olan Vidadi, Qaladərəsi kəndindən olan 16 yaşlı Taleh və daha adını bilmədiyi beş nəfər 6-8 yaşlı körpə uşaqların Ağdam məscidinə gətirilərək orada diri-diri başlarının kəsilməsinin şahidi olmuşdur.

**Nağıyev Məmməd Ağalar oğlunun** dedikləri: *«Xocalı dörd tərəfdən toplardan, tanklardan iri çaplı pulemyotlardan atəşə tutulurdu. Şəhər od tutub yanırdı. Camaatın qışqırığından, ah-naləsindən insan olan hər kəs dəhşətə gəlirdi. Getdikcə yaralananların, ölənlərin sayı artırdı. Gecə saat təxminən 2 radələrində əhali müqavimət göstərməyin mənasızlığını görüb şəhəri tərk etməyə başladı. Bir neçə dəstə ilə müxtəlif istiqamətlərdə şəhərdən çıxdıq. Bizim dəstədə 150 nəfərə yaxın adam olardı. Kətik meşəsi tərəfə hərəkət edir, güllələrdən yaxa qurtarmağa çalışırdıq. Ermənilər isə camaatın çıxa biləcəyi bütün yollarda pusqular qurmuşdular. Heç kimə-hamilə qadına, uşağa, qocaya, yaralıya fərq qoymadan son nəfərinədək qırırdılar. Fevralın 26-da səhər saat 6*

*radələrində Kətik meşəsi yaxınlığında pusquda durmuş ermənilər silahsız, köməksiz əhalini avtomat silahlarla atəşə tutdular.*

***81 yaşlı Talıbova Ağca Alxan qızının dedikləri:*** *«Güllə elə atılırdı ki, bir addım yerimək mümkün deyildi. 60 nəfər qohumum bir yerə yığılmışdı, camaatın çıxmağından xəbərsiz olduğumuzdan zirzəmidə gizlənmişdik. Səhər saat 7-də zirzəmidən çıxdıq. Kəndin içi ilə Xankəndinə tərəf gedən yolda bəlkə 10 nəfərin başını kəsilmiş gördüm. Bir az getmişdik ki, bizi Azərbaycan dilində çağırdılar. Çağıranların erməni olduğunu bilində hərə bir tərəfə qaçdı. Həyat yoldaşımı orada itirdik. 17 yaşlı Mələhəti, gəlinim Mələyi, 2 yaşlı Natəvanı oradaca öldürdülər. 17 yaşlı Rəfiqəyə iki güllə dəydi. Rəfiqənin atası Paşa itkin düşdü. Nəvəm Zahirənin yoldaşı Tariyel Səmədovu yanımızda güllələdilər. Adilin oğlunu, Cəmil kişinin oğlu Muğanı, onun yoldaşını, anasını, 15 yaşlı bacısını öldürdülər. Milis işçisi Əhmədin başını kəsdilər. Sonradan bildim ki, həyat yoldaşım 82 yaşlı Talıbov Rəhim Xudaverdi oğlunu da güllələmişlər.*

1959-cu il təvəllüdlü **Kərimova Sarma Namaz qızı:** *«Yanvar ayında Xocalının hər yerlə əlaqəsi kəsilmişdi. Camaata çörəyi vertolyotla göydən atırdılar. Mağazalarda ancaq köhnə pal-paltar satılırdı. Dəmir yolu 1991-ci ilin dekabrında bağlandı. İşıq da keçən ilin dekabr ayından kəsilmişdi. Fevralın 25-də saat 23.30 radələrində şəhər dörd tərəfdən atəşə tutuldu. Bərk qar yağırdı. Camaat küçədə bərk qışqırışmağa başladı. Biz evdən heç nə götürə bilməyib küçəyə qaçdıq. Orada çox adamlar var*

*idi, hara gəldi qaçırdılar. Camaata qoşulub Xocalı dəmir yolu tərəfə qaçmağa başladıq. Şəhərdə aeroport tərəfdə və Noraguha yaxın evlərin hamısı yanırdı. Qaçan adamları hər tərəfdən şiddətli atəşə tutmuşdular. Şəhərin içərisində mən özüm 300-dək meyit gördum. Yaralılar da çox idi və biz onları adlayıb qaçırdıq. Adamlar ən çox Naxçıvanik tərəfdə yerləşən qayaların yanında həlak oldular və yaralananlar orada qaldı. Qayaların yanında 400-dən çox həlak olmuş adam gördüm. Orada 60-65 yaşlı Güllü xala və onun oğlu, üç uşaq atası, 30-35 yaşlı Şöhlət həlak oldular. Meyitləri də orada qaldı. İki uşaq atası, 35-36 yaşlı Arif İbad oğlu həlak oldu. Biz Kətik meşəsi ilə qaçan zaman gecə 2-3 radələrində ermənilər yolu kəsdilər və adamları avtomatlardan, piyadaların döyüş maşınlarından (PDM) atəşə tutdular. Bir çox adamları girov götürdülər. Mən və qardaşımın həyat yoldaşı Sevil kolların dalında qarın içinə yıxılaraq özümüzü ölülüyə vurduq. Sevilin qucağında qızı Aygün də vardı. O, uşağı da gizlətdi. Gördüm ki, ermənilər və ruslar hərbi formada və mülki formada adamları həm tutur,həm də qırırlar. Mən iki PDM maşını gördüm, onların işıqları yanırdı, nömrələri örtülmüşdü. Ermənilərin və rusların əlində fanarlar vardı. Onlar rus dilində danışırdılar və saqqallı idilər. Adamlara "Dayte denqi, zolota, zubyam"! (Pul, qızıl, diş verin) deyə qışqırır, avtomatın qundağı ilə vururdular. Gördüm ki, yoldaşım İntiqamı, baldızımın yoldaşı Yalçını, qardaşım Nurəddini qucağında 4 yaşlı oğlu Natiqlə güclə PDM-ə apardılar. Yalçının başına avtomatla vurdular və onun sifətindən qan süzüldü.*

*Təxminən 150-160 adam tutub apardılar. Onlar gedəndən bir az sonra biz tanımadığımız adamlara qoşulub Şelli kəndinə gəlib çıxa bildik. Tutulanlardan baldızlarım və Yalçının oğlu Namiq qaytarılıblar, amma Yalçın və İntiqamdan xəbər yoxdur. Evimiz əşyaları ilə birlikdə yandırılıb, məhv edilib".*

1969-cu il təvəllüdlü **Xocalı sakini Cəfərova Səidə Rəfiyət qızı:** *«Uşaqların, qadınların, qocaların vahiməli qışqırtıları odlu silahların və hərbi texnikanın səsinə qarışmışdı. Şəhər əhalisinə amansızcasına divan tutulurdu. Başımızın üstündən güllə yağırdı. Biz Əzizova Zərif, Şirinova Sevinc, Abışov Şukəddin, Ələkbərova Sənubər, Cəfərova Səidə, Ələkbərova Hicran və adlarını unutduğum bir dəstə adamla əvvəl Xocalı orta məktəbinin yanına gəldik. Təxminən gecə saat 1 radələrində şəhərin aşağı tərəfindəki Ağdam-Şuşa asfalt yolu və dəmir yolunu keçib həmin istiqamətdə ermənilər yaşayan Kətik kəndinin yaxınlığındakı meşəyə qaçdıq. Xeyli yuxarı qalxandan sonra Ağdam şəhəri tərəfə meşə ilə gəlməyə başladıq. Təxminən 8 radələrində Naxçıvanik kəndinə yaxınlaşanda ermənilər bizi gülləbaran etdilər. Hacıyev Əlif, Abbasov Taleh, Talehin 2 yaşlı oğlu, Əzizova Zərif, Əbülfət, Tapdıq, Tapdığın 8 yaşlı qızı, Abışova Məruzə, Aslanov İqbal, Ələkbərova Zeynəb, Cəfərova Rəfiqə, Mamedov Vaqif və qeyriləri həlak oldular. Namiq, İsmayıl, Ələkbərova Hicran və mən yaralandıq. Güllə sağ tərəfdən qarın nahiyəmi deşib keçdi. Mən dəsmalla yaramı möhkəm sarıdım, çətinliklə Şelli kəndinə gəlib çıxdım".*

1993-cü ildə əsirlikdə olmuş **Hadıyev Ağarəzi Ağakərim oğlu** bildirir: *«Şuşa həbsxanasında Nadir adlı əsirimizi ermənilər 380 voltluq elektrik məftilinin üstünə itələdilər və həmin dəqiqə Nadirin bədənindən tüstü çıxdı. 19-20 yaşlı İlqarı döyə-döyə öldürdülər. İlqar döyüləndə ölümqabağı elə qışqırırdı ki, mən elə bilirdim ki, onun naləsini Allah da eşidir. Belə faciəli şəkildə zulmlə öldürülməyi mən heç faşistlərlə bağlı filmlərdə də görməmişəm. İlqarın ölümqabağı naləsi indi də qulağımdadır».*

**Hacıyev Qənahət Məhəmmədəli oğlunun** dedikləri: *«Xocalı işğal edilərkən girov götürüldüm. Məni Xocalının işğalından təxminən 8-10 gün sonra Xankəndinə aparıb beşmərtəbəli binanın zirzəmisinə salaraq yanıma Xocavənd rayonundan 17 yaşlı adını bilmədiyim bir oğlanı gətirdilər. 4 nəfər mülki formada olan saqqallı ermənilər həmin gecə mənim yanıma gətirilən uşağa işgəncə verdilər. Onun diri-diri qolunu kəsdilər, sonra isə bıçaqla öldürdülər. Ertəsi gün məni yenidən Xankəndi Polis İdarəsinin zirzəmisinə apardılar. Orada qaldığım müddətdə yanıma Xocalıdan olan Ələsgər adlı bir yaralı gətirdilər. Onun vəziyyəti həddindən artıq ağır idi. Ələsgər müəllim tanınmaz vəziyyətdə olduğundan mən onu tanımadım. O, məndən su istədi. Su olmadığını bildirərkən «Ağla, gözünün suyunu içim» deyə yalvardı. Mən isə çox döyüldüyümdən bədənimdə su qalmadığını bildirərkən dedi ki, dilini ver, yalayım, bəlkə bir damla su olsun. Həmin gün axşam o, xeyli sayıqladı, sonra səsi kəsildi. Yaxınlaşan zaman artıq*

*onun oldüyünu gördüm. Ertəsi günü ermənilər onun meyidini hara isə apardılar. Girovlardan təxminən 55 yaşı olan bir girov kişini də Əsgərana aparıb öldürdülər"...*

Beləliklə, 25-26 fevral 1992-ci il tarixdə erməni silahlı dəstələri SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının komandir və şəxsi heyəti ilə birlikdə Xocalı şəhərinə hücum edərək dinc əhalini kütləvi surətdə, xüsusi amansızlıqla və işgəncə verməklə öldürmüş, külli miqdarda dövlət əmlakını, xüsusi mülkiyyətdə olmuş əmlakı məhv etmiş, çoxsaylı dinc əhaliyə divan tutaraq onları girov götürmüşdür. Erməni təcavüzkarları işğal olunmuş ərazilərdə Azərbaycanın mədəni-tarixi irsini təşkil edən obyektləri xüsusi qəddarlıqla məhv etmişlər. Ələ keçirdikləri ərazilərdə onlar vandalizm aktları törədərək, tarixi və arxeoloji abidələri, muzey və rəsm qalereyalarını qarət edərək yandırmış, məbəd və məscidləri təhqir etmişlər.

Ermənistanın apardığı təcavüzkar müharibə və törədilən zorakılıq nəticəsində 10 minlərlə Azərbaycan vətəndaşı şəhid olmuş, 50 mindən artıq həmvətənimiz yaralanmış və əlil olmuş, 900 yaşayış məntəqəsi, 100 min yaşayış binası, 600-dən artıq təhsil və 250 tibb müəssisəsi, yüzlərlə sənaye, kənd təsərrüfatı müəssisələri, zavod, fabrik dağıdılmış, respublika ərazisinin 20 faizini təşkil edən 17 min kv.km-dən artığı işğal olunmuş və 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Bu rəqəmlər hələ son deyil...

Azərbaycan hökuməti Xocalı faciəsini soyqırımı kimi dəyərləndirərkən 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən **"Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza"** haqqında Konvensiyanı, keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının IV maddəsini, Ruanda üzrə Beynəlxalq Tribunalın Nizamnaməsinin I maddəsini, həmçinin "**Xocalı soyqırımı günü haqqında"** Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixli qərarını, Azərbaycan Respublikası Prezidentinin **"Azərbaycan-lıların soyqırımı haqqında"** 26 mart 1998-ci il fərmanını və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü maddəsini əldə əsas tutur. Bu məsələdə Erməni silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməllərinin 2000-ci ildə qüvvəyə minmiş Azərbaycan Respublikası CM-nin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid olması, habelə Azərbaycan Respublikasında sülh və insanlıq əleyhinə cinayətlərə, soyqırımı və müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan mövcud cinayət qanunvericiliyi normalarının tətbiqi, **"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında"** Konvensiyanın və**"Mülki və siyasi hüquqlar haqqında"** Beynəlxalq Paktın müvafiq müddəalarına uyğunlaşdırmaq məqsədi ilə qəbul edilən Beynəlxalq cinayətlərə görə məsuliyyət müəyyən edən qanunun qüvvəsinin geriyə şamil olunması haqqında Azərbaycan Respublikasının 12 may

2006-cı il tarixli Konstitusiya Qanunu əsas götürülmüşdür. Həmçinin sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərə cinayət məsuliyyətinə cəlb etmə müddətinin tətbiq edilməsi barədə Azərbaycan Respublikası CM-nin 75.5-ci maddəsində təsbit olunmuş müddəaları, bundan başqa, Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrin tətbiq edilməli olması nəzərə alınaraq, istintaq zamanı Azərbaycan Respublikasının 31 may 1996-cı il tarixli qanun ilə tərəfdar çıxdığı 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 saylı qətnamə ilə qəbul edilən **"Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəza"** haqqında Konvensiyası, BMT Baş Məclisinin 239 saylı 26 noyabr 1968-ci il tarixli qətnaməsi ilə qəbul edilmiş və 11 noyabr 1970-ci il tarixdə qüvvəyə minmiş "**Müddətin hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə tətbiq edilməməsi haqqında"** Konvensiyasına istinad olunur. Bu sırada BMT Baş Məclisinin 39/46 saylı 10 dekabr 1984-cü il tarixli qətnaməsi ilə qəbul edilmiş **"İşgəncələrə və digər qəddar, insanlıqdan kənar, yaxud ləyaqəti alçaldan davranış və cəza növləri əleyhinə"** Konvensiyası, **"Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında"** 12 avqust 1949-cu il

tarixli Cenevrə Konvensiyası, Beynəlxalq Cinayət Məhkəməsinin Statutunun 6-cı maddəsi, Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixdən qoşulduğu **"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında"** 1950-ci il Konvensiyasının, **"Hərbi əsirlər ilə rəftara dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyası"**nın, Azərbaycan Respublikasının 22 iyul 1992-ci il tarixdə qoşulduğu BMT-nin Baş Assambleyasının **"Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın"** müddəaları əsas götürülmüşdür. Qeyd olunanlara əsasən Xocalıda törədilən əməl beynəlxalq hüquq normalarına müvafiq olaraq sülh və insanlıq əleyhinə cinayətlərə aid edilmişdir.

Birmənalı olaraq deyə bilərik ki, Xocalı sakinləri olan azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq normativ aktlara uyğun olaraq soyqırımı kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə insanlığa qarşı cinayət sayılır.

AŞPA 2007-ci ildə 1553 saylı qətnamə qəbul edərək Ermənistanı əsir və itkin düşmüş şəxslər haqqında informasiya toplanması və mübadilə etməsini çağırmasına baxmayaraq, erməni tərəfi kütləvi məzarlıqların aşkar olunacağı qorxusundan qeyri-konstruktiv mövqe nümayiş etdirir...

Son zamanlar artıq ermənilərin özü də Xocalı soyqırımını etiraf etmək məcburiyyətində qalıblar. Belə ki, bu il yanvarın 09-da məşhur erməni yazıçısı və ictimai xadim Anna Payatyan Xocalı soyqırımını açıq ittiham etmiş ermənilərin sırasına qoşulub. O, bu barədə öz

Facebook səhifəsində yazıb. *"Kimlər ki, Njdeylədir, onlar Allaha qarşıdır, kimlər ki, Serj Sarkisyanladır – onlar İblisə işləyirlər. Kim düşünürsə ki, azərbaycanlılara münasibətdə bədheybət və qatil olmaq lazımdır və bunu vətənpərvərlik və ermənilərə sevgi kimi təqdim etmək olar, onları istintaqsız və məhkəməsiz güllələmək lazımdır",* – deyə Payatyan yazıb.

*"Xocalıda soyqırımı olub!!! Və bunun üçün quldurlar cavab verməlidir – Njde tərəfdarları. Onlar əsgər deyillər, cinayətkar və qatildirlər. Levon Ter-Petrosyan, Vazqen Sarkisyan, Robert Koçaryan, Serj Sarkisyan, Arabo qrupu… Onların hamısı uşaqların və qadınların qatilləridir! "*– yazıçının bəyanatında vurğulanıb.

Anna Payatyan Xocalı soyqırımı haqqında Serj Sarkisyanın abırsız bəyanatını da xatırladıb.

*"Serj Sarkisyanın hədsiz sırtıq və abırsız bəyanatını Sizə və dünyaya təqdim edirəm: "Biz erməninin uşaqları doğraya bilmədiyi haqda stereotipi sındırdıq". Əclaf!!! Mən onların həyatda olanda və ölümlərindən sonra mühakimə olunmalarını tələb edirəm, onları bəşəriyyətə və xalqa qarşı törətdikləri cinayətlərə görə mühakimə etmək lazımdır. Dövlət Təhlükəsizliyi Komitəsindən olan bu njdey əclafları bizim xalqımızın adına qara ləkə vurdular!!!",* – deyə erməni yazıçısı hiddətlə bildirib.

Onu da deyək ki, indi artıq dünyanın 9 ölkəsi, İslam Əməkdaşlıq Təşkilatı və ABŞ-ın 19 ştatı Xocalı soyqırımını rəsmən tanıyıb.

Ermənilər gec-tez azərbaycanlılara və türklərə qarşı törətdikləri terror və soyqırımına görə tarix qarşısında cavab verməli olacaqlar!..

**Müəllif**

# MÜNDƏRİCAT

**VƏTƏN SEVDALI YAZIÇI**.....3

Qaniçənlər.....9

Ölüm düşərgəsindən qaçış.....52

Mətanət.....64

Apokalipsis yaxud Qiyamətin premyerası.....79

Qanlı məktub.....94

Snayper qız.....108

Həyata dönüş.....135

Xeyirxah düşmən.....148

Nərəy dərəsində qanlı döyüş.....159

Qəndəharda "ov" əməliyyatı.....178

Zəfər dolu dörd gün.....186

Mühasirə.....210

O gecə ölüm mələyi enmişdi yerə.....217

Şəhid anası.....224

Aqil yanğısı.....227

Erməni faşizmi.....239

**Camal Zeynaloğlu: "Snayper qız"**

(Azərbaycan dilində)

**Bakı, "UniPrint - S" nəşriyyatı - 2017, - 256 səh.**

Nəşriyyatın direktoru: **B. Əliyev**
Rəssam: **S.Mustafaoğlu**
Operator: **V.Tağıyeva**
Korrektor**:** **D.Hüseynova**

---

Çapa imzalanmışdır: 06.02.2017
Kağız formatı: 60 x84 1/16
Şərti çap vərəqi: 14.7
Sayı: 500 nüsxə
Sifariş: 77
Qiyməti: **7 AZN**

---

**"UniPrint"** mətbəəsində çap edilmişdir.